AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

## ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 32
(II HİSSƏ)
Bakı - 2023

**ISSN 2409-0859**

**Azərbaycan xalqının Ümumilli Lideri, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik il dönümünə həsr olunur**

**AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

**ELMİ ƏSƏRLƏR TOPLUSU**

**BURAXILIŞ № 32**

**(II hissə)**

**BAKI – 2023**

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 32 (II hissə). Bakı, 2023, 218 s.

**Redaksiya heyəti**

**Bəxtiyar Həmzə oğlu Əliyev**, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor, BDU
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Əziz Bəşir oğlu Məmmədov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**İzzət Əşrəf oğlu Rüstəmov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Hikmət Əbdul oğlu Əlizadə**, pedaqogika elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, p.ü.f.d., professor, BDU
**Zeynəddin Camal oğlu Hacıyev**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, f.ü.f.d., dosent, BDU
**Hüseyn Qaraxan oğlu Məmmədov**, f.ü.f.d., dosent, BDU
**Qızılgül Yasin qızı Abbasova**, f.e.d., prof., baş redaktor, BDU
**Oqtay Hüseyn oğlu Hüseynli**, f.ü.f.d., dos., məsul katib, BDU
**Daxil Cahangir oğlu Vəliyev**, f.ü.f.d., redaktor müavini, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

# H U M A N İ T A R E L M L Ə R

## FƏLSƏFƏ

### BİRİNCİ ELMİ İNQİLAB VƏ KLASSİK TƏBİƏTŞUNASLIĞIN YARANMASI

***Aldostov Güloğlan Faiq oğlu***
***BDU-nun II kurs magistrantı***
***guloglan777@mail.ru***

***Açar sözlər:*** ilk elmi inqilab, antroposentrizm, geosentrizm, Kepler qanunları, Nyuton mexanikası.
***Ключевые слова:*** первая научная революция, антропоцентризм, геоцентризм, законы Кеплера, Ньютоновская механика.
***Keywords:*** the first scientific revolution, anthropocentrism, geocentrism, Kepler's laws, Newton mechanics.

Elmin inkişafında ən mühüm mərhələ yeni dövr-XVI-XVII-ci əsrlər idi. Bu dövr ərzində dini düşüncənin dominatlığı alt-üst oldu və eksperment (təcrübə) tədqiqat aparmaq üçün aparıcı metod kimi təsbit edildi. Bu dövrdə nəzəri mülahizələr təbiətin praktiki inkişafı ilə birləşdirilməyə başladı və bu da elmin idrak qabiliyyətini kəskin şəkildə möhkəmləndirdi. Elmin bu dərin transformasiyası, XVI-XVII-ci əsrlərdə meydana çıxan "ilk elmi inqilab" hesab olunur. Bu inqilab dünyaya N.Kopernik, Q.Qaliley, C.Bruno, İ.Kepler, V.Harvi, R.Dekart, X.Hyügens, İ.Nyuton və başqaları kimi adlar bəxş edib.

Elmi inqilab bir neçə mərhələdən keçdi və onun yaranması bir əsrdən artıq dövrü əhatə etdi. Bu mərhələ N.Kopernik və onun ardıcılları, Bruno, Qaliley və Kepler ilə başladı. 1543-cü ildə polşalı alim Kopernik "Göy mexanikasının inqilabları" haqqında kitabını çap etdirdi. Bu kitabda o, kainatın strukturu haqqında "Heliosentrik" nəzəriyyəsini irəli sürdü [2, s 37]. Bu nəzəriyyəyə görə kainatın mərkəzində Günəş dayanır, həmçinin Günəş sisteminin planetləri o cümlədən Yerin Günəş ətrafında dövr etməsi fikri təsdiqlənir. Bu nəzəriyyə antroposentrizmə zərbə vurdu. Bir çox əsrlər ərzində qəbul edilmiş kainatın "Geosentrik" sistemi yəni, kainatın mərkəzində Yer kürəsinin dayanması fikri rədd edildi. Kopernik Günəşi kainatın mərkəzi hesab etməklə səhvə yol verirdi. Belə ki,Günəş kainatın deyil, yalnız Günəş sisteminin mərkəzidir.

Kopernik doktirinasının fəal tərəfdarlarından biri italyan mütəfəkkiri J.Bruno (1548-1600) idi. O, kainatın sonsuz və ölçülməz olduğuna, saysız-hesabsız ulduzlarla əhatə olunduğuna inanırdı. Bruno ümumi şəkildə kainatın mərkəzinin varlığı ideyasını inkar etmiş və kainatın sonsuzluğu ideyasını müdafiə etməklə Kopernikin təlimlərindən kənara çıxmışdır. Bruno Günəşə və onun ətrafındakı planetlərə bənzər bir çox cismin kainatdakı mövcudluğundan danışırdı. Bu düşüncələrinə görə Bruno həbs edilmiş və 1600-cu ildə Romada diri-diri yandırılmışdır. Lakin bu qeyri insani hərəkət insanın dünya haqqında bilik əldə etməsi prosesini dayandıra bilmədi. Kopernikin ardıcılları o cümlədən, Qalileo Qaliley bu prosesi davam etdirmişdilər.

Qalileo Qaliley (1564-1642) təlimlərində yeni mexaniki təbiətşunaslığın əsasları qoyuldu [1, s 51]. Qalileydən əvvəl elmdə ümumiyyətlə Aristotelin hərəkət anlayışı qəbul edilirdi. Bu anlayışa əsasən bədən yalnız ona xarici təsir olduqda hərəkət edir. Əgər bu təsir dayanarsa bədən dayanır. Bunun əvəzinə Qalileo Qaliley tamamilə başqa bir fikir irəli sürdü ki, bu fikir sonradan "inersiya" prinsipi adını aldı. Bu prinsipə görə: bir bədən ya sükunətdədir, ya da, hərəkət istiqamətini və sürətini dəyişmədən hərəkət edir bir şərtlə ki, ona heç bir xarici qüvvə təsir etmir.

Q.Qaliley 1636-ci ildə nisbilik prinsipini irəli sürdü. Bu prinsipin məzmunu aşağıdakı kimi ifadə olunur:

a) innersial (ətalət) koordiant sisteminin sükunətdə və ya düzxətlibərabərsürətli hərəkətdə olduğunu heç bir mexaniki eksperment müəyyənləşdirə bilməz;

b) bütün innersial koordinat sistemlərində klassik dinamikanın qanunları eyni formaya malikdir;

c) bir innersial sistemdən digərinə keçdikdə dinamikanın tənlikləri dəyişir;

d) kütləsindən aslı olmayaraq bütün cismlər yerə eyni təcillə (j=9,8 m/s) düşür;

e) cazibə sahəsində bütün cismlər özünü eyni aparır (bu qanun daha ümumidir);

f) bütün innersial sistemlərə münasibətdə bütün cismlər özlərini eyni aparır.

Qaliley təbiətin ekspermental tədqiqinin iki əsas metodunu irəli sürdü:

1. Analtik-induktiv metod. Bu metod sayəsində Qaliley hisslərlə dərk oluna bilməyən bir sıra fiziki prosesləri öyrənmək üçün güclü vəsait tapdı. Bu metod həmçinin riyazi vasitələrdən, abstraksiyalardan, ideallaşdırmalardan istifadə etməklə hissi təcrübənin proqnozlaşdırılmasına imkan verdi.

2. Sintetik-deduktiv metod. Bu metod əsasında isə Qaliley baş verən təbi və fiziki proseslərin keyfiyyət xarakteristikasınını öyrənmədən onların kəmiyyət xüsusiyyətləri haqqında informasiya imkanı qazandı.

Təbiətşunaslıq elminin inkişafında yeni və mühüm addım alman astronomu İohan Kepler (1571-1630) tərəfindən planetar hərəkət qanunlarının kəşf edilməsi ilə əlamətdar oldu [1,s 53]. Kepler Danimarka astronomu Tycho Brahe tərəfindən hazırlanmış Mars planetinin hərəkətlərinin uzunmüddətli müşahidələrinin ümumiləşdirilməsinə əsaslanaraq, Günəşə nisbətən planetar hərəkətin 3 qanunu tərtib etmişdir. Bu qanunlar aşağıdakılardır:

Birinci qanun: Günəş sisteminin bütün planetləri ellips boyunca hərəkət edir və Günəş ellipsin fokuslarının birində yerləşir.

İkinci qanun: Günəşdən planetə çəkilmiş düz xətt yəni planetlərin radius vektoru bərabər zaman kəsiyində bərabər sahələr cızır. Bu o deməkdir ki, Günəş ətrafında hərəkət edən planetlərin sürətləri müxtəlifdir. Günəşə daha yaxın olan planetlərin sürəti böyük, uzaq olan planetlərin sürəti isə kiçikdir.

Üçüncü qanun: Planetlərin Günəş ətrafında fırlanma periodlarının kvadratlarının nisbəti onların Günəşdən olan məsafələrinin kublarının nisbətinə bərabərdir.

Kepler bu üç qanundan əlavə Günəş və Ay tutulmasının nəzəriyyəsini təklif etmiş, bu hadisələrin irəlicədən söylənilə bilməsinin üsullarının işləyib hazırlamışdır.

Klassik təbiətşunaslığın digər görkəmli nümayəndələrindən biri də Rene Dekart (1596-1650) olmuşdur. Dekart fəlsəfəsində ümumi şəkildə olsa da, əvvəlcə kainat haqqında yeni nəzəriyyənin əsası qoyulur, həmin dövrə qədər təbiətşünaslığın bu sahədəki məlum nailiyyətləri ümumiləşdirilir və fəlsəfi cəhətdən əsaslandırılırdı [4,s 83]. Ona görə də Dekart fəlsəfəsi öz dövrü üçün xüsusi əhəmiyyət kəsb edən, dünyanın yeni qaydada əsaslandırılmış mənzərəsini yarada bilən və təbiətşünaslıq elmlərinin inkişafının gələcək istiqamətlərini müəyyən etməyə qadir olan bir təlim kimi qiymətləndirildi.

Klassik təbiətşunaslığın ən görkəmli nümayəndəsi İ.Nyuton (1643-1727) hesab edilir. Nyuton elmdə inqilab yaratmış ən böyük təbiətşunas alimdir. Nyuton kəşf etdiyi fiziki qanunları differensial tənliklər formasında yazmaqla fizika elmini riyaziyyata yaxınlaşdırdı bununla o, Leybinstlə birlikdə təbiət hadisələrinin riyazi əsasını qoydu. Bu dövrdə Nyutonun ən başlıca əsərlərindən biri "Natur fəlsəfənin riyazi əsasları" (1684) kitabı olmuşdur.

Beləliklə, baxılan bu mərhələ təbiət elminin mexaniki mərhələsi idi, çünki bu mərhələdə təbiətin bütün proseslərinə yalnız mexnikanın qanunları tətbiq olunurdu. Təbiətə mexaniki yanaşmanın mahiyyətini P.Laplas çox aydın şəkildə ifadə edərək vurğulayırdı ki, "dünyanın

mexaniki mənzərəsinin prinsipləri istənilən təbii proseslər üçün ideal izahat, təbiət qanunlarını öyrənmək üçün əsl metodologiya kimi qəbul edilməlidir" [3, s 75].

## ƏDƏBİYYAT

1. Ə.Məmmədov "Müasir təbiətşunaslığa konseptual yanaşma". 2001
2. Z.Hacıyev "Fəlsəfə". 2012
3. Карпенков С. Х. "Концепции современного естествознания". 1997.
4. Кедров Б.М. "Предмет и взаимосвязь естественных наук". 1967.

## BİRİNCİ ELMİ İNQİLAB VƏ KLASSİK TƏBİƏTŞUNASLIĞIN YARANMASI

***Aldostov Güloğlan***

### XÜLASƏ

Elmin inkişafında ən mühüm mərhələ yeni dövr-XVI-XVII-ci əsrlər idi. Bu dövr ərzində dini düşüncənin dominatlığı alt-üst oldu və eksperment (təcrübə) tədqiqat aparmaq üçün aparıcı metod kimi təsbit edildi. Bu dövrdə nəzəri mülahizələr təbiətin praktiki inkişafı ilə birləşdirilməyə başladı və bu da elmin idrak qabiliyyətini kəskin şəkildə möhkəmləndirdi. Elmin bu dərin transformasiyası, XVI-XVII-ci əsrlərdə meydana çıxan "ilk elmi inqilab" hesab olunur. Bu inqilab dünyaya N.Kopernik, Q.Qaliley, C.Bruno, İ.Kepler, V.Harvi, R.Dekart, X.Hyügens, İ.Nyuton və başqaları kimi adlar bəxş edib.

## ПЕРВАЯ НАУЧНАЯ РЕВОЛЮЦИЯ И ПОЯВЛЕНИЕ КЛАССИЧЕСКОГО ЕСТЕСТВОЗНАНИЯ

***Алдостов Гулоглан***

### АННОТАЦИЯ

Важнейшим этапом развития науки стала новая эпоха - XVI-XVII вв. В этот период господство религиозной мысли было низвергнуто, а эксперимент утвердился как ведущий метод исследования. В этот период теоретические соображения стали сочетаться с практическим освоением природы, что резко повысило познавательную способность науки. Это глубокое преобразование науки считается «первой научной революцией», произошедшей в 16-17 веках. Эта революция дала миру такие имена, как Н. Коперник, Г. Галилей, Дж. Бруно, И. Кеплер, В. Гарвей, Р. Декарт, Х. Гюйгенс, И. Ньютон и другие.

## THE FIRST SCIENTIFIC REVOLUTION AND THE EMERGENCE OF CLASSICAL NATURAL SCIENCE

***Aldsotov Guloghlan***

### SUMMARY

The most important stage in the development of science was the new era - XVI-XVII centuries. During this period, the dominance of religious thought was overturned and experiment was established as the leading method for conducting research. In this period, theoretical considerations began to be combined with the practical development of nature, which dramatically strengthened the cognitive ability of science. This profound transformation of science is considered the "first scientific revolution" that appeared in the 16th and 17th centuries. This revolution gave the world such names as N. Copernicus, G. Galileo, J. Bruno, I. Kepler, V. Harvey, R. Descartes, X. Huygens, I. Newton and others.

# RASİONALLIQ VƏ QEYRİ-RASİONALLIQ

***Əliyeva Fidan Vilayət qızı***
***BDU-nun II kurs magistrantı***
***aliyevaa.fidan94@gmail.com***

***Açar sözlər:*** rasionallıq, qeyri-rasionallıq, bilik, elmi yaradıcılıq, idrak prosesi, təfəkkür.
***Ключевые слова:*** рациональность, иррациональность, знание, научное творчество, познавательный процесс, мышление.
***Key words:*** rationality, non-rationality, knowledge, scientific creation, cognitive process, thinking.

Rasionallıq və qeyri-rasionallıq idrak prosesində özünəməxsus xüsusiyyətlərə malik olan və bununla yanaşı bir-birinə zidd olmayan fenomenlərdir. Qeyri-rasionallıq idrak prosesində rasionallıqla paralel baş verən mənəvi hadisədir. O, reallıqdır, onun daxilində əqlə və zəkaya əsaslanan hadisə və proseslər də mövcuddur. Qeyri-rasionallığı irrasionallıqla qarışdırmaq olmaz. Irrasionallıq rasionallıqdan kənara çıxmadır, məntiqi təfəkkür çərçivəsindən kənarda qalan mistika sahəsidir. Daha dəqiq desək irrasionallıq rasionallığa tamamilə əks olan anlayışdır.

Irrasionallığa sinergetik hadisə demək mümkündür. Belə ki, xətti hadisə olan rasionallıqdan fərqli olaraq irrasionallıq qeyri-xətti hadisədir. Rasionallıqda zəka və təfəkkürlə bağlı olan hadisələr çıxış edir. Bundan fərqli olaraq irrasionallıqda isə zəkadan, təfəkkürdən kənara çıxan hisslər, instiklərlə bağlı olan mənəvi proseslər çıxış edir.

Rasionallıq ilə irrasionallıq idrak prosesində bir-birinə tamamilə zidd olan iki fenomen kimi çıxış edir. Fəlsəfi məzmunda bu iki əks fenomenin fərqini bu şəkildə ifadə etmək olar:

-rasionallıq həqiqətdir, ağıldır, zəka üzərində qurulan hadisədir. O təbiət qanunlarına uyğundur və məntiqi baxımdan düzgün qurulmuşdur. Irrasionallıq isə məntiqsizlikidir, yalandır və o, zəkaya, təbiət qanunlarına zidddir (1).

Təfəkkürdə təzahür edən irrasional elementlər müxtəlif ola bilər. Məsələn, elmdə bir sıra nəzəriyyələr, təfəkkür səhvləri, mifologiya, dini ünsürlər irrasional elementlər kimi çıxış edir.

Fəlsəfədə irrasionallığın yaranma səbəbi fəlsəfi ideyaların adi şüur səviyyəsində, obrazlar və bədii formalarda ifadə olunması ilə bağlıdır. Bundan fərqli olaraq rasionallıq məntiq qaydalarına uyğun şəkildə təzahür edir və elmi-nəzəri səviyyədə yaranır. Rasionallıqda mütləq şəkildə təriflərə yer verilir. Bu mülahizələrdən belə nəticə çıxarmaq olar ki, irrasional fəlsəfədə abstrak-məntiqi formalara yer verilmir.

Bəzi müəlliflərin fikrincə insan psixikasında baş verən hadisələr rasional və irrasional olmayıb, rasional və qeyri rasionaldır. Başqa formada onları şüuri və qeyri-şüuri hadisələr kimi təsnif etmək olar.

Yuxarıda söylənilən mülahizlərdən belə nəticəyə gəlmək olar ki, idrak prosesində rasional və qeyri rasional əməliyyatlar cərəyan edir. Idrakda təzahür edən bu iki fenomen arasında müxtəlif fərqlər ortaya çıxır. Bu fərqlərə aydınlıq gətirmək üçün insan beyninə xas olan müxtəlif qabiliyyətləri fərqləndirmək olar. Hissi idrak beynin "hiss" adlanan qabiliyyəti əsasında reallaşdığı halda, məntiqi idrak isə onun təfəkkür qabiliyyəti əsaında reallaşır. Hisslər təfəkkürdən keçmir və iki yerə ayrılır: emosional və idrakı hisslər. Emosional hisslər, məsələn, sevinc, qəm, qorxu, nifrət,məhəbbət,simpatiya, antipatiya və s. təfəkkürdən kənarda qalan hadisələrdir, onlar təfəkkürlə bağlı deyillər. Idraki hisslər isə təfəkkürə bağlı yaranan hadisələrdir. Bu hisslərlə təfəkkür arasında əlaqə hissi idrakın təsəvvür forması vasitəsilə reallaşır. Məntiqi idrakla hissi idrakı birləşdirən əsas vasitə təsəvvürdür. Məntiqi idrak üçün səciyyəvi xüsusiyyət olan ümumiləşdirmə və ab-

straktlaşdırma təsəvvürdə özünü göstərir. Bəllidir ki, abstraktlaşdırma və ümumiləşdirmə rasional idrakın zəruri elementidir. Bu iki element rasional idrakda ümumi və nəzəri səciyyə daşıdığı halda, hissi idrakda isə fərdi və empirik səciyyə daşıyır. Idraki hisslər emosional hisslərdən fərqli olaraq rasionallıqla bağlıdırlar və buna görədə onlar rasional xarakter daşıya bilirlər. Lakin emosional hisslər rasionallıqdan kənarda olan və onunla əlaqəli olmadığından irrasionallıq sahəsinə aid olurlar.

İnsan psixikasında cərəyan edən rasional əməliyyatlar özünəməxsus xüsusiyyətlərə malikdir. Ilk öncə qeyd etmək lazımdır ki, idrak prosesində çıxış edən rasional əməliyyatlar tarixi xarakterə malikdir . Rasional idrakın inkişafının əsas hərəkətverici qüvvəsi ictimai praktikadır. Belə ki, rasional əməliyyatlar ictimai praktikada gerçəkləşir. Onlar məntiq qanunlarına tabe olaraq təfəkkürdən keçərək fəaliyyət göstərirlər. Obyektiv hadisələrin dərk olunması və idarə olunması rasional əməliyyatlarla bağlıdır.

Rasional əməliyyatlar məntiq qanunlarına tabedir. Məntiqsizlik rasionallığa ziddir. Dərrakə səviyyəsində rasional əməliyyatlar üçün formal məntiq qanunları, zəka səviyyəsində isə dialektik məntiq qanunları səciyyəvidir və bu qanunlarla idarə olunurlar. Rasionallıq məhsulları sözlər vasitəsi ilə obyektivləşən və ifadə olunan mənəvi varlıqlardır. Anlayışlar, mühakimə, əqli nəticə, ideya, prinsip, qanun, kateqoriya, konsepsiya, fərziyyə, hipotez və nəzəriyyə rasionallığın məhsullarıdır. Onlar sözlər və maddi cisimlər (heykəllər, rəsm əsərləri və s.) vasitəsi ilə obyektivləşirlər.

Idrak prosesləri yalnız rasional formada baş verə bilməz. Burada rasional proseslər qeyri-rasional proseslərlə paralel baş verir. Qeyri-rasional proseslər ümumi mənada məntiqi təfəkkürdən kənarda baş verən psixi proseslərdir. Bu proseslərə intuisiya, emosiyalar, hisslər, ehtiraslar, həvəslər, şüuraltı şəhvətlər, mistik nurlanma və s. fenomenlər daxildir.

Insan psixikasında baş verən qeyri-rasional əməliyyatlar insan fəaliyyətinin atributları və beyində baş verən obyektiv proseslərdir. Qeyri-rasional əməliyyatlar insanın şüur və iradəsindən asılı deyillər və biososial qanunauyğunluqlar əsasında ortaya çıxırlar. Qeyri-rasionallıq beyində baş verən hadisələrin məzmunu ilə deyil , forması ilə bağlıdır.Məsələn yaradıcılıq və intuisiyanı qeyri-rasional fenomenlər hesab olunur. Bunlar məzmunca bizi təmin etsələr də, formaca təmin etmirlər. Çünki biz bu fenomenlərin harada və nə zaman baş verəcəyini öncədən söyləyə bilmirik.

Qeyri-şüuri şüuri şüursuzluq və şüuraltı formalarda fəaliyyət göstərir. Şüursuzluq qeyri-şüurinin ən dərin qatlarında yerləşir və məntiqdən tamamilə məhrumdur. Şüuraltı proseslər isə qeyri-şüurinin üst qatında yerləşir və şüursuzluqdan fərqli olaraq məntiq qaydalarına qismən də olsa tabedirlər. Bu proseslər təfəkkürdən kənarda qalır və onun elementləri mükəmməl formada dərk olunmur. Məhz buna görə də idrak prosesində rasionallıq və qeyri-rasionallıq bir-birindən ayrılıqda mövcud olan deyil, bir-birini tamamlayan fenomenlərdir. Qeyri-rasional əməliyyatlar mövcud fərqlərə baxmayaraq rasional əməliyyatlar kimi insan fəaliyyətinin atributu, zəruri komponentidir (2).

Dünyada mövcud olan cisim və hadisələrin nəzəri və məntiqi cəhətdən əsaslandırılması rasional idrakın əsasını təşkil edir.Rasioanl idrak qayda və normalara uyğun gələn proseslərdir. Elmin klassik mərhələsində belə bir fikir formalaşmışdı ki, həqiqət gerçəkliyin məntiqi cəhətdən mənimsənilməsidir. Hegelə görə isə rasionallıq insanın məntiqi kateqoriyalarla düşünmə qabiliyyətidir və onun əsas meyarı isə həqiqətdir.

Rasional idrak ilk növbədə ideal obyekt və modellərlin yaradılması və onlardan istifadə etmək bacarığıdır. Ideal obyek dedikdə məsələn, mütləq qara cisim, ideal qaz, maddi nöqtə və s. nəzərdə tutulur. Rasional idrakda ideal obyektlər müəyyən tələblərə cavab verməlidir. Hər şeydən öncə ideal obyektlər məntiq qanunlarına uyğun gəlməlidir və bu obyektlərin öyrənilməsi nəticəsində əldə olunan nəticələr praktikada yoxlanılmalıdır. Klassik elmdə yalnız bu tələblərə cavab verən ideal obyektlər gerçəkliyə uyğun gəlir.

Rasionalliq özünün tam və adekvat ifadəsini təfəkkür anlayışında tapır. Təfəkkür insanın idrakı fəaliyyətinin funkiyalaşmasını və onun prosesual xarakterini əks etdirən qnoseoloji kateqoriyadır (3). İnsanın gerçəkliyə olan rasional münasibəti və onun mənəvi dünyasında ideyaların ortaya çıxması təfəkkür prosesini təşkil edir. Gerçəklik məhz təfəkkür səviyyəsində dərk olunduqda rasionallıq özünü göstərir. Təfəkkür insanın zəruri intellektual əlamətidir və gerçəkliyi dərk edən subyektlə sıx bağlıdır.

Fəlsəfədə təfəkkür anlayışı iki terminlə - "təfəkkür" və "məntiqi idrak" anlayışları ilə ifadə olunur. Bu anlayışların özünəməxsus ontolojı və qnoseolojı aspektləri vardır. Ontolojı aspektdə dərk olunan təfəkkür insan beyninin xarici aləmin maddi proses və hadisələrini beyində ideal formada əks etdirmək qabiliyyətidir. Təfəkkür səviyyəsində subyekt maddi obyektlərin fikri obrazları ilə işləyir. Elmdə yeni kəşflər məhz maddi hadisə və proseslərin fikri inikasında məntiqi əməliyyatlar aparılması nəticəsində ortaya çıxır. Lakin bu o demək deyildir ki, təfəkkür maddi aləmin gerçəkliyi ilə bağlı deyil. Təfəkkür prosesi subyektin ancaq beynində yaranan ideyaları əsasında həyata keçirilmir. Çünki maddi dünyanın gerçəkliyi ilə bağlı olmayan heç bir anlayış mövcud deyil. Maddi dünyanın hadisə və prosesləri insan şüurunda təzahür edir. Təfəkkürün qnoseolojı aspekti isə funksional aktiv inikas kimi çıxış edir və təfəkkürün məntiqi idrakla eyniyyət təşkil etməsinin əsasını ifadə edir. Bu məsələ təfəkkürün dərrakə və zəka səviyyələrində fəaliyyəti ilə bağlıdır. Rasionallıq bütövlükdə təfəkkürün atributu olduğundan onun hər iki səviyyəsində, yəni dərrakə və zəka səviyyəsində fəaliyyət göstərir. Lakin dərrakə səviyyəsində həqiqət nisbi xarakter daşıyır, zəka səviyyəsində isə o, mütləq həqiqət kimi çıxış edir.

Təfəkkürün çıxış nöqtəsi olan dərrakə onun birinci səviyyəsini təşkil edir. Dərrakə insanın ardıcıl şəkildə düşünə bilmək, fikirlərini aydın şəkildə çatdırmaq, faktları düzgün surətdə sistemləşdirmək bacarağıdır. Tamın hissələrə bölünməsi və hissələr üzərində əməliyyatlar aparılması dərrakənin əsas funksiyasını təşkil edir. Təffəkür dərrakə sayəsində fəaliyyət göstərir. Lakin qeyd etmək lazımdır ki, dərrakə idrakda mütləq rol oynamır. Çünki belə olan halda şüurda metafizika ortaya çıxardı. Buradan belə nəticəyə gəlmək olar ki, dərrakə sağlam düşüncədir.

Dərrakə müxtəlif formalara malik olan təfəkkürün ancaq anlayış və mühakimələrin yaranmasında iştirak edən idrak əməliyyatlarını özündə birləşdirir. Yəni digər təfəkkür formalarıni özündə ehtiva etmir. Bu səbəbdən demək olar ki, dərrakə səviyyəsində anlayış və mühakimələr yaranır. Ancaq bu səviyyədə təfəkkür anlayış və mühakimələrin genezisini, daxili çalarlarını, mürəkkəb keçidlərini aydınlaşdıra bilmir. Dərrakə səviyyəsində biliyin hazır formaları öyrənilir. Bu baxımdan dərrakənin məntiqi formal məntiqlə məhdudlaşır.

Təfəkkürün ikinci səviyyəsi olan zəka həm ardıcıllığına, həm də mürəkkəbliyinə görə onun ən yüksək pilləsidir. Zəka dialektik təfəkkür olduğundan idrak obyektinin ən dərin qatlarına enir və onların mahiyyətini, əksliklərini, inkişaf mexanizmlərini dərk edir. Dərrakə səviyyəsi əsasında yaranan zəka məntiqi təfəkkürün ümumiləşdirmə bacarığını ən yüksək səviyyəyə çatdırır. Təfəkkürün dərrakə səviyyəsində ortaya çıxan anlayış və mühakimələrdən zəka səviyyəsində ideya, prinsip, hipotez və nəzəriyyələrə keçid baş verir. Dərrakə səviyyəsində yaranan mühakimə və anlayışlarin mahiyyəti yaxşı dərk olunmadığından zəka səviyyəsində onların yaranma mexanizmi, dinamikası və qarşılıqlı əlaqələri dərindən izah olunur. Təfəkkürün bu səviyyəsinin əsas funksiyası dərk olunan idrak obyektinin hərəkətverici amilini və mühim səbəblərini ortaya çıxarmaqdır. Dərrakənin məntiqi formal məntiq olduğu halda, zəkanın məntiqi isə dialektik məntiqdir.

Yuxarıda deyilən mülahizələrdən belə nəticəyə gəlmək olar ki, dərrakə və zəka səviyyələrinin qarşılıqlı əlaqəsi və bir səviyyədən digər səviyyəyə keçid təfəkkürün inkişafını təşkil edir. Dərrakə səviyyəsindən zəka səviyyəsinə keçid əsas ideyalar üzərində formalaşan biliyin "hazır" biliklər sistemindən ayrılması ilə bağlıdır. Zəka səviyyəsindən

dərrakə səviyyəsinə keçid isə formallaşdırma üsulu ilə əldə edilən biliklərin daha davamlı hala keçməsi ilə müəyyən olunur.

Beləliklə fəlsəfi baxımdan demək olar ki, maddi aləmdə mövcud olan hadisə və proseslərin, əlaqələrin, cisimlərin insan şüurunda əks olunması təfəkkür prosesləri ilə bağlıdır. Bir sıra elmlər tərəfindən öyrənilən təfəkkür həmin elmlərin konkret mənzərəsini yaradır. Idrak nəzəriyyəsi, məntiq, fiziologiya, psixologiya, sinergetika, kibermetika və s. elmləri misal göstərmək olar. Təfəkkürün strukturu məntiq və idrak nəzəriyyəsi sahəsində öyrənilir. Dialektik məntiq formal məntiqdən fərqli olaraq təfəkkürün ən ümumi inkişaf qanunauyğunluqlarını öyrənir.

Rasional idrakı təhlil edərkən ideal obyek, ideal model anlayışları ortaya çıxır. Rasionallığın mahiyyətini adekvat şəkildə dərk etmək üçün ideal anlayışına nəzər yetirmək lazımdır. Ideal insan şüurunun ümumi xarakteristikasını təşkil edir. Ideal anlayışının klassik tərifini verən K.Marksa görə “ ideal insan başına köçərək orada dəyişərək yeni bir forma almış maddidir”.

İdrak prosesində qeyri-rasional əməliyyatların rolunu müəyyən etmək üçün elmdə mövcud olan “biliksizlik” və “xəbərsizlik” anlayışlarına nəzər salmaq olar.

Rus filosofu M.A.Rozovun fikrincə biliksizlik “ Mən bunu bilmirəm” şəklində ifadə olunur. Biz hər hansısa bir şeyi bilmədiyimizi elan ediriksə, bu həm də məlum predmeti bildiyimizi göstərir. Yəni tədqiqatçı nəyi axtardığını, hansı tədqiqat proqramını reallaşdıracağını bilə də bilər. Buna misal metalların kimyəvi xassələrini göstərə bilərik. Yəni, biz ümumilikdə metalların kimyəvi xassələrə malik olduğunu bildiyimiz halda, onlardan birinin kimyəvi tərkibini bütünlükdə bilməyə də bilərik. Biliksizlikdə qeyri-rasionallıq da iştirak etsədə, o, rasional fəaliyyət formasıdır.

Xəbərsizlik isə qeyri-rasional idrak sahəsidir.Başqa sözlə xəbərsizlik, aydın məntiqi proqram və metodların olmadığı elmi kəşflər sferasıdır. Xəbərsizlik bu formada ifadə olunur: “Mən bilmədiyim şeyi bilmirəm”. Bu halda idrak fəaliyyətini rasional formada planlaşdırmaq artıq mümkün olmur. Məsələn, pozitronu kəşf edən P.Dirak əvvəlcədən “Pozitron nədir?” və yaxud “Mən pozitronun nə olduğunu bilmirəm” kimi sulları ortaya qoymamışdır. Yəni bu, bir həqiqətdir ki, elmdə baş verən kəşflər heç vaxt məqsədyönlü olmamışdır. Kimsənin məlumatlı olmadığı hadisənin kəşfi əvvəldən planlaşdırılmır. Əks halda buna bənzəyər: “Gedirəm, lakin hara getdiyimi heç özüm də bilmirəm”.

Elmdə baş verən yeniliklərə yalnız rasional fəaliyyətin nəticəsi kimi yanaşmaq mümkün deyil. Bu yeniliklər kəşf olunana qədər xəbərsizlik sferasında yerləşmişdir və axtarış obyetiki elmə məlum olmadığından onaların mənimsənilməsində “rasional yollar” da məlum olmamışdır. Xəbərsizlik sferasında rasional idrak öz əhəmiyyətini itirir və qeyri-rasional fenomenlər( emosiyalar, qəfil nurlanma və s.) üstünlük təşkil edir. Bu fenomenlərdən isə intuisiya xüsusilə məntiqi idrakın uzun müddətli fəaliyyətini tələb edir. Buna görə qeyri-rasional element olan intuisiyaya çox vaxt “sıxışdırılmış” məntiq kimi baxırlar. Bütün hallarda intuisiya prosesi qeyri-şüuri səviyyədə baş verən təfəkkür formasıdır. Insan intuisiyanın yaranma mexanizmini deyil, onun nəticəsini ,yəni kəşfi aydın dərk edir. Alman filosofu Şopenhauerin fikrincə dünyanın sirlərinə məntiqdən daha çox, intuisiya vasitəsilə nüfuz etmək mümkündür. Anlayış, kateqoriya, ideya, prinsip kimi idrak vasitələrini yiyələnərək alim olmaq mümkündür. Lakin dahilik rasional fəaliyyətdən əlavə həm də qeyri-rasional intuisiyadır. Elmdə məhz fundamental kəşfləri də adi alimlər deyil, dahilər reallaşdıra bilər.

Burada qeyd etmək lazımdır ki, elmi idrakda qeyri-rasionallığın qiymətləndirilməsində ifratçılığa yol vermək düzgün deyil. Bu rasionallığın əhəmiyyətinin tamamilə inkar olunması deməkdir. Rasionallıq və qeyri-rasionallıq idrak prosesində özünəməxsus yeri və funksiyası olan əməliyyatlardır. Nə rasionallıq, nə də qeyri-rasionallıq idrakda biri digərini əvəz edə və ya sıxışdırıb aradan çıxara bilər.

## ƏDƏBİYYAT


1. Ə.Məmmədov, V.İsmayılov, F.Məmmədov. «Rasionallıq və qeyri-rasionallıq». Bakı, «Elm», 2010, 880 səh.
2. Философия и методология науки ( под ред. В.И.Купцова) М.: Аспект- Пресс, 1996
3. Машкевич В.В. Новейший философский словар. М: Советская энциклопедия. 1983.
4. Берков В.Ф. Философия и методология науки. М: Новое знание, 2004
5. Гргинов Г. Наука и творчество. М: Прогресс, 1979.
6. Поппер К. Логика и рост научного знания. М.: Мыслъ……


## RASİONALLIQ VƏ QEYRİ-RASİONALLIQ

***Əliyeva Fidan***

## XÜLASƏ

Rasionallıq və qeyri-rasionallıq idrak prosesində özünəməxsus xüsusiyyətlərə malik olan və bununla yanaşı bir-birinə zidd olmayan fenomenlərdir. Qeyri-rasionallıq idrak prosesində rasionallıqla paralel baş verən mənəvi hadisədir. O, reallıqdır, onun daxilində əqlə və zəkaya əsaslanan hadisə və proseslər də mövcuddur.Qeyri-rasionallığı irrasionallıqla qarışdırmaq olmaz. Irrasionallıq rasionallıqdan kənara çıxmadır, məntiqi təfəkkür çərçivəsindən kənarda qalan mistika sahəsidir. Daha dəqiq desək irrasionallıq rasionallığa tamamilə əks olan anlayışdır

## РАЦИОНАЛЬНОСТЬ И НЕРАЦИОНАЛЬНОСТЬ

***Алиеава Фидан***

## АННОТАЦИЯ

Рациональность и иррациональность – явления, имеющие уникальные характеристики в познавательном процессе и не исключающие друг друга. Иррациональность — это духовный феномен, который возникает параллельно рациональности в процессе познания. Это реальность, в ней происходят события и процессы, основанные на разуме .Иррациональность нельзя путать с иррациональностью. Иррациональность — это уход от рациональности, царство мистицизма, выходящее за рамки логического мышления. Точнее, иррациональность — это понятие, совершенно противоположное рациональности.

## RATIONALITY AND IRRATIONALITY

***Aliyeva Fidan***

## SUMMARY

Rationality and irrationality are phenomena that have unique characteristics in the cognitive process and do not exclude each other. Irrationality is a spiritual phenomenon that arises in parallel with rationality in the process of cognition. This is reality, events and processes based on reason. Irrationality cannot be confused with irrationality. Irrationality is a realm of mysticism that goes beyond logical thought. To be more precise, irrationality is the exact opposite of rationality.

# ZİYA GÖKALPIN DİN ANLAYIŞI

***Suvarova Səmra Sərdar qızı***
***BDU -nun II kurs magistrantı***
***suvarovasemra@gmail.com***

***Açar sözlər:*** Ziya Gökalp, din, İslamiyyət, mədrəsə.
***Ключевые слова:*** Зия Гёкальп, религия, ислам, медресе.
***Keywords:*** Ziya Gökalp, religion, Islam, madrasa.

Ziya Gökalpın din haqqındaki fikirlərini müəyyən edilməsi üçün onun yaşadığı dövrün, bu dövrdə baş verən hadisələrin və ətrafdındaki insanların fikir və düşüncələrinin nəzərə alınması mütləqdir. Onun əlaqədə olduğu insanların bir çoxu fərqli düşüncələrə malkin şəxslər olmuşdur. Həmin şəxslərin düşüncələri də Gökalpa müəyyən qədər təsir etmişdir. Ziya Gökalp müsəlman bir ailədə böyümüş, müsəlman olan atasından dərs almış və mədrəsədə ilk təhsilini almışdır. Həyatının ilkin mərhələsində onun çevrəsindəki insanların bir çoxu İslam dininə mənsub şəxslər olmuşdur. Bu öz təsirini onun yaradıcılığında - şeir məqalələrində də göstərmişdir. Belə ki, Z.Gökalpın Volkan və Diyarbəkir qəzetlərində nəşr olunan yazılarına da nəzər yetirsək, onların bir çoxunda onun dini inancının yüksək səviyyədə olması açıq-aşkar görünürdür.

Ziya Gökalpın fikrincə islam, ərəbləri çadırdan, türkləri isə çöldən xilas edib, mədəni hala gətirmişdir. Həmçinin, o islamın bir həqiqət dini olduğunu, Türkiyyədə inkişaf etmiş bir mədəniyyət yaratmaq üçün onun kifayət etdiyini, bunu da mədrəsələr vasitəsi ilə həyata keçirməyin mümkünlüyü vurğulayır. Tiranlığın cəhalətin hökm sürdüyü yerlərdə mövcud olacağını, hürriyətin isə yalnız islam mədəniyyətinin olduğu yerdə mövcud olacağını bildirir (1).

Ziya Gökalp elmlə din arasındaki münasibətə də toxunmuşdur. Ona görə elm inkişaf etsə belə insanlar qəlblərində sadəcə elmlə rahatlıq tapa bilməzlər. Elm hər zaman insanın vicdanlı həyat tərzi sürməsi üçün qeyri-kafi olacaqdır. Elmin bu zəifliyini aradan qaldıran tək qüvvə dindir. Elmin məqsədi zehinlərə təsir etməkdirsə, dinin məqsədi ürəklərə ilham verməkdədir. Elm tədbir, din isə təvəkküldür. Bu iki qüvvə bəşəriyyətin qurtuluş rəhbəridir (2).

Həyatının ilk dönəminə aid olan şeirlərində əsasən, İslam dinindən, Allahdan, zəkatdan, namaz qılmaqdan və oruc tutmaqdan bəhs etmişdir. Onun bu şeirlərində mədrəsə tələbəsi olduğu açıq-aşkar şəkildə görünür. İslamı ən müqəddəs və sonuncu din olduğunu hesab etməsi də onun əsərlərində öz əksini tapmışdır. Onun İlahi adlı şeiri bunun ən bariz nümünəsidir. Bu şeir Osmanlı dövlətinin çətin dönəmlərdən keçtiyi vaxtda qələmə alınmışdır. Dövlət məruz qaldığı vəziyyət əhalidə də ruh düşkünlüyü yaradırdı. Ziya Gökalp bu şeirində Allaha olan bağlılığını ifadə etmiş cə millətini düşdüyü bu vəziyyətdən qurtarması üçün ona dua etmişdir.

*Yüce Tanrı! Biz ki yavru Türkleriz,*
*Sana geldik, vatan için duaya!*
*Yurdumuzun necatını dileriz,*
*Elimizi açtık işte semaya!*
*Yüce Tanrı! Bize, doğru irfan ver,*
*Medeniyet eksik: Tamam edelim;*
*Bir nurlu din, bir ateşli iman ver,*
*Yoldan çıkan halkı İslam edelim!*
*Yoldaşımız iz'an olsun: Amin!*
*Rehberimiz Kur'an olsun: Amin (3)!*

Həyatının ikinci mərhələsində cəmiyyətdə mövcud olan sosial problemlərə çarə tapmaq Ziya Gökalpın əsas məqsədi olmuşdur. O bu çarəni milli kimliyi zədələmədən qərbin elm və texnologiyasından yararlanmasında görürdü.

Ziya Gökalp dini tipik bir həyat təzahürü, sosial bir hadisə olaraq dəyərləndirirdi. Ona görə din cəmiyyətin dəyərləri ilə qarışıq iqtisadi, siyasi, hüquqi, əxlaqi və.s həyat formalarından biri və ən müqəddəs olanıdır. Onun fikrincə din bir toplum tərəfindən müqəddəs elan edilən inanc və ibadətlərin cəmindən ibarət olan bir sosial sistemdir (4).

Dr.Yorgi-dən aldığı fəlsəfə təhsili ilə ailəsindən gördüyü dini mühafizəçi tərbiyə arasında mövcud olan kəskin fərqlər nəticəsində o dərin böhran yaşamış və intihara cəhd etmişdir. O, öz şeirində düşdüyü dərin böhranı belə ifadə etmişdir: "Zaman keçdikcə ümidlərin sönür, həyatın ruhi dəyəri gözümdən düşürdü. Bu vəziyyət elə bir hal aldı ki, artıq heyvan kimi yalnız yemək üçün yaşamaqdansa ölümü üstün tutmaq düşüncəsini mənimsəmək məcburiyyətində qaldım. Bu səbəblə də özümü öldürmək istədim" (5).

Ümumiyytlə bütün insanların həyatlarında tanıdıqları digər insanların təsiri ilə və yaxud da ki, həyatlarında yaşadıqları, gördükləri müxtəlif hadisələr nəticəsində fikir və düşüncələrinin dəyişə bilməsi kimi, Zgökalpın da həyatının müxtəlif dönəmlərində dinə fikir və düşüncələri arasında fərqlərin mövcud olması tamamilə normal olmuşdur. Həyatının ilkin dönəmlərində atasının da təsiri ilə tam bir müsəlman idealogiyasına sahib olan Gökalp, həyatının sonrakı mərhələrində tanış olduğu Fouille, Durkheim ve Comtenin fəlsəfi fikirlərindən təsirlənmişdir. Sonradan da Hüseyin Əli Bəyin təsiri ilə milliyətçiliyə dair baxışları dinə olan münasibətini üstələmişdir.

Həmçinin Ziya Gökalpın həyatının sonrakı dövrlərində dinə qarşı fikir və münasibətini göstərməməsinə əsas olaraq, onun yaşadığı dönəmdə dövlətin zəifləməsini, həmçinin, hakimiyyətdə baş verən qarışıqlıqlar ilə bərabər İttihat və Tərəqqinin Diyarbəkir təmsilçisi olmasını da göstərmək mümkündür.

Hər nə qədər İslamiyət onun yaradıcılğında müəyyən bir rola malik olsada da, həyatının sonrakı mərhələlərində sonraki yazılarında İslamiyətlə bağlı fikirləri kifayət qədər yer almamışdır.

Ziya Gökalpın dinə dair fikir və münasibətlərindən danışarkən, onun yaşadığı dövrdə insanların öz düşüncələrini dövlətə uyğunlaşdmasına çalışması və dövlətin bu fikirlərin formalaşmasında təsirinin böyüklüyünü də vurğulamaq zəruridir.

Din ilə bağlı Ziya Gökalpda maraq yaradan və üzərində çalışdığı məslələrdən biri müasir cəmiyyətdə dinin yerinin və rolunun nə olacağı olmuşdur. Güngörə görə "Türk milliyətinin bütün amilləri kimi, dinin də yeni türk həyatındakı rolunu Z.Gökalp ələ almışdır" (6).

Türk mütəfəkkirləri arasında dünyəvilik ilə bağlı görüşlərini ilk dəfə elmi tərzdə izah edən şəxs də Ziya Gökalp olmuşdur (7). Həmçinin, o 1917-ci il tarixində yığılan İttihat və Tərəqqi konqresində tarixi, sosioloji və hüquqi araşdırmalara dayanan, hətta şeyxülislamlıq qurumunun ləğvini istədiyi bir təklif irəli sürmüşdür (8).

O dövlətin fəaliyyətində dini qurumlardan ayrılması ilə bağlı fikirlərini də öz şeirlərində ifadə etmişdir. Mədrəsə ilə dövlətin, xəlifə ilə müftinin bir-biri ilə ayrılma istəyi onun "Halife ve müfti" adlı şeirində də bariz şəkildə görünür (9).

*"Devlet ile medrese iki ayrı âlemdir.*
*Müftü ile halife birbirine karışmaz,*
*Ayrıysa da bu iki kuvvet, daim tev'emdir,*
*"Nüfuz bende" diyerek birbiriyle yarışmaz"...*

Ziya Gökalp din ilə hüququn da iki ayrı sahə olduğunu düşünmüşdür. Bu onun "Devlet" adlı şeirində də göstərilmişdir. Onun fikrincə din tarix boyunca keçdiyi inkişaf yolu nəticəsində əxlaqi bir formaya bürünmüş, bunun əsasında da, insanların hərəkət və davranışlarına bir növ istiqamət verən daxili bir hissə və duyğuya dönüşmüşdür.

*“Lakin hukuk dinden ayrı bir iştir,*
*Bırakılmış ulü’lemre, devlete…*
*“Hukuk örfe uymayınca değiştir,*
*Örfe uydur” demiş Tanrı, millete”* (10)!

Heydə görə, “Gökalpın əsas məqsədi din ilə dövləti bir-birindən ayrımaq, yəni türk millətinin siyasi və sosial həyatı üzərində islam hakimiyyətini sona çatdırmaq və din ilə Şərq mədəniyyətini ayrımaq olmuşdur. Beləliklə, türk milli mədəniyyəti və Avropa mədəniyyəti ilə bərabər əsas islami dəyərlərin qoruyub-saxlanılması təmin olunacaqdır (11).

Həmçinin, Ziya Gökalpın dünyəvilik ilə bağlı irəli sürdüyü müxtəlif fikirlər vardır ki, bu fikirlər yüz illər boyu Türkiyyədə hökm sürmüşdür. O dini kitabların, Qurani Kərimin, xütbələrin, ümumilikdə bütün duaların türkçə oxunmasının vacibliyi vurğulayırdı. Buna əsas olaraq da türk millətinin din adamlarının, natiqlərin dedikləri ifadələrin mənalarını başa düşdükləri üçün öz ibadətlərindən daha çox zövq alacaqlarını göstərirdi. Ona görə müsəlman etdiyi ibadəti ve duayı başa düşməlidir. Müsəlmanların məsciddən ayrılarkən yüksək hisslərə çatmasında öz ana dilləri vasitəsi ilə Allah ile etdikləri danışığın vacib təsirinə toxunmuşdur.

*Bir ülke ki camiinde Türkçe ezan okunur,*
*Köylü anlar manasını namazdaki duanın;*
*Bir ülke ki mektebinde Türkçe Kur’ân okunur,*
*Küçük büyük herkes bilir buyruğunu Hüda’nın;*
*Ey Türk oğlu, işte senin orasıdır vatanın (12).*

O qadınlarla bağlı həmin dövr üçün ən vacib olan və indiki dövrdə də hökm sürən probləmlərdən biri olan qapanmaq məsələsinə də toxunmuşdur (13). Ziya Gökalpa görə “keçmişdəki türk qadınları qapanmağa heçbir əsasla bağlı olmamışdır” (14). Ülkenə görə, “Gökalp, hicabı aradan qaldırmaq istəyirdi; buna səbəb isə qədim Bizans ve İran mədəniyyətlərinin təsiri ilə bunun Müsəlman qadınlara keçdiyini bildirirdi” (15).

Ziya Gökalp göstərirdi ki, insanı heyvandan əsas fəqləndirən cəhət və onun mənəvi həyatının mövcudluğununda əsas rolu resab edilən dəyərlər din və əxlaqdır. İnsanın ruhundan dini, əxlaqı və digər gözəl dəyərləri çıxararsaq, orda mənəvi həyatdan heçbir əsər qalmaz. Bu zaman insanın ruhunda yalnız heyvanlarda da olan ehtiras və ehtiyyaclar qalar (16).

Ziya Gökalp dinin yalnız fərdi deyil sosial yönünü də önə çıxarmışdır. Ona görə din yalnız Allahla insan arasında mövcud olan bir şey olmaqdan əlavə sosial rola da sahib bir amildir. Ona görə bəşəriyyətdə mövcud olan heçbir dinin İslam dini qədər bütün zamanlara və nəsillərə tətbiq edilməsi mümkün olmamışdır. Buna səbəb olaraq İslam dinində gərçəkliklə bağlı mühakimələr zamanı ağlın, dəyər mühakimələri zamanı isə millətin adən və ənənələrinin əsas olaraq qəbul edilməsini göstərir.

İnsanın tərbiyəsində ən önəmli təsiririn din olduğunu vurğulayan Ziya Gökalp, insanın maddi aləmdə tapa bilmədiyi azadlıq və ədaləti mənəvi aləmdə tapma imkanını göstərir. Ona görə, insan ruhunda yüksək emosiayalar yaratdığı üçün inanc faydalı bir amildir. Tərbiyə baxımından da ən təsirli və faydalı olan amil dindir (17).

Onun təhsillə bağlı olan fikirlərində də mədrəsələr mühüm rola malikdir. O islam mədəniyyətinin çöküşünə səbəb olaraq mədrəsələrdə mövcud olan dərs programlarındakı yalnışlıqları və mədrəsələrdə təhsilin normal səviyyədə aparılmamasının nəticəsi olaraq Osmanlıda baş verən fəlakətləri göstərirdi. Ziya Gökalpın mədrəsələrin təkmilləşdirilməsi ilə bağlı bir neçə təklifi də olmuşdur. Mədrəsədə dərs deyən müəllimlərin maaşlarının artırılması, keçirilən dərslərin o sahə üzrə dərin biliklərə malik olan şəxslər tərəfindən keçirilməsi və müəllimlərin dərslərdə davamiyyətinin təmin edilməsi onun əsas təkliflərindəndir.

Gökalp dini təhsilin; gənclərin məruz qaldığı depresiya ve şəxsiyyət pozuntularının qarşısını aldığı, insanlara sağlam hədəflər təlqin etdiyi üçün cəmiyyət həyatını canlı tutması fikrindədir (18). "Gənclər arasında dini böhranın yaranmasına səbəb olaraq, mədrəsələrdə din tərbiyəsi ilə məşğul olan şəxslərin həqiqi İslamiyyəti bilməmələri, filosofların olmamağıdır. Gənclər, bu amillərin təsirinə düşməyə başladıqda bir tərəftən din ilə ağıl arasında, digər tərəfdən din ilə adət arasında uyumsuzluq olmasına inanarlar" (19).

## ƏDƏBİYYAT

1. Gökalp, Z. (1976c). Medreseler, makaleler 1, s. 79-82
2. Gökalp, Z. (1976c). Medreseler, makaleler 1, s. 98-102
3. Ziya Gökalp, Kızılelma, s.80-82
4. Günay, Ü. (1989). Ziya Gökalp ve din sosyolojisi, s, 124
5. Şapolyo, E. B. (1974). Ziya Gökalp (2. Baskı) s. 43
6. Güngör, E. (1993). Sosyal Meseleler ve aydınlar, s, 50
7. Hanioğlu, M. Ş. (1966). Bir Siyasal düşünür olarak doktor Abdullah Cevdet ve dönemi, s, 375-383
8. Türkdoğan, O. (1987). Ziya Gökalp sosyolojisinin temel ilkeleri. s. 112
9. Gökalp, Z. (1987). Yeni hayat doğru yol s. 29
10. Gökalp, Z. (1987). Yeni hayat doğru yol s. 30
11. Heyd, U. (1979). Türk ulusçuluğunun temelleri. s 104-105
12. Gökalp, Z. (1976b). Türkçülüğün esasları. s. 160
13. Duru, K. N. (1965). Ziya Gökalp. s. 80-84
14. Gökalp, Z. (1976b). Türkçülüğün esasları. s. 165
15. Ülken, H. Z. (2014). Türkiye'de çağdaş düşünce tarihi. s. 324
16. Gökalp, Z. (1982). Makaleler VII S. 54
17. Gökalp, Z. (1982). Makaleler VII S. 69
18. Türkdoğan, O. (1987). Ziya Gökalp sosyolojisinin temel ilkeleri. S. 139
19. Gökalp, Z. (1997). Terbiyenin sosyal ve kültürel temelleri I S. 278

## ZİYA GÖKALPIN DİN ANLAYIŞI

***Suvarova Səmra***

## XÜLASƏ

Ziya Gökalp'in düşünce sistemindəki ən vacib amillərdən biri din məsələsidir. Ziya Gökalpın din haqqındaki fikirlərini müəyyən edilməsi üçün onun yaşadığı dövrün, bu dövrdə Osmanlı dövlətində baş verən hadisələrin və ətrafındaki insanların fikir və düşüncələrinin nəzərə alınması mütləqdir. Həyatının ilkin dönəmlərində atasının da təsiri ilə tam bir müsəlman idealogiyasına sahib olan Gökalp, daha çox Osmanlıçılığı müdafiə etmiş və Namık Kemalın təsirində olmuşdur. Hər nə qədər İslamiyət onun yaradıcılğında müəyyən bir rola malik olsada da, sonraki yazılarında İslamiyətlə bağlı fikirləri kifayət qədər yer almamışdır. Həyatının sonrakı mərhələrində Fouille, Durkheim ve Comtenin fəlsəfi fikirlərindən təsirlənmiş və onun düşüncələrində dəyişikliklər meydana gəlmişdir. Sonradan da Hüseyin Əli Bəyin təsiri ilə milliyətçiliyə dair baxışları dinə olan münasibətini üstələmişdir. Buna İttihat və Tərəqqidəki dostlarının da təsiri olmuşdur. O, dini tərbiyə baxımından da dinin uşaqların tərbiyəsində başlıca amil olduğunu vurğulamışdır. Bu səbəbdəndir ki, bir çox şeir və yazılarında dini tərbiyənin vacibliyini önə çıxarmışdır.

# КОНЦЕПЦИЯ РЕЛИГИИ ЗИИ ГЁКАЛЬП

***Suvarova Səmra***

## АННОТАЦИЯ

Одним из наиболее важных факторов в системе мышления Зия Гёкальпа является вопрос религии. Для того чтобы определить взгляды Зия Гёкальпа на религию, необходимо учитывать период, в который он жил, события, происходившие в Османском государстве в этот период, а также мнения и мысли окружающих его людей. На ранних этапах своей жизни Гёкальп, имевший полную мусульманскую идеологию под влиянием своего отца, больше защищал османизм и находился под влиянием Намика Кемаля. Несмотря на то, что ислам играл определенную роль в его творчестве, его идеи об исламе не нашли достаточного отражения в его более поздних работах. На более поздних этапах жизни Фуй находился под влиянием философских идей Дюркгейма и Конта, и в его мыслях произошли изменения. Позже, под влиянием Хусейна Али-бея, его взгляды на национализм превзошли его отношение к религии. На это также повлияли его друзья из Иттихата и Таракки. Что касается религиозного образования, он подчеркивал, что религия является главным фактором в воспитании детей. По этой причине он подчеркивал важность религиозного образования во многих своих стихах и произведениях.

# CONCEPT OF RELIGION OF ZIA GOKALP

***Suvarova Səmra***

## SUMMARY

One of the most important factors in Ziya Gökalp's thought system is the issue of religion. In order to determine Ziya Gökalp's views on religion, it is necessary to take into account the period in which he lived, the events that took place in the Ottoman state during this period, and the opinions and thoughts of the people around him. In the early stages of his life, Gökalp, who had a complete Muslim ideology under the influence of his father, defended Ottomanism more and was influenced by Namık Kemal. Even though Islam had a certain role in his work, his ideas about Islam were not included enough in his later writings. In the later stages of his life, Fouille was influenced by the philosophical ideas of Durkheim and Comte and changes occurred in his thoughts. Later, under the influence of Hüseyin Ali Bey, his views on nationalism surpassed his attitude towards religion. This was also influenced by his friends in Ittihat and Taraqqi. In terms of religious education, he emphasized that religion is the main factor in children's education. For this reason, he highlighted the importance of religious education in many of his poems and writings.

# SOSİOLOGİYA

## KEYFİYYƏT TƏDQİQATLARINDA MÜSAHİBƏ METODU

***Məmmədov Abdulla İlham oğlu***
***BDU-nun II kurs magistrantı***
***abdullamemmedov50@gmail.com***

***Açar sözlər:*** müsahibə, keyfiyyət tədqiqatı, metod, texnik, strukturlaşdırılmamış.
***Ключевые слова:*** интервью, качественное исследование, метод, методика, неструктурированный.
***Keywords:*** interview, qualitative research, method, technique, unstructured.

Müsahibə keyfiyyətli tədqiqatda istifadə olunan məlumat toplama üsuludur. Müsahibə, məqsədi məlumat toplamaq olan söhbətdir. Başqa sözlə, müsahibə bir mövzu və ya vəziyyətlə bağlı araşdırmaya daxil olan şəxslərin hiss və düşüncələrini anlamaq fəaliyyətidir. Onların təcrübələrini və şikayətlərini başa düşmək üçün təsirli bir texnikadır. Müsahibə texnikası əldə etmək istədiyiniz məlumatları əldə etmək üçün bütün səyləri əhatə edir. Müsahibə texnikası bəzi mənbələrdə müsahibə kimi də xatırlanır.

İlk növbədə, müsahibə yolu ilə məlumatların toplanması sadə bir texnika kimi qəbul edilə bilər. Bununla belə, müsahibə texnikası ilə məlumatların toplanmasına xas olan bəzi həssaslıqlar var. Bu həssaslıqlar müsahibə texnikası ilə məlumatların toplanmasının müxtəlif çətinliklərinə işarə edir. Bu texnikada müsahibə verənin xüsusiyyətləri xüsusilə məlumatların toplanmasında və ümumilikdə tədqiqatın uğurunda böyük əhəmiyyət kəsb edir. Bildirilir ki, yaxşı müsahibə götürmək istedad tələb edir, ona görə də müsahibə yalnız elmi bir texnika deyil, həm də bir sənətdir. Müsahibə metodu ilk növbədə müsahibə verəndən yaxşı təchizatlı olmasını tələb edir. İş o yerə çatıb ki, müsahibə aparan şəxs müsahibə zamanı iştirakçının səthi və az nitqini, emosiya intensivliyinin artdığı situasiyaları, söhbətləri müsahibə planına uyğun saxlamalıdır. Obyektiv məlumat əldə etmək üçün iştirakçı öz subyektiv vəziyyətlərinə (sosial-iqtisadi, gender, irq və s.) qərəzsiz yanaşma nümayiş etdirməlidir. Bundan əlavə, tədqiqat mövzusuna və dərinliyinə görə, müsahibə aparan iştirakçı ilə əməkdaşlıq etməlidir. Digər tərəfdən, müsahibə üsulu əsasən ünsiyyət və qarşılıqlı əlaqəyə əsaslanır. Bu səbəbdən məlumatların toplanmasının müvəffəqiyyətinin müsahibə aparan şəxsin ünsiyyət bacarıqlarından asılı olduğunu söyləmək olar. Eyni zamanda, müsahibin mövzuya hakim olması vacibdir.

Vəziyyətin güclü və ya zəif tərəfləri haqqında danışarkən, demək olar ki, müqayisə elementini təyin etmək zərurətdir. Keyfiyyət metodu da çox vaxt kəmiyyət metodu ilə müqayisə edilir. Müsahibə texnikasının güclü və zəif tərəfləri müzakirə edilərkən digər məlumat toplama üsulları ilə müqayisələrdən istifadə edilmişdir.

Gender anlayışı cəmiyyətin qadın və kişilərə qoyduğu rol və davranışlardır. Gender fenomeni sosial-mədəni olaraq təyin olunan bir fenomendir. Cəmiyyətdə qadınlıq və kişilik cəmiyyətin fərdlərə qoyduğu rol və vəzifələrə görə məna qazanır. Bu konsepsiyaya görə qadınlar əslində cəmiyyət tərəfindən passivləşdirilir və imkanlardan bərabər istifadə edə bilmirlər. Sahibkarlıq ədəbiyyatında iki anlayış var: “sahibkar” və “sahibkar qadın”. Ədəbiyyata “sahibkar qadın” anlayışı daxil edilsə də, “kişi sahibkar” kimi bir anlayışın olmaması gender kontekstində mühüm məlumatdır. Sahibkarlığa adətən kişi işi kimi baxıldığından, sahibkar olmağa çalışan qadınlar üçün "qadın sahibkar" anlayışı ortaya çıxdı [4.Mutlu, Sevda, 2015; 38].

Bu gün ənənəvi rollara görə “qadının yeri öz evindədir” və onun əsas vəzifəsi “ərinin arvadı, uşaqlarının anası” olmaqdır. Urbanizasiya və sənayeləşmə nəticəsində qadınların bu rollarına yeni sosial rollar əlavə olunur. Yaşanan dəyişikliklər nəticəsində qadınlar istər-istəməz maliyyə öhdəlikləri ucbatından iş həyatına daxil olaraq iqtisadi azadlıqlarını əldə edirlər. Beləliklə, daha azad, daha güclü və şüurlu olma yolunda irəliləyirlər [5.Kocacık Faruk ve Gökkaya Bilican Veda, 2005; 206].

Amma hər halda ailədaxili əmək bölgüsü və bu əmək bölgüsünə görə qadınların ev işlərini axsatmaması və eyni zamanda işləməsi çox da isti qarşılanmır. Yaponiyada aparılan bir araşdırmada qadınların məişət vəzifələrinin əhəmiyyətli olduğu və bu düşüncə ilə qadınların iqtisadi sahədə məşğulluq və irəliləyişlərinə mənfi münasibət bəslədikləri görüldü.

Patriarxal mədəniyyətdə qadınların öz biznesinə başlaması, hətta bizneslərini genişləndirməsi, sahibkarlıq fəaliyyətinə başlamaqla ölkə iqtisadiyyatına töhfə verməsi qeyri-adi qarşılanmaqdadır. Bu vəziyyətin ailə başçısı vəzifəsində kişilərin statusuna xələl

gətirdiyini düşünürlər ki, qadınların iş həyatında fəal olmaları mühit tərəfindən təsdiqlənmir və təcrid olunur.

Sahibkar qadın iqtisadiyyat bazarında olan, öz işində dayanan, tək işləyən və ya işçi götürən, xidmət və ya mal istehsal edib alıcıya təklif edən, fövqəladə halların öhdəsindən gələ bilən, yeni şəraitə tez uyğunlaşa bilən, öz işinin öhdəsindən gəlməyə çalışan və sektorda təcrübə qazanan biri olaraq izah edilir [6.Köşker 2004; 48].

Başqa bir tərifə görə, qadın sahibkar biznesi quran və idarə edən qadın kimi müəyyən edilir. Sahibkar qadınlar yenilikçi, özünə güvənən və yaradıcı xüsusiyyətləri olan, iqtisadi cəhətdən azad olmaq üçün sosial və ailə həyatını birlikdə idarə edə bilən, müstəqil və ya əməkdaşlıqla təşkilat qurub davam etdirərək başqaları üçün xidmət və məhsul yaradan, iş imkanları təklif edən şəxslərdir. Aparılan araşdırmalara əsasən müəyyən edilib ki, əksər ölkələrdə sahibkar qadınların çoxu ailəsi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar, idarəçilik, rəhbərlik vəzifələrində işləyənlər və yaxşı təhsil almış şəxslərdir. Sahibkarlıqda gender əsaslı maneələrin olması qadın sahibkarlığının inkişafında çətinliklər yaradır. Buna baxmayaraq ailələri tərəfindən dəstəklənən və özünə güvənən sahibkar qadınların kişi sahibkarlarından daha yaxşı fəaliyyət göstərdiyi öz təsdiqini tapmışdır.

Fəaliyyət növü eyniləşdirilən sahibkar qadın və idarəçi rəhbər qadının əslində məşğulluq səviyyələri bir-birindən fərqlənir. Sahibkar qadın biznesini özü qurmağa öhdəlik götürən, biznesindən risk və qazancları öz üzərinə götürən şəxsdir. Hər sahibkar qadın eyni zamanda idarəetmə qabiliyyətinə malik olduğu halda, hər rəhbərlik vəzifəsində olan qadın sahibkar deyil.

Aparılan araşdırmalarda müəyyən edilmişdir ki, ilk dəfə sahibkarlığa addım atan, öz biznesini qurmağa başlayan və ya biznesini böyütmək istəyən xanımların gözləntiləri bir o qədər də yüksək olmur. Gözləntilərini aşağı səviyyədə saxlamaqlarının əsas səbəbo nümunə götürüləcək uğurlu sahibkar xanımların azlıq təşkil etməsidir. Lakin bu sektorda gözləntilərini aşağı səviyyədə tutmaları xanımların bu sahədə daha az xəyal qırıqlığı yaşamalarına səbəb olur ki, bu da yenidən sahibkarlıq üçün cəhd etməkdə maneçilik törətmir.

Sahibkarlıq təkcə iqtisadi baxımdan deyil, həm də siyasi, sosial və sosial-mədəni inkişaf baxımından əhəmiyyətlidir. Xüsusilə də son illərdə yoxsulluğun azaldılması və işsizlik probleminin özünüməşğulluq və sahibkarlıq fəaliyyəti ilə həll edilməsi bütün dünyada diqqət mərkəzindədir. Həmçinin işsizlik və yoxsulluğun azaldılması, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsində sahibkar qadınların rolu çox böyükdür.

Tədqiqatlar göstərir ki, iş həyatında müdir olaraq qadınlara kişilərdən daha çox üstünlük verilir. İşçilərin qadın müdirlərinin olmasına üstünlük vermələrinin bir çox səbəbi var. Bu səbəblərə aid edilir:

- qadınlar kişilərdən daha diqqətlidirlər və iş üçün daha çox səy göstərirlər;
- iş üçün tələb olunan təlimi daha yaxşı həyata keçirirlər;
- tədris aspüktləri yüksəkdir;
- yeni vəziyyətlərə daha tez adaptasiya olurlar;
- iş barəsində daha yaxşı ruhlandırıcı və təkan verici xarakterə malikdirlər;
- yaradıcıdırlar, həmçinin yeni ideyalara açıqdırlar;
- müşahidə qabiliyyətləri daha yüksəkdir;
- qadınların ünsiyyət bacarıqları kişilərdən daha uğurludur;
- problemi həll etmə qabiliyyətləri daha güclüdür.

Son illərdə iş həyatında xanımların fəaliyyətinin nisbətən artması xanımların müstəqil olmaq, dəyişdirilə bilən iş saatları, bacarıqlarından istifadə edərək nailiyyət əldə etmək və bu kimi bir sıra səbəblə öz bizneslərini qurmağa meyllidirlər. Az maaşla yorucu işdə işləmək əvəzinə öz şəxsi bizneslərini quraraq sahibkar olmağı seçən qadınların 1990-cı illərdən sonra iş həyatında böyük uğurlar, təcrübələr qazandığını, hətta kişilərin üstünlük

təşkil etdikləri sektorlarda da artıq fəaliyyətlərinin çoxaldığını və rəhbər olduqlarını belə görə bilərik.

Bir ölkədə nə qədər çox sahibkar varsa bir o qədər də ölkə inkişaf edir. Xüsusilə də, qadınların iş həyatında aktivliyi, sadəcə evdə və ailədə məhdudlaşaraq deyil, iqtisadi sahədə də fəallıqları nəticəsində ölkənin rifah səviyyəsi xeyli dərəcədə yüksəlir.

Qadın və kişi sahibkarlar arasında fərqlərin olması da qadın sahibkarlığının ayrıca nəzərdən keçirilməsini tələb edən elementdir. Bütün bu səbəblərə görə qadınların əməyi, qadınların məşğulluğu artırılmalı, qadınların sahibkarlıq fəaliyyəti təşviq edilməli, mövcud sahibkarların gücləndirilməsi üçün sosial və fərdi səviyyədə səmərəli siyasət aparılmalıdır.

Bu gün qadınların iş həyatında fəallığının günü-gündən artması həm özləri, həm də cəmiyyət üçün önəmlidir. Xüsusilə, istər ölkəmizdə, istərsə də dünyada sahibkar qadınların sayı günü-gündən artır. Bəs, qadınları sahibkarlığa sövq edən amillər hansılardır [1.Hilal Torun, Sivas 2019; 47]?

Qadınların niyə sahibkar olduqlarını araşdırarkən iki əsas faktor qeyd edilir: qadınları sahibkar olmağa cəlb edən amillər və qadınların sahibkar olması üçün təkan verici qüvvələr. Qadınların öz işini qurmasına təkan verən amillərə işsizlik, yararsız iş şəraiti, cinsə görə ayrı-seçkilik aid edilir. Öz işlərini qurmaq üçün xanımları cəlb edən amillər isə öz istəklərini reallaşdırmaq, müstəqil olmaq arzusu, öz işinin sahibi olmaq, maddi azadlıq, cəmiyyətdə sosial rollar arasında tarazlıq yaratmaq istəkləridir.

Təkan verici səbəblərə işdən narazılıq, iş yerlərində layiq olduqları dəyəri görməmə, pis iqtisadi şərait, nə qədər çalışsalar da əldə edə bilmədikləri yüksəlişlər də daxildir. Ən vacib hərəkət verici qüvvə isə gəlir əldə etmək istəyidir. Göründüyü kimi neqativ hallar qadınların sahibkar olması üçün təkan verici qüvvə olduqları halda, müsbət amillər qadınları sahibkarlıq fəaliyyətinə cəlb edir.

Kişi və qadın işçilər arasında maaş fərqləri şüşə tavan sindromu, yüksəlişlərin olmaması, qeyri-kafi ailə gəliri, ağır iş şəraiti, əlavə gəlir təmin etmə ehtiyacı sahibkarlıq fəaliyyətinə təsiredici amillərdir. Qadın sahibkarlığı ilə bağlı araşdırmaların ortaq cəhəti sahibkarlığa cəlb edən amillərin iqtisadi əsaslı olmasıdır.

Sahibkarlıqla bağlı siyasətlərin əsasını mövcud qadın sahibkarların səlahiyyətlərinin artırılması, qadınların sahibkarlığa həvəsləndirilməsi və yönləndirilməsi ideyası dayanır. Buna uyğun olaraq, son illərdə mediada uğurlu sahibkar qadınlarla bağlı xəbərlər təşviq edilmiş və qadın sahibkarların səlahiyyətlərinin artırılması üçün bir çox siyasi tədbirlər həyata keçirilmişdir.

Ümumiyyətlə, qadınları sahibkar olmağa yönləndirən faktorlaru bu cür sıralamaq olar: arzularını həyata keçirmək istəyi; uğurlu olmaq ehtiyacı; müstəqil işləmək istəyi; ailədən miras qalan iş yerinin olması; təhsil aldıqları sahədə xidmət etmək istəyi; maddi çətinliklər; qadınlar üçün məhdud iş imkanları; məşğulluqda ilk öncə kişilərə üstünlük verilməsi; qadınların evdəki ənənəvi rolların sahibkarlığa istiqamətləndirməsi; dəyişdirilə bilən iş saatlarının olması; əlavə gəlir təmin etmək ehtiyacı; keyfiyyətli həyat və yüksək sosial statusa sahib olmaq arzusu.

Qadınların iş həyatında üzləşdiyi problemlərin əsasını cəmiyyətin sosial, iqtisadi və mədəni strukturunda olan boşluqlar təşkil edir. Qadının sosial və mədəni mühitdəki rollarına dair stereotiplər, həddindən artıq iş yükü, maddi dəstək tapmaqda çətinlik, təhsil səviyyəsinin qeyri-kafi olması, şəxsi azadlıqlarından istifadə etmək istəyi, ailələrin reaksiyaları, iş həyatında etibarsızlıq kimi faktorlar qadınların sosial-mədəni mühitdə rolu ilə bağlı ortaya çıxan əsas problemlərdəndir. Kişilərə biznes qurmaq və sahibkarlıq baxımından dəstək olan sosial mühit qadınlar üçün maneədir. İş həyatında aktiv rol alan və ətrafı tərəfindən bəyənilməyən qadın evdən kənarda işləmək və ya öz işini qurmaq cəhdində sosial və maddi dəstək tapa bilməyərək bir çox problemin öhdəsindən gəlmək məcburiyyətində qalır. Cəmiyyətdə kişilərin üstünlük təşkil etdiyi quruluşda qadınlar iş

həyatında həyat yoldaşlarının maneələrinin öhdəsindən gəlir və bu maneələri aradan qaldırmaq üçün daha çox çalışmalı olurlar. Çünki kişilər qadınların iş həyatına addım atmasın patriarxal cəmiyyətdə ləyaqətinin və statusunun itirilməsi kimi görürlər.

Qadın sahibkarların qarşılaşdıqları mikro problemlərə rol münaqişəsi, gender ayrı-seçkiliyi, iş həyatında etibarsızlıq və təcrübə çatışmazlığı, makro problemlər isə kapitalın, kredit imkanlarının, peşə hazırlığının və təşkilinin səviyyəsinin təmin edilməsidir.

Nə qədər sahibkar olmaq istəkləri olsa da, qarşılaşdıqları çətinliklər bəzən cəsarətləndirdiyi hallarda, bəzən də qadınları iş həyatından uzaqlaşmağa vadar edir. Sözsüz ki, iş həyatından çəkindirən səbəblərin ən başlıcası sosial-mədəni mühitdəki stereotiplərin olmasıdır.

-İlk növbədə qadınların hazırkı məişət rolları onların yükünü artırır. Buna görə də bütün enerjisini işinə verə bilmir. Bu vəziyyətin özü məhz uğura böyük mane yaradır.

-Qadınların öz şəxsi əmanətləri olmadığından, ailəsindən, həyat yoldaşından maddi dəstək almaları mütləq şərtdir. Çünki onlar bank krediti üçün girov və ya zamin göstərməlidirlər.

-Kişilərin üstünlük təşkil etdiyi iş dünyasında qadınlar məhdudlaşdırılır və çox vaxt ümidsizliyə düçar olurlar.

-Qadınların qətiyyəti və uğur qazanmaq istəyi ambisiya kimi qəbul edilir və kişi həmkarları tərəfindən kənarlaşdırılır.

-Qızların təhsilinə önəm verilmədiyi və onlara təzyiq edilərək böyüdüldüyü üçün qadınlar daha çox risk səviyyəsi aşağı olan və iş saatı az olan işlərə meyl edirlər.

Mövcud olan təhsil proqramları qadınların sahibkarlıq aspektini inkişaf etdirməyə qədər də meylli deyil. Bu baxımdan sahibkar qadınlar üçün təlim proqramları daha çox olmalı, bu təlimlər sahibkarlıq infrastrukturu yaradacaq şəkildə təşkil edilməli, qadınların peşəkar çatışmazlıqlarını tamamlamağa yönəldilməlidir.

Qadınlar onlara qarşı yönəlmiş bütün maneələrə baxmayaraq, iqtisadi həyatda öz varlıqlarını getdikcə daha çox hiss etdirirlər. Bu səbəblə qadınların uğurlarının qarşısını almaqdansa, iş həyatında sülh yolu ilə birlikdə çalışmağın yollarını axtarmaq daha məqsədəuyğun qəbul edilir.

## ƏDƏBİYYAT

1. Hilal Torun, Sivas (2019).Toplumsal cinsiyet bağlamında kadın girişimcilere dönük tutumların sosyolojik olarak incelenmesi, Hilal Torun, Sivas 2019.
2.Bhasin, Kamla (2003). Toplumsal Cinsiyet: Bize Yüklenen Roller, Çeviren: Ayşe Coşkun, Kadav Yayınları, İstanbul.
3.Mungan, Seylan (2013). "Kadın Girişimcilik Değerleri İle Kadın Girişimcilik Algısı Arasındaki İlişkide Girişimcilik Eğitimlerinin Rolü", Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yüksek Lisans Tezi, İstanbul.
4.Mutlu, Sevda (2015). Geleneksel Kimlikle Modern Kimlik Arasında Sıkışan Kadınlar, Türkiye Alim Kitapları.
5.Kocacık Faruk ve Gökkaya Bilican Veda (2005). "Türkiye'de Çalışan Kadınlar ve Sorunları", C.Ü. İktisadi ve İdari Bilimler Dergisi, Cilt 6, Sayı 1.
6.Köşker, Saime (2004). "Sakarya'da Kadın Girişimciliğinin Sorunlarının İncelenmesi", Sakarya Üniversitesi Sosyal Bilimler Enstitüsü Yüksek Lisans Tezi, Sakarya.
7.Soysal, Abdullah (2010). Kadın Girişimcilerin Özellikleri, Karşılaştıkları Sorunlar ve İş Kuracak Kadınlara Öneriler: Kahramanmaraş İlinde Bir Araştırma, Kilis 7 Aralık Üniversitesi İİBF Dergisi, Sayı 1, Cilt No 5, ss. 71-95.

# GENDER BƏRABƏRLİYİ VƏ SAHİBKARLIQ

*Hüseynzadə Aysun*

## XÜLASƏ

İqtisadi inkişafın əsas göstərici olan sahibkarlıq həm dünyada, həm də ölkəmizdə xüsusi əhəmiyyət daşıyır. İqtisadi artımın, əhalinin rifah səviyyəsinin yüksəldilməsi üçün sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və inkişaf etdirilməsi önəmli faktordur. Xüsusilə də sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçdikdən sonra sahibkarlıq fəaliyyəti beynəlxalq səviyyədə inkişaf etməyə başlamışdır. Sahibkarlıq fəaliyyəti dövlət tərəfindən nə qədər çox dəstəklənirsə həmin dövlətin iqtisadiyyatı da bir o qədər də inkişaf edir. Həmçinin qeyd etməliyik ki, sahibkar qadınların dəstəklənməsi həm iqtisadiyyatın, həm də ölkənin rifah səviyyəsinə yüksək təsir edir. Gender ayrı-seçkiliyinə görə sahibkarlıqda qadınların irəli getməsində bir sıra maneələr, çətinliklər yaransa da, zaman-zaman bu stereotiplər qırılmağa və qadın sahibkarlarla bağlı düşüncələrin dəyişilməsi halları baş verir. İş həyatında rastlanan gender əsaslı maneələr xanımların öz bizneslərini qurmağa təkan verir. Qarşılaşdıqları müxtəlif sosial-mədəni, iqtisadi problemlər qadınların sahibkarlıq fəaliyyətində maneələr yaratsa da, bu çətinliklərə qalib gəlib uğurla öz sahibkarlıq fəaliyyətinə davam edən qadınların sayı artmaqdadır.

# ГЕНДЕРНОЕ РАВЕНСТВО И ПРЕДПРИНИМАТЕЛЬСТВО

*Гусейнзаде Айсун*

## АННОТАЦИЯ

Предпринимательство, являющееся основным показателем экономического развития, имеет особое значение как в мире, так и в нашей стране. Расширение и развитие предпринимательской деятельности является важным фактором экономического роста и повышения уровня благосостояния населения. Особенно после перехода от индустриального общества к информационному предпринимательская деятельность стала развиваться на международном уровне. Чем больше предпринимательская деятельность поддерживается государством, тем больше развивается экономика этого государства. Также следует отметить, что поддержка женщин-предпринимателей оказывает высокое влияние на уровень благосостояния как экономики, так и страны. Несмотря на наличие ряда препятствий и трудностей в продвижении женщин в сфере предпринимательства из-за гендерной дискриминации, время от времени эти стереотипы ломаются и имеют место случаи изменения представлений о женщинах-предпринимателях. Гендерные барьеры в трудовой жизни побуждают женщин открывать собственный бизнес. Хотя различные социально-культурные и экономические проблемы, с которыми они сталкиваются, создают препятствия для предпринимательской деятельности женщин, число женщин, преодолевающих эти трудности и успешно продолжающих свою предпринимательскую деятельность, увеличивается.

# GENDER EQUALITY AND ENTREPRENEURSHIP

***Huseynzade Aysun***

## SUMMARY

Entrepreneurship, which is the main indicator of economic development, is of special importance both in the world and in our country. Expanding and developing entrepreneurial activity is an important factor for economic growth and raising the level of the population's well-being. Especially after the transition from the industrial society to the information society, entrepreneurial activity began to develop at the international level. The more entrepreneurial activity is supported by the state, the more the economy of that state develops. We should also note that supporting women entrepreneurs has a high impact on the level of well-being of both the economy and the country. Although there are a number of obstacles and difficulties in women's advancement in entrepreneurship due to gender discrimination, from time to time these stereotypes are broken and there are cases of changing thoughts about women entrepreneurs. Gender-based barriers in working life encourage women to start their own businesses. Although the various socio-cultural and economic problems they face create obstacles in women's entrepreneurial activities, the number of women who overcome these difficulties and successfully continue their entrepreneurial activities is increasing.

# QƏLƏBƏYƏ APARAN YOLDA AZƏRBAYCANIN GENİŞ MİQYASLI QARABAĞ SİYASƏTİ

***Qurbanova Fidan Mətləb***
***BDU-nun II kurs magistrantı***
***fidan_qurbanova_2018@mail.ru***

***Açar sözlər***: harizma, diplomatik, qətnamə, paket həlli, mərhələli həlli
***Ключевые слова***: харизма, дипломатический, разрешение, пакетное решение, поэтапное решение
***Key words***: charisma, diplomatic, resolution, package solution, phased solution

Azərbaycanın tarixi torpaqlarının işğalçı Ermənistan tərəfindən işğalı prosesindən sonra beynəlxalq təşkilatlar işğal faktı qarşısında ciddi addımlar atmaq, işğalçı Ermənistanı cəzalandırmaq əvəzində qeyri-müəyyən ibarələrdən ibarət qərar,qətnamə və bəyanatlarla kifayətləndilər. Belə ki, dünyada beynəlxalq miqyasda sülh və təhlükəsizliyin təminatçısı hesab olunan BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 822, 853, 874 və 884 saylı dörd qətnamə qəbul etdi. Qəbul edilən bu sənədlərdə Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunması tələbi qoyulur, lakin işğalçı tərəf kimi "yerli erməni qüvvələri" göstərilirdi. 884 saylı qətnamədə isə Ermənistana təklif olunurdu ki, "Dağlıq Qarabağ ermənilərinin qətnamələrə riayət etməsi üçün öz təsir imkanından istifadə etsin". Bu cür absurd sənədlərlə münaqişənin nizama salınması mümkün deyildi [7].

1993-cü il oktyabr ayının 3-də Heydər Əliyev ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu hadisə Azərbaycanın xarici siyasətində də dönüş nöqtəsi kimi qiymətləndirilir. Heydər Əliyevin xaricdə ölkəmizin müsbət imicini formalaşdırmaq və onun haqqında yaradılmış qeyri-obyektiv fikirlərin, xoşagəlməz miflərin dağıdılması, xarici dövlətlərlə əməkdaşlıq münasibətlərinin yaradılması, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədilə xarici ölkələrə etdiyi rəsmi səfərlər zamanla öz müsbət nəticələrini göstərməyə başlayırdı.

Ümumilli lider Heydər Əliyev Azərbaycanın xarici siyasət sahəsində fəaliyyət istiqamətlərini belə qiymətləndirirdi: "Azərbaycan Avropa ilə Asiyanın qovşağındadır, lakin həm Avropa, həm Asiya, həm də Qərb ölkələri ilə , dünyanın bütün ölkələri ilə xoş münasibətlər yaratmağa çalışıram. Əlbəttə, biz bu zaman əsas götürürük ki, bu münasibətlər hər hansı digər dövlət tərəfindən Azərbaycanın daxili işlərinə qarışmamaq prinsipini nəzərdə tutmalı, Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə, sərhədlərimizin toxunulmazlığına xələl gətirməməlidir. Bununla belə, Azərbaycan qonşu ölkələrlə daha sıx əlaqələr yaradılmasına böyük əhəmiyyət verir. Şimal qonşumuz Rusiya ilə, habelə bizimlə həmsərhəd olan Türkiyə və İranla aramızda normal münasibətlər var. Biz Gürcüstanla normal münasibətlər yaratmışıq, lakin aramızda böyük sərhəd olan Ermənistanla müharibə vəziyyətindəyik" [6].

Heydər Əliyev öz prezidentliyi dövründə dəfələrlə xarici ölkələrə rəsmi səfərlər təşkil etmiş, bununla da, onun əsas məqsədi xarici ölkələrlə iqtisadi əlaqələrin qurulması, dünyaya inteqrasiya və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətləri dünya birliyinə çatdırmaq idi. Azərbaycan-Türkiyə arasındakı münasibətlər isə hər zaman möhkəm olmuşdur. Türkiyə hər zaman Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini daima dəstəkləmiş və Ermənistanla bu münaqişə tənzim olunmayana qədər heç bir iqtisadi, diplomatik əməkdaşlıq etməyəcəyini qəti şəkildə bildirmişdir.

Eyni zamanda, Ulu Öndərin əsas məqsədlərindən biri də Azərbaycan Respublikasının beynəlxalq təşkilatlara inteqrasiya edilməsi prosesindən ibarət idi. Azərbaycan qısa müddət ərzində bir çox beynəlxalq təşkilatlara – BMT, ATƏT, İƏT, Türk Dövlətləri Birliyi, MDB,

Avropa Şurası, GUAM, QDİƏT və digər təşkilatların üzvü olmuşdur. Burada əsas məqsəd Azərbaycanın iqtisadi əlaqlərinin genişləndirilməsi, Dağlıq Qarabağ məsələsinin beynəlxalq arenada həllinə çalışmaq idi. Bu məqsədlə, Heydər Əliyev 1994, 1997 və 2000-ci illərdə BMT tribunasından çıxış etmiş və xalqımıza qarşı erməni terroru, onun nəticələri, 1 milyondan artıq qaçqın düşmüş vətəndaşlarımızın taleyi, BMT qətnamələrinin həllinin zəruriliyi kimi məsələləri beynəlxalq arenaya çatdırmışdır [5].

Bu proseslərin davam etdiyi müddətdə isə bəzi beynəlxalq qurumlar Ermənistan-Azərbaycan münaqişəsinin sabitlik vəziyyətinə keeçməsi, lakin onun tam həll edilməməsi sahəsində fəaliyyət göstərirdi. Belə ki, 1994-cü il mayın 4-5-də MDB-nin parlament nümayəndələri Bişkekdə toplaşmışdılar. Burada "Bişkek protokolu" adlanan sənəd hazırlandı. Bu sənədlə bağlı müzakirələrdən sonra may ayının 12-də atəşkəs rejimi qüvvəyə minmişdi. Atəşkəs rejiminin bərqərar olması daha çox beynəlxalq təşkilatların, ayrı-ayrı böyük dövlətlərin və Ermənistanın maraqlarına uyğun idi. Regionda böyük iqtisadi layihələri həyata keçirən Qərb dövlətləri və birinci növbədə ABŞ-a müharibənin alovlanması sərf etmirdi.

ATƏM (ATƏT-in) 1994-cü ilin dekabrında Budapeştdə keçirilmiş sammitində Minsk qrupunun idarə olunması ilə bağlı dəyişikliklər edilmiş, həmsədrlik institutu yaradılmışdı. Budapeşt sammitində Minsk qrupu qarşısında iki əsas vəzifə qoyuldu: atəşkəs rejiminin davam etdirilməsinə nail olmaq və silahlı münaqişənin dayandırılmasına dair silahlı sazişin imzalanması üçün danışıqlar aparmaq. Budapeşt sammitində ,həmçinin, münaqişənin nizama salınmasından sonra regiona aparıcı qüvvələrin yerləşdirilməsi ilə bağlı təklif də müzakirə edildi. Bununla bağlı, Yüksək Səviyyəli Planlaşdırma Qrupu (YSPQ) yaradıldı. YSPQ-nin mənzil-qərargahı Vyanada yerləşirdi [2].

ATƏT-in 1996-cı ilin dekabrında Lissabon sammiti təşkil edildi. Minsk qrupu 3 əsas prinsipi təklif etdi: Azərbaycan və Ermənistan ərazi bütövlüyünün tanınması; Azərbaycanın tərkibində yüksək idarəetmə dərəcəsi ilə Dağlıq Qarabağın hüquqi statusunun müəyyən edilməsi; Dağlıq Qarabağ və onun bütün əhalisi üçün təhlükəsizlik təminatının verilməsi. Bu sənəd 53 iştirakçı dövlət tərəfindən müdafiə olundu, lakin Ermənistan tərəfi veto qoydu. Beləliklə, sənəd sadəcə olaraq tövsiyə xaraterli bəyanat kimi qəbul olundu. Həmçinin, burada üç həmsədrdən (ABŞ, Rusiya, Fransa) ibarət yeni təşkilatı struktur formalaşdırıldı.

Həmsədrlər tərəfindən 1997-ci il iyulun 18-də "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş" adlanan "Paket həlli variantı" irəli sürüldü. Məzmun etibarilə bu variant bir paketdə birləşdirilən iki anlaşmadan ibarət idi. Sənəd Dağlıq Qarabağ ətrafındakı rayonların azad edilməsi ilə bölgənin özünü idarəetmə statusunun eyni vaxtda müəyyənləşdirilməsini nəzərdə tuturdu. Ermənistan Dağlıq Qarabağın müstəqilliyi üzərində israr edərək öz pozucu fəaliyyətini göstərdi. 1997-ci il dekabr ayının 2-də həmsədrlər "Mərhələli həll" variantını təqdim etdilər, lakin Ermənistanda dövlət çevrilişi baş verdi, bunun nəticəsi olaraq Ermənistan yenə də öz pozuculuq fəaliyyətini davam etdirdi. Bu nəzərdə tutulan "Mərhələli həll" variantına əsasən isə Dağlıq Qarabağın ətrafındakı rayonlar 5+1 prinsipi ilə (Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, sonra isə Kəlbəcər) azad edilməli idi. Laçının boşaldılması sonraya saxlanılırdı [2].

Ümumilli lider Heydər Əliyev 2001-ci ildən etibarən dəfələrlə görüşlərdə iştirak etdi. 2001-ci ilin mart ayında Parisdə Heydər Əliyev və Robert Koçaryan arasında danışıqlar həyata keçirildi. Lakin, bu danışıqlar Moskvanın İrəvana təzyiqləri nəticəsində heç bir nəticə vermədi.

2001-ci ildən başlayaraq, erməni tərəfi "xalq diplomatiyası"ndan istifadə etməyə çalışırdı. 2001-ci il sentyabrın əvvəlində İrəvan və Xankəndindən nümayəndə heyəti Bakıya gəldi. Bu görüşlər zamanı erməni tərəfi işğal faktına toxunmadan cəmiyyətlərarası dialoqların təşkili, iki xalq arasında düşmənçilik əhval-ruhiyyəsinin aradan qaldırılması ilə bağlı müzakirələrin aparılmasına üstünlüyü verirdi. Azərbaycan cəmiyyəti ermənilərin məkrli siyasətini anlayaraq kəskin etirazla çıxış etmişdi və onlar geri göndərilmişdi [3].

Heydər Əliyevin uzaqgörən və uğurlu siyasətinin davamçısı İlham Əliyev 2003-cü il oktyabr ayının 15-də xalq tərəfindən Azərbaycan Respublikasının prezidenti seçildi. İlham Əliyevin fəaliyyəti nəticəsində son 20 ildə ölkəmiz çox ciddi uğurlara imza atdı.Bütün bunların nəticəsi olaraq 44 günlük müharibə nəticəsində Azərbaycan öz doğma torpaqlarını geri qaytarmağa nail oldu. Çünki, 1992-1993-cü illərlə müqayisədə bugün Azərbaycan Respublikasında çox ciddi dəyişikliklər müşahidə olunur. Bu dəyişiklik ilk növbədə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərlə bağlıdır. Çünki, 30 il əvvəlki Azərbaycan ordusu ilə bugünki Azərbaycan ordusu arasında çox böyük fərqlər var. Azərbaycan bugün hərbi sahə ilə yanaşı, digər sahələrdə - iqtisadi, siyasi, sosial, mədəni və s. Ermənistandan dəfələrlə irəlidədir. Bunun əsas səbəbi son 30 ildə ölkədə həyata keçirilən məntiqi daxili və xarici siyasət xətti hesab olunur. Hansı ki, bu xəttin əsası Heydər Əliyev tərəfindən qoyulmuş və İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Biz bilirik ki, BMT dünyada sülh və təhlükəsizliyin təminatçısı hesab edillən əsas təşkilat hesab olunurdu. Lakin, bu təşkilat son onilliklərdə öz fəaliyyətini tam şəkildə realizə etmir. Bunun əsas nümunələrindən biri Dağlıq Qarabağ münaqişəsinin həlli bağlı BMT-nin fəaliyyətsizliyi olmuşdur. Qəbul edilən 4 qətnamə heç bir işə yaramadı və Azərbaycan Respublikası özü hərbi yolla bu məsələni həll etmək məcburiyyətində qaldı. Lakin, BMT-dən fərqli olaraq müharibə dövründə Azərbaycanı dəstəkləyən əsas təşkilatlardan biri Qoşulmama Hərəkatı olmuşdur. Onu da qeyd edək ki, bu təşkilat BMT-dən sonra dünyada ən böyük ikinci təşkilat hesab olunur. 2017-ci ildə Qoşulmama Hərəkatının Bakıda Xarici İşlər Nazirləri səviyyəsində konfransı, 2018-ci ildə Zirvə görüşü, 2023-cü ildə isə COVİD-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü təşkil edilmişdi. Bu təşkilat Dağlıq Qarabağ münaqişəsi ilə hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir.

Azərbaycanın inkişafının təmin olunmasında əsas səbəblərdən biri iqtisadi sahədə həyata keçirilən islahatlar olmuşdur. Belə ki, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi, güclü ordu yaradılması, dünya ölkələrinə inteqrasiya etmək üçün ölkə rəhbərliyi ən güclü mənbə olan neft amilindən istifadə etmişdir. Azərbaycanın neftinin dünya bazarına çıxarılması, neftdən gələn gəlirlər hesabına güclü ölkə iqtisadiyyatının formalaşdırılması ,eyni zamanda, ordunun müasir silahlarla təmin edilməsi bu sahədə atılan ən ciddi addımlar idi. Bütün bu tədbirlər öz əksini 1994-cü il sentyabr ayının 20-də imzalanan "Əsrin müqaviləsi" adlı beynəlxalq əhəmiyyətli sənəddə tapdı [1].

Ölkəmizdə dövlət quruculuğunda həyata keçirilən ən mühüm tədbirlərdən biri Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması olmuşdur. Ölkəmizdə bu illər ərzində "Silahlı Qüvvələr haqqında", "Hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" və digər bu kimi çoxlu sayda qanunlar qəbul edilmişdir. 1999-cu il yanvarın 20-də Hərbi Akademiya yaradılır. Ümumilikdə, 1996-2001-ci illərdə Azərbaycanda Silahlı Qüvvələrin hərbi Akademiyası, Təlim və Tədris Mərkəzi, Azərbaycan Ali Hərbi Məktəbi, orta hərbi tibb məktəbi və digərləri yaradıldı. 2005-ci ildə 16 dekabrda Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında Prezident tərəfindən sərəncam imzalandı [4].

Dövlət büdcəsindən ordu quruculuğuna ayrılan vəsaitin artırılması daim diqqət mərkəzində olmuşdur. 2003-cü ildə cəmi 135 milyon olan hərbi büdcəmiz 2010-cu ildə 2 milyard 150 milyon dollara, 2011-ci ildə 3 milyard 300 milyon dollara, 2014-cü ildə 3 milyard 700 milyon dollara, 2015-ci ildə 5 milyard dollara, 2018-ci ildə 1,6 milyard dollara bərabər olub.

Yuxarıda qeyd etdiyimiz kimi 30 illik həsrətdən sonra Azərbaycanı qələbəyə aparan uğurlu siyasətin digər nümayəndəsi Prezident İlham Əliyev hesab olunur. İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurunu təmin edən iki fundamental səbəb var. Bunlardan birincisi onun Heydər Əliyev ideyalarına sədaqəti, bu ideyaların həyata keçirilməsinin etibarlı təminatçısı olmasıdır. Digər əsas səbəb isə onun yeni tipli, müasir təfəkkürlü siyasətçi olmasıdır.

## ƏDƏBİYYAT

1. İsmayılov Faiq. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər. Bakı: 2016, 176 s.
2. İsmayılova Nərminə. Dağlıq Qarabağ münaqişəsi həllini gözləyən problem kimi. Bakı: 2010, 170 s.
3. Qarabağ: Bildiklərimiz və bilmədiklərimiz. Bakı: Qafqaz Universiteti. Beynəlxalq münaqişələri araşdırma mərkəzi nəşrləri, 2010, 216 s.
4. Qarabağ dastanı. Otuz ilin həsrəti – 44 günün zəfəri. Bakı: 2021, 528 s.
5. Məmmədov Sadir, Məmmədov Tural. Qarabağ: Mif və Həqiqət. Bakı: 2022, 480 s.
6. Mirzəzadə Aydın. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: tarixi, mövcud durum və həlli perspektivləri. Bakı: 2015, 208 s.
7. Sadıqov Oqtay. Ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı canlı xatirələrdə. Bakı: 2019, 44 s.

## QƏLƏBƏYƏ APARAN YOLDA AZƏRBAYCANIN GENİŞMİQYASLI QARABAĞ SİYASƏTİ

***Qurbanova Fidan***

### XÜLASƏ

Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan torpaqlarını işğal etmiş və bu torpaqları sülh yolu ilə geri qaytarmaq istəmirdi. Beynəlxalq təşkilatlar, böyük dövlətlər məsələnin həllində heç bir ciddi addım atmırdılar. Əslində, işğalçı Ermənistan beynəlxalq hüquq normalarına uyğun olaraq bütün beynəlxalq təşkilatlardan xaric edilməli, beynəlxalq münasibətlərdən təcrid olunmalı və ona sanksiyalar tətbiq olunmalı idi. Lakin, beynəlxalq təşkilatlar, böyük dövlətlər bunu etmək istəmirdilər, əksinə işğalçı Ermənistana yardım göstərməkdə davam edirdilər. Bu səbəbdən, Azərbaycanın tək çıxış yolu müharibə yolu ilə öz torpaqlarını geri qaytarmaq oldu.

## ИСТОРИЯ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО КОНФЛИКТА – СОЦИАЛЬНЫЕ И ГЕОПОЛИТИЧЕСКИЕ КОРНИ

***Гурбанова Фидан***

### АННОТАЦИЯ

Армения оккупировала земли Азербайджана почти 30 лет и не хотела возвращать эти земли мирным путем. Международные организации и крупные государства не предприняли серьезных шагов для решения проблемы. По сути, в соответствии с нормами международного права оккупировавшая Армению должна была быть исключена из всех международных организаций, изолирована от международных отношений , и к Армении должны были быть применены санкции. Однако международные организации и крупные державы не хотели этого делать, наоборот, продолжали оказывать помощь оккупирующей Армении. По этой причине единственным выходом для Азербайджана было возвращение своих земель путем войны.

## HISTORY OF ARMENIA-AZERBAIJAN CONFLICT – SOCIAL AND GEOPOLITICAL ROOTS

***Gurbanova Fidan***

### SUMMARY

Armenia occupied the lands of Azerbaijan for nearly 30 years and Armenia did not want to return these lands peacefully. International organizations and big states did not take any serious steps to solve this issue. In fact, in accordance with the norms of international law, occupying Armenia should have been remove from all international organizations, isolated from international relations and sanctions should have been apply against Armenia. However, international organizations and major powers did not want to do this, on the contrary, they continued to provide comprehensive assistance to the occupying Armenia. Therefore, Azerbaijan`s only way out was to return its lands through war.

# SOSİAL İŞ

## EVSİZ VƏ BAXIMSIZ UŞAQ VƏ YENİYETMƏLƏRLƏ SOSİAL İŞDƏ ABŞ TƏCRÜBƏSİ

***Salmanova Səlmi Elşən qızı***
***BDU-nun II kurs magistrantı***
***salmisalmanova16@mail.ru***

***Açar sözlər:*** ABŞ, evsiz və baxımsız uşaq və yeniyetmələr, küçə həyatı, sosial xidmətlər, sosial işçilər, QHT-lər, proqram
***Ключевые слова:*** США, бездомные и безнадзорные дети и подростки, уличная жизнь, социальные службы, социальные работники, НГО, программа
***Keywords:*** USA, homeless and neglected children and adolescents, street life, social services, social workers, NGOs, program.

BMT-nin məlumatına görə hal-hazırda dünyada təxminən 150 milyon küçə həyatına məruz qalan uşaq var [1]. Buna görə də deyə bilərik ki, evsiz və baxımsız uşaq və yeniyetmələr sosial problemi nəinki milli səviyyədə, eyni zamanda beynəlxalq səviyyədə də diqqəti cəlb edir. Dünya ölkələrinə nəzər yetirdikdə görə bilərik ki, hər bir ölkə özünəməxsus şəkildə bu problem ilə mübarizə aparır. Əksər ölkələr bir-birilərinin təcrübəsinə müraciət edirlər. Sosial xidmət anlayışının ilk yarandığı ölkələrdən biri olan Amerika Birləşmiş Ştatları evsiz və baxımsız uşaq və yeniyetmələrlə sosial iş sahəsində zəngin təcrübəyə malikdir.

Amerika Birləşmiş Ştatlarında evsiz və baxımsız uşaq və yeniyetmələr probleminə nəzər yetirdikdə görə bilərik ki, bu problem çox aktualdır. Evsiz və baxımsız uşaq və yeniyetmələr isə əksər hallarda küçə həyatının qurbanlarına çevrilirlər. ABŞ-da küçə həyatına məruz qalan uşaq və yeniyetmələr dedikdə küçədə yaşayan və yaxud işləyən uşaqlar və yeniyetmələr nəzərdə tutulur. UNİCEF küçə həyatına məruz qalan uşaqları 3 - kateqoriyaya ayırır [2].

1. “Küçədə yaşayan”: Küçədən başqa evi olmayan, ailəsi olmayan uşaqlar və yeniyetmələr buraya daxildir. Onlar bir yerdən digər yerə köçür, sığınacaqlarda, tərk edilmiş binalarda yaşayırlar.
2. “Küçədə işləyən”: Mütəmadi olaraq ailələrini ziyarət edən və hətta hər gecə yatmaq üçün evə qayıda bilən, lakin evdə yoxsulluq, istismar, cinsi və ya fiziki zorakılıq səbəbindən əksər günləri və bəzi gecələri küçədə keçirən uşaqlar və yeniyetmələr bu qrupa daxildir. Küçədə işləyən uşaqlar ailələri və ya özləri üçün gəlir əldə etmək məqsədilə vaxtının çox hissəsini küçələrdə işləməklə keçirən uşaqlardır. Bu uşaqların gecələri qayıtmaq üçün evi var və əksər hallarda küçələrdə yatmırlar.
3. “Küçədəki ailənin bir hissəsi”: Bu uşaqlar və yeniyetmələr ailələri ilə birlikdə səkilərdə, küçələrdə və ya şəhər meydanlarında yaşayırlar. Onlar yoxsulluq, müharibələr və ya təbii fəlakətlər səbəbindən küçə həyatına məruz qalırlar. Belə ailələr çox vaxt köçəri həyat sürür, əşyalarını özləri ilə aparırlar. Bu vəziyyətdəki uşaqlar əksər hallarda ailələrinin digər üzvləri ilə birlikdə küçələrdə işləyirlər. Ailələri ilə birgə küçədə yaşayan və işləyən uşaq və yeniyetmələr ABŞ-da bütün evsiz əhalinin 30 faizini təşkil edir.

Milli sorğuya görə Amerika Birləşmiş Ştatlarında 2.5 milyondan çox evsiz və baxımsız uşaq və gənc var [3]. Bu statistika hər 30 uşaq və yeniyetmədən birinin küçə həyatına məruz qalması deməkdir. Eyni zamanda araşdırmalar onu göstərir ki, bu uşaq və yeniyetmələrin sayı ildən-ilə artmaqdadır. Əlbəttə ki, bu uşaq və gənclər yoxsulluq, ailədaxili münaqişələr, valideynlərin laqeydliyi, istismar, valideynlərin ölümü, zorakılıq

vəs. kimi bir çox səbəblərdən evsiz və baxımsız hala düşürlər. Evsiz və baxımsız hala düşən uşaq və gənclər isə narkotik vasitələrdən, alkoqoldan asılılıq, pis vərdişlərə yiyələnmək, cinsi istismar kimi bir çox risklərlə üzləşirlər. Tədqiqatlar isə onu göstərir ki, bu uşaq və yeniyetmələrin 90%- i heroin, kokain, spirtli içkilərin alüdəçisinə çevrilirlər. Belə uşaqlar və yeniyetmələr təhsildən yayınırlar. Bu vəziyyət onların psixologiyasına mənfi təsir göstərir.

Amerika Birləşmiş Ştatlarında evsiz və baxımsız uşaq və yeniyetmələr probleminin aktuallağını nəzərdən keçirdikdən sonra isə bir sıra suallar ortaya çıxır: "Amerika Birləşmiş Ştatlarında evsiz və baxımsız uşaq və yeniyetmələr üçün hansı sosial xidmətlər vardır?", "Bu sosial xidmətlər necə və kim tərəfindən təklif olunur?", "Küçə həyatına məruz qalmış, evsiz və baxımsız halda olan uşaq və yeniyetmələr hansı müəssisələrdə, sığınacaqlarda reabilitasiya olunurlar?" vəs.

Amerika Birləşmiş Ştatları sosial iş təcrübəsində evsiz və baxımsız uşaq və yeniyetmələrə xidmət göstərilərkən bəzi qaydalara, hüquqi aktlara əsaslanılır. Bu qaydalar evsiz və baxımsız, küçə həyatına məruz qalmış uşaq və yeniyetmələrlə sosial iş zamanı hansı tədbirlərin görülməsini, necə müdaxilələr edilməsini və onlara necə köməklik göstərilməsini müəyyən edir.

Bu qaydalarda əks olunur ki, evsiz və baxımsız uşaq və yeniyetmələrə sosial xidmətlər 3 səviyyədə həyata keçirilə bilər.

1) Fərdi səviyyə.
2) Yerli icma səviyyəsi.
3) İcmadan kənar səviyyə.

Ehtiyaclara və problemlərə fərdi səviyyədə cavab vermək hazırda narkotik maddələrdən istifadə edən, yaxın gələcəkdə onlardan istifadə etmək riski olan və ya cinsi və reproduktiv sağlamlıq problemləri olan evsiz və baxımsız uşaqların əsas diqqət mərkəzində olmasını təmin edir. Bu səviyyədə iş həyata keçirərkən küçə həyatına məruz qalmış uşaq və yeniyetmələrə qrup şəklində və yaxud fərdi şəkildə xidmət göstərilə bilər. Fərdi səviyyədə tətbiq olunan strategiyalara bacarıqların formalaşdırılması, məsləhətlərin verilməsi və səhiyyə xidmətlərinə əlçatanlılığın yaxşılaşdırılması daxildir.

Yerli icmalar bəzən öz sakinlərinə kömək etmək üçün proqramlar həyata keçirirlər. Bu proqramlar, adətən, sağlamlıq problemlərinin aradan qaldırılmasına, cəmiyyətin inkişafına yönəlir. Evsiz və baxımsız halda olan uşaq və yeniyetmələrə icma səviyyəsində də bir çox xidmətlər göstərilir. Məsələn, icma öz ərazisində evsiz və baxımsız halda olan uşaqları və gəncləri müvəqqəti sığınacaqlar, geyim, qida vəs. ilə təmin edir.

İcmadan kənar müdaxilələr isə bütünlükdə ölkəyə, müxtəlif ölkələrə təsir edəcək müdaxilələrdir. Sosial işçilər bunu ilk növbədə vəkillik yolu ilə edə bilərlər. Bu cür fəaliyyətlər regional, milli və hətta beynəlxalq ola bilər və nəticələri yerli əraziyə birbaşa və ya dolayısı ilə təsir edə bilər. Qanunların hazırlanması, dövlət təşkilatlarına müraciətlərin edilməsi vəs. buraya aiddir.

Evsiz və baxımsız uşaq və yeniyetmələr küçə mədəniyyətinə xas olan bir çox riskli davranışlara meyilli olurlar. Bu səbəbdən amerikalı sosial işçilər belə hesab edirlər ki, onların cəmiyyətə adaptasiyası təmin etmək məqsədilə bacarıqların formalaşdırılması prosesi çox vacibdir. Bacarıqların yaradılması bir sıra strukturlaşdırılmış fəaliyyətlər vasitəsilə öyrənmənin asanlaşdırılması prosesidir. Bu, küçə həyatına məruz qalan uşağı gündəlik həyatda yeni və ya təkmilləşdirilmiş strategiyalarla təchiz etmək üçün nəzərdə tutulub. Bir çox bacarıq növləri küçə həyatına məruz qalan uşağa sağlam seçimlər həyata keçirməyə kömək edə bilər. Bu bacarıqlara daxildir: həyat bacarıqları, praktiki bacarıqlar, icra bacarıqları, peşə bacarıqları vəs .

Həyat bacarıqları dedikdə isə fərdlərə gündəlik həyatın tələblərini qarşılamaq və problemlərinin öhdəsindən gəlmək imkanı verən adaptiv və müsbət davranış bacarıqları nəzərdə tutulur. Bu bacarıqlardan bəziləri aşağıda qeyd olunur:

1. Qərar vermə və problem həll etmə.
2. Yaradıcı düşüncə və tənqidi düşüncə.
3. Ünsiyyət və şəxsiyyətlərarası bacarıqlar.
4. Özünü dərk etmə və empatiya.
5. Emosiyalar və streslə mübarizə.

Bir sözlə, ABŞ sosial iş təcrübəsində evsiz və baxımsız uşaq və yeniyetmələrə göstərilən sosial xidmətin başlıca istiqamətlərindən biri bacarıqların formalaşdırılmasıdır. Bu bacarıqlara sahib olan uşaq və yeniyetmələr başqaları ilə ünsiyyət qurmaqda, cəmiyyətə adaptasiyada, problemlərinin öhdəsindən gəlməkdə daha uğurlu olurlar.

ABŞ sosial iş təcrübəsində evsiz və baxımsız uşaq və yeniyetmələrə göstərilən sosial xidmətin formalarından biri də məsləhətvermələrdir. Hər hansı məsləhət verməzdən əvvəl sosial işçi təlim keçməli və ya evsiz və baxımsız uşaq və yeniyetmələrin məsləhətə ehtiyacı olduqda onlara müraciət edə biləcəyi resurs şəxsləri və ya müəssisələri bilməlidir. Məsləhətvermə küçə həyatına məruz qalan uşaq və yeniyetmələr arasında xüsusilə cinsi zorakılıq və ya zorakılığın digər formaları kimi böhran dövrlərində vacibdir.

Məsləhətvermənin məqsədləri aşağıdakılardır:

Ünsiyyəti gücləndirən etibarlı bir əlaqə qurmaq;

Böhran vəziyyətində olan uşağı aktiv olmağa və tövsiyə olunan müdaxilələrə görə məsuliyyət daşımağa təşviq etmək;

Uşaq və yeniyetmənin qorxusunu və yaxşılaşması üçün lazım olan xidmətlərə inamsızlığını azatmaq;

Emosional dəstək vermək.

Yuxarıda qeyd olunan məsləhətvermə, yeni bacarıqların formalaşdırılması, müxtəlif səviyyələrdə müdaxilələr etmək kimi bir çox sosial xidmətlərin göstərilməsində müxtəlif ştatlarda fəaliyyət göstərən QHT-lər də vacib rol oynayır. Qeyd etmək lazımdır ki, ABŞ-da küçə həyatına məruz qalan uşaq və yeniyetmələrin sosial problemlərinin aradan qaldırılmasında, onlara sosial xidmətin göstərilməsində QHT-lərin rolu danılmazdır. Müxtəlif ştatlarda fəaliyyət göstərən QHT-lərin məqsədləri demək olar ki, eynidir. ABŞ-dakı evsiz və baxımsız uşaq və yeniyetmələrə Uşaqların Sığınacağı (The Children’s Shelter ), Dünya Uşaqlıq Fondu (The World Childhood Foundation), SOS Uşaq Kəndləri (SOS Children's Villages) kimi bir çox QHT -lər və təşkilatlar xidmət göstərirlər.

Belə QHT-lərdən biri də Dünya Uşaqlıq Fondudur (The World Childhood Foundation). Adətən, sadəcə Uşaqlıq (Childhood) kimi xatırlanan Dünya Uşaqlıq Fondu 1999-cu ildə İsveç Kraliçası Silvia tərəfindən bütün dünyada risk altında olan uşaqları tapmaq və onlara dəstək olmaq məqsədi ilə yaradılmışdır. Bu təşkilat uşaqların cəmiyyətə yenidən inteqrasiyası məqsədilə həyata keçirilən layihələri dəstəkləyir. Evsiz və baxımsız uşaq və yeniyetmələr Dünya Uşaqlıq Fondunun diqqət mərkəzindədir. Məsələn, Fondun dəstəyilə evsiz və baxımsız uşaqlara zərurət olduqda ilk addım olaraq tibbi və sosial yardım birbaşa küçədə və ya yerləşdirildikləri xəstəxanada, mərkəzdə təklif edilir. Xüsusilə, qış aylarında küçə həyatına məruz qalmış uşaq və yeniyetmələr xəstə olur və onların tibbi qayğıya daha çox ehtiyacı olur. Küçə həyatına məruz qalmış uşaqların və yeniyetmələrin əksəriyyəti narkotik maddələrdən və yaxud alkoqoldan asılı hala düşürlər. Narkomaniyanın müalicəsi və reabilitasiyası üçün bildiyimiz kimi çox vaxt lazımdır. Belə maddələrin alüdəçisi olmuş uşaq və yeniyetmələrə bu təşkilatda xüsusi xidmətlər göstərilir və onlar küçə mədəniyyətinə xas olan bu vərdişləri tərgitmələri üçün aylarla müalicə alırlar. Bu müddət ərzində uşaq və yeniyetmələrə sosial-tibbi və sosial-psixoloji xidmətlər göstərilir. Küçə həyatına məruz qalan uşaqların çoxu ümumiyyətlə məktəbə getməmişlərsə, repetitorluq və təhsil üçün də yardıma

ehtiyacları olur. Bu səbəbdən də onlara mütəxəssislər tərəfindən sosial-pedaqoji xidmətlər göstərilir. Evsiz və baxımsız uşaq və yeniyetmələrin ev tapmaq problemi müxtəlif yollarla həll olunur. Bəzi uşaqların gedəcək evi var (nənə-baba, bibi/əmi, qonşu və s.), digərləri isə müəyyən müddətə və ya daimi olaraq himayədar ailəyə verilir, bəziləri üçün isə ən yaxşı alternativ müstəqil yaşayış yeri tapmaqdır.

Beləki, eyni zamanda ABŞ-ın Minnesota şəhərində evsiz və baxımsız gənclərə xidmət göstərən Dünya Uşaqlıq Fondu (The World Childhood Foundation) bildirir ki, Gənclər üçün Körpü təşkilatı ilə əməkdaşlıq edərək Minneapolisdə evsiz və küçə həyatına məruz qalmış LGBTQ+ yeniyetmələr və gənclər üçün böhrana müdaxilə sistemi yaratmaq məqsədilə səyyar xidmət yaratmağı planlaşdırırlar. Dünya Uşaqlıq Fondu (The World Childhood Foundation) Safe Horizon ilə əməkdaşlıq edərək Manhettenin yuxarı hissəsindəki Uşaq Müdafiə Mərkəzlərində və 60%-i LGBTQ+ kimi müəyyən edilən evsiz və baxımsız yeniyetmə və gənclər üçün müraciət mərkəzlərində yeni xidmətlər təklif edəcək.

1949-cu ildə Avstriyada əsası qoyulmuş SOS Uşaq Kəndləri (SOS Children's Villages) baxımsız, valideyn himayəsindən məhrum olmuş uşaqları sosial qayğı ilə təmin edən QHT-lərdən biridir. Eyni zamanda bu QHT risk altında olan uşaq və yeniyetmələr üçün sağlam və təhlükəsiz ətraf mühit yaradır və onların hüquqlarını müdafiə edir. ABŞ-ın Florida və İllinois ştatlarında fəaliyyət göstərir. Evsiz və baxımsız uşaqlar və yeniyetmələr SOS Uşaq Kəndlərindəki sığınacaqlara yerləşdirilir və onlara sosial-tibbi, sosial-psixoloji, sosial-pedaqoji vəs. kimi müxtəlif xidmətlər göstərilir.

QHT-lərlə yanaşı ABŞ hökuməti evsiz və baxımsız uşaq və yeniyetmələrə sosial xidmətin göstərilməsində və sosial siyasətin formalaşdırılmasında fəal iştirak edir. Evsiz və baxımsız yeniyetmələr və uşaqların həyat səviyyəsini yaxşılaşdırmaq üçün bir çox hüquqi aktlar, qanunlar qəbul edilib. “Evdən Qaçmış və Evsiz Gənclər Aktı” (əvvəllər Evdən Qaçmış Gənclər Aktı) 1974-cü ildə “Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsi və hüquq pozuntularının qarşısının alınması Aktı”nın davamı kimi qəbul edilmiş ABŞ qanunudur. Bu qanun layihəsinə 1977, 1980, 2008-ci illərdə əlavə və dəyişikliklər edilib. Son dəyişikliklərdə evsiz və baxımsız uşaq və yeniyetmələrin sığınacaqlarda və ya müvəqqəti yaşayış yerlərində qalma müddətinin 14 gündən 21 günə qədər artırılması haqqında qərar verilib. Bu qanun layihəsi evsiz gənclərin federal tərifini müəyyən edir və Ailə və Gənclik Xidmətləri Bürosu tərəfindən idarə olunan Evdən Qaçmış və Evsiz Gənclər Proqramının əsasını təşkil edir.

Beləki, Evdən Qaçmış və Evsiz Gənclər Proqramı çərçivəsində ABŞ hökuməti evdən qaçmış və ya evsiz qalan gənclər və yeniyetmələr üçün ölkə daxilində fövqəladə sığınacaqlar və digər xidmətlər üçün 2014-cü ildən etibarən ildə 115 milyon ABŞ dolları məbləğində federal maliyyə ayırır. Bu maliyyələşdirmə Səhiyyə və İnsan Xidmətləri Departamentinin Ailə və Gənclik Xidmətləri Bürosu tərəfindən idarə olunan Evdən Qaçmış və Evsiz Gənclər Proqramının əsasını təşkil edir. Hər il minlərlə ABŞ yeniyetməsi, gənci evlərindən qaçır, evlərini tərk etmək məcburiyyətində qalır. Evdən Qaçmış və Evsiz Gənclər Proqramı vasitəsilə Səhiyyə və İnsan Xidmətləri Departamentinin Ailə və Gənclik Xidmətləri Bürosu bu yeniyetmələri və gəncləri qorumaq, sosial müdafiəsini təşkil etmək məqsədilə küçələrdə qida, geyim vəs. yardımı, təcili sığınacaqlar və daha uzunmüddətli sığınacaqlar təklif edir.

Eyni zamanda ABŞ hökuməti və bir çox QHT-lər evsiz və baxımsız uşaqların və yeniyetmələrin müvəqqəti və yaxud daimi sığınacaqlarla təmin olunması, onların ilkin ehtiyaclarının qarşılanması üçün bir çox proqramlar həyata keçirirlər. Bu proqramların tətbiq olunması zamanı digər əhali qrupu ilə müqayisədə uşaq və yeniyetmələrin sığınacaqlarla təmin olunmasına, onların ehtiyaclarının qarşılanmasına daha çox üstünlük verilir. Qeyd etmək olar ki, evsiz və baxımsız uşaqlara və yeniyetmələrə göstərilən sosial xid-

mətlərin böyük hissəsini bu proqramlar əsasında həyata keçirilən tədbirlər təşkil edir. Bu proqramlara daxildir: Baxımın Davamlılığı Evsizlərə Yardım Proqramı (The Continuum of Care (CoC) Homeless Assistance Program), Fövqəladə Hal Qrantları (Emergency Solutions Grants (ESG)), Əsas Mərkəz Proqramı (The Basic Center Program), Koalisiyanın Böyük Mərkəzi Qida Proqramı (The Coalition's Grand Central Food Program), Keçid Yaşayış Proqramı (The Transitional Living Program), Evdən qaçmış və Evsiz Gənclər Proqramları (Runaway and Homeless Youth Programs) və s.

Keçid Yaşayış Proqramı (The Transitional Living Program) evsiz yeniyetmə və gəncləri uzunmüddətli yaşayış yerləri ilə təmin edən layihələri dəstəkləyir. Proqrama daxil olmaq üçün şəxslərin yaşı 16-22 aralığında olmalıdır. Bu proqram çərçivəsində evsiz və baxımsız vəziyyətdə olan gənc və yeniyetmələr qısamüddətli sığınacaqlarla təmin olunurlar. Xidmətlər 21 aya qədər təklif olunur. 21 ayın sonunda hələ 18 yaşı tamam olmayan yeniyetmələr 18 yaşları tamam olana qədər bu sığınacaq və müəssisələrdə qala bilərlər. Bu müəssisələrdə yeniyetmələrə pedaqoji, tibbi və psixoloji xidmətlər göstərilir.

Uşaq Qayğı İdarəsi tərəfindən idarə olunan Uşaqlara Qayğı və İnkişaf Fondu (CCDF) ailənin iqtisadi inkişafına töhfə verir. Uşaqlara qayğı və İnkişaf Fondu (CCDF) evsiz uşaqların ehtiyaclarının qarşılanması üçün hər ay vəsait ayırır. Təxminən 1,5 milyon uşaq hər ay Uşaqlara qayğı və İnkişaf Fondu (CCDF) proqramından uşaq baxımı üçün subsidiya alır. Evsiz və baxımsız halda olan uşaq və yeniyetmələr bu vəsaitlər hesabına geyim, ərzaq, və s. əldə edirlər və ilkin ehtiyaclarını qarşılayırlar.

Əsas Mərkəz Proqramı (The Basic Center Program) 18 yaşdan kiçik uşaq və yeniyetmələrin təcili ehtiyaclarına cavab verən icma əsaslı layihələrin həyata keçirilməsinə və təkmilləşdirilməsinə köməklik edir. Bundan əlavə, Əsas Mərkəz Proqramı (The Basic Center Program) uşaq və yeniyetmələri öz ailələri ilə birləşdirməyə və ya uşaq və yeniyetmələr üçün uyğun alternativ yerlər tapmağa çalışır. Bu proqram vasitəsilə evsiz və baxımsız vəziyyətdə olan uşaq və yeniyetmələrə tibbi xidmətlər göstərilir və onların geyim, qida kimi ehtiyacları qarşılanır. Bu proqram çərçivəsində 2018-ci ildən bəri 20,800-dən çox gənc təcili sığınacaqla təmin olunmuş və əlavə olaraq 7,700 gəncə profilaktik xidmətlər göstərilmişdir.

Fövqəladə Hal Qrantları (Emergency Solutions Grants (ESG)) proqramının məqsədi evsizliklə üzləşən yeniyetmə, gənc və ailələrin daimi mənzillə təmin olunmasına köməklik etməkdir. Fövqəladə Hal Qrantları (Emergency Solutions Grants) proqramı çərçivəsində evsizliyin qarşısının alınması, fövqəladə sığınacaq və əlaqəli xidmətləri dəstəkləmək üçün ştatlara, böyük şəhərlərə və ABŞ ərazilərinə qrantlar təqdim edilir.

Koalisiyanın Böyük Mərkəzi Qida Proqramı (The Coalition's Grand Central Food Program) çərçivəsində Nyu York şəhərinin küçələrindəki evsiz və ac insanlara, yeniyetmələrə, uşaqlara və gənclərə hər gecə isti yemək paylanılır.

Bu və ya digər QHT və dövlət orqanları tərəfindən həyata keçirilən proqramların əsas məqsədi evsiz və baxımsız halda olan uşaq və yeniyetmələrin geyim, qida, yaşayış yeri kimi ilkin ehtiyaclarını qarşılamaq və onların sosial müdafiəsini təmin etməkdir.

## ƏDƏBİYYAT


1. https://www.compasschildrenscharity.org.uk/about-us/street-children-worldwide/
2. https://fightslaverynow.org/why-fight-there-are-27-million-reasons/street-children/
3. https://ofhsoupkitchen.org/homelessness-affects-children-in-us
4. https://en.wikipedia.org/wiki/Runaway_and_Homeless_Youth_Act
5. https://www.childhood-usa.org/street-children/
6. https://theirworld.org/resources/street-children/
7. https://cyc-net.org/cyc-online/cycol-0904-homelessness.html

8. https://www.unodc.org/pdf/youthnet/who_street_children_module6.PDF
9. https://www.sos-usa.org/who-we-are/what-we-do
10. https://endhomelessness.org/homelessness-in-america/homelessness-statistics/state-of-homelessness/
11. https://www.benefits.gov/benefit/5889
12. https://www.hhs.gov/programs/social-services/homelessness/programs/index.html

## EVSİZ VƏ BAXIMSIZ UŞAQ VƏ YENİYETMƏLƏRLƏ SOSİAL İŞDƏ ABŞ TƏCRÜBƏSİ

***Səlmi Salmanova***

## XÜLASƏ

Bu məqalədə ABŞ-da evsiz və baxımsız uşaq probleminin aktuallığı və evsiz və baxımsız halda olan uşaq və yeniyetmələrə sosial xidmətlərin göstərilməsində ABŞ təcrübəsi nəzərdən keçirilmişdir. Eyni zamanda evsiz və baxımsız uşaqlara xidmət göstərərkən amerikalı mütəxəssislərin hansı sosial xidmət formalarından istifadə etdikləri, hansı qaydalara, hüquqi aktlara əsaslandıqları da bu məqalədə öz əksini tapıb. Bu sahədə ABŞ hökuməti və QHT-lərin fəaliyyətləri, onların həyata keçirdikləri proqramlar məqalədə nəzərdən keçirilib və təhlil olunub.

## ОПЫТ США В СОЦИАЛЬНОЙ РАБОТЕ С БЕЗДОМНЫМИ И БЕЗНАДЗОРНЫМИ ДЕТЬМИ И ПОДРОСТКАМИ

***Салми Салманова***

## АННОТАЦИЯ

В данной статье рассматривается актуальность проблемы бездомных и безнадзорных детей в США и опыт США по оказанию социальных услуг бездомным и безнадзорным детям и подросткам. В то же время в данной статье показано, какими формами социального обслуживания пользуются американские специалисты, на какие нормы и правовые акты они опираются при оказании услуг беспризорным и безнадзорным детям. В статье рассмотрены и проанализированы деятельность правительства США и НПО в этой сфере, реализуемые ими программы.

## US EXPERIENCE IN SOCIAL WORK WITH HOMELESS AND NEGLECTED CHILDREN AND ADOLESCENTS

***Salmi Salmanova***

## SUMMARY

This article reviews the relevance of the problem of homeless and neglected children in the United States and the US experience in providing social services to homeless and neglected children and adolescents. At the same time, this article shows what forms of social services American specialists use, what rules and legal acts they rely on when providing services to homeless and neglected children. The activities of the US government and NGOs in this area, the programs implemented by them, were reviewed and analyzed in the article.

# SOSİAL TƏHLÜKƏSİZLİYİN KONSEPTUAL VƏ PRAKTİK ƏSASLARI

***İsgəndərli Aytac Vüqar qızı***
***ATMU-nun II kurs magistrı***
***aytacvuqarqizi98@gmail.com***

***Açar sözlər:*** sosial təhlükəsizlik, iqtisadi artım, inkişaf, ictimai maraq, sosial təminat.
***Ключевые слова:*** социальная защита, экономический рост, развитие, общественный интерес, социальная защита.
***Keywords:*** social security, economic growth, development, public interest, social security.

Dayanıqlı iqtisadi artım problemi on ildən artıqdır ki, Azərbaycanda siyasi və ictimai diqqət mərkəzindədir. Bu son dərəcə mühüm vəzifənin həlli yolları əsasən son illərdə formalaşmış və hazırda qüvvədə olan cəmiyyət modeli çərçivəsində həll edilmişdir. Bu model ənənəvi kapitalizmin bəzi əsas xüsusiyyətlərinin formalaşması, müasir ictimailəşmiş kapitalizm modelini qəbul etməkdən imtina edən, sürətlə formalaşan oliqarxiya və post-sosialist elitanın ehtiyaclarına uyğunlaşdırılmış xüsusi mülkiyyətin və bazar mexanizminin bərqərar olması yolu ilə inkişaf etmişdir.

Nəticədə, Azərbaycanda ictimai maraqlar naminə mülkiyyət səlahiyyətlərinin məhdudlaşdırılması, bazar idarəetməsinin nəticələrinə bütün vətəndaşların geniş çıxışı və cəmiyyətin sosial birliyi ilə sosial yönümlü bazar iqtisadiyyatından fərqli olaraq, J.Stiqlitsin münasib qeydinə görə, "ersatz kapitalizmi", "mafiya kapitalizmi", "elita üçün kapitalist sistem" adlandırılmışdır.

Azərbaycanda inkişaf etmiş kapitalizm modelində, müasir kapitalizmin əldə edilmiş ictimailəşmə və demokratikləşmə dərəcəsi ilə əlaqədar olan bu cür xüsusiyyətlərinin olmadığı halda, ümumiyyətlə kapitalizmin bəzi fundamental xüsusiyyətləri vardır. Bu model müsbət inkişaf üçün lazımi potensiala malik deyil və onun qüsurlarını və ziddiyyətlərini aradan qaldırmaq üçün heç bir qüvvə yoxdur.

Son illər dövlət və elita mövcud sosial-iqtisadi inkişafın vektorunu dəyişmədən mövcud sistemin tamamlanması, sazlanması və qismən düzəldilməsi üçün səylər göstərir. Aparılan və həyata keçirilməsi planlaşdırılan institusional islahatlarda sosial komponentlər lazımınca qiymətləndirilir və ya tamamilə nəzərə alınmır. Bu, dövlətin sosial öhdəliklərin haqqında yenicə qəbul edilmiş qanun, səhiyyə, təhsil, mənzil-kommunal təsərrüfatı, təbii inhisar sahələrində inkişaf etdirilən islahatlar, bazar mexanizmlərinin və liberal siyasət alətlərinin geniş tətbiqinə diqqət yetirilməsi üçün xarakterikdir.

Azərbaycan iqtisadiyyatının bazar transformasiyası prosesində sosial-iqtisadi inkişafa mane olan və onun sürətləndirilməsinin daxili mənbələrindən istifadə etməyə imkan verməyən bir çox kəskin sosial problemlər yarandı. Bu, ilk növbədə, yoxsulluğun böyük miqyası, əhalinin pul gəlirlərinin və istehlakının həddən artıq differensiallaşdırılması, dövlət sosial xərclərinin azalması, cəmiyyətin bir hissəsi tərəfindən dövlətin "özəlləşdirilməsi" kimi sosial qüsurlara və mənfi sosial təzahürlərə aiddir [1,s.90].

Mövcud iqtisadi nizam təkcə bazar transformasiyaları zamanı yaranmış və indi əlverişsiz variantda təkrar istehsal olunan mənfi sosial proseslərlə üzləşmir. O, 20-21-ci əsrlərin sonlarında dünya iqtisadi inkişafının reallıqları və dünya bazarlarında rəqabətin sərt tələbləri ilə artan uyğunsuzluğu daha da üzə çıxardı, həmçinin iqtisadi və sosial institutların səmərəliliyinin aşağı olması ilə bağlı problemlərlə üzləşdik.

Bütün bunlar Azərbaycan Respublikasının mövcud Konstitusiyasının mühüm müddəası kimi təsbit edilmiş mövcud iqtisadi nizamın kökündən yaxşılaşdırılmasına, rifah dövlətinin formalaşmasına ehtiyac olduğunu göstərir. Bu problemlərin həlli uzun müddət tələb edir. Bu dövrdə yeganə mümkün olan sosial yönümlü bazar iqtisadiyyatı modelinə uyğun sosial

siyasət ola bilər. Onun olmaması sosial-iqtisadi inkişafın ləngiməsini şərtləndirən amillərdən biridir.

Sosial siyasət probleminin böyük əhəmiyyətinə baxmayaraq, o, hələ də dərin nəzəri anlayışı və lazımi praktiki tərtibatı almamışdır. Bu, dövlətin sosial siyasətinin konseptual əsaslarının öyrənilməsini çox aktual edir.

Sosial proseslərin həyata keçirilməsi məsələləri və onların sosial-iqtisadi inkişafda rolu uzun müddət ərzində bir çox yerli və xarici alimlərin əsərlərində müxtəlif dərəcədə tədqiq edilmişdir. Bu problemə xüsusilə böyük maraq XX əsrdə müşahidə edilmişdir. Buna böyük dərəcədə iqtisadiyyatın sosiallaşması və demokratikləşməsinin əhəmiyyətli dərəcədə dərinləşməsi, iqtisadiyyatın inkişafında və onun rəqabət qabiliyyətinin artırılmasında sosial münasibətlərin rolunun artması səbəb oldu.

Zamanla sosial təhlükəsizlik və sosial müdafiə anlayışı dəyişikliklərə məruz qalmış və bütün dünyada müxtəlif üsullarla istifadə olunur. Hal-hazırda hər iki anlayışın müxtəlif təriflərinin olması nəticəsində son dərəcə aydın təriflər tapmaq çətindir, xüsusən heç bir termin olmadığı üçün davamlı olaraq istifadə edilir və ölkələr və beynəlxalq təşkilatlar tərəfindən tətbiq edilir, təşkilatlar, şərtlər əhəmiyyətli dərəcədə fərqlənir. Bundan əlavə, əvəzsiz kimi yeni terminlər sosial transfertlər, şərti və qeyd-şərtsiz ödənişlər və minimum səviyyə sosial müdafiə təmin edilir, lakin bu hesabatda istifadə olunan müvafiq termin və anlayışların başa düşülməsini aydınlaşdırmaq və təkmilləşdirmək lazımdır.

Təmənnasız sosial ödənişlər bir sosial qrupdan digər sosial qrupa pul köçürmələridir. Bu proses zamanı əmək qabiliyyətli əhalidən yaşlı əhali qruplarına nağd şəklində pul köçürülməsi baş verir. Son zamanlar bu termin bütün hədəflənmiş proqramları təsvir etmək üçün istifadə edilmişdir.

Sosial müdafiə çox vaxt daha geniş mənada şərh olunur. Buna görə də, bir çox hallarda "sosial təhlüksizlik" və "sosial müdafiə" terminləri bir-birini əvəz edir. Praktiki səbəblərə görə bu hesabatda "sosial müdafiə" termini istifadə olunur [4,s.89].

Qanunvericilikdə sosial təhlükəsizliyin çoxölçülü bir hadisə kimi rəsmi tərifi yoxdur. Elm və tədris ədəbiyyatında sosial təhlükəsizlik anlayışı bu fenomen üçün hansı əlamətlərin əsas kimi götürülməsindən asılı olaraq müəlliflər tərəfindən müxtəlif yollarla tərtib edilir.

Sosial təhlükəsizlik dedikdə vətəndaşlara qocalıqda əmək qabiliyyətini və ailə başçısını itirməklə, əmək haqqından artıq normal yaşayış səviyyəsinə və mədəni səviyyəyə təminat verən bölgü forması, vətəndaşların yaşına, xəstəliyinə, əlilliyinə, işsizliyinə, ailə başçısını itirməsinə, uşaqların tərbiyəsinə görə və qanunla müəyyən edilmiş digər hallarda maddi təminat və xidmətlər sistemi analşılır.

Bir tərəfdən vətəndaşlarla dövlət orqanları, yerli özünüidarəetmə orqanları, təşkilatlar, digər tərəfdən vətəndaşlara xüsusi vəsaitlər hesabına tibbi yardım, pensiya, müavinət və digər növ dəstəklərin göstərilməsi ilə bağlı inkişaf edən sosial münasibətlərin məcmusudur. Vəsaitlərin, gəlirlərin itməsinə və ya azalmasına, xərclərin artmasına, aşağı gəlirə, yoxsulluğa səbəb olan həyat şəraiti yarandıqda və ya büdcədənkənar sosial fondların bölüşdürülməsi və dövlət büdcəsinin bir hissəsinin yenidən bölüşdürülməsi zamanı büdcə vəsaitləri nəzərə alınır.

Obyektiv sosial əhəmiyyətli səbəblərə görə dolanışıq mənbəyini itirdikdə, əlavə xərclər çəkdikdə və ya zəruri yaşayış minimumu olmadıqda vətəndaşların ehtiyaclarını ödəmək mühüm əhəmiyyət kəsb edir.

Zaxarova M.P. və Tuchkova E.G. hesab edirlər ki, yuxarıda göstərilən anlayışların bütün xarici oxşarlığı ilə onların hər biri müəlliflər tərəfindən vacib kimi qəbul edilən müxtəlif xüsusiyyətləri əks etdirir, lakin onların heç biri sosial təhlükəsizlik üçün xarakterik olan obyektiv mövcud xüsusiyyətləri unikal kimi tam şəkildə göstərmir [3, s.75].

Zaxarova və Tuçkova qeyd edirlər ki, sosial təhlükəsizlik həm iqtisadi, həm hüquqi, həm də sosial kateqoriyadır. İqtisadi kateqoriya kimi sosial təhlükəsizlik cəmiyyətin, dövlətin ən kəskin problemlərdən birini - əmək məhsuldarlığında və istehsalda bərabərsizliyin

nəticəsi olmayan insanların şəxsi gəlirlərinin qeyri-bərabərliyi sosial problemini həll etmək üçün istifadə etdiyi xüsusi alət rolunu oynayır. Eyni zamanda, sosial təhlükəsizlik həm də hüquqi kateqoriyadır, çünki dövlətlər hüquqi mexanizm vasitəsilə gəlirlərin yenidən bölüşdürülməsi siyasətini həyata keçirir, sosial təhlükəsizliyin həyata keçirilməsinin təşkilati-hüquqi yollarını tənzimləyici qaydada təsbit edir. Müvafiq maliyyə sistemlərinin formalaşdırılması qaydasını və onların hüquqi statusunu, sosial təhlükəsizlik idarəetmə sistemlərini, sosial təhlükəsizlik növləri və onların təmin edilməsi şərtləri pozulmuş hüquqların müdafiəsi mexanizmi burda nəzəzrə alınır.

Sosial təhlükəsizlik həm də çox mühüm sosial kateqoriyadır, çünki ondan asılı olmayan şəraitə görə dəstəyə ehtiyacı olduğu, müəyyən sosial rahatlığa təminat verdiyi, tam sosial təhlükəsizlik statusunu bərpa etdiyi hallarda cəmiyyət, dövlət tərəfindən insana ünvanlanan təminatdır. Buna görə də, Zaxarova və Tuçkova sosial təhlükəsizliyin aşağıdakı tərifini verirlər:

Sosial təhlükəsizlik məqsədli maliyyə mənbələri hesabına baş verən sosial risklər zamanı vətəndaşların şəxsi gəlirlərini bərabərləşdirmək üçün onlara maddi nemətlər verməklə ümumi daxili məhsulun bir hissəsinin bölüşdürülməsi yollarından biridir.

Sosial təhlükəsizlik növləri iki qrupa bölünür:

1) Sosial təminat yardımı. Sosial təminat hüququ sistemi çərçivəsində yardım, bu növ təminat məqsədinə uyğun olaraq, müəyyən yaşayış mənbəyinə malik olan, lakin bu mənbəni müvəqqəti itirmiş və bərpa edilməli olan ehtiyacı olan kateqoriyalara verilir;

2) yardım ehtiyacı olanların daimi dolanışıq mənbəyinə malik olduğu, lakin onun ölçüsü çox kiçik və elementar mövcudluğu təmin edə bilməyən hallarda verilir;

3) yardım, o zaman da göstərilə bilər ki, bir şəxs daimi və ya əsas dolanışıq mənbəyini itirə bilməyəcək, lakin hökm sürən, bir qayda olaraq, gözlənilməz, fövqəladə hallar nəticəsində, məsələn, sağlamlıq pozğunluğu, təbii fəlakətlər və digər hallarda [2,s.76].

Sosial təhlükəszilik insan həyat üçün zəruri və kifayət qədər vəsaitlə təmin etmək məqsədi daşıyır. Bu o deməkdir ki, dövlət ehtiyacı olanların ünvanına göndərməyi, ona bir şey verməyi öhdəsinə götürür. Sosial təminat yardımı ilə təminat arasındakı fərq ondan ibarətdir ki, yardım müvəqqəti xarakter daşıyır və əsas dolanışıq mənbəyi deyil.

Sosial təhükəsizlik anlayışına aşağıdakılar daxildir:

1) müavinətlər;

2) kompensasiya;

3) icbari tibbi sığorta fondunun vəsaiti hesabına sosial və tibbi xidmətlərin müəyyən növləri;

4) aztəminatlı vətəndaşların və ailələrin ilkin tələbat malları ilə (paltar, ayaqqabı, yemək) təminatı.

2020-ci ilin sentyabrında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ölkə daxilində sosial müqavilə şəklində dəstək tədbirinin tətbiq olunduğunu elan etdi. Növbəti üç il ərzində proqramın həyata keçirilməsi üçün dövlət büdcəsindən regionlara hər il 26 milyard manatdan çox vəsaitin ayrılması gözlənilir. Sosial müqavilə vətəndaşla sosial təminat orqanı arasında nağd ödənişlər və ya xidmətlər şəklində yardım göstərmək üçün qarşılıqlı öhdəlikləri özündə əks etdirən müqavilәni nəzərdə tutur.

Dövlətin sosial siyasəti təkcə əlillərin pul gəlirlərinin formalaşdırılması ilə məhdudlaşmır. Dövlət əhalinin bütün təbəqələrinin sosial xidmətlərə çıxışının təmin edilməsinə cavabdehdir. Burada onların ödənilməsinə çağırılan ehtiyacların spesifikliyi özünü göstərir. Bu ehtiyaclar insan həyatının keyfiyyətinin təmin edilməsi ilə bağlıdır. Bu xidmətlərin sosial siyasəti çərçivəsində istehlakı onların əmtəə bazarında pul gəlirləri çərçivəsində alınması yolu ilə həyata keçirilir. İstehlakın əsasını onun pul gəlirindən asılı olmayaraq istehlakçıya birbaşa xidmət göstərmək təşkil edir. Nəzərə almaq lazımdır ki, sosial təminat sistemi sosial siyasətin aləti kimi minimum dərəcədə sosial müavinət və xidmətlər göstərir. Bu hüdudlardan kənara çıxmağın istənilən imkanı, nisbətən daha yaxşı kəmiyyət və keyfiyyət xüsusiy-

yətlərinə malik sosial xidmətlərin istehlakı sosial xidmətlər bazarında satılan fərdi gəlirin miqdarı ilə müəyyən edilir [6, s.55].

Sosial dövlətdə sosial təminat sosial müdafiənin dövlət tərəfindən həyata keçirilən xüsusi təşkilati-hüquqi formasını özündə birləşdirir. İndiki dövrdə əhalinin sosial baxımdan daha artıq müdafiəyə ehtiyacı olan təbəqələrinə yardımı nəzərdə tutan digər təşkilati-hüququ formaların inkişaf etdirilməsi tələb olunur. Beynəlxalq təcrübədə çoxdan tətbiq olunan sosial müdafiə termini də buna görə irəli sürülmüşdür.

Bir çox sosial və iqtisadi problemlərin həllinə istiqamətləndirilməsi sosial və iqtisadi tədbirlərin toplusu olan sosial-müdafiə, sosial təsisat olaraq beynəlxalq kontekstdə əhalinin qanunvericiliklə təyin olunmuş elə kateqoriyasını əhatə edir ki, onlar əmək qabiliyyətini itirmək, işsizlik və digər səbəblər ucbatından özlərinin və ailələrinin əmək qabiliyyətli olmayan üzvlərinin zəruri həyati tələblərini ödəyə bilmirlər və əlverişsiz şərait yarandıqda belə vətəndaşlar qanunvericiliklə müəyyənləşdirilmiş sosial-müdafiə sistemi çərçivəsində pul və ya natural, eləcə də müxtəlif xidmətlər formasında kompensasiya səciyyəli yardımlar göstərilir. Sosial müdafiə sistemli əlverişsiz şəraiti aradan qaldırmaq üçün profilaktik tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Sosial müdafiə fərdi sığorta, sosial sığorta, ünvanlı sosial yardım, dövlət sosial təminatı və sair formalar daxil olmaqla müxtəlif təşkilati-hüquqi formalarda həyata keçirilir. Buna misal olaraq, pensiya verilməsi texnologiyası tibbi yardım göstərilməsi, sosial-reabilitasiya və ya işsiz, vətəndaşları işə təminetmə texnologiyasından əhəmiyyətli dərəcədə fərqlənir. Sosial müdafiə təsisatının xarakteri haqqında ümumi təsəvvürün olmaması, bu təsisatın mənasını açmağa xidmət göstərəcək müxtəlif kateqoriya, termin və anlayışların fərqli şəkildə şərhinə imkan yaradır [8, s.66].

Bazar iqtisadiyyatı prinsiplərinə keçmiş ölkədə mərkəzləşdirilmiş şəkildə planlaşdırılan təsərrüfat sistemində sosial-müdafiənin təşkili xüsusiyyətlərini özündə birləşdirən sosial təminat termini nə sosial-müdafiə sahəsindəki bütün iqtisadi-sosial münasibətlər toplusunu, nə də sosial müdafiənin yeni funksiyalar daşıyan inzibati strukturlarını təyin etmək üçün istifadə edilə bilir.

Azərbaycanda sosial müdafiənin məqsədyönlü inkişafı bu təsisatın kateqoriya, anlayış və terminlərini sistemləşdirməyi tələb edir. Bu sahədə ilk addım atılmışdır və əldə olunan anlayışlar sisteminin nizama salınması, unifikasiyası və standartlaşdırılması isə aktual problem kimi həllini gözləyir.

Sosial hüquqlar heç bir ayrıseçkiliyə yol vermədən cəmiyyətin bütü üzvlərinə aiddir.

Sosial hüquqlar insanların yaşayış yerinin dəyişməsindən, məşğulluq müddətindən, sığorta haqlarını ödəmədən, ölkədə yaşamaq müddətindən və bu şərtlərin müxtəlif kombinasiyasından asılı olmur.

Ehtiyacı olan insanların sosial müdafiəsi pulla pensiya və müavinət formasında, natural formada, eləcə də, sosial müdafiə obyekti olan şəxslərə göstərilən müxtəlif xidmətlər yolu ilə həyata keçirilə bilir.

Sosial müdafiənin dövlət hüquqi formalarından biri əmək qabiliyyətli olmayan dövlət təminatıdır. Dövlət təminatının əsas əlamətləri xərclərin dövlət büdcəsi tərəfindən ödənilməsi, bu şəkildə təminat alan şəxslər kateqoriyasının, onların təmin olunma səviyyəsinin dövlət hakimiyyəti orqanları tərəfindən müəyyənləşdirilməsidir.

Azərbaycanda mövcud sosial-müdafiə sistemi əsasən pensiya təminatından və sosial yardımdan ibarətdir.

Sosial müdafiə icraatı əsas etibarilə sosial sığorta və sosial yardım növlü tədbirlərə ayrılır. Pensiya ödənişləri xüsusi sosial hallar zamanı fərdlərin yoxsulluq təhlükəsindən müdafiə olunmasına istiqamətləndirilmişdir. Pensiya təminatı işləyən əhali tərəfindən ödənilmiş sosial sığorta halları hesabına maliyyələşdirilir. Yoxsul əhalinin minimum səviyyəsini təmin edə bilmək üçün vəsaitlərin bölüşdürülməsi tələb olunur [9, s.43].

Əhalinin sosial müdafiəsinin subyektləri sosial müdafiənin effektli modelinin yaradılmasında və fəaliyyətində ictimai dəstəyi və milyonlarla vətəndaşın maraqlı iştirakını təmin edən ictimai birliklərdir.

Əhalinin sosial müdafiəsinin təşkilində, pensiya xidmətlərinin təşkilində və müavinətlərin verilməsində, sosial xidmətlərdə, tibbi-sosial ekspertizada, əlillərin reabilitasiyasında və protez-ortopedik, ailələrə və uşaqlara sosial yardım göstərilməsində dövlət mühüm rol oynayır.

Sosial müdafiənin başqa təşkilati-hüquqi forması sosial sığortadır. Sosial sığorta bazar iqtisadiyyatına keçmiş ölkələrin böyük əksəriyyətində başqa formalarla müqayisədə geniş istifadə olunur. Sosial sığorta anlayışının əsasında sosial risklər və onların məcburi və könüllü sığortalanması durur. Sosial sığorta üzrə ödəmələrin maliyyələşdirilməsi işləyən vətəndaşların, işverənlərin bərabər paylarla ödəmələri hesabına həyata keçirilr. Sosial sığorta sisteminin maliyyələşdirilməsində dövlət də iştirak edə bilir [5, s.45].

Sosial yardım sistemində vəsaitlərinin ehtiyacdan çox, əhali kateqoriyalarına əsaslanan bölüşdürülməsi qalmaqda davam edir və nəticədə sosial yardımın ünvanlılıq prinsipi təmin olunur, mövcud resurslar daha az sayda yoxsul əhali qruplarına zəruri olan yardımı göstərmək əvəzini, geniş əhali kütlələrini əhatə edir. Başqqa bir problem sosial yardım müavinətlərinin çoxsaylı olması ilə əlaqədar onların tətbiqində meydana çıxan mürəkkəbliklə əlaqədardır.

Nəzərə almaq lazımdır ki, pensiya təminatında əsas problem ondan ibarətdir ki, pensiyanın məbləği ilə ödənilən sosial sığorta haqları arasında yaxın əlaqə yoxdur və pensiyaların ümumi məbləği müxtəlif növ sosial yardım müavinətləri ilə tamamlanır ki, bu da sosial sığorta ödəmələri ilə sosial yardım arasında fərqləri olduqca qeyri-müəyyən edir.

Pensiya və müavinətlərinin məbləğinin yenidən müəyyən edilməsi şərti ilə artırılması lazımdır və buna ilk növbədə, sosial müdafiəyə ayrılmış vəsaitin səmərəliliyinin artırılması sosial-müdafiə tədbirlərində ayırmalarının məbləğini tədricən və mövcud resursların geniş əhali kateqoriyalarının deyil, yardıma ehtiyacı olan əhaliyə çatdırılması yolu ilə nail olmaq olar.

Sosial təhlükəsizlik ictimai institutların, normaların, ictimai şüurun inkişaf etmiş formalarının mövcudluğunu nəzərdə tutur. Bu da öz növbəsində əhalinin bütün təbəqələrinin hüquq və azadlıqlarının reallaşdırılmasına, cəmiyyətin parçalanmasına aparacaq fəaliyyətlərin qarşısının alınmasına imkan verir.

## ƏDƏBİYYAT

1. Cəfərov N. Milli-ictimai fikir tariximizdən. (1914-fevral 1917). Bakı: Azərnəşr, 1993, 80 s.
2. Hadi Rəcəbli. Azərbaycan Respublikasının Sosial Müdafiə Sistemi. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: MBM, 2012, 408 s.
3. Həsənov Əli. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: Letterpress nəşriyyat evi, 2011, 440 s.
4. Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhəri, 29 iyun 2004-cü il №712-llQ.
5. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı: BDU, 2002, 534 s.
6. Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: 2012.
7. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
8. Рагимов А.А., Гасанов Р.М. Трансформационные процессы и проблема национальной безопасности в Азербайджане. Баку: ИНФО, 2003, 150 с.
9. www.az.trend.az/azerbaijan/society/2383182.html Azərbaycan, Bakı, 13 aprel /Trend/
13. www.refugees-idps-committee.gov.az/az/pages/3html

# SOSİAL TƏHLÜKƏSİZLİYİN KONSEPTUAL VƏ PRAKTİK ƏSASLARI

***İskəndərli Aytac***

## XÜLASƏ

Müasir dövrün ən mühüm problemlərindən biri də sosial problemlər, onların müəyyənləşdirilməsi və həlli yollarının tapılmasıdır. Sosial problemlər insanların əziyyət çəkdiyi və əhalinin bəzi təbəqələrinə digərlərinə nisbətən daha çox təsir edən çətinliklərdir, sosial sektorların cəmiyyətlərin inkişafına mane olan və ya məhdudlaşdıran adekvat həyat səviyyəsinə nail ola bilməməsi səbəbindən əziyyət çəkdiyi narahatlıqlardır. Sosial problemlər arasında ən mühüm yerlərdən biri yoxsulluq və onun aradan qaldırılmasıdır. Hazırda dünya əhalisinin demək olar ki, yarısı yoxsulluğun hər hansı formasında əziyyət çəkir. Ona görə də bu problemin aradan qaldırılması üçün bir sıra addımlar atılıb və bu istiqamətdə işlər davam etdirilir. Məqalədə sosial təhlükəsizliyin təmin edilməsinin konseptual məsələləri araşdırılmış və tədqiqata cəlb edilmişdir.

## КОНЦЕПТУАЛЬНЫЕ И ПРАКТИЧЕСКИЕ ОСНОВЫ СОЦИАЛЬНОЙ БЕЗОПАСНОСТИ

***Искандерли Айтадж***

## АННОТАЦИЯ

Одной из важнейших проблем современности являются социальные проблемы, их выявление и поиск путей их решения. Социальные проблемы – это трудности, от которых страдают люди и которые затрагивают одни слои населения больше, чем другие, опасения, что социальные слои страдают из-за своей неспособности достичь надлежащего уровня жизни, что тормозит или ограничивает развитие общества. Одно из важнейших мест среди социальных проблем занимает бедность и ее ликвидация. В настоящее время почти половина населения мира страдает от той или иной формы бедности. Поэтому предпринят ряд шагов по устранению этой проблемы и работа в этом направлении продолжается. В статье исследуются и привлекаются к исследованию концептуальные вопросы обеспечения социальной защиты.

## CONCEPTUAL AND PRACTICAL FOUNDATIONS OF SOCIAL SECURITY

***Iskanderli Aytac***

## SUMMARY

One of the most important problems in modern times is social problems, their identification and finding ways to solve them. Social problems are difficulties that people suffer from and that affect some sections of the population more than others, concerns that social sectors suffer due to their inability to achieve an adequate standard of living that hinders or limits the development of societies. One of the most important places among social problems is poverty and its elimination. Currently, almost half of the world's population suffers from some form of poverty. Therefore, a number of steps have been taken to eliminate this problem and work is being continued in this direction. In the article, the conceptual issues of ensuring social security are investigated and involved in research.

# AHILLIQ VƏ ONUN SOSİAL-PSİXOLOJİ PROBLEMLƏRİ

***Rəhimli Nigar Səməddin qızı***
***ATMU-nun II kurs magistrantı***
***nigarehimli7@gmail.com***

***Açar sözlər:*** ahıllıq, sosial-psixoloji problemlər, çarəsizlik hissi, rol və status itkisi, mövcud ehtiyaclar.
***Ключевые слова:*** пожилой возраст, социально-психологические проблемы, чувство беспомощности, потеря роли и статуса, существующие потребности.
***Keywords:*** the elderly age, social-psychological problems, hopeless, lack of role and status, current needs.

Müasir dünyada qocalıq mühüm sosial hadisədir. Ahıl, qısacası, "qocalmaq, artan yaşın təsirini göstərmək" kimi təyin edilə bilər. Bu təsirlər fərdin fiziki və zehni gücünün tədricən itirilməsini göstərir. Ahıllıq, fizioloji və bioloji dəyişikliklərə görə fərdin gündəlik həyat fəaliyyətlərini həyata keçirməkdə çətinlik çəkdiyi və buna görə də başqalarından asılı olduğu dövrdür. Eyni zamanda, başqalarından asılı olduqları üçün özlərini çarəsiz hiss etdikləri dövrdür.

Bioloji,xronoloji,psixoloji və sosioloji ölçüləri olan ahıllığın başlanğıcı kimi mövcud olan yaşı müəyyən etmək çox çətindir. Bu gücün arxasında dövrdən dövrə, cəmiyyətdən cəmiyyətə,mədəniyyətdən mədəniyyətə dəyişən yaşlı təcrübəsi və yaşamı dayanır. 1963-cü ildə yaşlıların sağlamlığı ilə bağlı təşkil edilən yığıncaqda, Ümumdünya Səhiyyə Təşkilatı yaşlılığın xronolojik olaraq aşağıdakı təsnifatını ayırmışdı:

1). Orta yaşlı: 45-59 yaş
2). Qocalıqdan əvvəlki yaş: 60-74 yaş
3). Ahıllar: 75 -89 yaş
4). Uzunömürlülük: 90 yaş və yuxarı

Ahıllıq xronolojik yaşın irəliləməsilə paralel gedən biolojik, psixolojik, sosiolojik və iqtisadi ölçülər qazanan bir proses olaraq müəyyən edilə bilər. Ancaq sosial anlamda hər kəs üçün yaşlılıq fərqli anlamlar ifadə edir. Yaşlılıq təcrübəsinin müsbət və ya mənfi qiymətləndirilməsi, yaşlılığın şəxs üçün nə ifadə etdiyinə bağlıdır. OECD 1992-ci ildə yaşlıları, "davranış və ehtiyacları dəyişən heterojen bir qrupdan ibarət 65 yaş üzərində insanlar" olaraq tanımışdır [5, s.10].

Yaş həddi müəyyən edilərkən ölkələrin inkişaf səviyyəsi mühüm rol oynayır. Ədəbiyyatda əksər mənbələrdə və hüquqi tənzimləmələrdə görünür ki, ahıllıq 65 yaş və yuxarı hesab olunur. Ümumilikdə xronoloji yaş həddi kimi qəbul edilən 65 yaş, fərdlər pensiyaya çıxanda sosial təminat və sağlamlıq xidmətlərinə ehtiyac duymağa başladığı bir dövrdür.

Bununla belə, sənayeləşmiş ölkələrin əksəriyyətində ahıllığın başlanğıcı 60-65 yaş arasında hesab olunur. ABŞ-da bu, cəmiyyətin sizi adətən qoca hesab etdiyi yaşdır, çünki bu zaman əksər amerikalılar işləməyi dayandırır və yaşa görə pensiya həddinə çatır, yardım proqramlarından istifadə edirlər.

Məşhur bir deyimə görə, ***"Siz yalnız hiss etdiyiniz zaman qocalırsınız".*** Fiziki və ruhi sağlamlıq da yaşı müəyyən edə bilər. Əgər 80 yaşındasınızsa, lakin hələ də müstəqilsinizsə və yaxşı ruhi və fiziki sağlamlığınız varsa, özünüzü yaşlı hesab etməyə bilərsiniz. Yaşı sosial rol ilə də müəyyən etmək olur. Bəzi insanlar nənə və baba olanda və ya təqaüdə çıxanda özlərini qoca hesab edirlər, ona görə də bu halda 80 yaş qoca sayıla bilər [12].

Əksər mədəniyyətlərdə 70 və ya 75 yaşdan yuxarı insanlar yaşlı sayılırlar . Bununla belə, qocalmaq əlillik deyil və bir çox sağlam, aktiv və müstəqil insanlar özlərini yaşlı hesab etmirlər və başqaları onlara bu cür rəftar etdikdə özlərini narahat hiss edirlər.

Ahılların sosial xidmətlər dairəsinə daxil olan, sosial narahatlığa səbəb olan çatışmazlıqları müəyyən həddi aşdıqda sosial xəstəlik mərhələsinə keçən ehtiyaclar, problemlər, çətinliklər, çarəsizlik və s. aşağıdakı əsas başlıqlar altında qruplaşdırıla bilər [11, s.4]:

1. İqtisadi problemlər (işləmə yaşı və ya işləyə bilməməsi səbəbindən pulun olmaması, gəlirinin olmaması, ehtiyaclarını ödəyə bilməməsi və.s);

2. Sosial problemlər (ailə problemləri, qonşularla problemlər, digər yaxın mühitlə əlaqəli məsələlər və s.);

3. Psixoloji problemlər (depressiya, narahatlıq kimi görünən problemlər);

4. Mədəni problemlər (onun yaşadığı mühitin mədəniyyəti və malik olduğu mədəniyyət arasında uyğunsuzluq);

5. Qocalıqda adi sosial xidmətlərə müraciət etməkdə çətinlik (məsələn, kirayə ev tapmaqda, kirayə haqqını ödəməkdə, pensiya almaqda çətinliklər);

6. Nəsil problemləri (gənc nəsil ilə fikirlərin üst-üstə düşməməsi nəticəsində yaranan problemlər);

7.Tənhalıq problemi (övladlarının istədiyi qədər zəng etməməsi və bu zaman yaranan depressiya);

8. Ünsiyyət çatışmazlığı problemi (ünsiyyətdə utancaqlıq, ruhdan düşmə və s.);

9. Sevgisizlik problemi (ya keçmiş sevdiklərinin öldüyünə görə, ya da müxtəlif səbəblərə görə yaxınlarından uzaq olduqları üçün sevgi problemləri);

10. Sağlamlıq problemləri (müxtəlif ağrılar, həkimə gedə bilməmək və s.);

11. Ümidsizlik problemi (dərdini tam ifadə edə bilməmək, ağrılarının keçməyəcəyini hiss etmək və onun yaratdığı problemlər);

12. Cinsi problemlər (bəzən cinsi istək və onu qarşılayacaq mühit və imkanın olmamasından yaranan problemlər);

13. Ev işlərini edə bilməmək (eyni işləri edə bilməmək);

14. Darıxma və vaxt keçirə bilməmək problemi. (məsələn, gözləri görmədiyindən istəsə də kitab oxuya bilmədiyi üçün, tək səyahət etməyə cəsarət etmədiyi üçün,özü üçün proqram hazırlaya bilmədiyi üçün yaşadığı problemlər);

Bütün bu problemlər çarəsizlik, qorxutma, aqressiya, introversiya, qəzəb və bu kimi əlamətlərlə özünü göstərir. Onlar üçün bu problemlərdən tək başına xilas olmaq və bu problemləri aradan qaldırmaq çətin ola bilər.

Ahıllıq hər cəhətdən itki dövrü olduğu üçün artıq kifayət qədər travmatikdir. Bu gün ahılların qarşılaşdığı qlobal problemlərdən biri sosial-psixoloji problemlərdir.

Ahıllarda ən çox rast gəlinən **sosial problemlər** arasında iş həyatından pensiyaya keçid, gəlirin azalması, həyat yoldaşının ölümü, nənə-baba roluna keçid, sosial münasibətlərin pisləşməsi, rol və statusun dəyişməsini saymaq olar.

İşçi rolundan təqaüdçü roluna keçid həm qəfil, həm də tədricən baş verir. Bir gündə qəfil işçi rolundan təqaüdçü roluna keçid ahıllara mənfi təsirlər göstərir. Belə ki, iş həyatının sona çatması ilə əlaqədar köhnə ictimai güc və nüfuzun azalması ahıllarda depressiya,yalnızlıq kimi halların yaranmasına səbəb olur. Amma ahıl təqaüdə çıxacağını əvvəlcədən bildikdə bu proses daha rahat olur. Belə ki, ahıl bu keçidə hazırlanır. Təqaüdə çıxmazdan əvvəl özünü yeni statusuna hazırlamaqla, ona uyğun fəaliyyət sahələrini planlaşdırır.

Dəyişən ailə quruluşu ilə ahıl fərdlər ailədəki aktiv rollarını itirir, sosial mühitlə münasibətlərin məhdudlaşdırılması, pensiya dövrü, tənəzzül dövrü onların sosial problemlər yaşamasına səbəb olur. Yaşa görə fiziki və zehni dəyişikliklər sosial problemləri artırır. Belə problemləri yaşamaq onları tənhalığa aparır. Ahıl insanların iş və ya ailə həyatında rol və status itkisi ilə üzləşdiyi sosial vəziyyətlər sosial problemlərdən biridir. İş və ev həyatında müəyyən yeri olan fərd qocalır, özünü yararsız bir insan kimi görməyə başlayır. Təqaüd və ailə quruluşunun dəyişdirilməsi ahılların sahib olduqları bir çox qazanclardan məhrum

olmasına və yenilərini yaratmasına səbəb olur. Onların qazanc əldə edə bilməmələri sosial problemlərə gətirib çıxarır. Pensiya sosial problemlər yaradan mühüm amildir. İşləməmək həm qazanc itkisinə, həm də daimi münasibətlərin pozulmasına səbəb olur -iş yoldaşları ilə münasibətlərin zəifləməsinə gətirib çıxarır.

Rol buraxma nəzəriyyəsinə görə, ahıl insanların rolları və statusları onların sosial vəziyyəti ilə bağlıdır. Bu rolunun və statusunun itirilməsi öz dəyərlərini itirməsinə gətirib çıxarır və bu, sosial həyatda iştirakda məhdudiyyətlərə yol açır. Peşə, ailə və evlilik ahıl fərdlərin sosial həyatda iştirakına mane olur və beləliklə ahıllar sosial mühitə uyğunlaşmaqda çətinlik çəkirlər. İş və həyat yoldaşının itirilməsi ilə ahıl fərdlər ikiqat məhv olurlar [13].

Dölekə görə, başqa bir sosial problem nəsillər arası münaqişədir. Ahıl fərdlərlə onların qarşılıqlı əlaqədə olduqları böyüyən fərdlər arasında münaqişələr nəsillər arası münaqişə kimi müəyyən edilə bilər. Cəmiyyətin davamlı inkişafı və yaşlı fərdlərin bu dəyişikliklərlə ayaqlaşa bilməməsi nəsillər arasında qarşıdurmaya səbəb olur [13].

Ahıllar üçün asudə vaxt məsələsi də mühüm sosial problemdir. Pensiya yaşına çatan fərd, peşəsi ilə bağlı aldığı cavabdehliyin sona çatması ilə çox boş vaxtı olur və buna görə də boşluğa düşür. Bu boş vaxtını dolduracaq insan və fəaliyyət tapa bilmədikdə, özlərini sosial həyatdan təcrid edirlər.

Nəqliyyat, ahıl insanların sosiallaşmasına təsir edən bir elementdir. Koşara görə, fiziki və maddi imkansızlıq, tanımadığı yerlər və izdihamlar ahıl fərdin bir yerdən başqa yerə getməsinə mane olur. Sıx tıxac səbəbindən maşın sürə bilməyəndə, o, ictimai nəqliyyatdan istifadə edərkən də fiziki çətinliklər yaşayır. Bu maneələr ahılların evə qapanmasına səbəb olur.

Ahıl insanların kənddən şəhərə miqrasiyası da onların sosial problemlərinin yaranmasına səbəb olur. Onlar miqrasiya etmədən əvvəl olduqları yerdə, əsasən hamı bir-birini tanıyır və bir-birinə güvənir, lakin yeni yaşayış yerlərində insanlarla ünsiyyət qurmaqda güvən problemi yaşanır. Bu, ahıl insanların sosiallaşmasına mane olan bir problem kimi ortaya çıxır.

Cəmiyyətin ahıllara baxışı da ahıl insanların sosial həyatına da təsir edir. Sənayeləşmə və urbanizasiyanın təsiri ilə ənənəvi və müasir cəmiyyətlərin ahıllara münasibətində fərqliliklər meydana gəlir. Ənənəvi cəmiyyətlərdə ahıl insan təcrübələrinə və biliklərinə etibar edilən və səlahiyyət sahibi olan insan olaraq görülürkən, müasir cəmiyyətlərdə onlar ailə üçün bir yük olaraq görülür və mümkün qədər tez ölməsi gözlənilən insanlar olaraq dəyərləndirilir.

Dölekə görə, bunu dəstəkləyən modernləşmə nəzəriyyəsidir. Cəmiyyətlər müasirləşdikcə ahıl fərdlər öz rollarını və statuslarını itirirlər. Sosial dəyişikliklər ahıl insanların sahib olduqları bacarıqları köhnəlmiş hesab etməkdədir və buna görə də ahıllar özlərini lazımsız hiss edirlər. Nəticədə ahıl insanlar öz daxili dünyalarına qayıdır və xarici aləmlə əlaqələri kəsərək sosiallaşmalarına mane olurlar [13].

Ahıl insanlar, yaxınlarının ölümü, özünü lazımsız hiss etmək, təqaüdçülüklə birlikdə iş yoldaşlarının və iş mühitinin itirilməsi, özünü tənha hiss etmək kimi **psixoloji problemlərlə** üzləşir.

Ahıl insanların psixoloji davranışları gənc insanlardan fərqlidir. Qavrama və hiss etmə gücləri azalır, ətrafları ilə ağıllı davrana bilmirlər və xarici görünüşləri onlar üçün fərqli bir məna kəsb edir. Gəncliyin, gözəlliyin və cəlbediciliyin itirilməsi, qırışların əmələ gəlməsi, saçların azalması, gözün korluğu və qulağın eşitməməsi kimi dəyişikliklər ahılın xarici görünüşünü korlayır. Görünüşü ilə dəyişən ahıl üçün özünü necə qəbul etdiyi və başqalarının bunu necə qəbul etməsi ruhi aləminə təsir edir. Onu rədd etdiyinizi düşünərək, geri çəkilə və ictimai hadisələrdən qaça bilər. Ahıllıqda dəyişən vəziyyətlərə uyğunlaşmaq çətindir. Bu dəyişikliklər ahıllarda ruhi depressiyaya, ölümü gözlər hala gəlmələrinə səbəb olur. Bunları nəzərə alaraq, stresssiz həyatı təmin etmək, mədəni xüsusiyyətlərinə, şəxsi

həyatına hörmət etmək və ahıllarla anlayışlı münasibətdə olmaq onların psixoloji problemlərinin qarşısını almağa kömək edir.

Yaşlanmanın gətirdiyi fiziki və sosial dəyişikliklər ahılların psixoloji vəziyyətlərinə təsir göstərir. Ahıl fərdlərin hərəkət qabiliyyətinin azalması ilə daha əvvəl asanlıqla edə bildikləri işləri artıq məcburiyyətlə etmələri və maddi imkanlarının getdikcə azalması ahılları başqalarından asılı vəziyyətə gətirir. Bu hallar ahıl insanların şəxsi qayğılarının qarşılanması problemlərinə və ailələrinə yük olduqlarını hiss etmələrinə səbəb olur. İş həyatından ayrılma və bəzi sosial rolları itirmək həyatı mənfi qəbul etmələrinə, özünə hörmətin aşağı düşməsinə səbəb olur. Bu vəziyyətlər ahıl insanların psixoloji sağlamlığına mənfi təsir göstərir.

Ahılların yaşadığı mühüm psixoloji problemlərdən biri də tənhalıq hissidir. İş həyatının sona çatması ilə sosial əlaqələr və dostluq əlaqələri zəifləyir ki, bu da insanı tənhalığa sürükləyə bilər. Zaman keçdikcə həyat yoldaşı, dostları və xüsusilə yaşıdlarının ölümü ilə həyatı durğunlaşır və öz ölümünün də yaxınlaşdığını düşündüyündən yaşamaq sevinci azalır.

Ahıllarda yaşla əlaqədar baş verən dəyişikliklər fərdin gündəlik həyatına, iş həyatına, asılılıq vəziyyətinə və ətraf mühitlə əlaqəsinə təsir göstərir. Bununla belə, yaşa bağlı psixoloji dəyişikliklərin etiologiyasında təkcə yaş iştirak etmir. Oturaq həyat tərzi, ətraf mühit şəraiti və stresli həyat da yaşa bağlı psixoloji dəyişikliklərə səbəb olur. Yaşlılarda müşahidə oluna bilən patoloji psixoloji dəyişiklikləri başa düşmək üçün qocalma prosesində baş verən psixoloji dəyişiklikləri öyrənmək lazımdır.

**Ahıllarda depressiya**. Depressiya qocalıqda ən çox rast gəlinən psixiatrik problemlərdən biridir. Bu, beyindəki dəyişikliklərlə irəliləyən bir xəstəlikdir. Ahıllıqda görülən depressiyanın səbəbləri arasında övladlarının öz həyatına başlaması və köçməsi səbəbiylə tək qalmaq, xüsusilə həyat yoldaşını itirmək, təqaüdə çıxmaq (status və pul itkisi), xroniki xəstəliklər səbəbiylə müstəqilliyini itirmək və asılı vəziyyətə düşmək və müəssisə qayğısına ehtiyac duymaq, ani sağlamlıq problemi ucbatından başqasının köməyinə ehtiyac duyma ehtiyacı və gündəlik həyat fəaliyyətinin pozulması vardır. Bəzilərinin inandığının əksinə olaraq, depressiya normal qocalmanın bir hissəsi deyil, həyat keyfiyyətinin aşağı olması və sosial fəaliyyətdə çətinliklə müşayiət olunur.

**Ahıllarda delirium sendromu**. Diqqətin və idrak qabiliyyətinin ani itkisi olaraq təyin olunan delirium yaşlı insanlarda tez-tez görülən bir sindromdur. Delirium tibbi və cərrahi xəstəlik diaqnozu qoyulan yaşlı fərdlərdə psixiatrik əlamətlərlə ortaya çıxa bilən bir vəziyyətdir. Ahıl fərdlərdə daha çox görülməsinin səbəbi, ahıl fərdlərin daha çox sağlamlıq problemlərinin olması və xəstəxanada qalma müddətinin daha uzun olması ilə əlaqədardır. Eyni zamanda, yaşın irəliləməsi ilə paralel olaraq ahıl fərdlərdə demans inkişaf riskinin daha yüksək olduğu, demanslı stasionar xəstələrin %30-da deliriumun görüldüyü bildirilmişdir.

**Demans.** Demans, intellektual qabiliyyətlərin və davranış pozğunluqlarının itirilməsinə səbəb olan, gündəlik həyatda pisləşməyə səbəb olan nevropsixiatrik xəstəlikdir. Demans bütün dünyada 46 milyondan çox insana təsir edib və bu rəqəmin 2050-ci ilə qədər 131,5 milyona çatacağı təxmin edilir. Əhəmiyyətli bir ictimai sağlamlıq problemi olan demans, fərdlərin daha emosional, daha az qayğıkeş və davranış problemlərinə daha çox meylli olduğu pis fiziki sağlamlığa səbəb olan mütərəqqi bir xəstəlik olaraq görülür. Başqa sözlə, demans yaddaş, təfəkkür, anlama, öyrənmə qabiliyyəti, oriyentasiya, mühakimə və dil daxil olmaqla, idrak funksiyasının birdən çox sahəsinə təsir edən bir xəstəlikdir. Koqnitiv pozğunluqlar artdıqca xəstəliyin simptomları şiddətli olur, xəstəxanaya yerləşdirmə və ölüm hallarının artmasına səbəb olur. Yaş artdıqca demans riski artır. 65 yaşlı bir insanda demans riski 5% olduğu halda, 85 yaşdan yuxarı yaşlılarda 50%-ə çata bilər [4, s.77].

**Ahıllarda ölüm qorxusu.**Ölüm qorxusu ahıllarda yox olma, tükənmə və çarəsizlik hissidir. Ahıllar üçün ölüm artıq mücərrəd bir anlayış kimi deyil, hər an yaşana biləcək bir

ehtimal kimi qəbul edilir. Hər kəs daha çox tamaşaçı olduğu dünyanı xəyal edir. Heç kim onun yoxa çıxdığı və öldüyü dünyanı təsəvvür edə bilməz. Bu səbəbdən qocalıqda ölüm anlayışı fərqli məna qazanır. Evdə qohumları ilə vaxt keçirən, uşaqları, nəvələri ilə oyun oynayan, öz məşğuliyyətləri olan, yəni ölüm haqqında düşünmək imkanı olmayan ahıllarda ölüm qorxusu daha yumşaqdır. Yenə ölümü düşmən kimi yox, həyatın bir parçası və onun təbii sonu kimi görən ahllar ölüm qorxusunu çox hiss etmirlər.

**Ahıllarda yuxu pozuntuları.** İrəli yaşla əlaqəli yuxu dövründə bir çox dəyişiklik var. Buna görə də, yaşla əlaqəli "normal" yuxu dəyişikliklərini fiziki və ruhi xəstəliklərlə əlaqəli "anormal" yuxu dəyişikliklərindən ayırmaq çox vacibdir. Bundan əlavə, ahıllarda yuxu siklinin dəyişməsi ilə əlaqədar olaraq, xüsusilə gecələr yuxu zamanı beyin tərəfindən ifraz olunan melatoninin ifrazı azalır. Ahıllarda fizioloji yuxu dəyişiklikləri aşağıdakılardır [4, s.76]:

- ✓ Ahıl insanlar daha tez yatır və daha tez oyanırlar.
- ✓ Gənc fərdlərlə müqayisədə yuxu daha səthi olur.
- ✓ Gecələr tez-tez oyanırlar.
- ✓ Yataqda daha çox qalırlar, lakin daha az yatırlar.

Məlumdur ki, ahıllıqda keçmişə həddindən artıq bağlılıq, yeni vəziyyətlərə uyğunlaşa bilməmək və yeniliklərdən qorxmaq kimi bəzi psixoloji dəyişikliklər olur. Belə bir prosesi yaşayarkən bu psixoloji dəyişikliklərin yaratdığı problemlərə də rast gəlinir. Şəxsin sosial rolunda, özünə inamında, nüfuzunda itkilər ola bilər və bu itkilər qeyri-adekvatlıq, lazımsızlıq, acizlik hisslərini ortaya qoyur.

20-ci əsrdə diqqəti cəlb etməyə başlayan ahıllar problemi beynəlxalq sistemdə ilk dəfə 1982-ci ildə Vyanada keçirilən BMT-nin Ümumdünya Yaşlılıq Konfransında gündəmə gəlib. Konfransda edilən xəbərdarlıqlara baxmayaraq,hökumətlərin ahıllara dəstək xidmətlərində geri qaldıqları müəyyən edilmişdir. Nəzarəti həyata keçirmək üçün hər il 1 oktyabr "Ahıllar günü" kimi elan edilmiş və hər ölkədən 4 ildən bir "Ölkə Ahıllıq Hesabatı" nəşri istənməyə başlanmışdır [10, s.258].

## ƏDƏBİYYAT

1. Məmmədli Q. "Ahılların sosial müdafiəsi dövlətin sosial siyasətini mühüm tərkib hissəsidir" // "Ekspress" qəz., 2017, 3 oktyabr, № 176
2. Məmmədova R. "Yaşlılara psixoloji yardım: Problemlər və perspektivlər", Bakı 2021
3. Rəcəbli H. "Azərbaycan respublikasının sosial müdafiə sistemi", Bakı 2012
4. Ağar A. "Yaşlılarda ortaya çıkan psikolojik değişiklikler", Geriatrik Bilimler Dergisi, 2020
5. Aziz Ş., Gökhan K. "Bir sosyal politika alanı olarak yaşlılık ve sosyal hizmet uygulamaları", Nüfusbilim dergisi/Turkish journal of population studies, 2018
6. Eyüboğlu C. "Yaşam Döngüsünde Yaşlılığın Psikolojik Boyutu", 2012
7. Gökhan K., Fatma Y. B., Zerrin E. "Yaşlıların sorunları ve yaşam memnuniyeti"
8. İçli G. "Yaşlılar ve yetişkin çocuklar", Yaşlı Sorunları Araştırma Dergisi, 2008
9. Karakaş S. "Yaşlılık dönemi psikolojik özellikleri ve moral", Kocatepe Tıp Dergisi, 2017
10. Nuray G. K., "Uluslararası ilke ve standartlar bağlamında yaşlı hakları ve sosyal hizmet uygulamaları", Sosyal Güvenlik Dergisi, 2019
11. Prof. Dr. İlhan Tomanbay "Yaşlılara yönelik sosyal hizmetler" , Ankara 2007
12. https://devotedguardians.com/at-what-point-is-someone-considered-elderly/
13. https://dergipark.org.tr/tr/download/article-file/626883
14. https://dergipark.org.tr/en/download/article-file/2174894

# AHILLIQ VƏ ONUN SOSİAL-PSİXOLOJİ PROBLEMLƏRİ

***Nigar Rəhimli***

## XÜLASƏ

Məqalədə ahıllıq və onun sosial-psixoloji problemləri araşdırılıb. Ahıllıq bioloji, xronoloji, psixoloji və sosioloji nöqteyi-nəzərdən təhlil edilib və onun sosial-psixoloji problemlərini yaradan səbəblər qeyd olunub. Ahıllarda yaşla əlaqədar baş verən dəyişikliklərin fərdin gündəlik həyatına, iş həyatına, asılılıq vəziyyətinə və ətraf mühitlə əlaqəsinə təsiri göstərilib. Məqalədə ahılların sosial xidmətlər dairəsinə daxil olan, sosial narahatlığa səbəb olan çatışmazlıqları müəyyən həddi aşdıqda sosial xəstəlik mərhələsinə keçən ehtiyaclar, problemlər, çətinliklər, çarəsizliklər müəyyən başlıqlar altında təhlil edilib.

# ПОЖИЛОЙ ВОЗРАСТ И ВЫВАННЫЕ ИМ СОЦИАЛЬНО – ПСИХОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ

***Нигяр Рагимли***

## АННОТАЦИЯ

В статье исследуется пожилой возраст и социально-психологические проблемы, вызванные им. Пожилой возраст анализируется с биологической, хронологической, психологической и социологической точек зрения, и отмечаются причины его социально-психологических проблем. В материале говорится о влиянии возрастных изменений в пожилом возрасте на повседневную жизнь человека, трудовую жизнь, зависимость и отношения с окружающей средой. Потребности, проблемы, трудности и безысходность пожилых людей, входящие в сферу социальных услуг и переходящие в стадию социальной болезни, когда недостатки, вызывающие социальную тревогу, превышают определенный предел, анализируются под определенными подзаголовками.

# THE ELDERLY AGE AND İTS SOCİAL-PSYCHOLOGİCAL PROBLEMS

***Nigar Rahimli***

## SUMMARY

In the article the elderly age and its social-psychological problems have been investigated. The elderly age has been analyzed from biological, chronological, psychological and sociological points of view and the causes of their social-psychological problems have been marked. The effect of the age-related changes in the elderly on the individual's daily life, work life, dependence and relationship with the environment has been shown. Under certain headings, the article analyzes the needs, problems, difficulties and desperation of the elderly people, which are included in the scope of social services and cause social anxiety, and pass into the stage of social sickness when the deficiencies that cause social anxiety exceed a certain limit.

# "ƏLİLLİK" ANLAYIŞINA NƏZƏRİ YANAŞMALAR

***Bəndalıyev Bəndalı Coşqun oğlu***
***ATMU-nun II kurs magistrantı***
***bandaliyev.bandali.2101@atmu.edu.az***

***Açar sözlər*****:** Əlillik anlayışı, əlillər, əlilliyə nəzəri yanaşmalar, əlilliyin sosial modelləri, modellərin funksiyaları
***Ключевые слова:*** Концепция инвалидности, инвалиды, теоретические подходы к инвалидности, социальные модели инвалидности, функции моделей.
***Keywords*****:** Concept of disability, disabled people, theoretical approaches to disability, social models of disability, functions of models

Əlilliyin bir neçə təmsilçi modeli, modelləri təşkil edən fərqli konseptual komponentlər və bu modellərin əlilliyə yanaşmasından söhbət açaq. Bu elementlər aşağıdakı şəkildə əlaqələndirilir: ayrı-ayrı konseptual komponentlər müxtəlif yollarla birləşərək modellər formalaşdırır və onlardan əlilliyə konkret yanaşmalar yaranır. Əlillik modelləri əlilliyin səbəb-nəticə izahını və ya konstitutiv izahını təklif edir. Modellər həmin konseptual elementlərin bir-biri ilə necə əlaqəli olduğunu göstərmək məqsədi daşıyan konseptual elementlərin sistematik təşkilatlarıdır. Modellər üç əsas funksiyanı yerinə yetirir: onlar real dünyanın müəyyən aspektlərini araşdırılan problemə uyğun olaraq müəyyənləşdirir, müəyyən edilmiş aspektlər arasında əhəmiyyətli əlaqələri açıq şəkildə ortaya qoyur və onlar bu əlaqələrin təbiəti ilə bağlı empirik sınaqdan keçirilə bilən müddəaları formalaşdırmağa imkan verirlər [1, səh.111-112].

Digər tədqiqatçılar (məsələn, V.M.Medkov, A.Y.Boyarski, L.L.Rıbakovski, L.P.Xarçenko, L. E. Tixonova) demoqrafik siyasətin məqsədini, o cümlədən nəsillərin təbii yenilənməsi proseslərini, həm də miqrasiyanı, köçürməni tənzimləməyi genişləndirdilər. Bir sıra mütəxəssislər (A. Sovi, V. S. Steşenko, N. V. Zvereva, V. V. Elizarov, N. N. Privalova) daha da irəli gedərək, əhalinin həm kəmiyyət, həm də keyfiyyət xüsusiyyətlərinin tənzimlənməsi tədbirlərini sosial-iqtisadi fəaliyyətin müxtəlif sahələrində demoqrafik siyasətlə əlaqələndirdilər. Məsələn, E. B. Breyeva belə tədbirlər sırasında "əhalinin çoxalması üçün arzu olunan rejimin formalaşdırılması, əhalinin dinamikasında və strukturunda meyllərin qorunub saxlanılması və ya dəyişdirilməsini, onların dəyişmə sürətini, məhsuldarlıq, ölüm dinamikasını ailə tərkibi, köçürülmə, daxili və xarici miqrasiya, əhalinin keyfiyyət xüsusiyyətləri qeyd edirlər" (16; s.34).

Əhali siyasətinə inteqrasiya olunmuş yanaşma Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun ekspertləri tərəfindən dəstəklənir. Onların fikrincə, "səhiyyə və ölüm halları, miqrasiya, şəhər və kənd əhalisinin təbəqələşməsi, ailələrin yaranması və onların dağılması kimi sahələri təhlil edərək demoqrafik məsələlərə geniş perspektivdə baxmaq lazımdır" (17;s.34).

Bu baxımdan ölkəəmizdə də özünəməxsus yanaşma həyata keçirilir. Belə ki, bizə məlumdur, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkədə baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsir göstərmiş, lakin bu təsir lazımi səviyyədə öyrənilməmiş və ölkədə demoqrafik proseslərin inkişafı proqnozlaşdırılmamışdır. Demoqrafik proseslər cəmiyyətin həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlı olduğundan bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik

proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür. Bu onunla izah edilir ki, demoqrafiya sahəsindəki siyasət hər bir dövlətin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, onun əsasını təşkil edir. Demoqrafiya siyasəti nəsillərin normal təkrar istehsalının ardıcıl surətdə həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən ibarət olmaqla, əhalinin bütün sosial-demoqrafik təbəqələrinin köklü mənafelərinə toxunur. Ailə-nikah, doğum, ölüm, təbii artım, adamların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, ömrünün uzadılması, miqrasiyası və s. bu kimi prosesləri özündə birləşdirən demoqrafiya siyasətində başlıca məqsəd demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan, əhalinin normal təkrar istehsalı prosesini təmin edən şərait yaradılmasına nail olmaqdır.

Müasir dövrdə dünya əhalisinin sürətli artımı və demoqrafik proseslərdə baş verən dəyişikliklər ayrı-ayrı dövlətlərin ölkə daxilində və beynəlxalq aləmdə yeritdiyi siyasətə daha çox təsir göstərir və həmin məsələlərlə bağlı bir çox problemlərə "demoqrafik aspekt" verərək, onların qoyuluşuna və həll edilməsinə tamamilə yeni mövqelərdən və normalardan yanaşılmasını tələb edir. Bu baxımdan, respublikamızda yaranmış demoqrafik vəziyyəti düzgün qiymətləndirmək, ona dünya miqyasında bu proseslərdə baş vermiş dəyişikliklər fonunda tarixi səpkidə yanaşmağı tələb edir.

Son vaxtlarda ölkənin bazar münasibətlərinə keçməsi, habelə 1988-ci ildən başlayan erməni işğalı nəticəsində demoqrafik proseslərdə baş verən neqativ hallar daha kəskin xarakter almış və bu meyl getdikcə güclənməkdədir. Eyni zamanda respublikamızda demoqrafiya sahəsində həyata keçirilən ayrı-ayrı tədbirlər sistem halında olmadığından lazımi səmərə verməmişdir.

Bu günün reallığı demoqrafiya siyasətinin və əhali sakinliyi sisteminin ölkənin sosial-iqtisadi inkişafının məqsəd və vəzifələrinə uyğun olaraq ciddi şəkildə yenidən qurulmasını tələb edir.

Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasında demoqrafik vəziyyətin yaxşılaşdırılması və ölkənin demoqrafiya siyasətinin formalaşdırılması məqsədi ilə Demoqrafik İnkişaf Konsepsiyası hazırlanmışdır. Bu Konsepsiya milli maraqlar əsas götürülməklə və 1994-cü ildə Qahirədə keçirilmiş Əhali Sakinliyi və İnkişafı üzrə Beynəlxalq Konfransın Fəaliyyət Proqramı, 1995-ci ildə Kopenhagendə Sosial İnkişaf Naminə Ümumdünya Sammitində və Pekində qadınların vəziyyətinə həsr edilmiş Ümumdünya Konfransında qəbul edilmiş sənədlər nəzərə alınmaqla hazırlanmışdır.

Demoqrafik siyasətin əsas məqsədi gözlənilən ömür uzunluğunun, doğum səviyyəsinin ardıcıl artırılması və əhalinin ölüm səviyyəsinin azalması kimi görünür. Əsas prioritetlər sırasında həm kəmiyyət, həm də keyfiyyət prioritetləri, o cümlədən "ana və uşağın sağlamlığının qorunması, iki və daha çox uşağın doğulması üçün ilkin şəraitin yaradılması, sosial institut kimi ailənin möhkəmləndirilməsi, daxili və xarici miqrasiya axınının optimallaşdırılması" qeyd edilib. Çoxalma proseslərinin dövlət tənzimlənməsində keyfiyyət xüsusiyyətlərinin müəyyən edilməsi əsasən dövlət vəzifələrinin yenidən nəzərdən keçirilməsi ilə bağlıdır. Əgər sovet dövründə cəmiyyətin və dövlətin iqtisadi və sosial inkişafı vəzifələri ön plana çıxırdısa, bu gün biz fərdin və ailənin maraq və dəyərlərinin prioritetliyinin daha çox qəbul edildiyini görürük. Demoqrafik siyasətin məqsədlərinin formalaşdırılması əsasən seçilmiş prinsiplərdən asılıdır. Demoqrafik siyasətin prinsipləri ən mühüm tələblərdir, demoqrafik proseslərin idarə olunmasında siyasi işçilərin, xadimlərin, liderlərin rəhbər tutmalı olduqları qaydalardır. Bu tələblər mahiyyətcə subyektiv olduğundan, onların tədqiqatçılar arasında bölüşdürülməsi üçün bir çox variant var. Xüsusilə, tanınmış rus demoqrafı V. M. Medkov demoqrafik siyasətin aşağıdakı prinsiplərini müəyyən edir:

1) ailənin suverenliyi;
2) seçim azadlığı;
3) sosial müqavilə;
4) federal və regional demoqrafik siyasətin məqsədlərinin vəhdəti;
5) sosial iştirak (14;s.10).

Beləliklə, ailənin suverenliyi prinsipi o deməkdir ki, ailə dövlətdən müstəqildir və öz mənafeyinə və məqsədlərinə uyğun olaraq öz həyatı ilə bağlı müstəqil qərar qəbul etmək hüququna malikdir. Bu prinsip həm də o deməkdir ki, ailə hər hansı nikah, cinsi və reproduktiv davranış növlərini, o cümlədən başqaları tərəfindən deviant sayıla bilən davranışları seçmək hüququna malikdir. Seçim azadlığı ilə bağlı ikinci prinsip cəmiyyətdə istənilən növ ailə və ailə davranışını seçmək üçün həqiqi imkanın olmasını nəzərdə tutur. Sosial müqavilə prinsipi belə bir fərziyyəyə əsaslanır ki, ailə yeni nəsillərin çoxalması funksiyasını yerinə yetirərək cəmiyyəti sosial rollar, əmək resursları ilə təmin edir, buna görə də cəmiyyətdən və dövlətdən müqavilə əsasında bu funksiyaların səmərəli həyata keçirilməsinə töhfə verən ailə həyatı modelləri üçün hərtərəfli dəstək göstərməyi tələb edə bilər. Milli və regional demoqrafik siyasətin məqsədlərinin vəhdəti prinsipi, məqsədlərin bütün ölkə üçün eyni olmasını və dövlətin bu və ya digər hissəsində demoqrafik vəziyyətin spesifik xüsusiyyətlərindən asılı olmamasını təklif edir. Sadalanan prinsiplərdən sonuncusu - sosial iştirak prinsipi ictimai həyatın üç əsas subyektinin: ailənin, rəsmi və qeyri-rəsmi sosial-ərazi icmalarının və birliklərinin, habelə ictimai birliklərin demoqrafik siyasətinin formalaşmasında və həyata keçirilməsində müxtəlif səviyyəli icra və qanunverici orqanlar tərəfindən təmsil olunan dövlət iştirak deməkdir.

V.M.Medkovun müəyyən etdiyi demoqrafik siyasətin demək olar ki, bütün prinsipləri demoqraflar, iqtisadçılar və hüquqşünaslar arasında mübahisələrə səbəb olur. Beləliklə, ailənin suverenliyi və seçim azadlığı prinsiplərinin praktiki həyata keçirilməsi mahiyyəti əhalinin təkrar istehsalına təsir etmək, demoqrafik prosesləri idarə etməkdən ibarət olan demoqrafik siyasət ideyası ilə çətinləşir. Bir tərəfdən cəmiyyətin və dövlətin maraqlarının uzlaşdırılması problemi, digər tərəfdən isə fərdin ailədəki uşaqların sayı ilə bağlı qərar qəbul etmək azadlığı sovet və xarici ədəbiyyatda dəfələrlə müzakirə edilmişdir. Qərb ədəbiyyatı, xüsusən də Amerika ədəbiyyatı daha çox ailənin arzu olunan sayda uşaq sahibi olmaq azadlığına qeyd-şərtsiz hörmət edilməsinin zəruriliyindən bəhs edir. Bu, daha çox vətəndaşların şüurunun və davranışının fərdiləşməsi ilə bağlıdır. Buna görə də əksər inkişaf etmiş ölkələrdə siyasətçilər demoqrafik proseslərin dövlət tənzimlənməsi ilə bağlı birbaşa qərarlar qəbul etmək istəyi nümayiş etdirmirlər. Demoqrafik və ya ailə siyasətinin daha qlobal sosial inkişaf proqramlarına inteqrasiyasına üstünlük verilir.

Rumıniyalı tədqiqatçı A. Stanoyun fikrincə, problemə yalnız bu baxımdan baxılması əsassızdır, çünki bu halda fərdi və ya ər-arvad onların ayrılmaz hissəsi olduğu sosial mühitdən seçilir. “Vəzifə ondan ibarətdir ki, əhali siyasətinin həyata keçirilməsində mümkün qədər şəxsi maraqların və sosial məqsədlərin, fərdi istəklərin və ümumi sosial ehtiyacların ahəngdar vəhdətini təmin etsin” (14;s.11).

Ümumiyyətlə, L. L. Rıbakovski və N. A. Volqin, fərd və dövlətin mənafeləri və hüquqları arasında ziddiyyət problemini süni şəkildə uzaqgörən hesab edirlər. Onların fikrincə, dövlət iqtisadi və siyasi sahədə strateji məqsədlərinə çatmaq üçün əlində olan vasitələrdən istifadə etmək hüququna malikdir (14;s.12).

Repressiv tədbirlərə əl atmadan özü üçün arzu olunan demoqrafik davranış modellərini stimullaşdırmaqla, eyni zamanda, fərd və ailəyə onlar üçün ən uyğun olan demoqrafik davranış strategiyasını seçmək hüququ və imkanı verməlidir. Milli və regional demoqrafik siyasətin məqsədlərinin vəhdətinin formalaşmış prinsipi ilə bağlı alimlərin fikirləri də birmənalı deyil.

Beləliklə, əgər biz L. E. Tixonova və N. İ. Boqino, V. M. Medkov kimi tədqiqatçıların fikri ilə razılaşaraq, onda belə hesab edə bilərik ki, yerli səviyyədə və ya ölkə ərazisinin bir hissəsində hazırlanmış proqramlar milli ilə əlaqələndirilməlidir, məqsədlərin, vəzifələrin və milli prioritetlərin birliyi bütün səviyyələrdə müşahidə olunmalıdır. (14;s.23).

Eyni zamanda B. T. Urlanis, N. A. Volqin, L. L. Rıbakovski kimi mötəbər alimlər maksimum effekt əldə etmək üçün yerli şəraitin və mühitin diqqətlə nəzərə alınmasına əsaslanan diferensiallaşdırılmış demoqrafik siyasətin zəruriliyindən danışırlar (14;s.24). Fikrimizcə, belə ərazi baxımından orta dövlətlərdə siyasətin milli və regional səviyyələri hələ də vahid strateji demoqrafik inkişaf məqsədinə tabe olmalıdır. Geniş miqyaslı ölkələrdə, məsələn, ABŞ-da və ya Rusiyada demoqrafik siyasətin həyata keçirilməsinə differensial yanaşma həyata keçirilir. Burada həmçinin, sosial iştirak prinsipinin də nəzərə alınması xüsusi əhəmiyyət kəsb edir.

Keçmiş Sovet ədəbiyyatında belə bir fikir üstünlük təşkil edirdi ki, demoqrafik siyasətin formalaşmasının yeganə subyekti dövlətdir və ictimai təşkilatlar öz fəaliyyətləri ilə yalnız onun həyata keçirilməsinə töhfə verə bilərlər. Halbuki, artıq 1990-cı illərdə elə elmi əsərlər meydana çıxırdı ki, onların müəllifləri demoqrafik siyasəti formalaşdıran və həyata keçirən agentlər kimi təkcə dövlət orqanlarının deyil, həm də vətəndaşların müxtəlif birliklərinin: partiyaların, birliklərin, cəmiyyətlərin, assosiasiyaların, fondların və s.-nin adlarını qeyd edirdilər (15;s.23).

Sosial iştirak prinsipi bir çox demoqraflar tərəfindən demoqrafik siyasət proqramlarının və tədbirlərinin effektivliyinin ən mühüm şərtlərindən biri kimi qəbul edilir. Bu prinsipin praktiki həyata keçirilməsi tələbi müxtəlif səviyyələrin maraqlarının nəzərə alınması və əlaqələndirilməsinin zəruriliyi ilə izah olunur: fərdi, qrup, ailə, ictimai, yerli, regional, milli, iqtisadi, sosial-siyasi, ekoloji, etno-mədəni və s. Demoqrafik siyasətin tədqiqat obyekti təkcə bütövlükdə ölkə əhalisi və ya ayrı-ayrı regionlar deyil, həm də vətəndaş cəmiyyətinin strukturları olan sosial-demoqrafik qruplar, ailələr olduğundan, bu, "köməkçi tədbirlərin" demoqrafik problemlərinin həllində yüksək səmərəliliyə səbəb olur. O, birbaşa yardımın həyata keçirilməsi üçün dövlətdən o qədər də direktiv tədbirlər tələb etmir, qeyri-dövlət qurumlarının (sənaye və sosial) öz üzvlərinə "özünə kömək" üçün nə qədər stimullaşdırılması"nı müəyyən edir (15;s.24).

Demoqrafik siyasətin formalaşmasında və həyata keçirilməsində dövlətin müəyyənedici rolu əsas hüquqi norma və qaydaların işlənib hazırlanması, demoqrafik proseslərin dolayı üsullarla tənzimlənməsi və əhalinin sosial müdafiəsi ilə bağlı qanunvericilik kimi funksiyaların həyata keçirilməsidir (16;s.7).

Burada onu da qeyd etmək lazımdır ki, milli demoqrafik prosesləri tənzimləyən daxili normativ hüquqi aktlarda demoqrafik siyasətin prinsipləri kifayət qədər formalaşdırılmamışdır. Belə ki, Qanunda yalnız demoqrafik təhlükəsizliyin təmin edilməsi prinsipləri qeyd olunmuşdur. Bunlara: demoqrafik proseslərin inkişafına təsirin forma və üsullarının seçimində müstəqillik; beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsiplərinə, insan hüquqlarına və əhalinin dini, etnik dəyərlərinə və mədəni əsaslarına hörmətlə yanaşılmaqla milli demoqrafik maraqların üstünlüyü; demoqrafik təhlükələr, onların nəticələri və demoqrafik təhlükəsizliyin təmin edilməsi üçün görülən tədbirlər haqqında əhalinin məlumatlandırılması kimi anlayışlar aiddir(16;s.8).

1994-cü ildə Əhali və İnkişaf üzrə Qahirə Beynəlxalq Konfransında qəbul edilmiş proqramda göstərilən demoqrafik siyasətin aparılması prinsipləri alim və siyasətçilər üçün indikativ nümunə kimi çıxış etmişdi.

Müasir mərhələdə dövlətin demoqrafik siyasətini müəyyən edən strukturları rəhbər tutmalı olan tələblər sırasına sosial iştirakçılıq prinsipi ilə yanaşı, aşağıdakılar da daxil edilməlidir:

-Beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsiplərinə riayət olunmaqla milli demoqrafik maraqların prioritetliyi;

- Demoqrafik proseslərin inkişafına təsirin forma və üsullarının seçimində dövlətin hüquqlarının suverenliyi;

- Elmi əsaslılıq, davamlılıq və sistemli tədbirlərdən istifadə və resursların səfərbər edilməsi əsasında demoqrafik problemlərin həllində komplekslik;

-Regional xüsusiyyətlər nəzərə alınmaqla dövlətin bütün səviyyələrində məqsəd, vəzifə və milli prioritetlərin vəhdəti;

- Cəmiyyətin və dövlətin müxtəlif təbəqələrinin maraqlarının tarazlığını təmin etməyə imkan verən səviyyələr, obyektlər və subyektlər üzrə funksiyaların dəqiq müəyyənləşdirilməsi;

- Cəmiyyətin demoqrafik problemlər, o cümlədən onların aradan qaldırılması istiqamətində dövlət və vətəndaş cəmiyyəti strukturlarının fəaliyyətləri barədə məlumatlandırılması..

Bütün bu dediklərimiz əsasında biz belə qənaətə gələ bilərik ki, demoqrafik siyasətin həyata keçirilməsində dövlətlə yanaşı, ayrı-ayrı cəmiyyət qurumlarının da yaxından iştirak etməsi bu sahə üzrə səmərəli idarəçiliyin həyata keçirilməsini mümkün edən amildir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, Hüquq ədəbiyyatı,2009
2. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin № 290 Sərəncamı, Bakı şəhəri, 9 dekabr 1999-cu il
3. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı. Bakı,Qanun, 2004
4. Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" Qanunu. - http://e-qanun.az/framework/5455
5. Azərbaycan Respublikasında 2008-2015-ci illərdə yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı , Bakı şəhəri 15 sentyabr 2008-ci il
6. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Fərmanı. Bakı şəhəri, 29 dekabr 2012-ci il. http://www.president. az/articles).
7. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı http://www.president. az/articles/356510
8. Abbasova S.Q. Demoqrafik proqnoz və əmək qabiliyyətli əhalinin inkişaf perspektivləri. Bakı, AMEA, 2006, 420 s.
9. Abbasova S.Q. Demoqrafik proqnoz və sosial-iqtisadi inkişaf, Bakı, Elm, 2003, 179 s.
10. Mehrəliyev E.Q. Azərbaycan Respublikasında demoqrafik proseslərin regional təhlili, Bakı, Elm, 2003, 234 s.
11. Rəhimova Z.R., Məlikova N.A., Quliyeva N.Q., Məmmədova M.B., Abbasova S.Q., Məmmədova A.N. "Əhali və inkişaf terminlərinin qısa isahlı lüğəti". Bakı 2008, 62 s.
12. Волгина Н.А. Демография, учебник, Москва, РАГС, 2003
13. Глушковой В.Г, Демография, учебное пособие, Москва, КНОРУС, 2004, 288 с.
14. Валентея Д.И. Демография: современное состояние и перспективы развития, Москва, 1997, 456 с.
15. Валентий Д.И., Кваша А.Я. «Основы демографии», Москва, 1989, 454 стр.
16. Бутов В.И. «Демография» Учебный курс. Москва. Март,2003, 573 стр.

# DEMOQRAFİK SİYASƏT SİYASİ TƏHLİLİN BAŞLICA TƏDQİQAT OBYEKTİ KİMİ

***Ələkbərov Tural***

## XÜLASƏ

Məqalə demoqrafik siyasətin obyekti, məqsədləri və prinsipləri kimi nəzəri aspektlərinin təhlilinə həsr edilmişdir. Elmi ədəbiyyatın təhlili əsasında demoqrafik siyasətin mahiyyətinin izahına vahid yanaşmanın olmaması nümayiş etdirilir. Demoqrafik siyasət məqsədlərinin müəyyənləşdirilməsinə dar və geniş yanaşmanın xüsusiyyətləri aşkar edilmişdir. Azərbaycan Respublikasının demoqrafik prosesləri idarə edən hüquqi aktlarında və demoqrafik siyasətin məqsədlərinə geniş yanaşmada öz əksini tapmışdır. Demoqrafik siyasətin müxtəlif prinsipləri təhlil edilir, onların anlaşılmazlığı qeyd olunur. Bu tədqiqatın nəticəsi olaraq müəllif son dövrlərdə Azərbaycan Respublikasının demoqrafik siyasətini müəyyən edən prinsiplərdən sonra qurumların rəhbər tutmalı olduğu demoqrafik siyasətin tərifini verir.

# ДЕМОГРАФИЧЕСКАЯ ПОЛИТИКА КАК ОСНОВНОЙ ОБЪЕКТ ПОЛИТИЧЕСКОГО АНАЛИЗА

***Алекперов Турал***

## АННОТАЦИЯ

Статья посвящена анализу таких теоретических аспектов демографической политики, как ее объект, цели и принципы. На основе анализа научной литературы показано отсутствие единого подхода к объяснению сущности демографической политики. Выявлены особенности узкого и широкого подхода к определению целей демографической политики. Это отражено в правовых актах Азербайджанской Республики, регулирующих демографические процессы, и в широком подходе к целям демографической политики. Анализируются различные принципы демографической политики, отмечается их неоднозначность. В результате этого исследования автор дает определение демографической политики, предлагает принципы, определяющие демографическую политику Азербайджанской Республики в последнее время, которыми должны руководствоваться институты.

# DEMOGRAPHIC POLICY AS THE MAIN RESEARCH OBJECT OF POLITICAL ANALYSIS

***Alakbarov Tural***

## SUMMARY

Article is devoted to analysis such theoretical aspects of demographic policy as its object, purposes and principles. On the basis of the analysis of the scientific literature it is demonstrated the absence of the single approach to the explanation of demographic policy essence. It is found out the features of narrow and broadside approach to the definition of demographic policy purposes. It is reflected in the legal acts of Azerbaijan Republic managing the demographic processes and in the broadside approach to the purposes of demographic policy. Various principles of demographic policy are analyzed, their disambiguate is noted. As a result of this research the author gives the definition of demographic policy, ofters the principles defining the demographic policy of Azerbaijan Republic in recent times which the institutes should be guided.

# AZƏRBAYCANIN XARİCİ İQTİSADİ FƏALİYYƏTİNDƏ VALYUTA NƏZARƏTİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

***Şərifova Aytən***
***BDU-nun II kurs magistrantı***
***sharifova.ayten@bk.ru***

***Açar sözlər:*** valyuta nəzarəti, xarici iqtisadi siyasət, valyuta tənzimlənməsi, xarici iqtisadi fəaliyyət, valyuta bazarı.
***Ключевые слова:*** валютный контроль, внешнеэкономическая политика, валютное регулирования, внешнеэкономическая деятельность, валютный рынок.
***Keywords:*** currency control, foreign economic policy, currency regulation, foreign economic activity, foreign exchange market.

İqtisadi araşdırmalar göstərir ki, respublikamızın müstəqillik əldə etdiyi dövrdəki inkişafını iki əsas mərhələ kontekstində nəzərdən keçirmək olar. Onun birinci mərhələsinə 1991-1993-cü illəri aid etmək olar, bu dövr Azərbaycan dövlətçiliyinin siyasət quruculuğun başlanğıcı çox keşməkeşli bir mərhələsi, özbaşınalığın və səriştəsizliyin üstünlük təşkil etdiyi dövr kimi baxmaq olar. Həmin dövrdə mövcud olan bu delitanlığa Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra son qoyulmuş, hakimiyyət və iqtisadiyyatda stabilliyin bərqərar olmasına zəmin yaradılmışdır. Məhz buna görə də 1994-cü ilin ikinci yarısından başlayaraq mütəmadi davam edən makroiqtisadi sabitlik və milli iqtisadiyyatda dinamik inkişaf dövrü davam edir və Azərbaycan iqtisadiyyatının ikinci inkişaf mərhələsi məhz həmin dövrdən başlamışdır.

Demokratik inkişafın təməli Heydər Əliyev tərəfindən qurulmuş və onun görkəmli sələfi İlham Əliyev tərəfindən çox uğurla davam etdirilən, Azərbaycan iqtisadi islahatlar və sosial inkişaf modelinin əsas istiqamətlərindən biri də ondan ibarətdir ki, respublikada sürətlə inkişaf etdirilən milli sahibkarlıq ənənələri son dövrdə beynəlxalq əmək bölgüsü qanununun tələblərinə müvafiq olaraq beynəlxalq sahibkarlıq arenasına çıxmağa başlamışdır.

Məlum olduğu kimi, bazar iqtisadiyyatı və onun bazis forması olan bazar münasibətləri bəşəri inkişafın konkret-tarixi mərhələsinin məhsulu kimi meydana gəlib inkişaf etməyə başlamışdır. Bu inkişafın iqtisadi əsasını istehsal vasitələri üzərində müxtəlif mülkiyyət formalarının yaranması, ictimai əmək bölgülərinin meydana gəlməsi və onların beynəlxalq əmək bölgüsü yönümündə formalaşması, istehsalçılar arasında ixtisas-peşə müstəqilliyinin yaranması və dərinləşməsi, təbii ehtiyatların məhdudluğu və ölkələr üzrə qeyri-bərabər yerləşməsi, dünya miqyasında məhsuldar qüvvələrin inkişafı və ictimai əmək məhsuldarlığının sürətlə artması, əhalinin sürətlə artımı və onların istehlak strukturunun zənginləşməsi və s. kimi amillər təşkil edir. Buna görə də hətta hazırki inkişaf mərhələsində belə "sosial yönümlü bazar münasibətləri" barədə iqtisadçılar arasında vahid bir dünyagörüş formalaşmışdır. Vaxtilə klassik iqtisad məktəbinin görkəmli nümayəndələri belə, bazar münasibətlərinə hər hansı bir amilin zəruri nəticəsi kimi deyil, bir-biri ilə qarşılıqlı asılılıq-vəhdət halında fəaliyyət göstərən amillər kompleksinin məhsulu kimi yanaşmışlar.

Başqa sözlə desək, bazar münasibətlərinə əsaslanan və geniş seçim imkanlarına malik olan sənaye cəmiyyətlərini, ölkələrini bu prosesləri nizamlayan və ya nizamlama imkanlarına malik olan hüquqi sistemsiz və ya qanuni hakimiyyət orqanı olmadan tənzimləmək mümkündür. Çünki normal sahibkarlıq fəaliyyəti ilə qanuni formada məşğul olmaq üçün ölkənin fiziki və hüquqi şəxsləri, prezidentləri və müxtəlif təşkilatlı iş adamları qanunla müdafiə olunmalıdırlar. Məhz buna görə də hakimiyyətə qayıdışının ilk ilindən başlayaraq Ulu Öndər Heydər Əliyev respublikada sahibkarlığın real bazasının möhkəmləndirilməsinə xidmət edən hüquqi-normativ sənədlər toplusunun tərtib və təsdiq etdirməsi üçün geniş

hüquqi şərait yaratmışdır. Bu barədə o belə demişdir: "Məlumdur ki, iqtisadiyyatımızın və iqtisadi kompleksdəki işlərin əsas məqsədi və mənası əhalinin rifahını yaxşılaşdırmaq və sosial problemlərin həlli üçün lazımi şərait yaratmaqdır. Əgər biz iqtisadiyyatda istədiyimiz nailiyyətləri əldə edə biləriksə, onda şübhəsiz ki, sosial problemlərin həllində, iqtisadiyyatın sosial yönümünün inkişaf etdirilməsində qarşımızda duran vəzifələri həyata keçirə və məqsədimizə nail ola bilərik.

Milli iqtisadiyyatın yaradılması, inkişafı bazar iqtisdiyyatına əsaslanması və formalaşması Azərbaycan iqtisadiyyatı tarixində yeni mərhələdir. İndi iqtisadiy- yatımız bir tərəfdən müstəqil Azərbaycan dövlətinin mənafeyi baxımından, digər tə- rəfdən isə dünya iqtisadi sivilizasiyasının əsas inkişaf modeli olan bazar iqtisadiyyatı əsasında formalaşır.

Bu baxımdan ölkə prezidenti cənab İlham Əliyevin apardığı uğurlu xarici və daxili siyasət Azərbaycanda radikal iqtisadi islahatlar və yerli xammal resurslarından istifadə üçün geniş meydan açır. Bu da milli iqtisadiyyatın inkişafında ölkənin zəngin təbii ehtiyatlarından istifadənin rolunun yüksəldilməsində iqtisadi nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edir. Eyni zamanda qeyd etməliyik ki, köklü struktur dəyişikliyi etmək və iqtisadi potensialı müasir tələblər səviyyəsində hərəkətə gətirərək yeni iqtisad struktura nail olmaq üçün bu son dərəcə vacibdir.

Bu baxımdan idxal fəaliyyətinin səmərəliliyinin artırılması məsələsi bir çox dövlətlər kimi Azərbaycan iqtisadiyyatının ümumi səmərəliliyinin artırılmasının mühüm aspektlərindən birinə çevrilmişdir. Belə ki, idxal fəaliyyəti istənilən ölkənin iqtisadi sisteminin fəaliyyətinin mühüm tərkib hissəsidir. Buna görə də əslində iqtisadi sistemlə əlaqədar olan makroiqtisadi tənzimləmə mexanzimlərinin seçilməsi prinsipial mühüm əhəmiyyət daşıyır.

Bildiyiniz kimi, valyuta nəzarəti təkcə nəzarət deyil, həm də tənzimləyici funksiyanı yerinə yetirir. Valyuta nəzarəti orqan və agentləri tərəfindən valyuta nəzarətinin həyata keçirilməsinin nəticəsi ondan ibarətdir ki, rezident və qeyri- rezidentlər tərəfindən cari əməliyyatlar, ayrıca şəxslərin əməliyyatları və kapitalın hərəkəti üzrə hesablaşmaların həyata keçirilməsi müddətləri baxımından valyuta əməliyyatlarının reqlamentləri; cari beynəlxalq ödəmələrin və kapitalın beynəlxalq hərəkəti ilə əlaqədar ödəmələr üzrə məhdudiyyətlər yerinə yetirilir.

Valyuta tənzimlənməsi və valyuta nəzarəti sisteminin qərarlaşması və inkişafı, ümumilikdə, bazar iqtisadiyyatının formalaşmasına müsbət təsir göstərmişdir. Bununla bərabər Azərbaycanda və bir çox MDB ölkələrində valyuta tənzimlənməsi və valyuta nəzarəti sisteminin fəaliyyətinin təhlili bu sferada obyektiv və subyektiv xarakterli bir sıra çatışmamazlıqların olduğu üzə çıxarmışdır. Bu çatışmazlıqlar bazar iqtisadiyyatının ilkin mərhələlərində valyuta münasibətlərinin liberallaşdırılması ilə sıx bağlı idilər. Bir tərəfdən bu liberallaşdırılma rezident kapitalının ölkədən nəzarətsiz formada çıxarılmasına, digər tərəfdən isə ölkəyə xarici spekulyativ (möhtəkir) kapitalın axınına səbəb oldu. Bu kapital daxili valyuta bazarının proqnozlaşdırmaq və idarə olunması imkanlarını məhdudlaşdırdı və milli valyutanın kursunun formalaşmasına mənfi təsir göstərdi. Qeyd olunan proseslər valyuta nəzarəti orqanları və agentlərinin baş verən hadisələrə təsir imkanlarının aşağı səmərəliliyi və tamamilə idarə oluna bilməyən tendensiyaların fonunda baş verirdi. Valyuta nəzarəti orqanları və agentlərinin səlahiyyətləri və məsuliyyət dairəsi təsərrüfat subyektlərinə qarşı müəyyən hüquq və vəzifələrlə məhdudlaşdırılmışdır. Həmçinin müstəqilliyin ilkin illərində Azərbaycanın valyuta tənzimlənməsi və valyuta nəzarəti sistemi uyğun nəzəri-metodoloji əsaslandırılmış bazanın olmaması və valyuta münasibətləri subyektlərinə güclü təsir vasitələrinin olmaması şəraitində formalaşırdı. Bu valyuta nəzarəti sistemini valyuta əməliyyatlarının passiv monitorinqinin aparılmasına gətirib çıxarırdı. Həmçinin bu monitorinq çox vaxt açıq-aşkar ölkədən kapitalın axınına şərait yaradan tədbirlərlə, yaxud da şübhəli xarakterli əməliyyatların aparılmasına şərait yaradan tədbirlərlə xarakterizə olunurdu.

Qeyd edək ki, valyuta tənzimlənməsi və valyuta nəzarətinin işlənib hazırlanmış və sınaqdan keçirilmiş metodikası daim təkmilləşdirilməli, dövlətin maliyyə vəziyyə- tinin dəyişkən şəraitinə uyğun olaraq çevik olmalı, daxili bazarın bütün xüsusiyyətlərini, dövlətin dünya ticarətində mövqeyini, elədə cə valyuta bazarının iştirakçılarının maraqlarını nəzərə almalıdır.

Xammal resurslarının satışından əldə edilən gəlirlər hökumətin sərəncamında böyük büdcə ehtiyatları yaradır, eləcə də xammalın ixracı və neft- qazçıxarma sahələrinə xarici investisiyanın axını xarici valyutanın ölkəyə axınını gücləndirməklə makroiqtisdi dəyişikliklərin yaranmasına, milli valyutanın möhkəmlənməsinə və deməli, ölkə iqtisadiyyatının qeyri-neft sektorunda rəqabətqa- biliyyətliliyin aşağı düşməsinə, ixrac potenasialının azalmasına və nəhayət iqti- sadiyyatımızın bütövlükdə xammal ehtiyatlarının qiymətlərinin dəyişməsindən qorun- ma imkanlarını azaldır.

Azərbaycanın maşınqayırma sənayesinin əsas məhsullarından, qazma dəzgah- ları və neft sənayesi üçün tələb olunan bütün avadanlıqlar, nasoslar, qaldırıcı kranlar, metalkəsən dəzgahlar, avtobuslar, refrijerator-avtomobillər, podşipniklər, məişət kondisionerləri, transformatorlar, lümineseus lampalar, soyuducular, ölçmə aparatlarını göstərmək olar. Göründüyü kimi bu əmtəələrin əksəriyyəti müasir dövrdə beynəlxalq bazarda yüksək tələbə malik məhsullardır. Lakin müəssisələrimiz həmin əmtəələrə olan daxili tələbi də ödəyə bilmirlər. Bunu səbəbini üzə çıxarmaq üçün neft maşınqayırması sahəsindəki yaranmış mövcud vəziyyətlə tanışlıq zənnimizcə kifayətdir.

Azərbaycanın kimya sənayesinin əsas hazır məhsulları mineral gübrələr, bitkilərin zərərvericilərdən qorunması üçün vasitələr, plastik pəncərələr və qapılar, sintetik yuyucu vasitələr, plastik taralar, məişət əşyaları, müxtəlif növ yanacaqlar, polimitiv tikinti məmulatları və s. olmuşdur. Təkcə onu demək kifayətdir ki, respublikamızda istehsal olunan sintetik yuyucu vasitələr keçmiş ittifaq respublikalarını saymasaq dünyanın 40-dan çox ölkəsinə ixrac olunurdu. Sumqayıt üzvi Sintez Birliyinin 40-dan artıq məhsulu isə keçmiş ittifaq dövründə 200-dən çox ölkəyə ixrac edilirdi və bütövlükdə xammalı Azərbaycanın öz ehtiyatları hesabına təmin olunurdu. Məlum iqtisadi böhran və ölkəmizin xammal ixracatçısına çevrilməsindən sonra isə Azərbaycanın kimya sənayesində real vəziyyət belədir: məsələn, “kimyəvi lif” kombinatı üçün xammal olan nizkomplama üç ölkədən idxal edilir. Halbuki, nizkomplamanı əldə etmək üçün ilkin xammal Azərbaycan neftidir. 1990-cı illərin tənəzzülü nəticəsində müvafiq emal sexləri fəaliyyətini dayandırdığı üçün nefti ixrac edib ondan hazırlana məhsulları idxal edirik. İdxaldan asılılıq ixrac potensialını xeyli azaltmaqla bərabər əlavə bir sıra çətinliklər də yaradır.

Azərbaycanın sənaye sahələri arasında ən cavan sənaye sahəsi kimi fəaliyyət göstərən dağ-mədən metallurgiya (qara və əlvan metallurgiya) müəssisələrini göstərmək olar. XX əsrin 70-ci illərinə qədər bu sahədə 5-6 müəssisə fəaliyyətini davam etdirirdi. Azərbaycan Respublikasına rəhbərliyi dövründə Ulu Öndərimiz Heydər Əliyev mövcud sahənin genişlənməsinə xüsusi diqqət yetirərək 80-cı illərdə 30-a qədər müəssisə kompleks şəkildə fəaliyyət göstərməklə öz əksini tapmışdır. Yerli xammal və yarımfabrikatlar əsasında istənilən həcmdə və müxtəlif çeşiddə tələbatını təmin edəcək metal məmulatların istehsalını həyata keçirirdi. Bu da respublikamızın mühüm sənaye sahələrindən olan maşınqayırma sənayesini, metal emalı sənayesini, metallurgiya sənayesini, yeyinti, yüngül sənaye sahələrini, elektrotexnika, energetika sahələrini, nəqliyyatın bütün sahələrini, metal və ondan hazırlanan məmulatlara olan tələbat ödənilirdi. Halbuki, indi yerli təbii resusrların istənilən səviyyədə olmaması, idxal artmasına səbəb olmaqla yanaşı, ölkənin bu sahədə xammal ixracatçısına çevrilməsinə şərait yaratmışdır.

Məlum olduğu kimi, tarixən zəif inkişaf etmiş dövlətlərdən xammal ixracı ölkə iqtisadiyyatının hərəkətverici qüvvəsi olduğuna görə bu ehtiyatlardan istifadə edilməsi üstünlük təşkil etmişdir. Lakin inkişaf etmiş öıkələrdə xammala olan tələbatın səviyyəsinin aşağı salınması, onların yeritdiyi proteksionizm siyasəti, xammala qənaət texnologiyalarının tətbiqi, sintetik

əvəzedicilərdən istifadə edilməsi və digər səbəblərdən asılı olaraq, ölkənin xammal hesabına ixrac ehtiyatını genişləndirmək imkanları məhduddur. Son dövrlərdə xarici ticarət dövriyyəsinin müqayisəli üstünlüklərin tədricən texnologiya tutumlu istehsala doğru dəyişdiyini nəzərə alaraq ixracın əmtəə strukturunda emaledici sahənin, əsasən də elm tutumlu məhsulların payının artırılması daha məqsədəuyğun və perspektivli hesab olunur.

Onu da qeyd etmək lazımdır ki, ixrac imkanlarının genişləndirilməsi problemi ilə yanaşı ölkənin idxal siyasətinə də diqqət yetirmək lazımdır. Çünki ölkənin ixrac potensialının inkişafında əvəzetmə strategiyası da mühüm rol oyanyır. İxrac yönümlü model inkişaf etməkdə olan ölkələrin aparıcı sənaye sahələrinin mövcud və istifadə oluna biləcək imkanlarını hərəkətə gətirməklə ixrac imkanlarının inkişafına yönəldilmiş əsas strategiyanın olmasına baxmayaraq, milli sənaye sahələrinin idxalın mənfi təsirlərindən qorunması, rəqabət qabiliyyətinin yüksəldilməsi və gələcəkdə xarici  bazara çıxış imkanının əldə edilməsi məqsədilə idxalı əvəzetmə siyasətindən də istifadə olunması məqsədəuyundur.

Beləliklə, ölkənin xarici iqtisadi fəaliyyət strategiyasının ilkin nəticələrini və yeni sənaye ölkələrinin təcürbəsini nəzərə alaraq belə qənaətə gəlmək olar ki, hər iki siyasətin üstünlüklərindən müəyyən nisbət və ardıcıllıqla istifadə etməklə  respublikanın ixrac potensialının səmərəli inkişafına nail olmaq mümkündür.

Bir çox hallarda praktiki tədbirlər sistemində ixrac ehtiyatının inkişafı məsələsində milli ixracatçıların stimullaşdırılması vasitələrinə az əhəmiyyət verilməsi halları özünü biruzə verir ki, bu məqsədəuyğun deyil. İxracın inkişaf etdirilməsi, onun yeni istiqamətlərinin axtarılması və bazasının genişləndirilməsinə, ixracatçılar üçün əlverişli şəraitin yaradılmasına komlpleks yanaşma tələb edir. Burada düzgün ticarət və onun himayə edilməsi siyasətinin işlənib-hazırlanması çox mühüm rol oynayır. Təcrübə göstərir ki, ixraca müntəzəm olaraq yardım tədbirləri həyata keçirən və onu himayə edən inkişaf etməkdə olan ölkələr nəinki ixracın, həm də bütövlükdə iqtisadiyyatın inkişafına asanlıqla nail olurlar. Buna görə də ixracı stimullaşdıran amillərin düzgün seçilməsi və effektiv yardım tədbirlərinin işlənib-hazırlanması dövlətin xarici iqtisadi siyasət strategiyasının ana xəttini təşkil etməlidir.

Respublikamızın neftçıxarma sənayesinin istehsal potensialından istifadə əsasında ixrac olunan əmtəələrin strukturundan görünür ki, Azərbaycandan xam neft, dizel yanacağı, kerosin və avtobenzin ixrac edilir. İxrac potensialının digər struktur elementlərinin, yəni mühəndis-texniki kadrların, müxtəlif növ xidmətlərin, kommunal texnologiyaların, informasiya resurslarının, yeni elm tutumlu məhsulların biliyi və s. ixracı yox səviyyəsindədir. Bu da belə bir nəticəyə gəlməyə əsas verir ki, bazar  iqtisadi münasibətlərinin dərinləşdiyi hazırkı şəraitdə neftçıxarma sənayesinin ixrac potensialından kompleks halında faydalanmaq üçün ayrı-ayrı sahələrin əmtəələrinin ixrac siyasətinin dəyişdirilməsinə zərurət var.

Neft sənayesinin və onun ayrı-ayrı struktur vahidlərinin əsasən ixraca yönəldilməsini nəzərə alaraq, ixracın stimullaşdırılması sistemi ilə əlaqədar əməli tədbirlər həyata keçirilməlidir. Bu tədbirlər sistemi yalnız istehsalı və satışı deyil, eyni zamanda ixrac ehtiyatının digər tərkib hisələrinin də ixracını əhatə etməlidir [1, s.39].

Hesab edirik ki, neft xammalının ixracı müstəsna olmaqla, neft sənayesinin ixrac ehtiyatının tərkibində özünə məxsus xüsusi çəkiyə malik olan kadr resurslarının müxtəlif növ xidmətlərinin, texnologiyalarının, informasiya resurslarının, yeni elm və bilik sahələrinin fəaliyyətinin təşkili və inkişafı, həm də ixracı dövlət tərəfindən elə stimullaşdırılır ki, onların ixracına müəyyən dövr heç bir məhdudiyyət qoyulmamalıdır.

Tədqiqatçıların qeyd etdiyi kimi, "Dünya təcrübəsi göstərir ki, milli iqtisadiyyatın monosahəli inkişaf modeli iqtisadiyyatı beynəlxalq əmək bölgüsü sistemində asılı vəziyyətdə saxlayır, müstəqil və sabit inkişafdan məhrum edir. Bu nöqteyi-nəzərdən Azərbaycanın ixrac əməliyyatlarında əsasən neft-yanacaq məhsulları üzrə ixtisalaşması birmənalı qəbul edilməməlidir. Bu gün Azərbaycan ixracının strukturunun optimallaşdırılması, ix-

rac potensialının çoxsahəli artımının təmin edilməsi qarşımızda dayanan ən zəruri məsələlərdəndir.” [5, s.75]

“İqtisadiyyatda struktur dəyişikliklərinin dünya təcrübəsinin tədqiqi belə bir nəticəyə gəlməyə əsas verir ki, bu dəyişikliklərin effektivliyinin başlıca amili ixracyönümlü iqtisadiyyat yaratmaqdır. Azərbaycan təkcə özünü təmin edəcək deyil, həm də beynəlxalq əmək bölgüsü sistemində səmərəli şəkildə iştirak edə biləcək həcmdə istehsal və resurs ehtiyatlarına malikdir. Bu ehtiyatlar əsasən hasilat, emal sənaye sahələrində, həmçinin aqrar iqtisadiyyatda cəmlənmişdir.” Emal olunmuş halda ixrac olunmuş məhsulların rəqabətqabiliyyətliliyinin təmin olunmasında keyfiyyət amilinin rolu getdikcə yüksəlir. Bu yönümdə modern texnologiyaların tələblərinə uyğun xammal istehsalına imkan yaradan mexanizmlər qurulmalıdır.” [2, s.57]

Ölkəmiz dinamik inkişaf edir və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. İnkişafın bu məqamında Azərbaycan hökuməti gələcək istiqamətlər haqqında planlar qurur: İqtisadiyyatın diversifikasiyası, modernləşmə və s. Bu baxımdan da fəal xarici iqtisadi siyasət, artıq sərhədləri aşan Azərbaycan şirkətlərinin fəaliyyət səmərəliliyinin artırılması mövzusu aktual istiqamət özünü biruzə verir.

Qeyd etmək lazımdır ki, şirkətlərimizin aktiv xarici fəaliyyətində müxtəlif alətlər mövcuddur. Məsələn, İqtisadiyyat Nazirliyinin Azpromo təşkilatı səmərəli fəaliyyət göstərir. Dövlət və özəl sektorun birgə təşəbbüsü olan Azərbacanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) İqtisadiyyat Nazirliyi nəzdində 2003-cü ildə təsis edilmişdir. Təşkilatın əsas fəaliyyət istiqamətlərindən biri xarici investorlar, yerli istehsalçılar və hökumət arasında körpü funksiyası həyata keçirməsindən ibarətdir. O cümlədən, satınalmalar üzrə Dövlət Agentliyi Azərbaycan şirkətlərinin xarici bazara çıxması üçün çalışır. Bu qurum Azərbaycan şirkətlərinin digər dövlətlərin dövlət satınalmalarında iştirakına səy göstərir.

Bütün bu proseslərin uğurla həyata keçməsi üçün Azərbaycan beynəlxalq təşkilatlarla əməkdaşlıq etməli, səmərəli fəaliyyət göstərməlidir. Ölkəmiz Avropa İttifaqı, Ümumidünya Ticarət Təşkilatı ilə danışıqlar aparır. Azərbaycanın bu sahəni tənzimləyən qanunvericiliyi xarici şirkətlərə münasibətdə liberaldır. Azərbaycan qanunlarına görə istənilən ölkənin şirkəti (əlbəttə ki, Ermənistan istisna olunmaqla) Azərbaycan dövlət satınalmalarında iştirak edə bilər.

Tədqiqatçıların da qeyd etdikləri kimi, “İqtisadi regionalizmin yaratdığı biliterial asılılıq perspektiv inkişaf üçün təhlükə törədir və bunun daha az itgi ilə aradan qaldırılması naminə multiliteral əlaqələrin hər vəchlə gücləndirilməsi zəruridir. Xarici ticarətlə xarici iqtisadi fəaliyyətin digər struktur elementləri arasında sıx dialektik bağlılığın mövcudluğu bazasına istinad etməklə, ölkədə birgə sahibkarlığın inkişafı yolundan bütün maneələri ləğv etmək zəruridir. Təhlinin nəticələri əsasında belə bir qənaət hasil olur ki, respublikada birgə sahibkarlığın inkişafı onun sahə sturkturunun təkmilləşdirilməsinə istinad etməli və bu istiqamətdə bütün zəruri tədbirlər həyata keçirilməlidir.

“Ölkənin xarici iqtisadi əlaqələrinin digər mühüm istiqamətlərindən biri də, ayrı-ayrı ölkələrə, eləcə də regional və subregional səviyyədə xarici ticarət münasibətlərinin səmərəli təşkili və regional iqtisadi inteqrasiya qruplaşmalarının ilkin inkişaf mərhələlərində iştirak etməsindən ibarətdir” [3, s.28].

“Beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində qarşıda duran əsas vəzifələrdən biri də xarici-iqtisadi fəaliyyətin tənzimlənməsinin milli iqtisadiyyatın cari və perspektiv maraqlarının səmərəli uzlaşdırılmasına şərait yaradan mexanizmini formalaşdırmaq olmalıdır” [4, s.60].

Hesab edirik Azərbaycan öz invstisiya imkanlarını digər ölkələrin biznes strukturları ilə strateji ittifaqların yaradılması yolu ilə daha da gücləndirə bilər. Belə ki, digər ölkələrin bazarlarına çıxış, məhz bu strukturların reallaşdırma kanallarından istifadə Azərbaycan məhsullarının ixracına şərait yaradaraq, xarici ticarət əlaqələrinin inkişafına səbəb olacaqdır.

## ƏDƏBİYYAT

1. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Dərs vəsaiti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 2015, səh.185.
2. Kərimli İ.A. Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri. Dərs vəsaiti. Bakı: "Çaşıoğlu" nəşriyyatı 2006, 304 s.
3. Məmmədov Z.F. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Dərslik, Bakı 2012.
4. Sadıqov M.M., Məmmədov S.M. Maliyyə. Dərslik. ADAU, Gəncə 2010, 575 s.
5. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. Gömrük işinin təşkili və idarə edilməsi. Dərs vəsaiti, Bakı: "İqtisad Universiteti" nəşriyyat, 2015, 168 s.

## AZƏRBAYCANIN XARİCİ İQTİSADİ FƏALİYYƏTİNDƏ VALYUTA NƏZARƏTİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

***Aytən Şərifova***

## XÜLASƏ

Məqalədə Azərbaycanın xarici ticarət əlaqələrinin valyuta tənzimlənməsi və valyuta nəzarəti sistemində qarşıya çıxan problemləri aşkara çıxarmaqla, ölkənin idxal-ixrac sferasında formalaşmış maliyyə əməliyyatlarının aparılması qaydalarını yeniləşdirmək istiqamətində əsaslandırılmış təkliflər verilmişdir. Tədqiqatın predmetini respublikanın xarici iqtisadi fəaliyyətində valyuta nəzarətinin inkişaf perspektivləri təşkil edir.

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ВАЛЮТНОГО КОНТРОЛЯ ВО ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНА

***Айтен Шарифова***

## АННОТАЦИЯ

В статье раскрываются проблемы, возникшие в системе валютного регулирования и валютного контроля внешнеторговых отношений Азербайджана, и даются аргументированные предложения в направлении обновления правил проведения финансовых операций, сложившихся в импортно-экспортной сфере страны. Предметом исследования являются перспективы развития валютного контроля во внешнеэкономической деятельности республики.

## PROSPECTS FOR THE DEVELOPMENT OF FOREIGN EXCHANGE CONTROL IN THE FOREIGN ECONOMIC ACTIVITY OF AZERBAIJAN

***Ayten Sharifova***

## SUMMARY

The article reveals the problems encountered in the currency regulation and currency control system of Azerbaijan's foreign trade relations, and gives reasoned suggestions in the direction of renewing the rules of conducting financial transactions formed in the import-export sphere of the country. The subject of the study is the development prospects of currency control in the foreign economic activity of the republic.

# TÜRKİYƏNİN XARİCİ SİYASƏTİNİN FORMALAŞMASINDA ATATÜRKÇÜLÜK İDEOLOGİYASININ ROLU

***Əliyev Əli Nizami oğlu***
***ARPY DİA-nın II kurs magistrantı***
***bs.alialiyev@gmail.com***

***Açar sözlər:*** xarici siyasət, siyasi ideologiya, Atatürkçülük ideologiyası, beynəlxalq münasibətlər, realist diplomatiya, sülh, siyasi dialoq, təhlükəsizlik və s.
***Ключевые слова:*** внешняя политика, политическая идеология, идеология Ататюрка, международные отношения, реалистическая дипломатия, мир, политический диалог, безопасность и др.
***Keywords:*** foreign policy, political ideology, Atatürk ideology, international relations, realistic diplomacy, peace, political dialogue, security, etc.

1923-ci il 29 Oktyabr tarixində əsası qoyulan yeni Türk dövlətinin xarici siyasətindəki ilkin təməllər də bəhs edilən dönəmdə, yəni dövlətin milli mübarizə dövründə formalaşmağa başlamışdır. Yeni qurulan müstəqil dövlətin xarici siyasət sahəsindəki əsas hədəfləri üç istiqamət şəklində sıralana bilər: 1.Osmanlı dövlətinin beynəlxalq arenadaki varlığına son qoyulması və onun əvəzinə mirası olaraq yeni Türk dövlətinin keçməsi; 2.Milli məqsədlərə uyğun olaraq ölkəni yadelli işğalçılardan təmizləmək üçün mümkün qədər xarici dəstəyin əldə edilməsi; 3.Bu dövlətin əldə etdiyi qələbənin ardından sülhə imza ataraq beybəlxalq arenada varlığını davam etdirməsi. Bu məqsədlə yeni Türk dövləti Sovet İttifaqı ilə həm hərbi, həm də siyasi sahələrdə "Əməkdaşlıq və Qarşılıqlı Balans Siyasəti" həyata keçirməyə başlamışdır. Quruluşdan öncə, 1920-ci il 23 Aprel tarixində Türkiyə Böyük Millət Məclisi (TBMM) quruldu. 1920-ci il 3 Dekabr tarixində ermənilərlə bağlanan Gümrü sülh müqaviləsi, I İnönü mühribəsindən sonra TBMM-nin Londan Konfrasına dəvət edilməsi, bunun ardından 16 Mart 1921-ci il tarixində Sovet İttifaqı ilə Moskva müqaviləsinin bağlanması və bu müqaviləyə əsasən, SSRİ-nin Osmanlı dövlətini tanımayaraq, TBMM-ni dəstəklədiyini bildirməsi yeni yaranan dövlətin ilk xarici siyasət uğurlarındandır [7, s 5].

Türklərin Milli Qurtuluş Mübarizəsinə rəhbərlik edən, sonradan müasir Türkiyəni quraraq inqilablar və islahatlar həyata keçirən Ulu Öndər Atatürk həm hərbi, həm siyasi sahələrdə öz dühasını sübut edərək tarix səhnəsinə çıxaraq adını qızıl hərflərlə yazdırmış və türk xalqının qəlbində əbədi taxt qurmuşdur. Dövlətçilik və idarəçilik sahələrində yüksək nailiyyətlərə imza atan Atatürk bugün öz xalqına və ölkəsinə sülhsevər və demokratik bir irsi miras buraxmışdır. Bu kontekstdə sülhün hər bir dövlətə fayda verəcəyini medafiə edən Atatürk Türkiyənin xarici siyasətini xüsusilə, " Yurdda Sülh, Dünyada Sülh" prinsipi ilə formalaşdırmışdır. Bu mənada, bugünkü Türkiyə dövlətinin xarici siyasət hədəfləri Atatürk siyasi irsinin mirası olaraq əsas prioritet istiqamət şəklində qalmaqda davam etməkdədir.

Türkiyə Cumhuriyyətinin banisi olan Mustafa Kamal Atatürk izlənilən bütün xarici siyasət istiqamətlərində digər dövlətlərdən birmənalı olaraq, Türkiyənin mütəqillik, suverenlik və ərazi bütövlüyünə hörmət etməsini istəmiş və dövlətlərin bərabərlik prinsipinə uyğun olaraq dövlətinin daxili işlərinə qarışmayan ölkələrlə dostluq əlaqələrinin qurulması tərəfdarı olmuşdur. Mustafa Kamal və silahdaşları 1923-1938-ci illərdə Türkiyə Xarici Siyasətini formalaşdırdılar. Dövrün xarici işlər naziri Tevfik Rüştü Aras Mustafa Kamalın göstərişlərini yerinə yetirən bürokrat mövqeyində çıxış edirdi. Mustafa Kamal dövründə xarici siyasətin əsas gündəmi olan Mosul, Hatay və Lozanna Sülh Müqaviləsi ilə həll edilə bilməyən Xarici Borc məsələlərinin həlli, eləcə də xaricidən İtaliya təhdidi, daxildən isə kürd təhlükəsi məsələsi bu dövləti İngiltərə və Fransaya yaxın bir xarici siyasət kursu

izləməyə vadar etmişdir [6, s 154]. Atatürk Dövrü kimi də tanınan bu dönəmdə, inkişaflardan və baş verən hadisələrdən asılı olaraq Türkiyə xarici siyasəti birinci dövr (1923-1932) və ikinci dövr (1932-1938) olmaqla iki qismə ayrılmaqdadır.

Birinci dövr kimi bilinən 1923-1932-ci illər aralığında xarici siyasətin əsasını Lozannada Türkiyənin mənafelərinə uyğun olaraq nəticələnməyən məsələlərin və yarana biləcək hər cür yeni problemlərin Türk inqilabının əsas prinsipləri və dövlətin milli xarici siyasətinə uyğun şəkildə sülh yolu və aktiv xarici siyasət ilə həll edilməsi istiqaməti təşkil etmişdir. Böyük qələbəyə və Lozanna kimi yüksək əhəmiyyət kəsb edən bir sülh müqaviləsinin imzalanmasına baxmayaraq, Türkiyə ilə Qərb ölkələri arasındakı münasibətləri yaxşılaşdırmaq dərhal mümkün olmamışdır. Bu məsələdə, xüsusilə İngiltərə öz kəskin mövqeyindən əl çəkməmiş və 1932-ci ilin sonlarına qədər beynəlxalq arenada Türkiyənin bütün problemli məsələlərində Fransa ilə əməkdaşlıq edərək, ona qarşı çıxmağa davam etmişdir [4, s 98]. Lozannada bir çox problemlərin həll edilməyək təxirə salınması, böhran dönəmi olaraq da bilinən bu dövrdə məsələlərin Türkiyə əleyhinə qərarlarla həllinə meyillilik və s. kimi məsələlər Qərb dünyası ilə Türkiyə arasındakı münasibətlərin normallaşması prossesini gecikdirmişdir. Bütün bunlara baxmayaraq, bu dövrdə Lozanna müqaviləsində qeyd olunan prinsiplərin həyata keçirilməsi, böyük dövlətlərlə münasibətlərin normallaşdırılması, sərhəd ölkələrlə mehriban qonşuluq əlaqələrin qurulması, sabitliyin qorunub saxlanılması Türkiyə Cumhuriyyəti xarici siyasətinin prioritet istiqamətləri olmuşdur.

Birinci Dünya müharibəsindən əvvəlki dövrdə neft ehtiyyatları ilə zəngin olan Mosul bölgəsi Almanya, İngiltərə, Fransa və ABŞ arasında münaqişə obyektinə çevrilmişdir. 1916-cı ildə Sykes-Picot müqaviləsinin imzalanması ilə bu bölgə Fransa idarəçiliyinə keçmişdir. Sadəcə 4 il müddətində Fransada qalan Mosul bölgəsi 1920-ci ildə gərçəkləşən San-Remo Konfransında bu ölkə tərəfindən onu Orta Asiyada dəstəkləməsi müqabilində İngiltərəyə verilmişdir. Lozanna Konfransında Mosulun hansı ölkənin idarəçiliyinə verilməsi məsələsi təkrar gündəm olmuşdur. Belə ki, Konfransda Türkiyə və İraq arasındakı sərhəd xəttinin müəyyən edilməsi məsələsi zamanı Türkiyə tərəfi Süleymaniyyə və Mosul bölgələrində Türk xalqının çoxluq təşkil etməsi səbəbiylə, bu ərazilərin Türkiyə sərhədi daxilində qalması gərəkdiyi fikrini irəli sürmüşdür. İngiltərə isə təbii ki mandat sahibi dövlət olaraq bu iddiaya qarşı çıxmışdır. Davam edən müzakirələrin sonunda, Lozanna Müqaviləsinin III maddəsinə görə, problemin həlli tərəflərin ixtiyarına buraxılmış və Türkiyə ilə İngiltərəyə qarşılıqlı danışıqların aparılması üçün doqquz ay müddətində vaxt verilmişdir.

1924-cü il mayın 19-da İstanbulda başlayan danışıqlarda heç bir nəticə alınmadı, tərəflər mövqelərini dəyişmədilər. İngiltərə, Hakkari və ətrafının coğrafi olaraq İraqın davamı olduğu tezisini gündəmə gətirdi. Bundan əlavə, İngiltərə Hakkari vilayətində dini əksəriyyətin Süryani olduğunu və asurilərin İraqa köç etdiyi üçün Hakkarinin də İraqa daxil edilməsini müdafiə etdi. İstanbul Konfransı nəticə vermədikdə və Türkiyə mövqeyini yumşaltmadıqca İngiltərə Türkiyə-İraq sərhəd bölgəsində sərhəd insidentlərini qızışdırmağa başlamışdır [8, s 214].

Bu vəziyyət Türkiyə-İngiltərə münasibətlərini gərginləşdirdi. Müvafiq maddəyə görə, bu problem həll oluna bilməsə, məsələ Millətlər Cəmiyyətinə veriləcəkdi. Millətlər Cəmiyyəti 1924-cü ilin sentyabrında məsələni gündəmə gətirərək danışıqlara başladı. Türkiyə Mosul və onun ətrafına dair plebisit təklif etsə də, İngiltərə bunu qəbul etmədi. Sonda Millətlər Cəmiyyətinin qəbul etdiyi qərar isə ingilis tezisini dəstəklədi və Türkiyə tərəfi daxili problemlər və həm iqtisadi, həm də siyasi hadisələrin təsiri ilə daha irəli gedə bilmədi. 1925-ci ilin sentyabrında nəşr olunan Millətlər Cəmiyyətinin Şura tərəfindən qəbul edilən hesabatında Mosulun İraqa aid olduğu, Hakkarinin isə Türkiyədə qalmalı olduğu qeyd edilirdi. Bu qərar Türkiyədə böyük əks-səda doğurdu və Britaniya əleyhinə müqavimət yenidən gücləndi. Türkiyə mətbuatı Türkiyə-İngilis müharibəsindən bəhs etsə də, Türkiyə Cümhuriyyəti Hökuməti məsələni çox uzatmayaraq, 12 iyun tarixində imzalanan Ankara müqaviləsi ilə Millətlər Cəmiyyətinin qərarını qəbul etdi. Bu müqavilə İraqın hazırkı sərhədini müəyyən

etdi və Mosul gərginliyi də o vaxtdan etibarən bitmiş oldu [9, s 448]. Razılaşmada Mosul neft gəlirlərinin 10%-nin 25 il müddətinə Türkiyəyə veriləcəyi qərarı da qəbul edilmişdir.

1932-ci ildən sonra, yəni Atatürk siyasətinin ikinci dövründə Türkiyənin xarici siyasəti daha çox beynəlxalq münasibətlər çərçivəsində inkişaf etmişdir. Bu dövrdə Türkiyə bütün qonşu və qeyri-qonşu dövlətlərlə dostluq münasibətləri qurmuş, beynəlxalq arenada digər müstəqil dövlətlər kimi bu dövlət üçün də mühim əhəmiyyət kəsb edən bərabərhüquqluluq statusu qazanmışdır. Ona görə də bu dövrdə Türkiyənin xarici siyasətinin əsas məqsədi böyük çətinliklə əldə edilən bu statusunun davam etdirilməsini təmin etmək idi. Bu dövrdə beynəlxalq münasibətlərdə yeni inkişaflar Türkiyənin daha dinamik xarici siyasət yürütməsini zəruri etdi. 1932-1938-ci illərdə onun beynəlxalq münasibətlərə dərindən təsir edən biri iqtisadi, digəri isə siyasi olmaqla iki mühüm aspekti mövcud idi. Bunlardan birincisi, 1930-cu illərdə yaşanan dünya iqtisadi böhranı, ikincisi isə bu iqtisadi böhranın təsiri altında olan bir çox ölkələrdə ifrat dövlətçilik və millətçi ideologiyaların güclənməsi məsələsi idi. Ölkələr bu iqtisadi böhranın təsiri altında xarici ticarət siyasətlərini gözdən keçirərkən beynəlxalq aləmdə iqtisadi millətçilik cərəyanı daha da artdı.

Bəhs edilən dövrdə dünya ölkələrinin çoxu iki qrupa ayrılmışdı. Birinci qrup 1929-cu il Dünya İqtisadi Böhranı və Birinci Dünya müharibəsi sonrasında yaranan vəziyyəti dəyişdirmək istəyən və İtalya, Almanya, Yaponya kimi dövlətlərdən ibarət olan revizionist grup, ikincisi isə mövcud vəziyyətdən məmnun olan və onu qorumağa çalışan, Fransa, İngiltərə və Sovet İttifaqından ibarət olan anti-revizionist qrup idi. Türkiyə də öz növbəsində bu qruplardan birinə qoşulmalı və 1930-cu illər üçün öz xarici siyasət xəttini müəyyənləşdirməli idi. Yeni qruplaşmaların yarandığı bu dövrdə, xüsusiylə də, 1931-ci ildən sonra Türkiyə dövləti öz xarici siyasətinin əsas istiqaməti olan “Yurdda Sülh Dünyada Sülh” prinsipinə uyğun olaraq, yaşanan bütün böhran və kriz vəziyyətlərinin dəf edilməsi üçün hərəkətə keçmişdir. Bəhs edilən dövrdə, Türkiyənin xarici siyasət kursu ilə bağlı digər bir xarakterik cəhət isə bu dövlətin öz strateji əhəmiyyətini yenidən bütün dünyaya hiss etdirməsi və beynəlxalq münasibətlərdə siyasi fəallığını artırması olmuşdur.

Türkiyə yürütdüyü xarici siyasətin tələbi olaraq həm dünya sülhünün qorunub saxlanmasına xidmət etməyə çalışmış, həm də davamlı regional sülhün bərqərar olması üçün əhəmiyyətli səylər göstərmişdir. Bu regional fəaliyyətlərin ən sıx olduğu bölgə, xüsusilə Avropadakı proseslərə paralel olaraq Balkanlar olmuşdur. Türkiyə 15 dekabr 1925-ci ildə Albaniya, 18 oktyabr 1925-ci ildə Bolqarıstan və 25 oktyabr 1925-ci ildə Yuqoslaviya ilə imzaladığı dostluq müqavilələri ilə bu bölgədə sülhün tərəfdarı olduğunu sübut etmişdir. 1930-cu ildən sonra Yunanıstanla əhali mübadiləsi problemini həll etmiş və bu ölkə ilə əməkdaşlığı artıraraq öz xarici siyasət xəttini daha da qüvvətləndirmişdir [1, s 147]. 14 Sentyabr 1933-cü ildə Yunanıstanla Dostluq və Sərhəd Təhlükəsizliyi Müqaviləsi imzalananda Balkanlardakı müsbət atmosfer Balkan Antantasının yaradılması ideyasını daha da sürətləndirdi. Bunun ardından, Türkiyə liderliyində Yunanıstanın dəstəyi, Yuqoslaviya və Rumıniyanın ratifikasiyası ilə başlayan diplomatik fəaliyyətlər Afinada Balkan İttifaqı üçün danışıqların aparılması və ikitərəfli müqavilələrin imzalanması ilə nəticələndi. Albaniya və Bolqarıstan etnik və ərazi iddialarının davam etdiyi və revizionist siyasətini dəstəklədikləri üçün bu əməkdaşlığa razı olmadılar. Balkan Antantası 9 fevral 1934-cü ildə Türkiyə, Yunanıstan, Yuqoslaviya və Rumıniya arasında imzalandı. Antanta müttəfiq tərəflər arasında siyasi və hərbi baxımdan qarşılıqlı təminatlar verir, onların bir-birinə qarşı sərhədlərini müəyyən edir, həmçinin yarana biləcək hərhansı bir təhlükə vəziyyətində qarşılıqlı yardımlaşma vəd edirdi. Lakin bu Antanta möhkəm bünövrəyə sahib olmadığı üçün qısa bir zaman sonra tədricən funksiyasını itirərək fəaliyyətini dayandırmış oldu [2].

Mustafa Kamal Atatürkün xarici siyasətinin əsasında Qərbə meyillilik dururdu. Atatürk xarici siyasətini Qərbə doğru yönəldən əsas səbəb isə, böyük qərb dövlətlərinin hökmranlığı altında olmaq ehtimalından qurtulmaq və qarşıdurmaya girməyərək Türkiyənin müstəqilli-

yini qoruyub saxlamaq olmuşdur. Qərbi qarşısına alarsa, qarşı tərəfin Türkiyənin daxili dövlət düşmənlərindən istifadə edəcəyini və ya onu təhdid edən dövlətləri həvəsləndirəcəyini güman edərək, beynəlxalq sistemdə tək qalacağını düşünürdü. Eyni zamanda özünü bir Avropa ölkəsi olaraq görmək, Atatürk dönəmi Türkiyəsi üçün də səciyyəvi olmuş və xarici siyasət həmişə bu məqsədlərə uyğun olaraq eyni istiqamətdə formalaşmışdır [10, s 350]. Keçmişdə baş verən mənfi hadisələrə ilişib qalmayan və ölkəsinin gələcəyi üçün daim çıxış yolları axtaran bu lider qərb ölkələri ilə razılığı Türkiyə Cumhuriyyəti üçün ən uğurlu yol hesab edirdi. Hətta Türkiyə tərəfi Lozanna danışıqlarında Qərb dövləti olacağı mesajını vermiş və Lozannadan qalan problemləri həll edərək Qərblə qarşılıqlı dostluğa dayanan münasibətlər qurmaq istədiyini də vurğulamışdır.

1930-cu illərdən etibarən Mustafa Kamalın önderliyi altında bu yolda islahat xarakterli önemli addımlar atmağa başlan Türkiyə dövləti 1932-ci ildə Millətlər Cəmiyyətinə üzv olmuş, 1930-1935-ci illərdə dolayı yolla, 1936-1939-cu illərdə isə birbaşa olaraq Qərblə əməkdaşlıq qurulmağa çalışmışdır. Atatürk dövründə xarici siyasətdə Qərbə üz tutma və Qərblə mədəni bağ qurma səyləri birlikdə irəlilədi. Milli Mübarizədə Qərblilərə qarşı qazanılan qələbələr psixoloji inam hissi yaratdı və bununla da qısa bir zaman içərisində qərbləşmək mümkün oldu. Atatürkün təşəbbüsü ilə Qərb dövlətləri ilə mədəni, sosial və siyasi sahələrdə əməkdaşlıq yaradılmış və qurulan bu əlaqələr sonrakı dövrlərdə də davam etdirilmişdir. Beynəlxalq hüquqa böyük əhəmiyyət verilməsi, legitimliyin təmin edilməsi, həm regional, həm də beynəlxalq səviyyədə əməkdaşlıq və dialoqu prioritetləşdirən xəttin izlənməsi Atatürkün xarici siyasətdəki əsas prinsipləri olmuşdur. Beynəlxalq arenada baş verən prossesləri yaxından izləyə bilməsi, hadisələrin hansı istiqamətə gedəcəyini çox dəqiq təxmin edə bilməsi və bu çərçivədə vəziyyətin tələb etdiyi addımları ata bilməsi Atatürkün diqqət çəkən və təqdirəlayiq xüsusiyyətlərindən idi.

Bu kontekstdə dünyada və xüsusilə Avropada baş verən prosesləri diqqətlə qiymətləndirən Atatürk hələ 1932-ci ildə yeni bir dünya müharibəsinin başlayacağını illər əvvəl görə bilmiş, öz nitqlərində bu mövzuda da açıqlamalara yer vermişdi. Belə ki, Almaniyada nasist partiyasının hakimiyyətə gəldiyi, İtaliyanın Aralıq dənizi və Balkanlarda genişlənməyə çalışdığı, Avropa dövlətlərinin silahlanma yarışında olduğu bir dövrdə Atatürk, bu inkişaflarla dünya sülhünü təhdid edən İkinci Dünya Müharibəsinə qədərki prosesi dəqiq təhlil edərək, regional əməkdaşlıq səylərini sürətləndirmişdir. Bu çərçivədə 9 fevral 1934-cü ildə Türkiyə, Yunanıstan, Yuqoslaviya və Rumıniya arasında Balkan Antantası, 8 iyul 1937-ci ildə isə Türkiyə, İran, İraq və Əfqanıstan arasında Səadəbat Paktı imzalanmışdır [5, s 54]. Beləliklə, Dünyanın yeni bir müharibəyə sürükləndiyi bir vaxtda Türkiyə həm şərqində, həm də qərbində təhlükəsizliyi və əməkdaşlığı təmin etmək üçün mühüm addımlar atmış oldu.

Qısaca, Türkiyənin hər sahədə potensialını reallaşdırmağa imkan verəcək regional və beynəlxalq etimad və sabitlik mühitinin yaradılması üçün səylər göstərilmişdir. Eləcə də, müasir dəyərlər üzərində qurulan Türkiyə Respublikasının dünyəvi, demokratik və sosial hüquqi dövlətə çevrilməsi üçün eyni prinsipləri bölüşən ölkələrlə dostluq əlaqələri gücləndirilmişdir. Bunu edərkən keçmişdən gələn problemlərin əsiri olunmamış, yəni Türkiyənin bir müddət əvvələ qədər müstəqillik uğrunda mübarizə apardığı Qərb dövlətləri ilə düşmənçilikləri davam etdirilməmiş, dövlətin maraqlarının tələb etdiyi şəkildə bütün ölkələrə dostluq və əməkdaşlıq əli uzadılmışdır. Bu dövrdə uzun illər davam edən müharibələrdən çıxan gənc Türkiyə Cümhuriyyətinin sülhə verdiyi dəyər xarici siyasətin hər sahəsində öz əksini tapmış, bütün problemlər diplomatiya və danışıqlar yolu ilə həll olunmağa çalışılmışdır. Türkiyənin 1929-cu ildə bütün mübahisələrin daim sülh yolu ilə həll ediləcəyini vəd edən Briand-Kelloq Paktına qoşulması bu ideyanın ən bariz göstəricisi idi.

Türk-yunan problemlərindən Mosul məsələsinə, Hataydan boğazlara qədər bir çox məsələnin diplomatiya və sülh yolu ilə həlli dövrün şərtləri ilə yanaşı həyata keçirilən real-

ist diplomatiyanın ən parlaq nümunələrini təşkil etmişdir. Türkiyənin hərbi və iqtisadi baxımdan bəlkə də ən zəif dövrünü yaşadığı bu illərdə xarici siyasət sahəsində həyata keçirilən balanslaşdırılmış və rasional siyasət sayəsində Türk Boğazları üzərində Türk hökmranlığı möhkəmlənmiş və Türkiyənin geosiyasi və strateji bütövlüyü təmin edilmişdir. Əlavə olaraq, Türkiyə-Yunan əlaqələrində görünməmiş bir irəliləyiş yaşanaraq, iki ölkə arasında bütün Balkanlara yayılan dostluq və əməkdaşlıq dövrü açılmışdır. Mosula gəlincə isə, birtərəfli hərəkətlərdən daha çox Millətlər Cəmiyyətinin arbitrajı qəbul edilmiş və nəticədə Mosul Türkiyəyə birləşdirilə bilməsə də, Türkiyənin beynəlxalq hüquqa və sülhə hörməti ən bariz şəkildə nümayiş olunmuşdur. Əslində, mövcud olduğu qısa müddətdə Millətlər Cəmiyyətinə öz ərizəsi olmadan üzv olmağa dəvət alan yeganə ölkə Türkiyə olub və bu dövlət 1932-ci ildə adıçəkilən quruma üzv olub [3].

Gənc yaşlarından beynəlxalq hadisələri, diplomatiyanı və xarici siyasəti yaxından izləyən Atatürk o dövrdən qurmaq arzusunda olduğu Türkiyə Cümhuriyyətinin effektiv xarici siyasət və möhkəm təməllər üzərində qurulmuş xarici əlaqələr sayəsində müasir sivilizasiyalar arasında öz layiqli yerini tuta biləcəyini bilirdi. Bu səbəbdən xarici siyasət və Türkiyənin beynəlxalq aləmdəki yeri Atatürk üçün hər zaman prioritet istiqamət şəklində yüksək əhəmiyyət kəsb etmiş və onun fikir və baxışlarında Türkiyənin gələcəyinin bu çərçivədə ortaya qoyulacaq sağlam baxışdan və qətiyyətli siyasətdən asılı olduğu fikri hakim olmuşdur. Bu kontekstdə ilk növbədə bütün məsələlərə rasionallıq və realizm prizmasından yanaşan Atatürkün xarici siyasət baxışı da eyni prinsiplər üzərində qurulmuşdur.

Bu gün müasir Türkiyə də öz sərhəd xəttindən başlayaraq ən geniş miqyasda sülh, sabitlik və təhlükəsizliyin bərqərar olmasını xarici siyasətinin prioritet istiqaməti saymaqdadır. Son illərdə istər beynəlxalq mühitdəki dəyişiklik, istərsə də ölkənin öz güc qaynaqlarındakı müsbət inkişaflar sayəsində bu istiqamətdə daha fəal mövqe sərgiləyən Türkiyə, xarici siyasətdə müəyyən edilmiş hədəf və vizyona uyğun olaraq möhkəm addımlar atmaqdadır. Öz regionundan başlayaraq geniş bir coğrafiyada siyasi dialoq, davamlı sosial nizam, iqtisadi və mədəni əməkdaşlıq qurmağa çalışan müasir Türkiyə Cumhuriyyətinin bütün bu fəal beynəlxalq siyasət istiqaməti Atatürk xarici siyasətinin mirası kimi dəyərləndirilə bilər. Qısaca, Atatürkün xarici siyasətinin qeyd ediləb əsas prinsipləri və istiqamətləri Türkiyənin cari xarici siyasətinin əsasını qoyur və ona işıq tutur.

## ƏDƏBİYYAT


1. Ahmet Şükrü Esmer. Siyasi Tarih (1919 – 1939), Ankara, 1953, 303 sayfa.
2. Ataturk Society of Amerika Atatürk’s Exemplary Foreign Policy based on Independence, Westernization, and Realism - Ataturk Society of America
3. Atatürk Döneminde Türk Dış Politikası Atatürk Döneminde Türk Dış Politikası / T.C. Dışişleri Bakanlığı (mfa.gov.tr)
4. Hamza Eroğlu. Türk Devrim Tarihi, -Ankara, 1981, 455 sayfa.
5. Mehmet Gönlübol ve Ömer Kürkçüoğlu. Atatürk Dönemi Türk Dış Politikasına Genel Bir Bakış, -Atatürk Araştırma Merkezi Dergisi, Cilt:1, Sayı:2, 1985, ss 451-474.
6. Ömer Kürkçüoğlu. An Analysis of Atatürk`s Foreign Policy, 1919-1938, -Turkish Year Book, Vol 20, 1981, pp 133-187.
7. Sait Dinç. Atatürk Döneminde (1920- 1938) Türk Dış Politikasında Gelişmelere Genel Bir Bakış; İkili ve Çok uluslu İlişkiler, -Çukurova Ün. Atatürk İlkeleri ve İnkılâp Tarihi Bölümü Okutmanı, Adana, 2006, 30 sayfa.
8. Sait Dinç. Atatürk İlkeleri ve İnkılâp Tarihi, -Çukurova Üniversitesi, Atatürk İlkeleri ve İnkılâp Tarihi Bölümü, Nobel Kitabevi Yayınları, Adana, 2004, 18 sayfa.
9. Stanford Shaw. Ottoman Empire and Modern Turkey, -İkinci Cilt, İstanbul, 1983, 408 p.
10. Taha Akyol. Ama Hangi Atatürk, -4. Baskı, Doğan Kitap, İstanbul, 2008, 580 sayfa.

# TÜRKİYƏNİN XARİCİ SİYASƏTİNİN FORMALAŞMASINDA ATATÜRKÇÜLÜK İDEOLOGİYASININ ROLU

*Əliyev Əli*

## XÜLASƏ

1923-1938-ci illər aralığı yeni əsası qoyulmuş Türkiyə Cümhuriyyəti üçün Mustafa Kamal Atatürkün öndərliyi altında Atatürkçülük irsinin formalaşdığı və Türkiyə tarixinə əvəzedilməz tövhələr verilən bir dönəm olmuşdur. Atatürkçülük və ya Kamalist ideologiyaya əsaslanan bu məharətli siyasət Türkiyəni o dövrün çətin və böhranlı vəziyyətindən yenidən ayağa qaldırmağı bacarmışdır. Xüsusiylə, xarici siyasət sahəsində atılan uğurlu addımlar və dərin düşünülmüş diplomatiya, uzaqgörən və güclü analitik zəkaya sahib olan Atatürk ideologiyasının bariz nümunəsidir. Atatürkün Xarici Siyasəti; prinsipial, rasional, milli maraqlara riayət edən, sülhpərvər, beynəlxalq quruluşun şərtlərini və siyasi prosesləri qiymətləndirən, məsələləri qisas və fürsətçilik ideyası ilə deyil, barışdırıcı, əməkdaşlıq və qarşılıqlı maraqlara əsaslanan diplomatiya yolu ilə həll etməyə çalışan fəal, sülhsevər xarici siyasət olmuşdur. Müasir dövr Türkiyənin xarici siyasəti isə bu gün Atatürkçülük ideoloji irsinin mirası və uğurlu davamçısıdır.

## РОЛЬ ИДЕОЛОГИИ АТАТУРКИЗМА В ФОРМИРОВАНИИ ВНЕШНЕЙ ПОЛИТИКИ ТУРЦИИ

*Али Алиев*

## АННОТАЦИЯ

Период 1923-1938 годов был периодом для только что созданной Турецкой Республики под руководством Мустафы Кемаля Ататюрка, когда было сформировано наследие ататюркизма и внесены незаменимые вклады в историю Турции. Эта искусная политика, основанная на ататюркизме или кемалистской идеологии, сумела снова поднять Турцию из тяжелого и кризисного положения того времени. В частности, успешные шаги, предпринятые в области внешней политики и вдумчивой дипломатии, являются наглядным примером идеологии Ататюрка, обладающего дальновидным и сильным аналитическим умом. Внешняя политика Ататюрка; была принципиальной, рациональной, следовавшей национальным интересам, миролюбивой, оценивающей условия международной системы и политических процессов и пытавшейся решать вопросы не с идеей мести и оппортунизма, а с примирением, сотрудничеством и взаимным дипломатия, основанная на интересах, активная, миролюбивая внешняя политика. Сегодня внешняя политика Турции является наследием и успешным продолжателем идеологического наследия Ататюрка.

## THE ROLE OF ATATURKISM IDEOLOGY IN THE FORMATION OF TURKEY'S FOREIGN POLICY

*Ali Aliyev*

## SUMMARY

The period of 1923-1938 was a period for the newly founded Republic of Turkey under the leadership of Mustafa Kemal Atatürk, when the legacy of Ataturkism was formed and irreplaceable contributions were made to the history of Turkey. This skillful policy based on Atatürkism or Kemalist ideology managed to raise Turkey again from the difficult and crisis situation of that time. In particular, successful steps taken in the field of foreign policy and thoughtful diplomacy are a clear example of the ideology of Atatürk, who has a visionary and strong analytical mind. Atatürk's Foreign Policy; It has been an active, peaceful foreign policy that adheres to principled, rational, national interests, peace-loving, evaluates the conditions of the international system and political processes, tries to solve issues not with the idea of revenge and opportunism, but through reconciliation, cooperation and diplomacy based on mutual interests. Today, Turkey's foreign policy is the legacy and successful successor of Atatürk's ideological heritage.

# KİBER RİSKLƏRİ MİNİMUMA ENDİRMƏK VƏ BU VASİTƏLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Quliyeva Dilarə***
***Bakı Mühəndislik Universiteti II kurs magistrantı***
***dguliyeva@std.beu.edu.az***

***Açar sözlər:*** kiberhücum, kiber fırıldaqçılıq,kiber risk, kiberterrorizm, kibercinayətkarlıq.
***Ключевые слова:*** кибератака, кибермошенничество, киберриск, кибертерроризм, киберпреступность.
***Key words:*** cyber attack, cyber fraud, cyber risk, cyber terrorism, cyber crime.

Geniş miqyasda yayılan informasiya texnologiyalarının inkişafı bir yerdə dayanmayan və daim müxtəlif hücumlar, alətlər və üsullar yaradan kibercinayətkarlığın inkişafı şəklində mənfi nəticələr tələb edir ki, bu da fırıldaqçılara ən ciddi və idarə olunan mühitlərdə onları aşkar etməyə imkan verir. Əsasən iqtisadiyyatın maliyyə sektoru, xüsusən də ticarət kiber fırıldaqçılar arasında xüsusi populyarlıq qazanıb. Kiberhücumlar ən populyar təhlükələrdən biridir və xüsusi diqqət tələb edir.

İndiki mərhələdə bazarın "rəqəmsal" aspektində nə qədər inkişaf etmişsə, bazarın "istehsal" aspektində nə qədər çox inkişaf etmişsə, bir o qədər də dərvik-izdərvikin inkişafına yönəlmişdir". İnformasiya təhlükəsizliyinin təmin edilməsinə yeni yanaşmaların axtarışının aktuallığının qlobal rəqabət mühiti, xüsusən də müəssisələrin, bankların xarici mənbələrə qarşı kibertəhlükəsizliyi və onların irəli inkişafının təşviqini təcəssüm edir.

Məqalədə kiber fırıldaqçılardan qorunmaq üçün artıq qəbul edilmiş prosedurlara əsaslanaraq, bank sektorunda kiberrisklərin minimuma endirilməsi sisteminin təkmilləşdirilməsi üçün ümumi tövsiyələr təklif edilir. Prioritet istiqamətlərdən biri ölkələrin qarşılıqlı faydalı əməkdaşlığı, qanunvericilik orqanlarının, alimlərin, İT texnologiyaları sahəsində mütəxəssislərin geniş informasiya şəbəkələri ilə maraqlara yönəlmiş bütün ümumi fəaliyyət sahələrinin inkişafıdır. Ölkəmizin kiberhücumlardan qorunmaq istiqamətində beynəlxalq əməkdaşlığı çərçivəsində aşağıdakılar zəruridir:

1. Yalnız rəsmi şəxsləri deyil, İT mütəxəssislərini də cəlb etməklə beynəlxalq qaydaların hazırlanmasında iştirak etmək, çünki bu halda informasiya texnologiyaları və proqram təminatı sahəsində xüsusi bilik tələb olunur.
2. Kibercinayətkarlara qarşı mübarizə prosedurunu tənzimləyən, habelə ayrı-ayrı ölkələrdə törədilmiş cinayətlərin terminologiyasının və mahiyyətinin müxtəlif şərhlərinin qarşısını almaq üçün bütün əsas anlayışları təsbit edən vahid qlobal aktın hazırlanması (və ya digər dövlətlərlə əməkdaşlıqda işlənib hazırlanmasında iştirak etmək) .
3. Kibertəhlükəsizliyə dair beynəlxalq forumlar, konfranslar və elmi sərgilər keçirmək (həmçinin digər ölkələr tərəfindən keçirilən sərgilərdə iştirak etmək). Normativ bazanın təkmilləşdirilməsi.

Daxili qanunvericiliyin ümumi təhlili belə nəticəyə gəlməyə imkan verir ki, "kibercinayətkarlıq", "kiberhücum" və "kiberterrorizm" anlayışları milli səviyyədə sabitləşməyib, yalnız müəyyən cinayət növləri tənzimlənir [2]. Beləliklə, Kiber fırıldaqçıların ölkə ərazisindəki hərəkətləri məqsəd və motivlərdən asılı olaraq cinayət, inzibati və mülki məsuliyyətə səbəb ola bilər. Cinayət məsuliyyəti hüquqi yükdə ən böyük rol oynayır. Beləliklə, kibercinayətkarların hərəkətləri ilə bağlı nəzərdən keçirilmiş normativ hüquqi bazasına əsasən, aşağıdakı tövsiyələr təklif olunur:

- Kibertəhlükəsizlik sahəsində federal qanun layihəsinin hazırlanması, o cümlədən qanunvericilik səviyyəsində kibercinayətkarlığın ümumi qəbul edilmiş anlayışlarının tətbiqi;

ölkənin aparıcı İT mütəxəssislərinin, sahibkarların və elmi ictimaiyyətin maraqları nəzərə alınmaqla, onunla mübarizə üsulları, kompüter cinayətlərinin növləri;

1. kibercinayətkarlığın yeni növlərinə uyğun olaraq qanunvericilik aktlarının təkmilləşdirilməsi;
2. kibertəhlükəsizlik sahəsində dövlət normativ-hüquqi bazasının strukturlaşdırılması;
3. Terrorizm ideologiyasının mövcudluğu, məqsədləri, əhalini qorxutması baxımından digər kibercinayətlərdən fərqliliyinə görə kiberterrorizmin ayrıca maddə kimi vurğulanması;
4. Kibercinayətlərə, xüsusən də maliyyə institutlarına hücumlara görə cəzaların sərtləşdirilməsi;
5. Baş vermiş kiberhücumlar haqqında məlumatların gizlədilməsinə görə sanksiyaları nəzərdə tutan düzəlişlərin tətbiqi.
6. Texniki və hüquqi kadrların hazırlanmasının keyfiyyətinin yüksəldilməsi. İnformasiya texnologiyaları ilə bağlı ixtisasların cəlbediciliyinin artırılması, bu sahələr üzrə dövlət büdcəsindən maliyyələşdirilən yerlərin daha çox ayrılması, eləcə də bütün ixtisaslar üzrə tələbələrə informasiya texnologiyalarının tədrisi ilə bağlı fənlər üzrə saatlıq yükün artırılması lazımdır.

Kibercinayətkarlıq tamamilə bütün sahələrdə inkişaf etdiyi üçün bu zəruridir, ona görə də iqtisadçılar, həkimlər, mühəndislər və s. insan faktorları səbəbindən baş verən kiberhücumların qarşısını almaq üçün təlimli olmalıdırlar. İnformasiya texnologiyaları, kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində cinayətlərin araşdırılmasına həsr olunmuş yeni mövzular, bölmələr, xüsusi kurslar hazırlamaq lazımdır.

Bank təşkilatları, maliyyə-kredit təşkilatları və mobil operatorlarla sürətli məlumat mübadiləsi sistemi formalaşdırmaq lazımdır. Məlumat uzun sürən təsdiqləmə prosedurları, təhlükəsizlik xidmətinə sorğuların, məktubların göndərilməsi, istintaq hərəkətlərinin aparılması və məhkəmə icazəsi vasitəsilə əldə edilməlidir [3]. Bu, cinayətlərin "qaynar təqibdə" açılmasına təsir göstərəcək, cinayətkarların qanunsuz əməllərinin izini gizlətməyə imkan verməyəcək, istintaq prosesini sadələşdirəcək.

Kiber risk mexanizminin inkişafı.

Ayrı bir məhsul kimi kiber risk sığortası daxili bazar üçün nadirdir. Məsələn, kibertəhlükələrdən sığorta proqramları AlfaStrakhovanie, Sberbank Insurance, Sogaz, Alliance və bir sıra digər əsas bazar oyunçuları tərəfindən təklif olunur [2]. Bəzi sığorta şirkətləri klassik əmlak sığortası siyasətini kibertəhlükələrin riskini əhatə etmək üçün genişləndirməyi təklif edirlər. İndiki mərhələdə bu sığorta növünün daha geniş yayılması üçün qanunvericilik bazası və ya məhkəmə təcrübəsi mövcud deyil. Həmçinin, ciddi maneə sığorta şirkətlərində risk strukturu haqqında təsəvvürü olan mütəxəssislərin olmamasıdır. Buna görə də, daxili bazarda kiber sığortanın inkişafı üçün tövsiyə olunur:

Kiberrisk sığortası kifayət qədər perspektivli və çox riskli olmadığı üçün yerli sığorta şirkətinin köməyinə gələ bilər [4]. Bu halda ən yaxşısı sığorta şirkətləri üçün riskin minimum payını evdə saxlamaq, qalan hissəsini isə xarici tərəfdaşa ötürməkdir;

1. Sığorta şirkətlərinin işçilərinin kibertəhlükələrin sığortası bazarına daxil ola bilməsi üçün bacarıqlarının artırılması;
2. Yerli təcrübədə ümumi qəbul edilmiş metodologiya olmadığı üçün kiber riskləri qiymətləndirə bilmək üçün qabaqcıl analitik inkişaflardan (məsələn, blokçeyn, anderraytinq) istifadə edin;
3. Xərcləri azaltmaq, konkret müsbət nəticələr əldə etmək və kiber risk sığortası bazarını təkmilləşdirmək üçün virtual xidmət və rəqəmsal paylamanın təkmilləşdirilməsi [5];
4. Kiberrisklərin sığortası üçün vergi güzəştlərinin tətbiqi, o cümlədən onlar üçün sığorta haqlarının mühasibat uçotunda maya dəyərinə aid edilməsi.

## ƏDƏBİYYAT

1. Курило А.П. Управление рисками информационной безопасности [Текст]: учебное пособие для вузов / А.П. Курило, Н.Г. Милославская, М.Ю. Сенаторов, А.И. Толстой – 2-е изд., испр. М.: Горячая линия – Телеком, 2015. – 130 с.
2. Чернова Г.В. Страхование и управление рисками: учебник для бакалавров / Г. В. Чернова [и др.] ; под ред. Г. В. Черновой. — 2-е изд., перераб. и доп. — М. Издательство Юрайт, 2017. — 767 с.
3. Алпеев А.С. Терминология безопасности: кибербезопасность, информационная безопасность // Вопросы кибербезопасности. 2014. №5 (8).
4. Boes S. Fighting cybercrime: joint effort / S. Boes, E.R. Leukfeldt // Ciber-Physical Security: Protecting Critical Infrastructure at the State and Local Level. - Cincinnati: Springer. - 2016. - P. 185-205.
5. Gable K.A. Cyber-Apocalypse Now: Securing the Internet against Cyberterrorism and Using Universal Jurisdiction as a Deterrent / Kelly A. Gable // Vanderbilt Journal of Transnational Law. — 2010. — Vol. 43, № 1. — P. 57-118.
6. Leukfeldt E.R. Organised cybercrime and social opportunity structures: a proposal for future research directions / E.R. Leukfeldt // The European Review of Organised Crime. — 2015. — № 2. — P. 91-103.
**7.** https://elar.urfu.ru/bitstream/10995/86553/1/m_th_y.s.vigriyanova_2020.pdf

## KİBER RİSKLƏRİ MİNİMUMA ENDİRMƏK VƏ BU VASİTƏLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Quliyeva Dilarə***

## XÜLASƏ

Kibercinayətkarlıqla mübarizə bütün səviyyələrdə aparılır: beynəlxalq, dövlət, regional, sektoral və ayrı-ayrı qurumlar (xüsusən də kredit təşkilatları) səviyyəsində. Şübhəsiz ki, kibercinayətkarlıq fırıldaqçılıq üsullarını daha mürəkkəb formalara çevirərək inkişaf etməyə davam edəcək. Cinayətkarların hərəkətlərini proqnozlaşdırmaq, kibercinayətkarlığı əngəlləyən məhdudiyyətlər sistemi yaratmaq lazımdır. Müasir dünyada kibertəhlükəsizlik sisteminin gücləndirilməsi maliyyə institutlarının irimiqyaslı itkilərini minimuma endirməlidir. Bununla belə, ayrı ayrı sektorlar və ayrı-ayrı bank qurumları səviyyəsində strateji təhlükəsizliyin əsaslarının yaradılması informasiya sahəsində iqtisadi cinayətlərin qarşısında ciddi maneəyə çevrilə bilər.

## МИНИМИЗАЦИЯ КИБЕРРИСКОВ И СОВЕРШЕНСТВОВАНИЕ ЭТИХ ИНСТРУМЕНТОВ

***Гулиева Диляра***

## АННОТАЦИЯ

Борьба с киберпреступностью ведется на всех уровнях: международном, государственном, региональном, отраслевом и на уровне отдельных учреждений (особенно кредитных). Несомненно, киберпреступность будет продолжать развиваться, а методы мошенничества приобретать все более изощренные формы. Необходимо прогнозировать действия преступников, создавать систему ограничений, предотвращающих

киберпреступность. В современном мире укрепление системы кибербезопасности должно минимизировать масштабные потери финансовых учреждений. Однако создание основ стратегической безопасности на уровне отдельных отраслей и отдельных банковских учреждений может стать серьезным препятствием для экономических преступлений в информационном поле.

## MINIMIZING CYBER RISKS AND IMPROVING THESE TOOLS

***Guliyeva Dilara***

### SUMMARY

The fight against cybercrime is carried out at all levels: international, state, regional, sectoral and at the level of individual institutions (especially credit institutions). Undoubtedly, cybercrime will continue to evolve, with fraud techniques evolving into more sophisticated forms. It is necessary to predict the actions of criminals, to create a system of restrictions that prevent cybercrime. In today's world, strengthening the cyber security system should minimize large-scale losses of financial institutions. However, establishing the foundations of strategic security at the level of individual sectors and individual banking institutions can become a serious obstacle to economic crimes in the information field.

# XARİCİ İQTİSADİ ƏLAQƏLƏRDƏ GÖMRÜK TƏNZİMLƏNMƏSİ

***Rüstəmova Ülviyyə Rauf qızı***
***BDU-nun II kurs magistrantı***
***ulviyyarustamr@gmail.com***
***Elmi rəhbər: i.ü.f.d.,dos. Aslanov Habil Hüseyn oğlu***

***Açar sözlər:*** Gömrük işi, gömrük siyasəti,xarici ticarət fəaliyyəti,bir pəncərə prinsipi,idxal və ixrac
***Ключевые слова:*** Таможенная работа, таможенная политика, внешнеторговая деятельность, принцип одного окна, импорт и экспорт
***Keywords:*** Customs work, customs policy, foreign trade activity, one window principle, import and export

Gömrük işi barədə ilk məlumatlar bizim eradan əvvəl III yüzilliyə təsadüf edən Hindistanın qədim sənədlərindən sayılan "Artaşahastra'ya gedib çıxır. Bu sənəddə çar xəzinəsinin ən mühüm mənbələri, o cümlədən gömrük rüsumları barədə ətraflı məlumatlar öz əksini tapmışdır. Hətta çarın siyasi maraqlarına uyğun olaraq, xaricdən mal gətirən tacirlərin iqtisadi maraqlarını təmin etmək üçün rüsumlardan azad etmək güzəşti də nəzərdə tutulmuşdur [1,s.5].

Müasir dövrdə xarici iqtisadi fəaliyyət və gömrük işi anlayışı bir-biri ilə sıx əlaqəlidir və buna əsaslanaraq dövlətin gömrük sərhədindən əmtəələrin və nəqliyyat vasitələrinin keçirilməsi şərtləri və faydaları ilə bağlı olan faktorları özündə birləşdirir.

Gömrük orqanları dövlət maraqlarının qorunmasında vacib rol oynayır və iqtisadi təhlükəsizliyin təmin edilməsində iştirak edir. Gömrük işi yüzilliklərdir ki, fəaliyyət göstərir və dünyanın istənilən dövlətində əsas struktur elementlərindən biri sayılır. Gömrük fəaliyyəti bilavasitə ticarətin inkişafı ilə bağlıdır. Gömrük işi müəyyən dərəcədə iqtisadi, siyasi, maliyyə, inzibati və idarəetmə xarakteri daşıdığı üçün mürəkkəb struktura malikdir.

Gömrük hər hansı bir ölkədə tariflərin toplanması və malların, o cümlədən, nəqliyyat vasitələrinin, şəxsi əşyaların və təhlükəli əşyaların ölkəyə daxil olmasına və ölkədən çıxarılmasına nəzarət edən məsul orqan və ya qurumdur. Gömrük fiskal xarakter daşıyır. Belə ki, ölkəyə gətirilən və oradan ixrac edilən malların tarif dərəcələr müəyyən edilərək müvafiq gömrük orqanları tərəfindən alındıqdan sonra dövlət büdcəsinə köçürülür.

Müasir dövrdə gömrüyün funksiyalarına məxsus fikirlər xeyli dəyişmiş və genişlənmişdir.İndi 3 əsas funksiyanı yerinə yetirir ki, bunlarda vergitutma, təhlükəsizlik və ticarətin asanlaşdırılmasının təmin edilməsidir.

Gömrük siyasəti gömrük sistemi vasitəsilə,dövlət tərəfindən həyata keçirilən xarici ticarət tənzimlənməsinə yönəldilmiş tədbirlər toplusudur.

Gömrük siyasəti dövlətin xarici ticarət dövriyyəsinin (idxal və ixracın həcmi, strukturu və şərtləri) gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin uyğun gömrük rejimləri müəyyən edilməsi vasitəsilə keçirilməsinin dövlət tənzimlənməsi üzrə məqsədyönlü fəaliyyət istiqamətlərini müəyyən edir.

- gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edək institutların məcmusu, həmçinin onun həyata keçirilmə üsulları, səlahiyyətli dövlət orqanları tərəfindən gömrük tənzimlənməsi gömrük siyasəti mexanizmi anlayışını təşkil edir.
- gömrük siyasətinin inkişafı və əsas xüsusiyyəti xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin əsas prinsipləri ilə müəyyən edilir, bunlar əsasən aşağıdakılardan ibarətdir
- ölkə iqtisadiyyatının yüksəldilməsi, büdcənin doldurulmasında və daxili bazarın formalaşmasında yaxından iştirak etmək;

- Azərbaycan Respublikasının xarici siyasətinin tərkib hissəsi kimi vahid xarici ticarət siyasətini həyata keçirməkdə fəal iştirak etməli;
- xarici ticarət fəaliyyətinin vahid dövlət tənzimləmə sistemi və onun həyata keçirilməsinə nəzarət;
- vahid valyuta nəzarəti siyasəti; - dövlətin gömrük ərazisinin bütövlüyü;
- xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsində iqtisadi tədbirlərə üstünlük verilməsi;
- xarici ticarət fəaliyyəti iştirakçılarının bərabərliyi və hər hansı formada ayrıseçkiliyə yol verilməməsi;
- xarici ticarət fəaliyyəti iştirakçılarının hüquq və qanuni maraqlarının dövlət tərəfindən qorunması;
- dövlət və onun orqanlarının xarici ticarət fəaliyyətinə lüzumsuz müdaxiləsinin, onun iştirakçılarına zərər vurulmasının, istisna edilməsi;
- gömrük siyasətinin yerinə yetirilməsi ölkənin daxili və xarici siyasətinə cavab verməklə beynəlxalq qanunlara uyğun olmalıdır [2,s.15].

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının 11 noyabr 2008-ci il tarixli "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" olan 12 Saylı Fərmanı ilə dövlət sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılması zamanı süni maneələrin aradan qaldırılması, idxal-ixrac əməliyyatlarının müasir tələblərə uyğun aparılması üçün münbit şəraitin yaradılması üçün Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipi 2009-cu il yanvarın 1-dən tətbiq edilmişdir [3,s.37].

Azərbaycan Respublikasının "İpək yolunun" və şimal-cənub nəqliyyat dəhlizinin vacib hissəsi olduğunu nəzərə alaraq dövlət sərhədinin keçid məntəqələrinin buraxılış qabiliyyətinin artırılması son dərəcədə mühüm əhəmiyyət kəsb edir.

Bununla əlaqədar dövlət sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılması zamanı süni maneələrin aradan qaldırılması, idxal-ixrac əməliyyatlarının müasir tələblərə uyğun aparılması üçün münbit şəraitin yaradılması, bu sahədə "bir pəncərə" prinsipinin tətbiq edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipi 2009-cu il yanvarın 1-dən tətbiq edilsin.
2. Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipi üzrə vahid dövlət orqanının səlahiyyətləri Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə həvalə olunsun.
3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin sənədlərinin, o cümlədən malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarının (şəhadətnamələrinin), qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatının, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışın yoxlanılmasını, sərhəddə həmin mallar üzərində baytarlıq, fitosanitar, sanitariya nəzarətini Azərbaycan Respublikasının gömrük orqanları həyata keçirir.
4. Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipi üzrə vahid dövlət orqanı kimi aşağıdakı vəzifələrin yerinə yetirilməsi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə həvalə olunsun:

4.1. ərazisində heyvanların xüsusi təhlükəli xəstəliklərinin baş verməsi qeydə alınan qonşu ölkələrdən Azərbaycan Respublikasının ərazisinə keçən nəqliyyat vasitələrinin baytarlıq qanunvericiliyində müəyyən edilmiş qaydada və müddətdə məcburi dezinfeksiya edilməsi;

4.2. başqa ölkələrdən gətirilən heyvanların sağlamlığını müəyyənləşdirmək üçün onların təcrid olunmuş halda saxlanılmasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin müvafiq regional bölməsinə məlumat verilməsi;

4.3. beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə "İcazə" blanklarının verilməsi və buna görə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğlərdə dövlət rüsumunun tutulması.

5. Müvafiq icra hakimiyyəti orqanlarının baytarlıq, fitosanitar, sanitariya nəzarətinin həyata keçirilməsi, həmçinin beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə “İcazə” blanklarının verilməsi üçün sərhəddə yaradılmış məntəqələri ləğv edilsin.

6. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə müvafiq sahələrdə qarşılıqlı məlumat mübadiləsini həyata keçirsinlər.

7. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

7.1. qüvvədə olan qanunvericilik aktlarının bu fərmana uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.3. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir [4].

Bu fərmana əsasən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədrinin 22 dekabr 2009-cu il tarixli 136 saylı əmri ilə Azərbaycan Respublikasına gətirilən mallar üzərində dövlət sərhədinin buraxılış məntəqələrindəki nəzarət orqanlarında müvafiq nəzarətin həyata keçirilməsi məqsədi ilə qanunvericilikdə müəyyən olunmuş qaydada sənədlər gömrük orqanına təqdim olunmağa başladı.

Gömrüyün əsas funksiyası malların idxalı və ya ixracı zamanı gömrük rüsumlarının müəyyən ediməsi və onların toplanmasıdır.

İdxalat və ixracat xarici ticarətin və iqtisadiyyatın ayrılmaz hissəsidir.Ölkə sərhədləri kənarında istehsal olunan məhsulun ölkədəki alıcılar tərəfindən gömrük vergisinin ödənilib və ya ödənilməməsindən asılı olmayaraq gömrük sərhəddindən keçirilərək ölkəyə daxil olmasına idxal prosesi deyilir.İdxal əməliyyatı üçün iki əsas ünsür tələb olunur ki,bunlardan biri;istehsal olunan məhsul,digəri isə bu məhsulu əldə edə biləcək vergi ödəyicisi olan fiziki və ya hüquqi şəxsdir.

Ölkələr öz yerli sənayelərinin ixrac edən ölkə qədər səmərəli və ya ucuz istehsal edə bilmədikləri halda,öz ölkə sərhədləri daxilində mövcud olmayan xammal və materialları idxal edə bilərlər.

İxracat iqtisadiyyatda ölkə daxilində istehsal olunan malın və ya xidmətin müəyyən bir məbləğ qarşılığında ölkə sərhədlərindən kənara göndərilməsi və xarici bazarda satışıdır.İxrac və idxal ilə birlikdə ölkənin xarici ticarət əlaqələrinin tarazlığını qoruyan faktorlardır.İxracatın çox olması ölkənin iqtisadi inkişafına müsbət təsir etməklə yanaşı ixracatı idxalatından çox olan ölkələr dünya ticarətində önəmli bir yerə sahib olurlar.

Beynəlxalq ticarətdə idxal və ixrac əməliyyatları olaraq ticarətin yerinə yetirilməsi üçün əsas 2 metoddan istifadə edilir:

1. Bilavasitə
2. Dolayı metodlar

Bilavasitə metod - istehsalçı (malgöndərən) ilə son istehlakçı arasında birbaşa əlaqələri nəzərdə tutur. Dolayı metod isə malların ticarət vasitəçi həlqəsi vasitəsilə alqı-satqısı kimi başa düşülür [5].

İdxal və ixrac əməliyyatları beynəlxalq əmək bölgüsündə əsas yerə malikdir. Beləliklə hər bir ölkə idxal və ixrac əməliyyatlarını həyata keçirirərək ixracatdan əldə etdikləri gəlirin müəyyən hissəsini idxalata sərf edirlər.İxracın idxalatı üstələməsinə səy göstərirlər və bununlada dövlət büdcəsini doldurmağa çalışırlar. Beləliklə idxal və ixrac qiymətləri bir-birindən fərqlənmiş olur və buda bütün dünya ölkələrinin iqtisadiyyatının əsasını təşkil edir.

## ƏDƏBİYYAT


1. A.Ş. Şəkərəliyev, C.Q. Nuriyev, A.Ə. Əliyev.. Gömrük işinin təşkili və idarə edilməsi. Bakı - Qanun - 2003
2. İmaməddin Mehrəliyev,Əzim Abduləzimov.Gömrük fəaliyyətinin iqtisadiyyatı.Adiloğlu Bakı-2008
3. C.Q. Nuriyev, A.Ə. Əliyev, M.C.Atakişiyev. Gömrük işinin təşkili və idarə edilməsi.Bakı -2009.
4. https://e-qanun.az
5. https://www.e-derslik.edu.az
6. A.S. Shekaraliyev, C.Q. Nuriyev, A.A. Aliyev. Organization and management of customs work. Baku - Law - 2003
7. Imamaddin Mehraliyev, Azim Abdulazimov. Economy of customs activity. Adiloglu Baku-2008
8. C.Q. Nuriyev, A.A. Aliyev, M.C. Atakishiyev. Organization and management of customs work. Baku - 2009.
9. https://e-qanun.az
10. https://www.e-derslik.edu.az


# XARİCİ İQTİSADİ ƏLAQƏLƏRDƏ GÖMRÜK TƏNZİMLƏNMƏSİ

***Aslanov Habil, Rüstəmova Ülviyyə***

## XÜLASƏ


Ölkənin xarici iqtisadi fəaliyyətin tənzimlənməsi, o cümlədən, gömrük siyasətinin formalaşdırılması, cəmiyyətdə sosial-siyasi sabitliyin saxlanılması, ölkə iqtisadiyyatının inkişafı, milli maraqların müdafiəsi üçün mexanizmlər yaratmaq istəyi və qabiliyyəti ilə təmin olunur.Xarici iqtisadi əlaqələrdə dövlət yerli iqtisadiyyatın dünya bazarına azad çıxışını təmin edir.Bu zaman dövlətlər idxalı və ixracı məhdudlaşdırmaq və ya stimullaşdırmaq məqsədilə müxtəlif tənzimlənmə tədbirlərindən istifadə edirlər. Bazar iqtisadiyyatı şəraitində dünya ölkələri arasındakı iqtisadi əlaqələrin nəticəsi olaraq idxal və ixrac ölkələrin ticarət əlaqələrinin genişlənməsinə səbəb olur və onlar arasındakı münasibətləri yaxşılaşdırır.Bu elmi məqalədə gömrük orqanlarının dövlət maraqlarının qorunmasındakı rolundan,dövlət tərəfindən həyata keçirilən gömrük siyasətindən,idxal və ixrac əməliyyatlarının tənzimlənməsindən bəhs edilir.

## ТАМОЖЕННОЕ РЕГУЛИРОВАНИЕ ВНЕШНЕЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ

***Асланов Габиль, Рустамова Ульвия***

### АННОТАЦИЯ

Обеспечивается регулирование внешнеэкономической деятельности страны, в том числе формирование таможенной политики, поддержание общественно-политической стабильности в обществе, развитие экономики страны, возможность создания механизмов защиты национальных интересов. отношений, государство обеспечивает свободный доступ местной экономики к мировому рынку.В это время государства используют различные регулирующие меры для ограничения или стимулирования импорта и экспорта. В результате экономических отношений между странами мира в условиях рыночной экономики импорт и экспорт приводят к расширению торговых связей стран и совершенствованию отношений между ними В данной научной статье говорится о роли таможенные органы в защите государственных интересов, проводимой государством таможенной политике, регулировании импортных и экспортных операций.

## CUSTOMS REGULATION IN FOREIGN ECONOMIC RELATIONS

***Aslanov Habil, Rustamova Ulviyya***

### SUMMARY

Regulation of foreign economic activity of the country, including the formation of customs policy, maintenance of socio-political stability in the society, development of the country's economy, and the ability to create mechanisms for the protection of national interests are ensured. In foreign economic relations, the state ensures free access of the local economy to the world market. At this time, states use various regulatory measures to limit or stimulate imports and exports. As a result of the economic relations between the countries of the world in the conditions of the market economy, import and export lead to the expansion of the trade relations of the countries and improve the relations between them. This scientific article talks about the role of customs authorities in the protection of state interests, the customs policy implemented by the state, and the regulation of import and export operations.

# AZƏRBAYCAN RESPUBLİKASININ TƏHLÜKƏSİZLİK STRATEGİYASI

***Ziyalı Leyla Ziya qızı***
***BDU-nun II kurs magistrantı***
***ziyalileyla@mail.com***

***Açar sözlər:*** müstəqillik, siyasi sabitlik, təhlükəsizlik
***Ключевые слова:*** независимости, политическая стабильность, безопасность
***Keywords:*** independent, political stability, safety

Azərbaycanın müstəqillik yolu, milli inkişafı və dövlət quruculuğu prosesi bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı özünün siyasi, iqtisadi, mədəni-intellektual potensialından və SSRİ-nin dağılması ilə əlaqədar yaranan əlverişli tarixi şəraitdən istifadə edərək, 1991-ci ildə öz milli iradəsini ortaya qoydu, yenidən istiqlal haqqına qovuşaraq, müstəqil dövlətini bərpa etdi və BMT üzvü olan müstəqil dövlətlər sırasına qoşuldu. Bu hadisə Azərbaycan xalqının indiyə qədər malik olduğu ən böyük tarixi nailiyyət hesab olunur. Müstəqillik tarixinin araşdırılması ümummilli lider Heydər Əliyevin belə bir əsaslı fikrini təsdiq edir ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunub saxlanılması, yaşadılması, daimi və əbədi edilməsi bundan da çətindir. O, 1993-cü ildəki müraciətlərindən birində qeyd edirdi ki, "Azərbaycan xalqının əsrlər boyu qəlbində yaşatdığı, həsrətini çəkdiyi günlər gəlib çatmışdır. Müstəqilliyi qazanmaq, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi qorumaq, əldə saxlamaq, möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq, vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat şəraiti təmin etmək daha çətindir".

Dünya təcrübəsi və Azərbaycanın dövlətçilik tarixinin qısa təhlili göstərir ki, müstəqilliyə qovuşmaq, müəyyən mənada siyasi sabitlik əldə etmək, milli dövlət yaratmaq və onu yaşatmaq üçün üç əsas şərtin olması vacibdir.

Bunlar:

- müstəqillik üçün mövcud daxili və xarici şəraitin yetişməsi;
- müstəqillik qazanmaq, onu qorumaq və yaşatmaq üçün xalqın milli iradəsinin ortaya qoyulması və vahid milli məqsəd ətrafında birləşməsi;
- həmin dövr üçün millətin vahid milli ideyasının və iradəsinin daşıyıcısı rolunu oynayan, insanları səfərbər edərək öz arxasınca aparmaq gücünə və qabiliyyətinə malik, cəmiyyətin əksər təbəqələrinin qəbul etdiyi milli liderin olmasından ibarətdir.

"Milli təhlükəsizliyin" etimoloji mənası milli təhlükəsizlik anlayışının özünün genezisini ifadə edən latın sözü olan "natio" (nəsil, tayfa) sözünə əsaslanır. Bu istilahın müasir anlayışı isə Qərbdə ümumi qəbul olunmuş "national security" (milli təhlükəsizlik) ifadəsindən alınmışdır. Bu ad altında həyati vacib milli maraqların təmin olunmasına yönəlmiş strategiya başa düşülür. Təhlükəsizliyin ictimai həyat sahələri üzrə əsas tipologiyası bunlardır: siyasi, iqtisadi, informasiya, hərbi, demoqrafik. ekoloji, psixoloji və s. Onlar bilavasitə milli təhlükəsizliyin strukturunu təşkil edir. Beləliklə, milli təhlükəsizliyin təmin olunması dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, hüquqi tədbirlər sistemi, habelə çevik daxili və xarici siyasətlə bağlıdır.

Azərbaycan Respublikasının milli təhlükəsizliyi onun müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunması deməkdir. Ölkə qanunvericiliyinə görə, milli təhlükəsizlik obyektləri insan - onun hüquq və azadlıqları, cəmiyyət - maddi və mənəvi dəyərləri, dövlət - müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyüdür. Milli təhlükəsizliyin subyektləri insanların, cəmiyyətin və dövlətin təhlükəsizlik maraqlarını və ehtiyaclarını təmin etmək

üçün yaradılan dövlət orqanlarıdır. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Sistemi ölkənin Konstitusiyası və qanunları əsasında qarşılıqlı fəaliyyət göstərən və səlahiyyətləri daxilində milli təhlükəsizliyin təmin edilməsinə cavabdeh olan qüvvələr və digər dövlət qurumlarının məcmusudur. Bu qüvvələr və dövlət qurumları milli təhlükəsizliyin təmin edilməsindən məsuldurlar. Milli Təhlükəsizlik Sistemi vahid dövlət siyasətinin inkişafı, milli maraqların qorunması prosesinin siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, elmi, mədəni və mənəvi sahələrdə kompleks fəaliyyət şəklində səmərəli tətbiqi üçün digər sahələr kimi şərait yaradır.

Əsrlər boyu sülh və təhlükəsizlik problemi insanları ən çox düşündürən məsələlərdən olmuşdur. Milli təhlükəsizliyin təmin olunması problemi isə xüsusilə tarixi inkişafın bütün mərhələlərində bəşəriyyətin diqqət mərkəzində olmuşdur. Tarixən insanlar öz aralarında baş verən ziddiyyətlərin zorakı vasitələrlə aradan qaldırılmasına daha çox üstünlük vermişlər. Zaman keçdikcə beynəlxalq münasibətlərin inkişafı ziddiyyətlərin, xüsusilə də dövlətlərarası ziddiyyətlərin, onların qarşılıqlı əməkdaşlığı müstəvisində aradan qaldırılması üçün zəmin yaratmışdır. Dövlətlərin inkişafı, klassik beynəlxalq hüququn meydana gəlməsi və inkişafı beynəlxalq və regional təhlükəsizliyin təmin olunmasının institusionallaşmasını şərtləndirmişdir. Bu da, eyni zamanda, beynəlxalq təh lükəsizlik sisteminin əsasını təşkil edən siyasi-hüquqi konsepsiyanın meydana gəlməsi üçün zəmin yaratmışdır.

Beynəlxalq təhlükəsizlik sisteminin formalaşmasına təsir edən bəzi amillər XIX əsrdə cərəyan edən proseslərlə bağlı olmuşdur. Belə ki, XIX əsrin sonlarına yaxın dünya artıq imperialist dövlətlər arasında bölüşdürülmüşdü. Yəni dünya koloniyalara, yarımko loniyalara və asılı dövlətlərə bölünmüşdü. Bir çox dövlətlər də tam iqtisadi asılılıq vəziyyətinə düşmüşdülər. Avropalı və amerikalı hüquqşünasların özləri də hesab edirdilər ki, beynəlxalq hüquq tam şəkildə Avropanın xristian ölkələrinə münasibatdə tətbiq edilmirdi. Deməli, koloniyalarda ümumiyyətlə hər hansı birnormadan danışmaq yersiz olardı. Hətta hər hansı bir normanın olması mütləq şəkildə hakim ölkələrin maraqlarına xidmət edirdi. Digər tərəfdən, dünyanın güclü dövlətlər arasında ərazi bölgüsünün tamamlanması gərginliyi azaltmamışdı, əksinə, yeni ziddiyyətlərin meydana gəlməsini şərtləndirmişdir. Bu, ondan irəli gəlirdi ki, Avropanın bəzi dövlətləri bölgüdən tam razı qalmamışdılar və yeni ərazi iddialarında idilər. Bütün bunlar həmin dövrün beynəlxalq siyasi həyatında ciddi gərginlikdir. Beləliklə, sürətli silahlanma və diplomatik çəkişmələr qüdrətli dövlətlər arasında aşkar müşahidə edilirdi.

Dövlətlərin təhlükəsizliyinin təmin edilməsi artıq dövlətin, cəmiyyətin və şəxsiyyətin bütün ictimai həyat fəaliyyətinin kompleks təhlükəsizliyinin təmin olunması ilə həyata keçirilir. Eləcə də qlobal miqyasda təhlükəsizliyin təmin edilməsi dedikdə, ən müxtəlif sahələrdə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bütün bu tendensiyaların Azərbaycan dövlətinin milli təhlükəsizliyinin təmin edilməsi istiqamətindəki həyata keçirdiyi fəaliyyətdə do öz əksini tapmasının şahidi oluruq. Belə ki, "Milli Təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında da milli təhlükəsizliyin başlıca struktur elementləri yuxarıda qeyd etdiklərimizə uyğun olaraq fərqləndirilir. Yəni bu zaman təhlükəsizliyin üç osas obyekti - insan, cəmiyyət və dövlət təsisatları qeyd edilir.

Təhlükəsizlik mövqeyindən çıxış etdikdə bu anlayışlar birgə vəhdət təşkil edir və onların maraqlarının təmin edilməsi bu yolla baş verir. Bu obyektlərin ayrı-ayrılıqda nəzərdən keçirilməsi isə elmi cəhətdən düzgün sayılmır. Beləliklə, müasir dövrdə istər milli səviyyədə, istərsə də beynəlxalq müstəvidə təhlükəsizliyin təmin edilməsi biristiqamətli olmayıb, ən müxtəlif sahələri və elementləri əhatə edən kompleks fəaliyyət kimi nəzərdə tutulur. Beynəlxalq təhlükəsizlik sisteminin mahiyyətini və Azərbaycan Respublikasının beynəlxalq təhlükəsizliyinin təmin olunmasında onun rolunun müəyyənləşdirilməsi üçün

öncə təhlükəsizlik məfhumunu bir az da dərindən təhlil etmək məqsədəuyğun olardı. Hər şeydən öncə, qeyd edək ki, "təhlükəsizlik" "milli maraqlar" anlayışı ilə əlaqəlidir. Daha dəqiq ifadə etsək, təhlükəsizlik problemi milli maraqların təmin olunması zamanı aktuallıq kəsb edir. Milli təhlükəsizliyin ilkin mahiyyəti həyati vacib maraqların qorunmasından ibarətdir. Həyati vacib milli maraqlara isə milli suverenliyin, dövlətin ərazi bütövlüyünün, əhalinin qorunması aiddir. Bu elə maraqlardır ki, onlarla bağlı heç bir halda kompromisə getmək olmaz.

Deməli, milli təhlükəsizlik millətin həyati vacib maraqlarının qorunmasına istiqamətlənmiş strategiyadır. Məsələn, 1991-1993-cü illərdə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində Azərbaycan ərazilərinin iyirmi faizə qədəri zəbt edilmişdir və bu gün də işğal altında saxlanılmaqdadır. Qeyd etmək lazımdır ki, xaricdən hərtərəfli dəstək alan erməni hərbi birləşmələrinin Azərbaycan ərazilərini işğal etməsində, çoxsaylı soydaşlarımızın doğma yurd yuvalarından didərgin düşməsində o vaxt hakimiyyətdə olanların milli maraqlar və milli təhlükəsizlik məsələlərinə loyal münasibətlərinin böyük “rolu” olmuşdur. Azərbaycana qarşı bu cür hərbi siyasi aksiyanın həyata keçirilməsi həyati vacib maraqların təhlükə altına alınmasına ən bariz nümunədir. Qeyd etmək lazımdır ki, həyati vacib maraqlar dövlətin ərazi bütövlüyünün, müstəqilliyinin və s. müdafiəsindən başqa, digər, heç az əhəmiyyət kəsb etməyən sahələrlə - iqtisadi, beynəlxalq və dəyərlərlə bağlı ola bilər.

Azərbaycan Respublikası müasir beynəlxalq təhlükəsizlik sistemində ciddi rola və yerə malikdir. Beynəlxalq təhlükəsizlik sistemində fəal iştirakçıya çevrilməklə Azərbaycan Respublikası öz milli təhlükəsizliyinin səmərəli təmin edilməsi üçün də unikal imkanlar əldə etmişdir. Beynəlxalq təhlükəsizlik sistemi elə ayrı-ayrılıqda hər bir dövlətin milli təhlükəsizliyinin təmin edilməsi istiqamətindəki fəaliyyətlərin məcmusunu ifadə edir. Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının "Milli Təhlükəsizlik haqqında" Qanunu 29 iyun 2004-cü il tarixdə, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası isə 23 may 2007-ci il tarixdə işlənib hazırlanmış və qəbul edilmişdir.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası müasir reallıqların bütün elementlərini nəzərə almaqla beynəlxalq təcrübənin ən mütərəqqi xüsusiyyətlərini özündə əks etdirir. Bu sənəd geniş elmi, siyasi və ictimai müzakirələrdən keçmiş, modern demokratiyaların bu sahədə olan elmi və praktiki təcrübəsi nəzərə alınmaqla və Azərbaycan Respublikasının uzunmüddətli təməl maraqları nəzərdə tutularaq hazırlanmışdır. Bu zaman geosiyasi, geostrateji, geoiqti- sadi və geomədəni prizmadan mürəkkəb və həssas bir məkanda, bir sıra xüsusiyyətlərinə görə əlverişli, eyni zamanda, təhlükəli beynəlxalq əhatədə yerləşən Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması, ilk növbədə, onun milli maraqlarının - uzunmüddətli təməl maraqlarının, onlara yönəlik xarici və daxili risk, təhdid və təhlükələrin aşkar edilməsini nəzərdə tutan, müasir dünyanın təcrübəsi də nəzərə alınmaqla effektiv milli təhlükəsizlik strategiyası və konsepsiyası işlənib hazırlanmışdır.

Göründüyü kimi, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının başlıca prinsiplərindən birini də beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiya təşkil edir. Bu prinsipdən çıxış edərək Azərbaycan dövləti beynəlxalq təhlükəsizliyin təmin edilməsi istiqamətində öhdəsinə düşən bütün vəzifələri ən yüksək səviyyədə həyata keçirir.

## ƏDƏBİYYAT

**1.** Həsənov Ə. M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, “Letterpress”, 2011, 440 s.

2. İ. Eyyubov. Demoqrafik siyasətdə Heydər Əliyev ənənələrinin rolu. Azərbaycan qəzeti. Bakı-2014, s-8.

3. Əliyev H. Müstəqilliyimiz əbədidir. Azərnəşr: Bakı, 2009,26-cı cild 512 s.
4. Mehdiyev R.Ə. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi//" Azərbaycan" qəzeti, 26 may 2011-ci il.
5. Гусейнова Ирада. Гейдар Алиев - от политического руководителя к общенациональному лидеру. Баку, «Тахсил», 2005, 504 стр.+40 прик.илл.

## AZƏRBAYCAN RESPUBLİKASININ TƏHLÜKƏSİZLİK STRATEGİYASI

***Ziyalı Leyla***

### XÜLASƏ

Müasir şəraitdə ölkəmizdə milli təhlükəsizlik sisteminin tam formalaşdırılması, onun hüquqi bazasının yaradılması istiqamətində mühüm işlər görülür.Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, milli təhlükəsizlik sisteminin səmərəli fəaliyyət göstərməsi üçün xalqın siyasi mədəniyyətinin mühüm rolu vardır. Beləliklə, aydın olur ki, təhlükəsizlik problemi çox mürəkkəb sosial-siyasi mahiyyətə malikdir və təhlükəsizliyi təmin etmək üçün səmərəli fəaliyyət göstərən təhlükəsizlik sisteminin olması vacibdir. Yalnız bu halda təhlükəsizliyin təminatı haqqında danışmaq mümkündür.

## СТРАТЕГИЯ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Зиялы Лейла***

### АННОТАЦИЯ

В современных условиях проводится важная работа в направлении полного формирования системы национальной безопасности и создания ее правовой базы в нашей стране. В дополнение ко всему этому следует отметить, что политическая культура народа имеет важную роль для эффективного функционирования системы национальной безопасности. Таким образом, видно, что проблема безопасности имеет очень сложную социально-политическую природу и для обеспечения безопасности важно иметь эффективную систему безопасности. Только в этом случае можно говорить о безопасности.

## SECURITY STRATEGY OF THE REPUBLİC OF AZERBAIJAN

***Ziyali Leyla***

### SUMMARY

In modern conditions, important work is being done in the direction of the complete formation of the national security system and the creation of its legal base in our country. In addition to all this, it should be noted that the political culture of the people has an important role for the effective functioning of the national security system. Thus, it is clear that the problem of security has a very complex socio-political nature and it is important to have an effective security system to ensure security. Only in this case it is possible to talk about security.

# XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN TƏNZİMLƏNMƏSİ ÜZRƏ DÜNYA TƏCRÜBƏSİ

***Pəri Həsənova***
***BDU-nun Iqtisadiyyat kafedrasının professoru***
***Məhəmməd Mirzəyev***
***BDU-nun II kurs magistrantı***
***perihesenova80@gmail.com***

***Açar sözlər***: xarici ticarət, xarici ticarət siyasəti, xarici iqtisadi fəaliyyətin tənzimlənməsi, proteksionizm, azad rəqabət
***Ключевые слова***: внешняя торговля, внешнеторговая политика, регулирование внешнеэкономической деятельности, протекционизм, свободная конкуренция.
***Key words***: foreign trade, foreign trade policy, regulation of foreign economic activity, protectionism, free competition.

Dünya ölkələrində dövlət xarici ticarət fəaliyyətini xeyli dərəcədə inzibati qadağanlar və məhdudiyyətlərlə deyil, iqtisadiyyatın səmərəliliyini yüksəltməyə, konkret sosial – iqtisadi inkişaf məsələlərini reallaşdırmağa kömək edən xarici ticarət əməliyyatlarını gerçəkləşdirmək üçün əlverişli iqtisadi şərait yaratmaqla tənzimləməyə çalışır. Əksinə, ölkənin iqtisadiyyatına mənfi təsir göstərə bilən əməliyyatlar üçün daha az əlverişli iqtisadi şərait yaradılır. Bu məqsədlərlə xarici ticarətin iqtisadi tənzimləmə vasitələrindən – idxal gömrük tarifi dərəcələrinin azaldılması və ya artırılması, valyuta əməliyyatlarının aparılma qaydasının dəyişdirilməsi və s. istifadə edilir. Iqtisadi vasitələr öz təbiəti etibarilə əsasən bazar vasitəsi ilə qiymət mexanizminin köməyilə malların rəqabət qabiliyyətinə təsir göstərir.

Inzibati tədbirlər isə bazar mexanizmlərindən asılı olmayaraq fəaliyyət göstərir. ÜTT səviyyəsində iqtisadi vasitələrə üstünlük verilsə də, müasir dünyada tətbiq edilən idxalın inzibati tənzimləmə vasitələri bütün qüsurlarına baxmayaraq, beynəlxalq ticarəti formalaşdıran şərt olaraq obyektiv reallıqdır və onlarla hesablaşmaq olmaz. Hesab olunur ki, çox böyük olmayan mal qrupu ilə ticarətdə istifadə edilən, məhdud müddət ərzində etibarlı olan, hökümətin operativ müdaxiləsini tələb edən müəyyən iqtisadi və sosial problemlərin həlli üçün nəzərdə tutulan inzibati tədbirlər bazar mexanizminin normal fəaliyyətini əhəmiyyətli dərəcədə pozmaq iqtidarında deyildir və hətta onun normallaşmasına yardım edə bilər.

Qeyd etmək lazımdır ki, iqtisadi və tarif tədbirləri anlayışları nə qədər yaxın olsa da, onlar tam şəkildə üst – üstə düşmür. Xarici ticarət fəaliyyətinin iqtisadi tənzimləmə tədbirləri sırasına gömrük – tarif vasitələrinin özündən əlavə digər məcburi ödəmə növlərini (sərhəd vergi və rüsumları, kompensasiya və antidempinq rüsumlarını), eləcə də, ixracın iqtisadi stimullaşdırma vasitələrini də (ixracın sığortalanması və kreditləşdirilməsi, ixracatçılara vergi və digər güzəştlərin verilməsi, müxtəlif subsidiyalar) aid etmək gərəkdir. Müasir dünya təsərrüfatında ticarət təsərrüfat həyatının ən çox tənzimləndiyi sahələrdən biridir. “Sərbəst ticarət” bayrağı altında, inkişaf etmiş ölkələr Ümumdünya Ticarət Təşkilatı çərçivəsində özlərinin, bir qayda olaraq, yüksək texnologiyalı hazır məhsullar kimi təqdim etdikləri məhsulların ixracını əngəlləyən tarif və qeyri – tarif məhduduiyyətləri zəiflətməyə çalışırlar.

Həm də qeyd etmək lazımdır ki, xarici ölkələrdən heç biri malların ixrac və idxalının inzibati tənzimləmə vasitələrinin tətbiqindən imtina etməmişdir. Belə bir vacib məsələni vurğulamaq lazımdır ki, kəmiyyət məhdudiyyətləri qərbin inkişaf etmiş sənaye ölkələrinin idxal etdiyi ərzaq məhaullarının təxminən 50% - ni, yanacağın 30% - ni və toxuculuq

məmulatlarının 10%-ə qədərini əhatə edir. İdxalın qlobal kvotalaşdırılmasını ABŞ, Kanada, Meksika, Hindistan, Koreya geniş tətbiq edir. İxracın lisenziyalaşdırlması və könüllü məhdudlaşdırlması vasitəsilə AB ölkələri və ABŞ az inkişaf etmiş ölkələrdən toxuculuq, tikiş və ayaqqabı sənayesi, qara metallurgiya məhsullarının, dəzgahların, məişət elektron mallarının və avtomobillərin idxal göndərişlərini tənzimləyir.

Daxili bazarın "üçüncü dünya" ölkələrinin ucuz mallarından qorumaq üçün texniki baryerləri Yaponiya daha aktiv tətbiq edir. Hal-hazırda bazar iqtisadiyyatlı bütün ölkələrdə ixracın dövlət tənzimlənməsinin əsas vasitələri, bir sıra ölkələrdə isə (Yaponiya, Yeni Zelandiya, İsvaç, Avstraliya və b.) hətta yeganə vasitə inzibati vasitələrdir: ayrı – ayrı malların ixracını seçməli və məqsədyönlü tənzimləyən birbaşa qadağanlar və məhdudiyyətlər, lisenziyalaşdırma və digər tədbirlər. Müasir ticarət hüququ II Dünya müharibəsindən qısa müddət sonra əmtəələrlə ticarət məsələlərini tənzimləyən çoxtərəfli ticarət danışıqları ilə meydana çıxmışdır: Ticarət və Tariflər üzrə Baş Saziş(GATT). Beynəlxalq ticarət hüququ Avropada inkişaf etmiş iqtisadi liberalizm nəzəriyyələri və sonra XVIII əsrdən bəri ABŞ təcrübəsinə əsaslanır.

Müasir şəraitdə dünyanın bütün ölkələri daxili bazarı xarici rəqabətdən qoruyan vasitələrin geniş kompleksindən istifadə edir ki, buraya tarif və qeyri - tarif tədbirləri, milli istehsalın daxili müdafiə metodları, valyuta və kredit vəsaitləri və digər vəsaitlər daxildir. Bu vasitələrin çoxunun tətbiqi çoxtərəfli dövlətlərarası sazişlərdə və konvensiyalarda təsbit edilmiş beynəlxalq qaydalarla nizama salınır. Həmin sazişlərin böyük kompleksi Ümumdünya Ticarət Təşkilatının hüquqi əsasını təşkil edir. Ümumdünya Ticarət Təşkilatı 1995-ci ildə Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) varisi kimi yaradılmış beynəlxalq təşkilatdır. ÜTT millətlər arasında ticarətin qlobal qaydalarını müəyyənləşdirən yeganə beynəlxalq təşkilatdır. Onun əsas funksiyası ticarətin tarazlı, maneəsiz, ehtimal olunan şəkildə və azad aparılmasını təmin etməkdir. Məqsəd üzv ölkələrin əhalisinin rifah halını yaxşılaşdırmaqdır.

ÜTT çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət münasibətlərinin tənzimlənməsini həyata keçirir. Əmtəələrlə, o cümlədən xidmətlərlə beynəlxalq ticarətin tənzimlənməsində aparıcı rol Ümumdünya Ticarət Təşkilatına (ÜTT) məxsusdur. Bu təşkilatın formalaşmasına qədər uzun bir təkamül yolu keçmişdir. Hazırda dünyanın 150 ölkəsi ÜTT-nin üzvüdür. Bundan başqa, 31 ölkə və bir neçə beynəlxalq təşkilat ÜTT-də müşahidəçi statusuna malikdir. Dünya ticarətinin 97%-ə qədəri ÜTT üzvlərinin payına düşür. ÜTT çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət münasibətlərinin tənzimlənməsini həyata keçirir. ÜTT-nin əsas məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması və beləliklə də, iqtisadi inkişafın, eyni zamanda insanların həyat səviyyəsinin yüksəlməsidir. ÜTT-nin prinsipləri aşağıdakılardan ibarətdir:

− "ən əlverişli rejim" prinsipi (üzv ölkələr üçün eyni ticarət şəraitinin yaradılması);

− "milli rejim" prinsipi (idxal olunmuş əmtəə və xidmətlərlə yerli mal və xidmətlər arasında ayrı-seçkiliyə yol verilməməsi);

− ticarətin tənzimlənməsində tarif metodlarına üstünlük verilməsi;

− ticarətdə kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması;

− ticarət siyasətinin aydın və şəffaf olması;

− daxili bazarların ancaq ÜTT qaydaları əsasında qorunması;

− azad rəqabət üçün əlverişli şərait yaradılması;

− ticarət mübahisələrinin danışıqlar yolu ilə həll edilməsi. (Azərbaycan və Ümumdünya Ticarət Təşkilatı. Tariflər, səh. 147)

ÜTT-nin hal-hazırda funksiyaları genişlənmişdir və dünya ticarətinin inkişafında müstəsna rol oynayır. ÜTT hazırda aşağıdakı funksiyaları yerinə yetirir.

− ÜTT-nin hüquqi əsasını təşkil edən çoxtərəfli ticarət sazişlərinin qəbul olunmasına və qəbul olunan sazişlərin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsi;

– üzv ölkələr arasında ticarət danışıqlarının təşkil edilməsi;
– üzv ölkələr tərəfindən həyata keçirilən ticarət siyasətinin müşahidə edilməsi;
– digər beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi;
– üzv ölkələr arasında ticarət mübahisələrinin həll edilməsinə köməklik göstərilməsi;
– beynəlxalq ticarətə və ticarət siyasətinə dair informasiyaların toplanması, öyrənilməsi və təqdim olunması.

Bir sıra beynəlxalq konvensiyalar Ümumdünya Gömrük Təşkilatının himayəsi altında yaradılmış və fəaliyyət göstərir (Gömrük prosedurlarının sadələşdirilməsi və harmoniləşdirilməsi üzrə Konvensiya, Beynəlxalq ticarətdə dövriyyədə olan Malların Təsvirinin Harmonikləşdirilməsi Sistemi haqqında Konvensiya və başqaları). Ticarət və İnkişaf üzrə BMT–nin Konfransı (YUNKTAD) xarici ticarətin tənzimlənməsi sahəsində çoxtərəfli qaydaların inkişafına öz töhfəsini vermişdir: Məhdudlaşdırıcı iş təcrübəsini tənzimləyən Qaydalar Toplusunu, Qarşılıqlı olmayan, qeyri – diskriminasiya xarakterli pereferensiyalar sistemi barəsində tövsiyələr, Qarışıq daşımalar haqqında konvensiya və YUNKTAD çərçivəsində işlənib hazırlanmış bir sıra başqa sənədləri xatırlamaq lazımdır.

BMT, Avropa İqtisadi Komissiyası (AİK) və bir sıra digər qurumlar böyük rol oynayır. Təşkilatın yaradılmasının təşəbbüsçüləri kimi üçüncü dünya ölkələrinin ticarət problemlərinə diqqətin az olması məsələsini önə çəkən bir sıra İEOÖ, o cümlədən sosialist ölkələri çıxış ediblər. YUNKTAD-ın qarşısına qoyulan vəzifələr aşağıdakılardır, dünya ticarətinin inkişafına dəstək verilməsi, sabit dünyanın və bərabərhüquqlu qarşılıqlı faydalı əməkdaşlığın təmin edilməsi, müasir beynəlxalq ticarətin səmərəli funksiya göstərməsi üçün tövsiyələrin, prinsiplərin, təşkilati-hüquqi şəraitin və mexanizmlərin işlənib hazırlanması, BMT sisteminin iqtisadi sahəsi üzrə təşkilatlarının fəaliyyətlərinin koordinasiyasında iştirak etmək.

İnkişaf etməkdə olan ölkələrin əmtəələri üçün inkişaf etmiş ölkələrin bazarlarında imtiyazlar verilməsi rejiminin bərqərar olmasında da YUNKTAD-ın rolu böyükdür. YUNKTAD-ın Dehlidə keçirilən 2-ci sessiyası zamanı "İnkişaf etməkdə olan ölkələrdən hazır əmtəələrin idxalı zamanı ümumi imtiyaz sistemi" qəbul edilmişdir ki, bu sistemə görə də sənayecə inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə bir sıra imtiyazlar təqdim edirlər.

Hazırda YUNKTAD beynəlxalq ticarətin tənzimlənməsində 15-20 il əvvəlki kimi elə də böyük rol oynamır, lakin özünün potensialını hələ də qoruyur. İnkişaf etmiş ölkələrdə (məsələn, ABŞ, Yaponiya, Avropa ölkələri, Kanada, Avstraliya) və inkişaf etməkdə olan ölkələrdə (məsələn, Braziliyada, Hindistanda, ÇXR – da) bütün müasir ticarət – siyasi vasitələr tətbiq olunur. Buraya sössüz gömrük tarifi, kvotalaşdırma, lisenziyalaşdırma, ticarətdə texniki əngəllər, fitosanitar normalar, idxal və ixrac qadağaları, antidempinq və kompensasiya tədbirləri daxildir. Xarici ticarətin səmərəliliyinin yüksəldilməsi məsələsini xarici ticarət dövriyyəsinin optimal strukturuna nail olmadam yerinə yetirmək mümkün deyildir. Xarici ticarət statistikasında xarici ticarət dövriyyəsinin strukturu ölkələrdə qəbul olunmuş ixrac və idxal mallarının təsnifatları və nomenklaturalarına uyğun olaraq müəyyən olunur.

Milli gömrük tariflərində malların təsnifatının eyniliyini təmin etmək üçün vahid təsərrüfat sisteminin yaradılması gömrük qanunvericiliklərinin unifikasiya istiqamətlərindən biridir. Malların mövcud müxtəlifliyini sistemləşdirməyə daim təkmilləşməkdə olan elmi təsnifatlar kömək edir. Təsnifatlar malların keyfiyyətinin və çeşidinin idarə olunmasında mühüm əhəmiyyətə malikdir, belə ki bu malların sistemləşdirilmiş öyrənilməsinə, ticarətin rasional təşkilinə, keyfiyyətə nəzarət üzrə işlərin səmərəli həyata keçirilməsinə, çeşidin strukturunun öyrənilməsi və formalaşdırılmasına kömək edir.

Ölkələrarası gömrük müharibələri,xarici ticarətdən əldə olunacaq üstünlüyü heçə endirdiyindən, xarici ticarətin inkişafına mane olmaqla yanaşı bütövlükdə ümümdünya təsərüfatının inkişafını da ləngidirdi. Ona görədə 1948 ci ildə Cenevrədə ümumdünya ticarətində gömrük tatiflərini tənzimləyən qlobal dünya təşkilatı kimi Ticaərət və gömrüklər üzrə Baş razılaşma yaradıldı.Bu təşkilatın- Beynəlxalq ticarət təşkilatının əsasnaməsi hazırlanarkən ABŞ təklifinə əsasən gömrük tariflərinin azaldılması və ticarətin liberallaşdılması nəzərdə tutuldu. Havanada tərtib olunan həmin əsanamə iştirakçı olkələr tərəfindən təsdiq olunmadı lakin onun əvəzində gömrük siyasətinin əsas normativləri qüvvəyə mindi. Dəqiqlələşdirilmiş amerika təklifləri, yəni iştirakçı tərəflərinin bərabərliyi,ticarət azadlığı bu razılaşmanın əsas ideyasını təşkil edirdi. Nəticədə Baş razılaşmanın və onun sələfi olan ÜTT(ümumdünya ticarət təşkilatının) faliyyətinin əsasını təşkil edən mühüm aşağıdakı normativlər müəyyən olundu:

-xaricdən gətirilən və ya idxal edilən bütün əmtəə və xüdmətləri diskrimasiya etmədən onların ticarətinə mümkün qədər əlverişli şərait yaradaraq ,ölkədə istehsal olunan əmtə və xidmətlərlə eyni səviyyəli gömrük və vergi,ticarəti tənzimləyən normalarını tətbiq etmək;

-milli bazarı müdafiə etmək məqsədi ilə kəmiyyət məhdudiyyətlərini və yaxud buna uyğun tədbirləri tətbiq etməmək;

- üzv dövlətlərin əmtə və xidmət bazarlarında iştirakın genişləndirilməsində ticarət güzəştlərinin qarşılıqlı edilməsi;

-ticarət mübahisələrinin danışıqlar və məsləhətləşmələr, ÜTT-də bu məqsədlə yaradılan mexanizmlərdən istifadə etmək yolu ilə həll edilməsi;

-xarici ticarət əməliyyatlarını xüsusi-hüquqi əsaslarda aparılması. (https://www.wto.org/)

Qeyd etmək lazımdır ki, əmtəə bazarının tənzimlənməsinə real təsiri az sayda assosiasiyalar göstərir. Daha çox müvəffəqiyyətə OPEC ölkələri nail olublar. Buna əsas səbəbi neftin bazis xammal əmtəəsi kimi məxsusluğu, onun hasilatının az sayda inkişaf etməkdə olan ölkələrdə təmərküzləşməsi, inkişaf etmiş ölkələrin neft idxalından asılılığı, transmilli şirkətlərin neftin qiymətlərinin artmasında maraqlı olmalarıdır. OPEC ölkələrinin səyləri nəticəsində neftin qiymətlərinin səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmiş, icarə ödəmələrinin yeni sistemi tətbiq edilmiş, Qərb şirkətləri tərəfindən inkişaf etməkdə olan ölkələrin resursların istismar şərtləri axırıncıların xeyrinə dəyişdirilmişdir. Müasir şəraitdə OPEC neftin qiymətlərini müəyyən etməklə dünya neft bazarının tənzimlənməsinə əhəmiyyətli təsir göstərir.

Hal-hazırda fzaliyyət göstərən təşkilatlardan biri Azad ticarət haqqında Şimali Amerika sazişidir. (NAFTA) 1994-cü il yanvarın 1-dən etibarən ABŞ, Kanada və Meksikanın ərazisində Şimali Amerika Azad Ticarət Zonası haqqında Saziş (NAFTA) qüvvəyə mindi. Tarixi təcrübə göstərir ki, üç ölkə arasında ticarətiqtisadi münasibətlər Şimali Amerika təsərrüfat kompleksinin formalaşdırılmasının vacib amilidir. Şimali Amerikada inteqrasiya proseslərinin aktivləşdirilməsinə yönəldilmiş ilk rəsmi tədbir “Ebbot planı” (1947) hesab edilir. Bu planın məqsədi Kanada iqtisadiyyatının aparıcı sahələrinə ABŞ sərmayələrini stimullaşdırmaq idi.

1959-cu ildə ABŞ və Kanada birgə hərbi istehsal haqqında saziş bağladılar və bu saziş ABŞ standartlarının Kanada hərbi texniki istehsalına tətbiq edilməsinə imkan verdi. ABŞ və Kanada arasında ikitərəfli ticarət-iqtisadi münasibətlərin inkişafının növbəti mərhələsi 1965-ci ildə bağlanmış avtomobilqayırma sənayesi məhsulları ilə ticarətin liberallaşdırılması haqqında saziş hesab edilir. Bu saziş öz növbəsində avtomobil istehsalı ilə əlaqədar olan bir çox digər sahələrin də inteqrasiyasını stimullaşdırdı.

Azad İqtisad Zonaların (AİZ) yaranmasını şərtləndirən amillər və spesifik xüsusiyyətlər пəzərə alınmaqla, AİZ-lərin 30-a yaxın müxtəlif formaları dünya təcrübəsində özünü təsdiq etmişdir. Həmin zonalar məqsəd və vəzifələrindən, statuslarından və bir sıra xarakterik cəhətlərindən asılı olaraq, 5 qrupa bölünürlər (ticarət-anbar təyinatlı, ixrac yönümlü,

istehsal-texniki yönümlü, iqtisadi-maliyyə və xidmət təyinatlı, kompleks və beynəlxalq AİZ-lər). Qeyd etmək lazımdır ki, AİZ-lərin təşkilinin vahid bir forması mövcud deyildir və bu proseslər hər bir ölkənin iqtisadi inkişaf modelinə və konsepsiyasına uyğun tənzimlənir. Hazırda Azərbaycanda AİZ tipli zonaların yaradılması və təşkili metodologiyaları öyrənilməkdədir. Əvvəldə qeyd edildiyi kimi, artıq Azərbaycanda iqtisadi zonalar barədə qanunvericilik bazası formalaşdırılıb və zəruri normativ sənədlər təsdiq edilibdir[1,30].

Azad iqtisadi zonalarda əsasən ticarət əməliyyatları, anbarlaşdırma, qablaşdırma, markirovka və sair fəaliyyət sahələri vardır. Burada sərbəst limanlar, tranzit daşımaları və azad gömrük əraziləri mövcuddur. Bu qəbildən olan AİZ-lərin dünya ölkələrində ən geniş yayılmış formaları aşağıdakılardır:

-sərbəst ticarət zonası – bu tip zonalarda bir sıra güzəştlər vardır, o cümlədən gömrük rüsumları, idxal vergisi tətbiq edilmir və əsas əməliyyatlar ticarət dövriyyəsinin artırılmasına xidmət edir. Bu cür zonalarda iri infrastruktur obyektləri, məsələın, iri anbar sahələri, çənlər və məhsulların saxlanılması üçün anbarlar, avadanlıq və texniki vəsaitlər, maşın və mexanizmlər, laboratotiyalar və sairlər mövcuddur;

- ticarət-anbar zonası – Belə zonalara daxil olan mallar gömrük rüsumları ödənilmədən saxlanıla və satıla bilər. Burada geniş şəbəkəli ticarət-anbar kompleksləri yaradılır və xidmətlər göstərilir. Bu tip zonaların başlıca xüsusiyyətlərindən biri, onların beynəlxalq nəqliyyat qovşaqlarının kəsişdiyi ərazidə tranzit-nəqliyyat marşrutlarında, məsələn, dəmir yol qovşaqları, dəniz-çay limanları, aeropotlarda və sair müvafiq ərazilərdə yerləşməsidir;

- sərbəst gömrük zonası – bu zonalarda sərhəddən keçən mallara rüsum tətbiq olunmur və onlar dəniz və çayların sahillərində, nəqliyyat qovşaqlarının kəsişdiyi ərazilərdə yaradılır. Belə zonaların əsas məqsədləri xarici iqtisadi fəaliyyətin gücləndirilməsi, xarici ticarət əlaqələrinin genişləndirilməsidir [2,45].

- xüsusi gömrük zonaları bu zonaların əsas funksiyaları ixrac üçün nəzərdə tutulan malların tranzit sənədləşməsi, konsiqnasiya anbarlarında saxlanılması, qablaşdırılması, onların ixrac şərtlərinə uyğunlaşdırılması (standartlaşdırılması) və

sairlərdən ibarətdir. Belə zonalarda daxil olan mallar və onların oradan çıxarılması gömrük rüsumlarına cəlb edilmir;

- sərbəst liman – belə iqtisadi zonalar bilavasitə limanlarda yaradılır. Həmin zonalar malların rüsumsuz qəbulu və yola salınması hüququna malikdirlər. Bu tip zonalar yerləşdiyi ərazinin gömrük nəzarətinə aid olmurlar;

- açıq şəhərlər – bu tip iqtisadi zonalarda ticarət alqı-satqı əməliyyatlarının geniş spektri yer alır;

- sərhədyanı (regional) zonalar – bu zonalar sərhədyanı ölkələr arasında yerli ticarət-iqtisadi potensialın genişləndirilməsi, alqı-satqı əməliyyatlarının artırılması, investisiyaların cəlbi, beynəlxalq əmək bölgüsü prinsiplərindən səmərəli istifadə edilməsi, valyuta vəsaitlərinin daxil olmasının artırılması, yerli ərazilərin sosialiqtisadi problemlərinin həll edilməsi və sair istiqamətlər üzrə fəaliyyət göstərirlər [3,43].

## ƏDƏBİYYAT


1. Azərbaycan və Ümumdünya Ticarət Təşkilatı. Xidmətlər. 2016
2. Dos.Kərimov Ə.İ., Beynəlxalq İqtisadi Münasibətlər - Bakı 2006
3. Əhmədov M.A., Hüseyn A.C. "İqtisadiyyatın dövlət tənzimlənməsində rolu". Metodik vəsait, Bakı, 2011.

# XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN TƏNZİMLƏNMƏSİ ÜZRƏ DÜNYA TƏCRÜBƏSİ

***Pəri Həsənova, Məhəmməd Mirzəyev***

## XÜLASƏ

Dünya ölkələrində dövlət xarici ticarət fəaliyyətini xeyli dərəcədə inzibati qadağanlar və məhdudiyyətlərlə deyil, iqtisadiyyatın səmərəliliyini yüksəltməyə, konkret sosial – iqtisadi inkişaf məsələlərini reallaşdırmağa kömək edən xarici ticarət əməliyyatlarını gerçəkləşdirmək üçün əlverişli iqtisadi şərait yaratmaqla tənzimləməyə çalışır. Əksinə, ölkənin iqtisadiyyatına mənfi təsir göstərə bilən əməliyyatlar üçün daha az əlverişli iqtisadi şərait yaradılır. Bu məqsədlərlə xarici ticarətin iqtisadi tənzimləmə vasitələrindən – idxal gömrük tarifi dərəcələrinin azaldılması və ya artırılması, valyuta əməliyyatlarının aparılma qaydasının dəyişdirilməsi və s. istifadə edilir.

## МИРОВОЙ ОПЫТ РЕГУЛИРОВАНИЯ ВНЕШНЕТОРГОВЫХ ОТНОШЕНИЙ

***Пари Гасанова, Мирзаев Мухаммед***

## АННОТАЦИЯ

В странах мира государство пытается регулировать внешнеэкономическую деятельность не административными запретами и ограничениями, а путем создания благоприятных экономических условий для внешнеэкономических операций, способствующих повышению эффективности экономики и реализации конкретных задач социально-экономического развития. Наоборот, создаются менее благоприятные экономические условия для операций, которые могут оказать негативное влияние на экономику страны. В этих целях в числе средств экономического регулирования внешнеэкономической деятельности - снижение или повышение ставок ввозных таможенных тарифов, изменение порядка проведения валютных операций и др.

## WORLD EXPERIENCE IN REGULATING FOREIGN TRADE RELATIONS

***Pari Hasanova, Mahammad Mirzaev***

## SUMMARY

In the countries of the world, the state is trying to regulate foreign economic activity not by administrative prohibitions and restrictions, but by creating favorable economic conditions for foreign economic operations that contribute to improving the efficiency of the economy and the implementation of specific tasks of socio-economic development. On the contrary, less favorable economic conditions are created for transactions that may have a negative impact on the country's economy. For these purposes, among the means of economic regulation of foreign economic activity are the reduction or increase in the rates of import customs tariffs, changing the procedure for conducting foreign exchange transactions, etc.

# GENDER MƏSƏLƏSİNƏ ELMİ-NƏZƏRİ YANAŞMALAR

***Zeynallı Ayan Vüqar qızı***
***BDU-nun I kurs magistrantı zeyn-alliayan01@gmail.com***

***Açar sözlər:*** feminizm, cinslərin fərqliliyi, qeyri-bərabərlik, qadın-kişi, dövlət
***Ключевые слова:*** феминизм, гендерные различия, неравенство, женщины-мужчины, государство
***Keywords:*** feminism, gender differences, inequality, woman-man,state.

Giriş: XX əsrin 60-cı illərindən etibarən Qərb ölkələrinin sosial elmlərində (antropologiya, tarix, psixologiya, fəlsəfə və s.) işlədilən "gender" anlayışı qadın probleminin ələlxüsus, cəmiyyətdə qadın və kişi münasibətlərinin təhlili ilə əlaqələndirilir. Əksər qərb ölkələrində "feminist tədqiqatları", "gender tədqiqatları" və "qadın problemləri tədqiqatı" məfhumları çox vaxt sinonim kimi işlədilmişdir. Lakin, elmi praktikada ənənəvi anlayış kimi bu deyim "qadın problemlərinin tədqiqatı" məzmununda qəbul edilir. Gender - qadınların fəaliyyət proqramı olan Pekin Platformasında "cinsi xüsusiyyətləri nəzərə alan elm" kimi xarakterizə olunur. Belə ki, Pekin Bəyannaməsinin 3-cü Platformasında deyilir; "bütün dünyada gender bərabərliyinə nail olmaqla bağlı qadınların qarşısında qoyulan məsələlər ancaq kişilərlə tərəf-müqabillik əsasında həll oluna bilər" [1, s.7].

Əsas hissə: Cinslərin qeyri-bərabərliyi insanlar üçün heç də həmişə problem olmamışdır. Bəzi insanlar, istər kişi olsun, istərsə də qadın, bu məsələ ətrafında ümumiyyətlə düşünməmişdir. Digər qisim, heç bir haqların pozulmasını görmür, zira cəmiyyətdə cinslərin davranış və rollarının qərarlaşmış qaydası onlara ədalətli görünür, onlar hesab edirlər ki, bu qaydalar tarix, ənənə, din və ya əcdadlarımızdan gələn əxlaqi normalarla müqəddəsləşdirildiyini düşünürlər. Ənənəvi cəmiyyətdə (yəni möhkəm və dəyişməz norma və dəyərlər əsasında hərəkət edən cəmiyyətdə) kişi və qadının rolları ciddi bölünüb və kişinin cəmiyyətdə qadının taleyindən fərqli "xüsusi taleyə" malik olmasına şübhə qalmır. Məhz bu baxımdan da feminizm qadınların bərabər hüquqlu olması ideologiyası, ictimai-siyasi hərəkat kimi çox gec, təbii ki, feodalizmin buxovlarından azad olmaq yoluna qədəm qoymuş ölkələrdə yaranır. Qeyd edək ki, bəzi tədqiqatçılar feminizmə marağı artıq qədim yunan fəlsəfəsində (məsələn, Platonu tez-tez ilk feminist adlandırırlar) görürlər [1, s.23].

Antik yunan fəlsəfəsinin dahisi Platonun "Dövlət" əsərinin "İdeal dövlətdə qadınların rolu" adlı bölümündə göstərilir: "qadınlara kişilərlə birlikdə eyni bir işi görməyi nəzərdə tutur, qadınlara da musiqi və gimnastik məşğələlər keçməli, bu sənətlərin hər ikisini mənimsəməli, eləcə də hərbi işi mənimsəməlidirlər". Platona görə, bu hazırlığı uğurla keçən qadınlar kişilərdən də yararlı olur. Buradan bir məntiqi nəticə alınır. Həqiqətən Platona "genderşünaslığın banisi" də demək mümkündür [2, s.64].

Maskulin, sonralar patriarxal adlandırılmış cəmiyyət iki cinsin mövcudluğunu de-yure qəbul edirsə də, de - fakto bəşəriyyətin təkcinsli olması siyasətini yürüdür və qadınları açıb-ağartmadan, gizlində ancaq "inkişaf etməmiş kişi" hesab edir. Feministlər bu rəylə razılaşaraq burada ancaq "kişilərin rasizmini" görür və buna görə də cəmiyyətdə cinslər arasında fərqləri yox etməyə çalışırdı. Bu androginlik (tək cinslik) fəlsəfəsi, kişilərin və qadınların tam bərabərləşdirilməsi, hətta təbiət fərqlərinin sərf-nəzər edilməsi cəfəngiyyata gətirib çıxartdı - qadının əsas təbii funksiyası - analıq - sınaq şüşəsinə - süni uşaq doğuluşuna ötürülürdü. Qeyd etdik ki, bu istiqamət gender probleminin əsasını qoydu [1, s.17].

Bioloji fərqlər əsasında müəyyənləşdirilən cinsdən fərqli olaraq, gender (ona həmçinin sosial cins deyilir) kişi və qadınların ictimai münasibətlər çərçivəsində (məsələn, ailədə,

məktəbdə, iş kollektivində) formalaşan rol və vəzifələrini əhatə edir. Bu rollar və vəzifələr konkret cəmiyyətdə mövcud olan “kişi” və “qadın” sosial kategoriyalarının mahiyyətini təşkil edir. Digər mühüm sosial klassifikasiyalarla bərabər (ictimai sinif, irq, etnik qrup və sair) gender insanların cəmiyyətdəki mövqeyini müəyyənləşdirən əsas amillərdən biridir [3, s.267]. “Cins” və “gender” arasında olan fərqi daha aydın göstərmək üçün iki misala müraciət edək. Uşaq dünyaya gətirmək qadınlara aid olan reproduktiv bioloji funksiyası cinsin əlamətidir. Uşağın bəslənməsi və təlim-tərbiyəsi isə müxtəlif cəmiyyətlərin kişi və qadınlara (bəzən yalnız kişilərə və ya yalnız qadınlara) aid etdiyi sosial funksiya olaraq gender anlayışına aiddir və ailədə və cəmiyyətdə gender əsaslı əmək bölgüsünün bir hissəsidir. Bioloji cins əlamətləri və funksiyaları sosial cinsin funksiyaları ilə müqayisədə daha stabildir.

**Feminizm (femin-qadın)** sosioloji inkişafa alternativ olan fəlsəfi konsepsiya kimi heç də birdən-birə formalaşmamışdır. Uzun müddət ərzində o həm qadınların bərabərhüquqluluğu ideologiyası, həm də sosio-siyasi hərəkat kimi mövcud olmuşdur. Cinslərin bərabərliyi problemi düşünülmüş şəkildə tam halda ancaq o zaman meydana çıxdı ki, ümumiyyətlə bütün insanların, onların hüquqlarının bərabərliyi məsələsi müzakirə olunmağa başladı. Məhz İntibah dövründə, qadın şəxsiyyətinin alçaldılması və ona ictimaiyyət tərəfindən ədalətsiz münasibətdən bəhs edən Kristina de Pizan və Kornelius Aqrippanın ilk traktatları peyda oldu. Feminizmin inkişafının sonrakı mərhələsi Böyük Fransız inqilabından əvvəlki və sonrakı dövrə təsadüf edir. Lakin, hətta o zaman insanların bərabərliyini elan edən “İnsan və vətəndaşın hüquqlarının Bəyənnaməsi” əslində bu hüquqları ancaq kişilərə verirdi. Qadınlara vətəndaş və seçki hüquqlarının, dövlət vəzifələrini tutmaq imkanının verilməsi tələbləri irəli sürülən “Qadın və vətəndaşın hüquq deklarasiyası”nı (1791) yazmış Olimpiya de Quj edam olunmuş, fransız qadınlarının inqilabda oynadıqları görkəmli rola baxmayaraq qadın cəmiyyətləri Konvent tərəfindən qapanmışdı [4].

Feminist qadın hərəkatının ideoloqlarından biri olan ingilis mənşəli xanım M.Uolstonkraftın qadını alçaldan ictimai quruluşun dəyişdirilməsinə yönəlmiş ideyaları uzun müddət yaşadı və sonradan qadınların bərabərhüquqluğu uğrunda mübarizəsinin tərəfdarlan olan sufrajist qadınlar tərəfindən daha da inkişaf etdirildi. İlk etiraz aktı kimi, amerikalı sufrajist qadınların Seneke-Folze şəhərində keçirdikləri I qurultayında o dövrün real vəziyyətinə qarşı qəti çıxışlan göstərmək olar. Qurultayda qadınlarının siyasi və sosial cəhətdən, ailədə, eləcə də din tərəfindən əzilməsinə qarşı sufrajist qadınların uzun illər ərzindəki kövrək, bəzənsə səssiz çağrışlarının nəticəsi olaraq Bəyannamə qəbul olunur. Qadınların azadlığı uğrunda Hərəkatın Böyük Britaniyadakı əsas vəzifələri Londonda (70-ci illərdə) keçirilmiş Milli Konfrans iştirakçıları tərəfindən qəbul olunmuş tələblərdə açıq-aydın görünürdü(əməyə görə bərabər ödənişlər, bərabər təhsil və imkanlar haqqı ailə vəziyyətindən asılı olmayaraq bütün qadınların təcavüzə məruz qalma qorxusundan azad olmaları; kişilərə üstünlük verən və qadınlara qarşı güc tətbiq olunmasını müdafiə edən bütün institutların ləğv edilməsi və s) [4].

XX əsrin başlanğıc mərhələsində “qadınların azad olmasının humanist yolları” ideyası da ortaya çıxdı. Bu fikrin müəllifi, feminist utopiyanm banisi, Ş.P.Gilman belə hesab edirdi ki, mübarizənin əsasında qadınların ictimai prosesləri dərk etməsinin inkişafı durmalı idi. Qadınların azad olmasının bütün əvvəlki ideyalarına qarşı müəllif tamamilə yeni, “sosializm uğrunda qadınların dinc kollektiv çıxışlar” humanist nəzəriyyəsini qoyurdu. Onun utopik “Xyerland” ölkəsində sosializmə, müstəsna olaraq, qadınlar başçılıq etdiyi siyasi rəhbərlik nəticəsində nail olmaq mümkün idi. Cəmiyyətin mərkəzləyici qüvvəsi roluna nə alim, nə hərbçi, nə din xadimi, nə də sənətkar deyil, keçmişlə gələcək arasında birləşdirici ola biləcək Ana irəli çəkilirdi. Gilman qadınların yalnız iqtisadi cəhətdən müstəqil olduqları zaman kişilərlə bərabər olacağına inanırdı... [5].

1970-ci illərdə marksizm, psixoanaliz, strukturalizm, postmoderrnizm kimi cərəyanlarda və fərqli intellektual hərəkatlarda gender probleminə və cinslərarası münasibətlərə dair fikirlərdə ortaq yanaşma müşahidə olunur. Problemin siyasi təməli bu düşüncələrin və fikirlərin ortaq hərəkət nöqtəsini təşkil edirdi-siyasi faktlar və onların fərdlər üzərindəki təsiri. Başqa sözlə, bu dövrdə kişilər və qadınlar arasında güc balansı üzərində analizlər aparılmışdır. ABŞ və Avropada, 1960-cı ildən başlayan feminist hərəkatının 1970-cı illərdə genişlənən ikinci dalğasınını əhatə edən bu ideoloji aktivlik 1980-ci illərdə akademik sahəyə keçdi. ABŞ-da və Qərbi Avropada, 70-ci illərin sonlarına doğru marjinal hala gələn hərəkat, universitetlər və şöbələrdə sosioloqlar, psixoloqlar və antropoloqlar 1980-ci illərin əvvəllərindən qadın araşdırmalarına diqqət yetirərək, qadınların ikinci dərəcəli vəziyyətinin səbəblərini araşdırmaq və bu vəziyyəti aradan qaldırmaq üçün səyləri ilə akademik sahədə fəal olmağa başladılar. 1990-cı illərə qədər konkret layihələr çərçivəsində təşkilatlanma, mərkəzi və yerli hökumətlərlə qarşılıqlı fəaliyyət kimi yeni hərəkət platformalarının meydana gəldiyi görülür. Bu baxımdan, bu günə qədər aparılan araşdırmalarda qadın problemlərinin dövlət mexanizmi və nəzarəti üzərində olması diqqət çəkir. Hemmings'in fikrincə, beynəlxalq təşkilatlar və qurumlar tərəfindən qadın araşdırmalarının bəzi fondlarla dəstəklənməsi feminizmin akademik təşkilatlanma prosesinə müsbət təsir edən inkişaflardan biridir [6].

1980-ci illərin sonlarına yaxın beynəlxalq münasibətlərə ənənəvi yanaşmalar şübhə altına alındı və feministlər, kişilərin hakim olduğu və gender xüsusiyyətlərinin nəzərə alınmadığı üçün mövcud nizamı tənqid etdilər. Xüsusilə, realizm nəzəriyyəsinin diqqət mərkəzində olan müharibə, təhlükəsizlik, militarizm kimi məsələlər feminizm nəzəriyyəsinin qadınlar prizmasından müzakirə etdiyi mövzular olmuşdur. Beynəlxalq münasibətlərdə yalnız kişilərin fəaliyyət sahələri hesab olunan “yüksək siyasət” (high politics)-beynəlxalq təhlükəsizlik, dövlət idarəetməsi və hərbi siyasət, qadınların fəaliyyət sahələri hesab edilən “aşağı siyasət” (low politics) çərçivəsində müzakirə edilən ailə problemləri, fərdlərarası münasibətlər, lokal məsələlər ayrıseçkiliyin nümunələrindən idi. Radikal feministlərin realizmdə tənqid etdiyi əsas məsələ qadınlar heç bir zaman beynəlxalq münasibətlərin nüvəsinə qədər enə bilməmiş, beynəlxalq münasibətlərin mərkəzi məsələsinə nə keçmişdə, nə də indi professional səviyyədə ictimai şəkildə töhfələri olmamışdır.

Realizm gender bərabərliyinə nail olmaq üçün antitezisdir: həm müzakirə, həm praktikada, realizmin vasitələri olan müharibə və təhlükəsizlikdə patriarxiya mərkəzi mövqe tutur. Dövlətlər aktyorlardır və fərd az əhəmiyyətidir. Fərd vurğulansa belə qadın fərdinin önə çıxacağına əmin olmaq qeyri-mümkündür.

Beynəlxalq münasibətlərdə feminist yanaşmalardan birincisi liberal feminizmdir. Liberal feministlər bərabərliyi diqqət mərkəzində saxlayıb, qadın və kişilərin eyni qanuni, iqtisadi və sosial hüquqlara sahib olmalarını müdafiə ediblər. Liberal feministlər gender anlayışını beynəlxalq münasibətlərin mərkəzinə qoyublar. Liberal feministlər gender bərabərliyi ilə dövlələrin beynəlxalq aləmdə güc istifadəsi arasında əsaslı bir əlaqənin olduğunu və gender bərabərliyinin artması ilə paralel olaraq dövlətlərin beynəlxalq mübahisələrdə şiddətə əl atmalarının azalacağını iddia ediblər [7].

Digər bir yanaşma marksist feminizmdir. Marksistlərin «sinifsiz bir cəmiyyət» fikri feminist beynəlxalq münasibətlərdə də etibarlıdır. Marksist feministlər sinfə bütövlükdə kişilərlə qadınlar arasında ayrı-seçkilik etmədən baxırlar. Bəzi marksistlər, hətta feministləri cəmiyyəti siniflərə bölməkdə ittiham edir. Ancaq qadınların öz tələblərini vurğulayaraq sinfin bir hissəsi və “xüsusi mülkiyyət və cəmiyyətin sinfi quruluşunun səbəbinin” qadınların diskriminasiyası olduğunu müdafiə edirlər. Marksist feministlər, qadınların ictimai istehsaldan kənarlaşdırıldıqları üçün əzilməyə məhkum olduqlarını vurğulayırlar. Digər bir yanaşma postmodern feminizmdir. Onlar maarifçiliyi kişi mərkəzli olduğuna görə tənqid edir və modernizmə də mənfi reaksiya göstərirlər. Modernist elm an-

layışının neytral və obyektiv deyil, maskulin və subyektiv olduğunu iddia edirlər. Post-kolonial feminizm beynəlxalq münasibətlərdə "mən" və "başqası" ayrıseçkiliyini irqi və mədəni ayrıseçkilikdə olduğu kimi "başqası"nı aşağı görmə xüsusiyyətini sorğulayır. Qərb qadınları ilə inkişaf etməmiş ölkələrin qadınları arasındakı fərqə qarşı çıxırlar. Post-müstəmləkəçi feministlər qərb qadınlarının və üçüncü dünya ölkələrinin qadınlarının təcrübələrinin və imkanlarının eyni olmadığını və qərblilərin qadınları üçüncü dünyada yoxsul, təhsilsiz, cinayətə meylli kimi göstərmələrinin yolverilməz olduğunu bildirirlər.

İnsan inkişafı nəzəriyyəsinin ərsəyə gəlməsində aparıcı rol oynamış Nobel mükafatı laureatı Amartya Sen öz araşdırmalarında gender bərabərsizliyinin cəmiyyətə gətirdiyi ziyanı dəfələrlə qeyd etmişdir. Məsələn, Cənubi Asiyada apardığı tədqiqatlara əsasən A. Sen bir çox bölgələrdə qız uşaqlarının oğlanlarla müqayisədə daha az qida qəbul etdiyini göstərmişdir. Bu hal ailələrin ənənəvi olaraq oğlan uşaqlarına daha böyük dəyər verməsi ilə əlaqədardır. Uşaqlıqda ailədə zəruri qidalanmadan məhrum edilmiş qadınların böyük hissəsi həyat boyu səhhətində müxtəlif problemlərlə rastlaşır və çəkisi qəbul olunmuş tibbi standartlardan aşağı olan körpələr dünyaya gətirirlər. Çəkisi normadan aşağı olan uşaqlar arasında illər sonra ürək xəstəliklərindən zərər çəkənlərin yüksək sayı qadınlara tətbiq olunan sosial məhdudiyyətlərin bioloji reproduktiv funksiya vasitəsi ilə gələcək nəsillərə necə təsir göstərdiyini nümayiş edir. "Gender bərabərsizliyi təkcə qızların və qadınların maraqlarına ziyan vurmur, o həmçinin oğlanlar və kişilərə mənfi təsir göstərir. Bu təsir bioloji əlaqələr (uşaqların zəif qidalanması, böyüklərin kardiovaskulyar xəstəliklərə düçar olması) və sosial əlaqələr (bərabərsizliyin siyasi, ictimai və iqtisadi sahələrə vurduğu ziyan) vasitəsilə həyata keçir." A.Sen həmçinin gender bərabərsizliyinin siyasi, iqtisadi və mədəni kontekstdən asılı olaraq müxtəlif formalar aldığını qeyd edir. "Yaponiyadan Mərakeşə, Özbəkistandan Amerika Birləşmiş Ştatlarına qədər gender bərabərsizliyi dünyanın əksər bölgələrində mövcuddur. Lakin qadınlarla kişilər arasında olan bərabərsizlik bir çox fərqli formalarda özünü büruzə verə bilər. Əslində gender bərabərsizliyi vahid bir fenomen deyil, bir-biri ilə əlaqədə olan problemlər toplusudur" [8].

Çağdaş dövrdə gender münasibətlərinin bir sıra elementləri qadınlardan daha çox, kişilərin durumu və fəaliyyəti ilə bağlıdır. Son illərin bir çox tədqiqatlarında kişi əməyinin istismara məruz qalması, onların hüquqlarının pozulması haqda tez-tez söhbət açılır. Problemin qoyuluşunda ənənəvi-tarixi prinsiplərin iflasa uğraması haqqında iddialar əsaslı yer tutur. "Maskulinlik böhranı" ilə barışmayanlar göstərirlər ki, artıq son bir neçə onillikdə "əsl kişi"lərin rolu "tarix səhnəsindən" az qala silinməkdədir. Kişilərin "gender sinfi" kimi get-gedə zəiflədiyini dilə gətirən həmin baxışların tərəfdarları "əsl kişilərin və əsl kişiliyin" təhlükə qarşısında qaldığını, az qala tarixi faktlarla sübuta yetirməyə cəhd göstərirlər. ABŞ-da 1970-ci ildə meydana gəlmiş "Kişi azadlıq təşkilatı" kişilərin sosial-hüquqi və mədəni-məişət azadlıqlarının cəmiyyət tərəfindən məhdudlaşdırılmasına qarşı çıxaraq öz tesizlərini irəli sürür. "Azad kişilər üçün koalisiya", "Kişilər üçün milli konqress", "Kişi həqiqəti" və s. təşkilatlar kişilərin hüquq və azadlıqlarının qorunması üçün fəallıq göstərir, "maskulinliyin" təhlükə ilə üzləşdiyini göstərirlər [9, s.110].

Bu nəzəriyyə siyasi baxışların inkişafı yolu, qadınların cəmiyyətin sosial-siyasi plüralizm şəraitində davranışı; qadınların iqtisadiyyat haqda düşüncələri və bazar münasibətləri; qadın menecmenti; qadınların siyasi liderliyi; qadınların ictimai rəyi və hakimiyyət institutları; qadınların elektoral davranışı və seçki kompaniyaları; qadın elitası; bazar münasibətlərinə keçid zamanı qadınların sosial müdafiəsi və sosial zəmanətlər kimi məsələləri də araşdırır. Feminizm həm qadın hərəkatının nəzəriyyəsi, həm də istər beynəlxalq miqyasda, istərsə də onların milli və tarixi xüsusiyyətlərindən asılı olaraq ayrı- ayrı ölkələrdə olan və ya inkişaf edən qadın hərəkatının özüdür.

Nəticə: Maskulin qaydaların hakim olduğu siyasi və diplomatik sistemə daxil olan femin üzvlər də mövcud sistemin qaydalarına uyğunlaşır və o cür davranmağa başlayır. Diplomat

qadınlar sistemdə yer tuta bilmək üçün özlərini "sübut etmək" məcburiyyəti hiss edərək təzyiq altında qalırlar. Maskulin sistemin görünməyən buyruqları qadınları kişilərdən fərqli bir mübarizə və təzyiqlə üz-üzə qoyur. "First lady", "diplomat arvadı" kimi ünvanların hələ də aktuallığını qoruduğu və "cinsiyyətçi təşkilatlar"ın hələ də mövcudluğunu sürdürdüyü bir cəmiyyət üçün gender problemi də var olmağa davam edəcəkdir.

## ƏDƏBİYYAT

1. Əli Abasov,Rəna Mirzəzadə "Genderə giriş" Gender və İnsan Hüququ» Araşdırma Birliyi (GİHAB ), Bakı 2004,120 səh.http://elibrary.bsu.az/books_90/N_40.pdf
2. Rəna Mirzəzadə. "Multikulturalizm siyasəti: Din və Gender Dialoqunda". Bakı-»Təknur» 2013, 168 səh.
3. "Gender bərabərliyi və insan inkişafı" https://www.undp.org
4. "Hıstory And Theory of Femınısm"məqaləsi, http://www.gender.cawater-info.net/knowledge_base/rubricator/feminism_e.htm
5. "The Maternal, Feminist Utopias of Charlotte Perkins Gilman" məqaləsi, https://lithub.com/t
6. "Sokaktan Akademiye: Kadın Hareketinin Kurumsallaşma Süreci" elmi məqaləsi, Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi http://dergisosyalbil.selcuk.edu.tr/susbed/article/view/112/96
7. Uluslararası İlişkilerin Toplumsal Cinsiyeti Feminist Uluslararası İlişkiler Teorisi. https://dergipark.org.tr/tr/download/article-file/288744
8. Amartya Sen "Many faces of gender inequality", http://prof.chicanas.com/readings/SenInequality.pdf
9. K.C.Ağayeva "Etika və gender: Sosial-əxlaqi davranışın təhlili",AMEA Fəlsəfə Və Siyasi-Hüququ Tədqiqatlar İnstitutu,Bakı-2007, 196s.

# GENDER MƏSƏLƏSİNƏ ELMİ-NƏZƏRİ YANAŞMALAR

***Zeynallı Ayan***

## XÜLASƏ

Cinsi kimliklər insanları cəmiyyətdə bir sıra rollar oynamağa məcbur edir. Gender rolları tarixən gender stereotiplərinin formalaşmasında istifadə edilmişdir. Gender stereotipləri zamanla çox az dəyişir və bu stereotiplər qadınların siyasi sahədə tez-tez rastlaşdığı bir reallıqdır. Nəticə etibari ilə xarici siyasət, ümumiyyətlə götürdükdə beynəlxalq əlaqələr və qlobal dünya siyasəti maskulin qaydaların ən çox hegemon olduğu sahədir. Genderə aid təsəvvürlər təkcə zaman və məkanla dəyişmir. Eyni cəmiyyətdə insanların "kişilik" və "qadınlıq" xüsusiyyətləri haqqında təsəvvürləri konkret insanın yaşı, sosial mövqeyi, etnik qrupu, dini, ailə statusu və başqa faktorlardan asılı olaraq fərqlənir.

Məqalədə tarixən cəmiyyətdə formalaşmış cinsi kimlik fərqliliyinə elmi yanaşmalar araşdırılır və gender problemlərinin yaranması qısa təhlil olunur.

# НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД К ГЕНДЕРНОМУ ВОПРОСУ

*Зейналлы Аян*

## АННОТАЦИЯ

Гендерная идентичность заставляет людей играть ряд ролей в обществе. Гендерные роли исторически использовались для формирования гендерных стереотипов. Гендерные стереотипы очень мало меняются с течением времени, и эти стереотипы являются реальностью, с которой женщины часто сталкиваются в политической сфере. В результате внешняя политика, международные отношения и глобальная политика являются наиболее гегемонистскими из мужских правил. Гендерные представления не меняются только со временем и местом. В одном и том же обществе восприятие людьми «мужских» и «женских» качеств отличается в зависимости от возраста конкретного человека, его социального статуса, этнической группы, религии, семейного положения и других факторов.

В статье рассматриваются научные подходы к различиям исторически сформировавшейся гендерной идентичности и дается краткий анализ гендерных проблем.

# SCIENTIFIC-THEORETICAL APPROACHES TO GENDER ISSUE

*Zeynalli Ayan*

## SUMMARY

Gender identities force people to play a number of roles in society. Gender roles have historically been used in the formation of gender stereotypes. Gender stereotypes change very little over time, and these stereotypes are a reality that women often encounter in the political sphere. As a result, foreign policy, generally speaking, international relations and global world politics are the areas where masculine rules are the most hegemonic. Gender perceptions do not change only with time and place. In the same society, people’s perceptions of “masculinity” and “femininity” characteristics depend on a specific person’s age, social position, ethnic group, religion, family status, and other factors.

The article examines scientific approaches to gender identity differences historically formed in society and briefly analyzes the emergence of gender problems.

# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ TƏHLÜKƏSİZLİYİ VƏ İQTİSADİ MƏNAFEYİNİN QORUNMASINDA GÖMRÜK-TARİF SİYASƏTİNİN ROLU

***i.e.d., prof., Vahid Abbasov***
***Şükürov Ataxan İbədulla oğlu***
***BDU ll kurs magistrantı***
***ataxansukurov.@gmail.com***

***Açar sözlər:*** gömrük-tarif siyasəti, iqtisadi təhlükəsizlik, gömrük yoxlaması, gömrük nəzarəti
***Keywords:*** таможенно-тарифная политика, экономическая безопасность, таможенный досмотр, таможенный контроль
***Ключевые слова:*** customs-tariff policy, economic security, customs inspection, customs supervision

**Giriş.** Geniş mənada iqtisadi təhlükəsizlik insanların öz ehtiyaclarını ardıcıl şəkildə ödəmək qabiliyyətidir. İqtisadi təhlükəsizlik iqtisadiyyata dövlət nəzarətilə qorunur.

Ölkənin müstəqilliyinin davamlılığı, iqtisadi sabitliyin və cəmiyyətin səmərəli fəaliyyətinin mühüm şərti iqtisadi təhlükəsizliyin təmin edilməsidir. Azərbaycan iqtisadiyyatının qloballaşma prosesinə qoşulması, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiya etməsi müsbət cəhətlərlə yanaşı bir sıra çətinliklər də yaradır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədəki siyasi sabitliyin olmaması onun bütün sahələrinə mənfi təsir göstərdi. Müharibə şəraiti isə ölkə iqtisadiyyatına investisiya qoyuluşuna (xüsusilə xarici investisiya qoyuluşuna) əngəl törədirdi. Siyasi sabitliyin əldə olunması, atəşkəsin elan olunması və "Əsrin müqaviləsi"nin imzalanması ölkəyə xarici investorlar cəlb etdi.

İqtisadi təhlükəsizliyin qorunmasında gömrük-tarif siyasəti əsas rol oynayır. Gömrük xidmətinin təmin olunması iqtisadi təhlükəsizlik üçün əsas şərtdir. Ölkədə qaçaqmalçılığın, qadağan olunmuş malların ölkəyə gətirilməsi və ölkədən çıxarılmasının qarşısının alınması iqtisadi təhlükəsizliyin qarşısının alınması ilə yanaşı eyni zamanda milli təhlükəsizliyin də qorunmasında çox böyük rol oynayır.

Dövlət gömrük tarif siyasətinin iqtisadi və hüquqi metodları ilə xarici iqtisadi fəaliyyətin tənzimlənməsinə nəzarət edir. Təsərrüfat fəaliyyətinin yeni dövlət nəzarəti xarici iqtisadi fəaliyyət sahəsində büdcənin doldurulma mənbəyi kimi ona mane olmamalıdır, əksinə xarici ticarətin inkişafına təkan verməlidir.

**Həll üsullar**

İqtisadi təhlükəsizlik anlayışı ümumi və geniş məhfumdur. Bu anlayış iki sahənin iqtisadi nəzəriyyə və politologiya ilə əlaqədə olan kateqoriyadır. İqtisadi təhlükəsizlik anlayışı özündə iqtisadi asılılıq, sabitlik, iqtisadi təzyiq, iqtosadi suverenlik, iqtisadi təxribat və digər kateqoriyaları özündə birləşdirir (N.Məmmədov, M.Bərxudarov «İqtisadi təhlükəsizlik» Bakı 2006, səh.108).

Müasir dövrdə iqtisadi təhlükəsizlik hər bir ölkə üçün vacib məsələdir. Demək olar ki, ölkənin iqtisadi təhlükəsizliyi milli təhlükəsizliyin ən başlıcaca fəaliyyət istiqamətləri kimi xarakterizə edilir.

İqtisadi təhlükəsizliyin qorunmasında gömrük nəzarəti eyni zamanda ölkənin milli təhlükəsizliyinin də qorunmasında böyük rol oynayır. Dövlətin iqtisadi təhlükəsizliyi onun milli təhlükəsizliyinin çox vacib tərkib hissəsidir.

Gömrük tarifi anlayışına gəkdikdə isə gömrük tarifi- gömrük sərhəddindənkeçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun olaraq sistem-

ləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusudur (Azərbaycan Respublikasının Gömrük məcəlləsi).

İqtisadi təhlükəsizliyin qorunmasında gömrük-tarif siyasəti əsas rol oynayır.Gömrük xidmətinin təmin olunması iqtisadi təhlükəsizlik üçün əsas şərtdir. Ölkədə qaçaqmalçılığın, qadağan olunmuş malların ölkəyə gətirilməsi və s. Iqtisadi təhlükəsizliyin qorunmasi ilə yanaşıeyni zamanda milli təhlükəsizliyin də qorunmasında çox böyük rol oynayır.

Müasir dövrdə, gömrük orqanlarının fəaliyyəti, onun istiqamətlərindən asılı olmayaraq, dövlət maraqlarını qorumağa yönəldilmişdir və hətta xarici ticarətin inkişafı üçün əlverişli şərait yaradılması vəzifəsi milli təhlükəsizliyi təmin etmək məqsədilə xarici ticarətə nəzarət və müəyyən bir dövlət iradəsini nəzərdə tutur. Gömrük qanunvericiliyi, şübhəsiz ki, nəinki dövlətin iqtisadi sabitliyini təmin etməyə, hətta bütövlükdə suverenliyin qorunmasına da yönəldilmişdir. (Г.В.Матвиенко 2016 cı il səh 350).

Dövlətin daxili və xarici siyasətini əhatə etməklə gömrük siyasəti – Azərbaycan Respublikası gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin səmərəli tənzimlənməsi, daxili bazarın qorunması milli iqtisadiyyatın stimullaşdırılması və dövlətin iqtisadi vəzifələrinin yerinə yetirilməsi və beynəlxalq normalara uyğun gömrük işinin həyata keçirilməsidir. İqtisadi təhlükəsizliyin qorunmasının həyata keçirilməsində gömrük xidməti gömrük siyasəti üçün başlıca zəmindir. Lakin gömrük tənzimlənməsində yalnız gömrük orqanlarının fəaliyyətilə məhdudlaşdırmaq doğru deyil. Bu işdə hakimiyyətin hər üç qanadı(qanunvericilik, icra və məhkəmə) iştirak etməlidir(E.Quliyev, İ.Mehrəliyev "Gömrük işinin təşkili" Bakı -2012, səh.69)

Yerli sahibkarlığa dəstək məqsədilə proteksionizm siyasətinin həyata keçirilməsində məhz gömrük-tarif siyasətinin rolunu qeyd etmək olduqca zəruridir. Beləki proteksionist siyasət yürüdən ölkələr iqtisadi siyasəti idxal olunan mallara görə tariflər, idxal kvotaları və başqa bir sıra dövlət tənzimləmələri ilə digər ölkələrdən idxalın məhdudlaşdırılmasına yönəlmiş şəkildə həyata keçirir. Bununla ölkənin xarici iqtisadi asılılığı azalır, ticarət müsbət saldoda davam edir.

Malların daxili və xarici bazarda süni surətdə endirilməsi, orta pərakəndə qiymətlərdən aşağı, bəzən isə maya dəyərindən aşağı satılması da iqtisadi təhlükəsizliyə mane olur. Belə fəaliyyət dempinq (ingilis dumping-azalma sözündəndir) adlanır. Dempinq bazara müdaxilə etmək, orada yer tutmaq, rəqibləri sıxışdırıb çıxarmaq məqsədilə həyata keçirilir.

Azərbaycan Respublikasında iqtisadi maraqların müdafiəsi məqsədi ilə yerli istehsal sahəsinə zərər vuran və ya zərər vurma təhlükəsi yaradan dempinqli, subsidiyalaşdırılmış və ya artmış idxala qarşı antidempinq, kompensasiya və mühafizə tədbirlərinin tətbiqi qaydalarını tənzimləmək məqsədilə «Antidempinq, kompensasiya və mühafizə tədbirləri» haqqında Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir (https://e-qanun.az/framework/33306).

Bazar iqtisadiyyatı şəraitində ölkənin təhlükəsizliyinin qorunması məqsədilə dövlət Xarici iqtisadi fəaliyyətin (XİF) tənzimlənməsini həyata keçirir. XİF-in dövlət tənzimlənməsi konkret şəraitdən asılı olaraq müxtəlif metodlarla həyata keçirilməklə- iqtisadi və inzibati, tarif və qeyri-tarif metodlarına bölünür(İ.Mehrəliyev, Ə.Abduləzimov»Gömrük faliyyətinin iqtisadiyyatı» Bakı 2008, səh.71)

Tarif metodları XİF-in tənzimlənməsində əsas və həlledici rol oynayır.Tarif tənzimlənməsi əsasən daxili bazarın xarici rəqabətdən mühafizəsinə yönəldilmişdir və burada idxal rüsumları həlledici rol oynayır. İxrac rqsumlarının tətbiq olunmamasının səbəbi isə beynəlxalq ticarətdə məqsədəuyğun hesab edilmir(K.F.Heydərov, T.T.İbrahimov "Gömrük işi - iqtisadi suverenlik və təhlükəsizlik" Bakı-1999, səh.46). Çünki, ixrac rüsumu sahibkarlığın inkişafına mane olur. Xarici iqtisadi asılılıq isə güclənir.

Gömrük yoxlaması, yoxlanılan şəxsin (xarici ticarət sahəsində və ya ümumilikdə) maliyyə - təsərrüfat fəaliyyətinə təsir edən bir yoxlama növüdür. Gömrük yoxlaması aşağıdakı yoxlanılacaq şəxslərlə münasibətdə aparılır:

• Deklerant (bəyannaməçi);

• Gömrük nümayəndəsi;

• Daşıyıcı, o cümlədən gömrük daşıyıcısı;

• Buraxıldıqdan sonra mallara səlahiyyət verən şəxs və ya onun nümayəndəsi;

• Səlahiyyətli iqtisadi operator;

• Gömrüksüz ticarət mağazası, gömrük və digər anbarların sahibləri;

• Tabeliyində olan və ya saxladığı malların qeyri-qanuni hərəkəti barəsində informasiyaya malik olan şəxs;

• Müvafiq gömrük proseduru altında yerləşdirilən mallarla əməliyyatlarda birbaşa və ya dolayısı ilə əlaqəli digər şəxslər. Gömrük yoxlaması zamanı təqdim olunmuş sənədlərdə və gömrük orqanında saxlanılan digər məlumatlarda göstərilən informasiyalar faktura və qanunla nəzərdə tutulmuş qaydada əldə edilmiş digər məlumatlarla mühasibat uçotu və hesabat məlumatları əsasında müqayisə edilir. ( Г.В.Матвиенко 1995 səh 165).

Gömrük yoxlanmasının, həmçinin nəzarət altında olan şəxslərin səbəblərindən asılı olaraq, gömrük orqanları aşağıdakıları yoxlayır:

• Malların gömrük proseduru altında yerləşdirilməsi faktları (gömrük sərhədindən malların hərəkətinin qanuniliyinin yoxlanılması);

• Gömrük bəyannaməsində və digər sənədlərdə göstərilən məlumatların dəqiqliyi (deklarantların, gömrük orqanlarının nümayəndələrinin yoxlanılması);

• Şərti olaraq buraxılmış malların istifadəsi və xaric edilməsinə dair məhdudiyyətlərə uyğunluq (gömrük rüsumları və vergilərinin ödənilməsi üzrə nəzərdə tutulmuş güzəştlərin təqdim olunması ilə buraxılmış malların və deklerantların yoxlanılması);

• Gömrük sahəsində fəaliyyətin tələblərinə əməl edilməsi;

• Malların sərbəst buraxılmasından sonra qüvvədə olan gömrük prosedurlarının şərtlərinə uyğunluq Azərbaycanda qəbul olunmuş qərarlar, sərəncamlar əsasında milli təhlükəsizlik ən üst səviyyədə qorunur. Bu işdə gömrük siyasəti ən vacib istiqamətlərdən biridir.

Yuxarıda sadalanmış proseslər gömrük işi bağlı fəaliyyətdə reallaşdırılaraq, ölkənin milli və iqtisadi təhlükəsizliyində önəmli rol oynayır. (Анисимов Е.Г, 2015 ).

Gömrük tarifinin tətbiq edilməsində əsas məqsədlər aşağıdakılardır:

● idxalın əmtəə strukturunu tənzimləmək;

●malların Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsinin və bu ərazidən aparılmasının, habelə valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək;

● Azərbaycan Respublikasında malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq;

●Azərbaycan Respublikasının iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq;

● Azərbaycan Respublikasının iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına şərait yaratmaq("Gömrük tarifi" haqqında Azərbaycan Respublikasının qanunu, maddə 2.1, İlham Əliyev - Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 13 iyun 2013-cü il,№ 687-IVQ).

**Nəticə.** Tədqiqat işinin nəticəsi olaraq deyə bilərik ki, cari və gələcək inkişaf üçün Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyi və iqtisadi mənafeyinin qorunması çərçivəsində reallaşdırılmış tədbirləri qənaətbəxş olaraq qiymətləndirmək mümkündür. Respublikamızda iqtisadi əlaqələrin doğru istiqamətləndirilməsi milli iqtisadiyyatın inkişafının sürətlənməsinə gətirib çıxaracaqdır. Hamıya yaxşı məlumdur ki, davamlı və tarazlı inkişaf sisteminin fəaliyyət göstərə bilməsi üçün elmi əsaslandırılmış real strategiya və güclü siyasi iradə zəruridir.İqtisadi təhlükəsizliyin qorunmasında gömrük-tarif siyasəti mühüm rol oynayır. Habelə dövlət gömrük tarif siyasətinin iqtisadi və hüquqi metodları ilə xarici iqtisadi fəaliyyətin tənzimlənməsinə nəzarət edir.

Respublikamızda xarici iqtisadi əlaqələrin düzgün aparılması və onun inkişafı ölkənin makroiqtisadi göstəricilərinin dinamik artımı dövlətin siyasi, iqtisadi, mədəni və sosial əlaqələrinin düzgün istiqamətləndirilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Aparılan araşdırmalar nəticəsində Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyi və iqtisadi mənafeyinin qorunması və gömrük-tarif siyasənin tənzimlənməsi sahəsində yeni inkişaf mexanizmlərinin ətraflı təhlil olunması və təkmilləşdirilməsi tədbirləri davam etdirilir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Ə.Heydərov, F.Məmmədov. "Xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi", Bakı: 2022
2. «Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi Qaydaları» haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 31 may tarixli 105 nömrəli qərarı, (elektron resurs) http://customs.gov.az/az/nkq105.html
3. Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında Azərbaycan Respublikasının qanunu // https://e-qanun.az/framework/33306
4. Azərbaycan Respublikasının Gömrük məcəlləsi // https://www.e-qanun.az/framework/46957
5. Selenyum U. "Gümrük İşlemleri ve Vergilendirme", Bursa, 2012, 350 s.
6. Yetişen Ö. "Küreselleşme Bağlamında E-Ticaret, Özellikle Telekomünikasyonda" Gümrük ve Ticaret Bağlanzı Gümrükler Genel Müdürlüğü, Uzmanlık Tezi, Ankara, 2008, 269 s.
7. Yaşıl Dəhliz buraxılış sistemi // https://customs.gov.az/az/sahibkarlar-ucun/green-corridor
8. Барабин, В. В. Экономическая безопасность государства / В. В. Барабин — М., 2001.— 605 с.

İnternet resursları

9. https://customs.gov.az/
10. https://www.e-qanun.az/


## AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ TƏHLÜKƏSİZLİYİ VƏ İQTİSADİ MƏNAFEYİNİN QORUNMASINDA GÖMRÜK-TARİF SİYASƏTİNİN ROLU

***Şükürov Ataxan***

### XÜLASƏ

Müasir durumda qloballaşma prosesi, milli iqtisadiyyatın inteqrasiyası və sosial-iqtisadi əlaqələrin inteqrasiyası sürətlənmişdir. Belə ki, əmtəə və xidmətlərin alıcılıq qabiliyyətinin artması dünya ölkələri arasında qarşılıqlı əlaqələri gücləndirmiş və dərinləşdirmişdir. Qeyd edə bilərik ki, iqtisadi təhlükəsizlik və gömrük- tarif siyasətinin doğru istiqamətləndirilməsi mexanizmi ölkə iqtisadiyyatının davamlı və tarazlı olmasına müsbət təsir göstərmək imkanına malikdir. Azərbaycan Respublikasında hazırki gömrük- tarif siyasətinin inkişaf tendensiyası və dövlət tənzimlənmə mexanizmi daha da müasirləşdirməni və şaxələndirməni şərtləndirir. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyi və iqtisadi mənafeyinin qorunmasında gömrük-tarif siyasəti iqtisadi inkişafın tənzimlənməsi, habelə bundan sonrakı dövr üçün doğru və optimal istiqamətlərin təşkili, həmçinin təkmilləşdirilməsi məsələləri üzərində tədbirləri zəruri edir. Onu da nəzərə almaq lazımdır ki, Respublikamızda iqtisadi təhlükəsizlik və iqtisadi mənafeyinin qorunması naminə

gömrük-tarif siyasəti üzrə icra olunan inkişaf strategiyası nə qədər çətin və məsuliyyətli iş olsa da, həll edilməsi və kompleks tənzimlənməsi bir o qədər zəruri bir məsələdir.

## РОЛЬ ТАМОЖЕННО-ТАРИФНОЙ ПОЛИТИКИ В ЗАЩИТЕ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ И ЭКОНОМИЧЕСКИХ ИНТЕРЕСОВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Шукуров Атахан***

### АННОТАЦИЯ

В современной ситуации ускорились процессы глобализации, интеграции национальной экономики и интеграции социально-экономических отношений. Повышение покупательной способности товаров и услуг укрепило и углубило взаимоотношения между странами мира. Можно отметить, что механизм экономической безопасности и направленность таможенно-тарифной политики способны оказать положительное влияние на устойчивую и сбалансированную экономику страны. Тенденции развития действующей таможенно-тарифной политики и механизма государственного регулирования в Азербайджанской Республике требуют дальнейшей модернизации и диверсификации. В целях защиты экономической безопасности и экономических интересов Азербайджанской Республики таможенно-тарифная политика требует действий по вопросам регулирования экономического развития, а также организации и совершенствования правильных и оптимальных направлений на последующий период. Также необходимо учитывать, что в интересах экономической безопасности и защиты экономических интересов в нашей Республике стратегия развития таможенно-тарифной политики столь же сложна и ответственна, как и ее решение и комплексное регулирование.

## THE ROLE OF CUSTOMS-TARIFF POLICY IN PROTECTING THE ECONOMIC SECURITY AND ECONOMIC INTERESTS OF THE REPUBLIC OF AZERBAIJAN

***Shukurov Atakhan***

### SUMMARY

In the modern situation, the globalization process, the integration of the national economy and the integration of socio-economic relations have accelerated. Thus, the increase in the purchasing power of goods and services has strengthened and deepened the mutual relations between the countries of the world. We can note that the mechanism of economic security and customs-tariff policy direction has the ability to have a positive effect on the sustainable and balanced economy of the country. The development trend of the current customs-tariff policy and the state regulation mechanism in the Republic of Azerbaijan require further modernization and diversification. In order to protect the economic security and economic interests of the Republic of Azerbaijan, the customs and tariff policy requires actions on the issues of regulation of economic development, as well as the organization and improvement of the right and optimal directions for the next period. It is also necessary to take into account that, for the sake of economic security and protection of economic interests in our Republic, the development strategy of the customs-tariff policy is as difficult and responsible as it is to solve and comprehensively regulate it.

# SİYASİ MODERNLƏŞMƏNİN FORMALARI VƏ İNKIŞAFI

***Ələddinov Zahir***
***BDU-nun II kurs magistrantı***
***zahir.aladdinov@gmail.com***

***Açar sözlər:*** Modernləşmə, siyasi modernləşmə, qərb siyasəti, siyasi modernləşmənin tarixi.
***Ключевые слова:*** Модернизация, политическая модернизация, западная политика, история политической модернизации.
***Keywords:*** Modernization, political modernization, western politics, history of political modernization.

Modernizm anlayışı həm ümumi, həm də sosial müstəvidə nəzərdən keçirildikdə, o, "Maarifçilik prinsipləri"ni əsas götürən sosial layihənin adı kimi meydana çıxdı. Maarifçilik düşüncəsi isə insan şüurunu ilahi zehnə, elmi ilahiyyat anlayışına eləcə də, biliyi xalis inanca qarşı yönəldən bir sistemdir. İmmanuel Kantın sözləri ilə desək, Maarifləndirmə fərdin başqalarının idarəçiliyinə ehtiyac duymadan yetkinlik yaşına çatması və ağlından istifadə edə bilməsi deməkdir. "Modernus" sözü latın dilində "hal-hazırda" mənasını verən "Modo" sözündəndir. Latın dilində "modern" sözünün ilk dəfə "Modernus" kimi istifadə edilməsi Xristian dünyasını Roma və Paqan keçmişindən ayırmaq üçün V əsrdə olmuşdur [1, s. 87]. Başqa sözlə desək, zaman anlayışı kimi ifadə olunan "modernus" əvvəlcə qədim və əks anlayış kimi irəli sürülüb [4, s. 61].

Digər tərəfdən, Maks Veberə görə modernizm əslində şərq cəmiyyətlərinin problemidir. Çünki şərq cəmiyyətlərinin etməli olduğu şey Qərbli olmağı bacarmaqdır. Bundan əlavə, bu dövrdə müasirliyin əhəmiyyətini vurğulamaq üçün müasirliyə nail olmaq tarixin tələbi kimi ifadə edilir. Ona görə də modernləşmə anlayışı qərbləşmə ilə eyni mənada işlədilir. Bundan əlavə, modernizm özünü keçmişin yerində tutduğundan, yaratdığı yeni dünyada bugünkü fərdin və cəmiyyətin strukturunu quran, adət, ənənə, vərdişlərdən asılı olmayan cəmiyyət yaradan sosial prosesdir [2, s. 27].

18-ci əsrdə Jurgen Habermas tərəfindən irəli sürülən modernizm layihəsi maarifçi mütəfəkkirlərin ümumbəşəri əxlaq, hüquq, incəsənət və obyektiv elmlə bağlı ortaya qoyduğu fikirlərdən ibarətdir. Bu düşüncə ilə Habermas modernizmi müsbət baxımdan şərh edərək, yaradıcı və azad işləyən fərdlərin yaratdığı biliklərin gündəlik həyatı zənginləşdirmək və bəşəriyyətin azadlığı üçün istifadə edildiyini ifadə etmişdir [3, s. 31-44].

Başqa nöqteyi-nəzərdən modernizm amansız kilsə zülmünə refleksiv reaksiya kimi ortaya çıxır. Tarixi prosesə nəzər saldıqda Maarifçilik ideyası öz yerini modernləşmənin siyasi hissəsini təşkil edən Fransız inqilabına buraxmışdır. Fransız inqilabının başlanması ilə şüurlu və iradəli şəkildə qurulan yeni libertar cəmiyyət sinfi feodal cəmiyyətinin sonu oldu. Bundan əlavə, müasirliyin mühüm bir hissəsi olan milli dövlət quruldu və İnqilabın yeni ideologiyasının yaşanmasına imkan verdi.

Modernizm çox mürəkkəb proses olub, mütəfəkkirlər tərəfindən birmənalı qarşılanmamışdır. Karl Marks modernizmə bir çox tənqidi fikirlər gətirmiş bir mütəfəkkirdir. O hesab edirdi ki, yaranmaqda olan müasir kapitalizmin əsas xarakteri əməyin alınıb satılan əmtəəyə çevrilməsidir. Müasir cəmiyyətlərdə kapitalizmdən sonra yaranan istehsal münasibətləri ictimai quruluşa mənfi təsir göstərmişdir. Bundan əlavə, bu istehsal münasibətləri kapitalizm səbəbindən yaranmışdır. Marksın fikrincə, istehsal vasitələrinə sahiblik həm istehsal üsullarına, həm də insanlara mənfi təsir göstərir [5, s. 67].

Avropada 19-cu əsrdən etibarən formalaşmağa başlayan "modern" adlı dövr dörd yüz ildir özünü formalaşdırmaqla yanaşı, eyni zamanda dünyanı da özünə uyğun formada dəyişdirir. Modernizasiya deyilən bu strukturlaşma 15 yüz illik ənənəni, inanc tərzini, mədəniy-

yəti, ictimai həyatı, siyasi quruluşu, istehsal və istehlak münasibətlərini və hər şeyi bütövlükdə, onu yaradan coğrafiyada meydana gətirmişdir.

Bu anlayışların nəzəri əsasını C.Lokk, A.Smit, F.Toennis, M.Veber, T.Parsons və başqa alimlərin irsi qoymuşdur. Siyasi modernləşmə nəzəriyyəsinin inkişafında iki əsas mərhələ var: 1) 1950-1960-cı illərdə. 20-ci əsr modernləşmə qərbləşmə kimi başa düşülürdü, yəni. həyatın bütün sahələrində Qərb prinsiplərinin sadə surətdə inkişafı və yayılması. Bu, mahiyyətcə "inkişaf etmək" forması idi. Qərb ölkələrinin və Amerikanın idarəetmə və istehlak standartları sahəsində nüfuzu danılmaz olduğundan, bu standartlar ənənəvi dövlətdən müasir dövlətə keçidi həyata keçirən ölkələrə tətbiq olundu. Siyasi dəyərləri və təsisatları (parlament, çoxpartiyalı sistem, ümumi alternativ seçkilər, hakimiyyət bölgüsü, siyasi azadlıq və s.) süni surətdə təsdiqləməklə mühüm iqtisadi yardım göstərilsə də, gözlənilən nəticəni əldə etmək mümkün olmadı.

2) 1970-1990-cı illərdə modernləşmə və inkişaf arasındakı əlaqə yenidən nəzərdən keçirildi. Modernləşmə bir şərt kimi deyil, inkişafın bir funksiyası kimi görünməyə başladı.

Siyasi modernləşmə bir çox politoloqlar tərəfindən cəmiyyətin ənənəvi siyasi sistemdən müasir sistemə - sənaye və ya postindustrial sistemə keçid prosesi kimi müəyyən edilir. Bu modernləşmə 1950-1960-cı illərdə Qərbin müstəmləkə asılılığından xilas olmuş ölkələrlə bağlı siyasətini əsaslandırmaq üçün formalaşıb. Bu dövrdə "modernləşmə" termini "eyni zamanda həm sosial transformasiyaların mərhələsini (vəziyyətini), həm də müasir cəmiyyətlərə keçid prosesini nəzərdə tuturdu.

O.Kont, Q.Spenser, M.Veber, E.Dürkheim, F.Tennisin sosioloji konsepsiyaları və onların sosial inkişaf problemlərinə yanaşmaları modernləşmə nəzəriyyəsinin metodoloji əsası oldu.

Mühafizəkar politoloqlar (S.Hantinqton, H.Lindts, T.Tsuratani və s.) modernləşmə dövründə böyük təhlükəni onda görürlər ki, siyasi iştirakın artımı kütlələrin bu cür hadisələrə hazırlığının mövcud real səviyyəsini keçə bilə. Onlar modernləşmə təhlükəsini siyasi qeyri-sabitlikdə görürlər, ilk növbədə güclü siyasi institutların yaradılmasını təklif edirdilər. Eyni zamanda, alimlər demokratik dəyərləri inkar etmir və siyasi modernləşmənin son məqsədləri ilə bağlı liberallarla oxşar fikirlərə malikdirlər.

Liberal politoloqlar (Q.Almond, R.Dahl, L.Pai və başqaları) hesab edirlər ki, uğurlu siyasi modernləşmə üçün xalqı təmsilçi demokratiya institutlarının fəaliyyətinə geniş şəkildə cəlb etmək və siyasi elitaların azad rəqabəti üçün şərait yaratmaq lazımdır.

Amerikalı politoloq R.Dahl liberal yanaşmaya uyğun olaraq poliarxiya nəzəriyyəsini irəli sürdü. O, siyasi plüralizmin prioritetliyini və demokratik təsisatların öz muxtariyyətlərini itirmədən qrupların və fərdlərin maraqlarını uyğunlaşdırmaq imkanlarını vurğulayır. Poliarxiyada əsas prinsip hakimiyyətin təmsilçiliyidir. Bu, seçki yolu ilə həyata keçirilir.

Siyasi modernləşmə prosesinin ən mühüm komponenti avtoritarizmdən (totalitarizm) demokratiyaya (demokratik tranzit) keçiddir. Amerikalı politoloq S.Hantinqton demokratik keçidin klassikləşmiş üç modelinin adını çəkir: klassik xətti model (İsveç, Böyük Britaniya); Tsiklik model (Asiya, Afrika və Latın Amerikasının bir çox ölkələrində); dialektik model (Yunanıstan, Portuqaliya, İspaniya).

Siyasi modernləşmə nəzəriyyəsində fundamental kateqoriyalardan biri səmərələşdirmə kateqoriyasıdır, çünki o, siyasi tranzitin sistem miqyaslı xassələrini xarakterizə edir (burada: siyasi institutların fəaliyyətinin diferensiallaşdırılması və qiymətləndirilməsi; milli inteqrasiya; sosial səfərbərlik).

Siyasi modernləşmə prosesində iqtisadi siyasət bütün sosial qrupların maraqlarının tarazlığına əsaslanmalıdır.

Siyasi modernləşmənin siyasi sistemin dəyişdirilməsi prosesi kimi ən dolğun təsvirini yerli politoloq K.S. Hacıyev və israilli alim Ş.Eyzenştadt vermişdir

- siyasi rolların və institutların yüksək ixtisaslaşması ilə fərqlənmiş siyasi strukturun təşkili;
- müxtəlif funksional sahələrə siyasi təsir göstərən rəqabət aparan siyasi təşkilatların yaradılması;

- siyasi sistemin sosial məqsədlərin yeni modellərinə uğurla uyğunlaşmaq qabiliyyətinin daha da artırılması, həm resurslara nəzarəti, həm də əhali ilə hökumət arasında səmərəli dialoq kanallarını təmin edə bilən yeni tipli institutların yaradılması;
- ölkədə qərəzsiz qanunvericilik sisteminin, münaqişələrin həlli üçün siyasi və hüquqi texnologiyaların təmin edilməsi;
- sosial səfərbərlik
- ölkədə hökumət funksiyalarının böyük mərkəzləşdirilməsi ilə rasional siyasi bürokratiyanın yaradılması;
- müxalif siyasi partiyaların fəaliyyətinə, könüllü birliklərin və azad mətbuatın məcburi mövcudluğuna təminatların təmin edilməsi;
- ənənəvi elitaların rolunun azaldılması, onların legitimləşdirilməsi və ya müasirləşənlərlə əvəzlənməsi;
– siyasi sistemin müxtəlif sosial qrupların tələb və iddialarını toplamaq, ölkədə münaqişələrin həllinin institusionallaşdırılması üçün siyasi və hüquqi mexanizmlər yaratmaq qabiliyyətinin formalaşdırılması.

## ƏDƏBİYYAT


1. Bogason, P. *Public administration and the unspeakable: Postmodernism as an academic trail of the 1990s.* Roskilde, Denmark: Roskilde University, Department of Social Science, 1999, 200 p.
2. Giddens, A., Pierson Ch. Modernliği Anlamlandırmak, Alfa Yayınları, 2001, 250 s.
3. Jurgen, H. Three normative models of democracy, 1994, 10 p.
4. Therborn, G. Dialectics of Modernity: On Critical Theory and the Legacy of Twentieth-Century Marxism. New Left Review, Issue 215, 1999, 59 p.


## SİYASİ MODERNLƏŞMƏNİN FORMALARI VƏ İNKIŞAFI

*Ələddinov Zahir*

## XÜLASƏ

Modernləşmə sosial orqanizmin müxtəlif səviyyələrində eyni vaxtda çoxlu dəyişiklikləri əhatə edən hərtərəfli proses kimi xarakterizə olunur. İnkişafından geri qalan cəmiyyətlər üçün modernləşmə mahiyyətcə daha inkişaf etmiş ölkələrdən nümunələrin, malların və texnologiyaların imitasiya və transplantasiyası formasında olur. Beləliklə, müxtəlif mədəniyyətlər və cəmiyyətlər arasında ünsiyyət və təmas modernləşmənin vacib ilkin şərtlərinə çevrilir. İnkişaf etməkdə olan ölkələrin liderləri çox vaxt modernləşmənin generatorları kimi çıxış edir, cəmiyyəti müasir inkişaf etmiş ölkələrə çevirməyə yönəlmiş planlar irəli sürür və müvafiq siyasət yürüdürlər. Baxmayaraq ki, Avropada XVIII-XIX əsrlərdə. modernləşməyə səbəb olan sənayeləşmə idi, müasir şəraitdə sənayeləşmə həmişə modernləşmədə həlledici amil kimi çıxış etmir. Məsələn, bir çox Afrika və Asiya ölkələrində modernləşmə prosesləri xalqların "təşəkkül tapması" və müasir siyasi sistemlərin inkişafı ilə başladı. Belə hallarda transformasiyaların məqsədi sosial quruluşun "modernləşdirilməsi" və təhsil sistemi vasitəsilə yeni norma və dəyərlərin yayılması idi; sənayenin inkişafı bu prosesləri izləyə bilərdi. Bəzi nəzəriyyəçilər modernləşməni insan biliklərinin genişləndirilməsi və insanların ətraf mühitə nəzarəti həyata keçirmək imkanları baxımından təsvir edirlər. Bu məqalədə modernləşmə nəzəriyyələri, siyasi modernləşmənin inkişaf tarixi, nəzəriyyəsindən bəhs edilir.

# ИСТОРИЧЕСКИЕ ТИПЫ И ЭВОЛЮЦИОННАЯ ДИНАМИКА ПОЛИТИЧЕСКОЙ МОДЕРНИЗАЦИИ

***Аладдинов Захир***

## АННОТАЦИЯ

Модернизация характеризуется как комплексный процесс, включающий множество одновременных изменений на разных уровнях общественного организма. Для слаборазвитых обществ модернизация по существу принимает форму имитации и трансплантации моделей, товаров и технологий из более развитых стран. Таким образом, общение и контакт между различными культурами и обществами становятся важными предпосылками модернизации. Лидеры развивающихся стран часто выступают генераторами модернизации, выдвигая планы и реализуя политику, направленную на преобразование общества в современные развитые страны. Хотя в Европе в 18-19 вв. именно индустриализация привела к модернизации, индустриализация в современных условиях не всегда выступает решающим фактором модернизации. Например, во многих странах Африки и Азии процессы модернизации начались с «становления» наций и развития современных политических систем. В таких случаях целью преобразований была «модернизация» социальной структуры и распространение новых норм и ценностей через систему образования; промышленное развитие могло следовать за этими процессами. Некоторые теоретики описывают модернизацию с точки зрения расширения человеческих знаний и способности людей контролировать окружающую среду. В данной статье рассматриваются теории модернизации, история и теория развития политической модернизации.

# HISTORICAL TYPES AND EVOLUTIONARY DYNAMICS OF POLITICAL MODERNIZATION

***Aladdinov Zahir***

## SUMMARY

Modernization is characterized as a comprehensive process involving many simultaneous changes at different levels of the social organism. For underdeveloped societies, modernization essentially takes the form of imitation and transplantation of models, goods, and technologies from more developed countries. Thus, communication and contact between different cultures and societies become important prerequisites for modernization. Leaders of developing countries often act as generators of modernization, putting forward plans and implementing policies aimed at transforming society into modern developed countries. Although in Europe in the 18th and 19th centuries. it was industrialization that led to modernization, industrialization in modern conditions does not always act as a decisive factor in modernization. For example, in many African and Asian countries, the processes of modernization began with the "establishment" of nations and the development of modern political systems. In such cases, the purpose of the transformations was to "modernize" the social structure and spread new norms and values through the educational system; industrial development could follow these processes. Some theorists describe modernization in terms of the expansion of human knowledge and the ability of humans to exercise control over the environment. This article discusses the theories of modernization, the history and theory of the development of political modernization.

# FİLOLOGİYA VƏ İNCƏSƏNƏT

## QƏHRƏMANIN VƏ ONUN KONFLİKTLƏRİNİN SSENARİDƏ ROLU

***Məmmədov Məcnun Rafiq oğlu,***
***ADMİU magistrantı***
***mecnunrafiqoglu@gmail.com***

***Açar sözlər:*** qəhrəman, obraz, daxili və xarici konflikt, münaqişə, xarakter.
***Ключевые слова***: герой, образ, внутренний и внешний конфликт, конфликт, характер.
***Keywords:*** hero, image, internal and external conflict, conflict, character.

Yaxşı bir ssenari maraqlı hekayə tələb edir, hər bir hekayədə də əsasən dörd mühüm personaj olmalıdır. Bu dörd simvol müvafiq olaraq qəhrəman (baş qəhrəman), düşmən (antaqonist), köməkçi/ibrətamiz xarakter (mentor) və sevilən biridir. Qəhrəmanın əsas məqsədi (məsələn, dünyanı xilas etmək) və yan məqsədləri (məsələn, qadını ona aşiq etmək) olmalıdır və hədəflərə çatmaqda ən böyük maneə düşmən xarakteridir, lakin qəhrəmanın öz xüsusiyyətləri də onun məqsədlərinə çatmasına mane ola bilər.

Qəhrəmanın məqsəd və xüsusiyyətlərinin toqquşması həyəcanı, yəni daxili konflikti yaradır. Həyəcanı artıran başqa bir amil qəhrəmanın məqsədlərinə çatmaqda çətinlik səviyyəsidir (məsələn, vəhşi əjdahanı ram etmək). Həmişə məqsədə çatmaq lazım deyil, ona çatmaq üçün keçilən yol vacibdir və qəhrəmanın xüsusiyyətləri hədəfə gedən yolda dəyişikliyə (katarsis) məruz qalır.

Qəhrəmanı dəyişdirmək onun məqsədinə çatmaqdan daha vacib olduğuna görə qəhrəmanın dəyişməsi baş verdikdən sonra məqsədinə çatmaq üzrə olanda onu (məqsədi) kənarlaşdırmaq da olar (məsələn, təkəbbürdən qurtulmaq üçün çempionluğu itirmək).

Düşmən qəhrəmanının məqsədinə çatması üçün ən böyük maneədir (xarici münaqişə). Düşmənin gücü nə qədər böyükdürsə, qəhrəmanın məqsədinə çatması bir o qədər çətindir (məsələn, fövqəltəbii güclər). Yəni düşmənin gücü hekayənin həyəcanını artıran digər amildir. Düşmən mütləq pis xarakterə malik olmamalıdır (məsələn, çempionun rəqibi) və təbii olaraq, qəhrəman da həmişə yaxşı xarakter olmamalıdır (məsələn, dünyanı xilas etməyə çalışan qəzəbli qoca). Önəmli olan tamaşacının özünü hansı ilə eyniləşdirməsidir.

Öyrədici/köməkçi personaj qəhrəman kimi çox yer tutmasa da, vacib və güclü olması lazım olan bir xarakterdir. Köməkçi xarakter hekayənin inandırıcılığını artırır, lakin onun əsas işi qəhrəmana kömək etməkdir. Qəhrəmana kömək etmək üçün müxtəlif motivlər ola bilər (məsələn, ona aşiq olmaq). Təlimçi/köməkçi xarakterin köməyi sadəcə aktual olmalıdır (məsələn, sizi çempionata hazırlayan məşq). Öyrədici/köməkçi xarakter də qəhrəmana öz məqsədinə çatmaq üçün mənfi xüsusiyyətlərini dəyişməyə kömək edə bilər (məsələn, özünə inamsızlıq).

Məşuq obrazı aşiq obrazdır. Bu xarakter qəhrəmanın əsas hədəfi ola bilər (məsələn, sevdiyi insanla evlənmək) və ya mənfi nümunələrdən biri də ola bilər (məsələn, sevdiyi insana olan sevgisinə görə səhv qərarlar vermək). Bu personaj hekayədə böyük və ya kiçik yer tuta bilər (5).

Münaqişələr izləyicini mövzuya daşıyan mühüm elementlərdir: öz-özünə münaqişə, şəxs-şəxs münaqişəsi, şəxs-cəmiyyət münaqişəsi, şəxs-təbiət münaqişəsi (6).

Konflikt iki əks qüvvənin mübarizəsi ilə səciyyələnən ədəbi alətdir, münaqişə istənilən hekayədə mühüm gərginliyi təmin edir və hekayəni inkişaf etdirmək üçün istifadə olunur. Tez-tez personajların motivasiyalarını, dəyərlərini və zəif tərəflərini vurğulayarkən hekayədə daha dərin bir məna açmaq üçün istifadə olunur. Ədəbi konfliktin altı əsas növü

vardır ki, onların hər biri aşağıda ətraflı təsvir edilmişdir. Bütün münaqişələr, ümumiyyətlə daxili və xarici münaqişələr kimi təsnif edilir (7).

Daxili münaqişə xarakterin öz əks arzu və ya inancları ilə mübarizə aparmasıdır ki, bu da onların daxilində baş verir, onların bir xarakter kimi inkişafını istiqamətləndirir. Xarici konflikt isə onların nəzarətindən kənar nəyəsə və ya kiməsə qarşı xarakter qoyur. Xarici qüvvələr personajın motivasiyasına mane olur və xarakter öz məqsədlərinə çatmağa çalışarkən gərginlik yaradır.

Həm daxili, həm də xarici münaqişələrin daxil edilməsi yaxşı hekayə üçün çox vacibdir, çünki həyat həmişə hər ikisini ehtiva edir. Qəhrəmanınız üçün münaqişə yaratmaq üçün onlara qarşı işləyən düşmən qüvvələrə ehtiyacınız olacaq. Ssenarilərinizdə antaqonistlər adətən əsas canilərdir, lakin onlar insan olmaq məcburiyyətində deyillər - onlar xarakterinizin əsas istəyini əngəlləyən istənilən müxalifət elementi ola bilərlər. Bu konfliktin yaranmasında antaqonizmin bəzi əsas prinsiplərini xatırlamaq faydalıdır. Antaqonizm gücləri nə qədər güclü olarsa, xarakter bir o qədər yaxşı inkişaf edər və münaqişə qəhrəmanın əsas istəyinə uyğun qurulmalıdır. Antaqonizm zaman keçdikcə artmalıdır, əks halda oxucunun marağını itirəcəkdir.

Ədəbi konfliktin 6 növünü aşağıdakı şəkildə sistemləşdirmək olar. Tanqo üçün iki obraz lazım olduğu kimi, münaqişə yaratmaq üçün iki element (və ya daha çox) lazımdır. Qəhrəmanlarınızı qarşı-qarşıya qoymağı seçdiyiniz şey danışdığınız hekayə növünə əhəmiyyətli dərəcədə təsir edəcək. Bir çox hekayələrdə birdən çox münaqişə növü var, lakin adətən əsas diqqəti çəkən yalnız bir neçəsi var:

1. Xarakter və mənlik:

Bu, daxili münaqişədir, yəni xarakterin üzləşdiyi müxalifət daxildən gəlir. Bu, nəyin əxlaqi və ya düzgün seçim olduğunu ayırd etmək üçün mübarizəni əhatə edə bilər və ya psixi sağlamlıq mübarizələrini də əhatə edə bilər. Bütün digər münaqişə növləri isə xarici xarakter daşıyır, yəni xarakterin münaqişəni yaradan kənar qüvvə ilə qarşılaşması.

2. Xarakter və xarakter:

Bu, bir xarakterin ehtiyacları və ya arzularının digərininki ilə ziddiyyət təşkil etdiyi ümumi münaqişə növüdür. Xarakterlərin toqquşması sadə bir yumruq döyüşü kimi və ya "Game of Thrones"-də davam edən güc mübarizəsi kimi mürəkkəb və nüanslı şəkildə təsvir edilə bilər.

3. Xarakter və təbiət:

Təbiət konfliktində təbiət zidd bir xarakter müəyyən edilir ki, bu da hava, səhra və ya təbii fəlakət ola bilər. Məsələn, Ernest Heminqueyin "Qoca və dəniz" filminin baş qəhrəmanı Santyaqo aylarla davam edən bədbəxtlikdən sonra nəhayət, balığı "qucaqlamağı" bacarır. O, qiymətli ovunu oğurlamağa çalışan köpək balıqlarının qarşısını alır, lakin sonda o, Santyaqonu yalnız bir cəsədlə tərk edir. İnsan-təbiət qarşıdurmasının mahiyyəti budur: insan insan hissləri ilə mübarizə aparır, təbiət isə amansızcasına irəliləyir.

4. Xarakter fövqəltəbiiliyə qarşı:

Xəyallar, tanrılar və ya fövqəltəbii gücə malik personajlarla qarşılaşmaq qeyri-bərabər oyun sahəsi yaradır və münaqişə risklərini artırır. Fövqəltəbii güclərlə konfliktə girən qəhrəmanlar sırasına Odissey kimi personajlar da daxildir.

5. Xarakter və texnologiya:

Bu vəziyyətdə bir xarakter bir növ texnologiya ilə ziddiyyət təşkil edir. Amerika xalq qəhrəmanı Con Henrinin hekayəsinə nəzər salaq. Amerika folklorunda Henri dəmir yolunda polad sürücüsü işləyən keçmiş qul idi. O, yeni texnologiya üzərində üstünlüyünü sübut etmək üçün buxarla işləyən qaya qazma ilə yarışdı, qalib gəldi, amma o, yarışı qazandıqdan sonra infarkt keçirib.

6. Xarakter cəmiyyətə qarşı:

Xarakter və cəmiyyət münaqişəsi kinoda qəhrəmanın cəmiyyət, hökumət və mədəni ənənə və ya bir növ sosial norma ilə üzləşdiyi zaman yaranan xarici münaqişədir. Xarakter

yaşamaq ehtiyacı, doğru və yanlışın əxlaqi hissi, xoşbəxtlik, azadlıq, ədalət və ya sevgi arzusu ilə aid olduğu cəmiyyətlə qarşı hərəkətə keçməyə motivasiya ola bilər.

Göründüyü kimi, bütün hekayələrdə personajların üzləşməli və aradan qaldırmalı olduğu bir münaqişə var. Bu, təkcə hekayəni inkişaf etdirmir, həm də tamaşaçılara əsas personajların hərəkətləri və motivləri haqqında fikir verir. Yaxşı fantastika yazıları gözlənilməz gərginliklər, rəqabət və hakimiyyət mübarizələri ilə dolu olacaq (8). Qeyri-bədii ssenarilər həm də hekayənin mərkəzində olan gündəlik vəziyyətlərdən və insanlardan alınan münaqişələrə əsaslanır.

## ƏDƏBİYYAT

1. Dadaşov Aydın. Dünya kinosu, örnəklər kontekstində. Şərq-Qərb, Bakı: 2016.
2. Qafarova Gülşən. Ssenari yaradıcılığının əsas istiqamətləri. Bakı: 2014. Səh 4.
3. Dünya kinosu dəyişir, çünki yalançı uğur modeli artıq insanları cəlb etmir // https://sputnik.az/20210203
4. Dadaşov Aydın. Kinoşünastlıq. Elm və Təhsil, Bakı: 2009.
5. https://barakafabrika.wordpress.com/tag/ic-catisma/
6. Lukens, Rebecca J. (2003). A Critical Handbook of Children’s Literature. Boston: Allyn and Bacon
7. Uç, Himmet (2006). Roman EleştiriTerimleri. Ankara: BizimBüroYayınevi.
8. https://tr.lightups.io/how-write-scary-story

## QƏHRƏMANIN VƏ ONUN KONFLİKTLƏRİNİN SSENARİDƏ ROLU

***Məmmədov Məcnun***

### XÜLASƏ

Bu məqalədə qəhrəmanın ssenaridə müxtəlif obrazlarda çıxışı, konfliktlərin növləri, daxili və xarici konfliktlərin məqsəd və vəzifələri, kinematoqrafiyada əhəmiyyəti araşdırılmışdır. Qəhrəmanın dəyişməsi onun məqsədə çatmasından daha vacib hədəf kimi qiymətləndirilir və qəhrəmanın xüsusiyyətləri isə hədəfə gedən yolda dəyişikliyə (katarsis) məruz qalır.

## РОЛЬ ГЕРОЯ И ЕГО КОНФЛИКТЫ В СЦЕНАРИИ

***Мамедов Меджнун***

### АННОТАЦИЯ

В данной статье рассматриваются появление героя в различных персонажах сценария, виды конфликтов, цели и задачи внутренних и внешних конфликтов, значение конфликтов в кинематографе. Преображение героя рассматривается как более важная цель, чем достижение цели, и характеристики героя претерпевают изменение (катарсис) на пути к цели.

## THE ROLE OF THE HERO AND HIS CONFLICTS IN THE SCRIPT

***Mammadov Majnun***

### SUMMARY

In this article, the appearance of the hero in various characters in the scenario, the types of conflicts, the goals and objectives of internal and external conflicts, the importance of conflicts in cinematography are examined. The transformation of the hero is seen as a more important goal than the achievement of the goal**,** and the characteristics of the hero undergo a change (catharsis) on the way to the goal.

# "İVANIN UŞAQLIĞI" FİLMİNDƏ MÖVZU PROBLEMATİKASI

***Tamurazov Emil Soin oğlu***
***ADMİU-nin II kurs magistrantı***
***emil.tamurazov@gmail.com***

***Açar sözlər*:** kino, rejissor, çəkiliş, zaman, mövzu, vaxt, meydança, ekran, aktyor.
***Ключевые слова*:** кино, режиссер, съемка, время, сюжет, время, подача, экран, актер.
***Keywords***: cinema, director, shooting, time, subject, time, pitch, screen, actor.

1962-ci ildə Andrey Tarkovski müharibə dövründən bəhs edən ilk tammetrajlı bədii filmini "İvanın uşaqlığı"nı çəkir. Filmin operatoru Vadim Yusov, bəstəkarı Vyaçeslav Ovçinnikovdur (3).

Film Vladimir Boqomolovun "İvan" hekayəsi əsasında çəkilib. Özünün "Həkk olunmuş zaman" kitabında Andrey Tarkovski qeyd edir ki, hər hekayəni ekranlaşdırmaq olmaz. Elə hekayələr var ki, onların kino ssenarisini yazarkən qarşıya bir çox problemlər çıxır.

Ancaq "İvan" hekayəsindəki hadisələr Andrey Tarkovskinin diqqətini özünə cəlb edir və o bu filmi çəkməyi qarşısına məqsəd qoyur.

Andrey Tarkovski "İvanın uşaqlığı" filminin çəkilişlərini dəniz kənarında başlayıb, sonda yenə də həmin sahildə İvanın xoşbəxt uşaqlığının təsviri ilə filmi yekunlaşdırır (4).

"İvanın uşaqlığı" filmində Nikolay Burlyayev (İvan Bondarev), Valentin Zubkov (kapitan Xolin), Yevqeniy Jarikov (baş leytenant Qalçev), Stepan Krılov (Katasonov), Nikolay Qrinko (podpolkovnik Qryaznov), Valentina Malyavina (Maşa), Vladimir Marenkov (Malışev), Dmitriy Milyütenko (axmaq qoca), İrina Tarkovskaya (İvanın anası) və başqaları çəkilmişlər (5).

"İvan" hekayəsində hadisələr balaca İvanın başına gələn əhvalatlar ətrafında cərəyan edir. Müharibənin hər üzünü görmüş bu oğlan atasını, anasını – bütün doğmalarını itirmiş, evsiz-eşiksiz, tək-tənha ortada qalmışdır. Vəziyyətdən çıxmaq üçün o, hər cür fədakarlığa getməyə hazırdır. Buna görə də o, hərbi düşərgələrdə hərbiçilərin, komandirlərin arasında özünü böyük kişi kimi apararaq, düşməndən intiqam almaq üçün əlindən gələni edir.

İvan hərbiçilərin inanıb etibar etdiyi kəşfiyyatçıdır. Lazım olanda düşmən tərəfə keçərək mühüm xəbərləri öz tərəfinə ötürür. O, ölümdən qorxmur, onun üçün həyatda vacib heç nə və heç kim yoxdur. Öz doğmalarının intiqamını alarsa, İvanın rahatlaşar, yaşamaq ona asan gələr. İvan düşmənlərə o qədər nifrət edir ki, (almanlara) onların rəssam və şairlərinin olduğuna qətiyyən inanmır. Qalçev ona Albrext Dyüreranın qravürlərini göstərərkən o, bunların alman mədəniyyətinə aid olduğuna inana bilmir.

Böyüklərin ətrafında dolaşan İvan onlardan heç də geri qalmır, əksinə öz cəsarəti, gələcəyə ümidlə baxması, hər vəziyyətdən çıxmaq məharəti ilə onların hörmətini qazanır (6).

İvan uşaq ikən düşmən tərəfindən güllələnmə əmriylə öldürülür. Onun bütün arzuları, xəyalları gerçək olsa da, o bunları görə bilmir. Qalib gəlmiş dövlət dağıdılmış yerlərdə güllələnmiş və edam edilmiş vətəndaşlarının şəkillərinə rast gələrkən İvanın da şəklini tapırlar. İvan düşmənlərin əmriylə edam edilir. Film İvanın yuxusu ilə dəniz kənarında başa çatır.

"İvanın uşaqlığı" filmi İvanın yuxuda anasıyla söhbəti zamanı başlayır. İvan təkcə yuxularında öz uşaqlığını yaşayıb, ana nəvazişi görür. Real həyatda isə o özünü12 yaşlı uşaq kimi deyil yetkin biri kimi aparır. Böyüklərin cərgəsində duraraq müharibə səngərlərində gecələyən İvan qış-yay demədən kəşfiyyatçılıq edir, onlardan heç də geri qalmadığını əməli ilə onlara isbat edir. İvanın film boyu müharibə meydanında mübarizəsi ağ-qara fonda verilib.

Filmdə 12-13 yaşlı oğlanın həyatını oynayan Nikolay Burlyayev rolu olduqca inandırıcı, təbii və səmimi ifa edirdi. N.Burlyayevin böyüklüyü ondadır ki, o, roluna o qədər aludə olaraq oynayır ki, tamaşaçı elə hesab edir ki, həqiqi müharibə səhnələrini izləyir.

Andrey Tarkovskinin N.Burlyayevi İvan rolunda çəkməsi filmin böyük uğurla nəticələnməsinə səbəb olur. Rejissor özü bu barədə qeyd edir ki: “İvanın uşaqlığı” əsərində mən prosesin özünü yox, müharibədən təsirlənən bir insanın vəziyyətini təhlil etməyə çalışmışam. Bir insan məhv edilirsə, deməli, xüsusilə uşağın psixikasına gəldikdə, məntiqi inkişafın pozulması var” (1).

Kinorejissor A.Tarkovski hələ VQİK-də təhsil alarkən gördüyü Kolya Burlyayevi İvan rolu üçün ən münasib aktyor hesab etmişdi. Filmi təhlil edərkən Andrey Tarkovski özü qeyd edir ki, çəkdiyi ekran işinin müəyyən kadrlarını özü zəif və sönük hesab edir. Buna baxmayaraq, film ekranlara buraxılır və kifayət qədər tamaşaçı diqqətini özünə cəlb edir. Bu film haqqında rejissor özü yazır: “Sənətdə daha irəli getməyin əsasını mən “İvanın uşaqlığı” filmini çəkərkən qazandığım təcrübəni təhlil etməkdə, kinematoqrafiya estetikasında (qısa bir müddətə də olsa) öz dayanıqlı mövqeyimi təsdiqləməkdə və sonrakı filmin çəkilişləri əsnasında qarşıma çıxa biləcək məsələlərə aydınlıq gətirməkdə görürəm” (2, s.25).

1962-ci ildə çəkilmiş film o zaman Venesiyada təşkil edilmiş Beynəlxalq Kino Festivalında “Qızıl şir” mükafatına layiq görülür.

Ekranda biz yalnız tünd, boz, qara rənglər görürük. Ağ qara fondan ibarət olan filmdə hadisələr meşədə, hərbi düşərgədə, boş küçələrdə cərəyan edir. Operator Vadim Yusov hadisələri bəzən iri, bəzənsə kiçik planda çəkmiş, konflikt olan kadrları daha böyük planda götürmüşdür. Filmin müxtəlif səhnələri boğanaqlı, dumanlı, kimsəsiz meşələrdə ağacların ətrafında çəkilmişdir. Bu kadrlar filmi cansıxıcı edir, tamaşaçını darıxdırırdı. Ancaq buna baxmayaraq görünür rejissor vəziyyətin gərginliyini, ağırlığını tamaşaçıya çatdırmaq üçün bu kadrları filmə əlavə etmişdir.

Filmdə baş rollardan biri də Qalçevdir (Yevqeni Jarikov). O, baş leytenantdır. İvanın başına gələnlərə ürəyi ağrısa da, özünü tox tutur. İvanın gələcəyi naminə onu uşaqlar evinə yollamağa cəhd göstərir. Ona müharibənin uşaqlara görə yer olmadığını qəzəblə söyləyir. Buna baxmayaraq, İvan onun sözünə qulaq asmır və yolda qaçıb gizlənir. Qalçev – Yevqeni Jarikov qəzəblidir, əsəbdən film boyu sağa-sola dönüb-dolaşır. Vəziyyətin gərginliyi onu hər addımda narahat edir. İvanın başına gələnlər – müharibə olan bütün dövlətlərin uşaqlarına şamil edilir. Müharibə hamıda eyni təsiri oyadır.

Filmdə baş rollardan biri də kapitan Xolindir. O, özünü soyuqqanlı, ciddi tutmağa çalışsa da baş verənlər onu da digər yoldaşları kimi darıxdırır. Xolin – Valentin Zubkov filmin əvvəlindən sonunadək özünü soyuqqanlı və tox tutmağa çalışır. Balaca İvanın cəsarəti onda heyrət doğurur. O, belə hesab edir ki, müharibə uşaqlar üçün deyil. Ancaq İvan ona qarşı çıxaraq, onlardan heç də geri qalmadığını sübut etməyə çalışır (7).

Xolin tibb bacısı Maşaya aşiq olur. O, Maşayla görüşərkən qıza olduqca səmimi, təbii, saf hisslər yaxınlaşır. Meşə boyu bir-birlərinə yaxınlaşmaqdan çəkinən, ürkək hisslərlə bir-birlərinə baxan gənclər qovuşa bilmirlər. Müharibənin insanları sevdiklərindən necə ayırması bu səhnələr vasitəsilə tamaşaçılara çatdırılır.

Filmdə yeganə qadın rolu Maşadır. Təbii ki, filmdə İvanın anasını oynayan İrina Tarkovskaya da rast gəlirik. Sadəcə, İvanın anası iki dəfə - filmin əvvəlində və sonunda ekranda görünür. Maşa isə filmdə bir neçə kadrda yer alır. Maşa tibb bacısıdır. Müharibə məntəqələrində xəstə hərbiçilərə xidmət edir. Maşa çox çəkingən, sakit təbiətli, tərbiyəli, mədəni, ürkək qızdır. Müharibə onun yeri deyil. Müharibədə kapitan Xolinə aşiq olan Maşa öz sevdiyinə qovuşa bilmir. Müharibə insanları sevdiklərindən həmişə ayrı salıb (8).

“İvanın uşaqlığı” filmində rejissor A.Tarkovski müharibə zamanı insanların hər şeydən məhrum olduqlarını bütün təfərrüatı ilə tamaşaçılara çatdırmağa çalışmışdır. Bu film müharibə mövzusunda çəkilmiş ən uğurlu ekran işlərindən biridir. Filmdə sadəcə müharibənin arxa fonu təsvir edilir. Buna baxmayaraq biz müharibə zamanı insanların başlarına gələn faciələri bütün təfərrüatı ilə izləmiş oluruq.

## ƏDƏBİYYAT


1. Тарковский А. «Жизнь рождается из дистармонии»: беседу вел Николай Гибу//Киноведческие записки. – 2001. №50
2. Tarkovski A. Həkk olunmuş zaman. Mono Non-Fikşn, Bakı: 2022
3. Adil Mirseyid. Andrey Tarkovski – kinonun şairi. Manera az.
4. Məlik Rzan "İvanın uşaqlığı". 22 fevral 2020, Kulis az.
5. Tarkovski A. Həkk olunmuş zaman. Mono Non-Fikşn, Bakı: 2022.
6. Тарковский. А. Ностальгия [Архивы и документы; воспоминания и статьи] / Сост. Волкова П. Д. — М.: АСТ; Хранитель, 2008. — 528 с. ISBN 978-5-17-051170-9, ISBN 978-5-9762-6661-2, ISBN 978-5-94663-584-4.
7. Тарковский А. «Жизнь рождается из дистармонии»: беседу вел Николай Гибу//Киноведческие записки. – 2001. №50.
8. Туровская М. И. 7 с ½, или Фильмы Андрея Тарковского. — М.: Искусство, 1991. — 256 с. ISBN 5-210-00279-9.


## "İVANIN UŞAQLIĞI" FİLMİNDƏ MÖVZU PROBLEMATİKASI

***Emil Tamurazov***

### XÜLASƏ

A.Tarkovski Vladimir Boqomolovun "İvan" hekayəsi əsasında 1962-ci ildə çəkdiyi "İvanın uşaqlığı" filminin süjet xətti, rejissor üslubu, aktyor oyunu geniş və hərtərəfli şəkildə təhlil edilir. Müharibə mövzusuna həsr edilmiş, "İvanın uşaqlığı" filmində 13 yaşlı İvanın başına gələn hadisələr öz əksini tapmışdır. İvan müharibənin hər çətinliyini görmüş uşaqdır və o, yaşadığı çətinliklərdən öz gücünə çıxmağa çalışır. Məqalədə bu məqamlara elmi yanaşma irəli sürülmüşdür.

## ПРОБЛЕМАТИКА ТЕМЫ В ФИЛЬМЕ «ИВАНОВО ДЕТСТВО»

***Эмиль Тамуразов***

### АННОТАЦИЯ

На основе повести «Иван» А. Тарковского, фильма «Иваново детство» 1962 года широко и всесторонне анализируются сюжетная линия, режиссерский стиль, актерская игра. Фильм «Иваново детство» посвящен теме войны, и в фильме отражены события, произошедшие с 13-летним Иваном. Иван – ребенок, повидавший все тяготы войны и пытающийся выйти из тягот самостоятельно. В статье представлен научный подход к этим вопросам.

## THEMATIC ISSUES IN THE FILM "IVAN'S CHILDHOOD"

***Emil Tamurazov***

### SUMMARY

Based on the story "Ivan" by A. Tarkovsky, the film "Ivan's Childhood" made in 1962, the plot line, director's style, and acting are analyzed in a wide and comprehensive way. The film "Ivan's Childhood" is dedicated to the theme of war, and the events that happened to 13-year-old Ivan are reflected in the film. Ivan is a child who has seen all the hardships of the war and he tries to come out of the hardships on his own. The article presents a scientific approach to these points.

# AZƏRBAYCANDA MÜSTƏQİLLİK DÖVR TEATR REJİSSORLUĞU

***Məlikov Elmar Dadaş oğlu***
***ADMİU-nin "Teatr sənəti " fakültəsinin magistrantı***
***elmarmd3@gmail.com***

***Açar sözlər:*** Üslub, forma, metod, rejissura, mizan, teatr, aktyorla iş, səhnə əsəri.
***Ключевые слова:*** стиль, форма, прием, режиссура, масштаб, театр, работа с актером, выступление.
***Keywords:*** Style, form, method, direction, scale, theater, work with an actor, stage play.

Azərbaycan teatr sənətçilərinə əvvəllər Qərb teatrından daha çox, Rusiya teatrında və teatr təhsilində lider olan rejissorlar və pedaqoqlar öz təsirini göstərdi. Bir çox sənətkərlar – Adil İskəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov, Cənnət Səlimova, Ağakişi Kazımov, Mərahim Fərzəlibəyov həmin ölkənin müxtəlif təhsil müəssələrində təhsil aldığından, onlar həmin təhsil sayəsində Avropa teatr sənəti barədə məlumatlar toplayıblar. Amma illər keçdikcə, bu məlumat birbaşa oldu. Belə ki, əlaqələrin köməyi ilə sənətçilər müəyyən kurs və laboratoriyalarda Avropa teatrında baş verən yenilikçi fikirlərlə tanış olurdular. Sənətin ən böyük dəyəri ondan ibarətdir ki, sonu görünmür. Odur ki, hər bir sənətçi yaradıcılığı dövründə həmişə öyrənir və öyrədir. Azərbaycanda da belə sənətkarlar çoxdur. Müasir dövrümüzdə, avanqard sənətə meyilli rejissorlarımızdan Azər Paşa Nemətov, Vaqif İbrahimoğlu, Hüseynağa Atakişiyev, Bəhram Osmanov yaradıcılığını nümunə göstərmək olar.

Azər Paşa Nemətov üslub dəsti-xəttində, digər aktyorları istədiyi vaxt və hətta üslubca fərqli ifaçılarla dəyişib əvəzləmək çox asandır. Çünki, A.Nemətovun qurduğu formada aktyor istədiyi improvizələri edə bilər, ancaq istəsə də, rejissorun müəyyənləşdirdiyi poetika dairəsindən kənara çıxa bilməz. Rejissorun mizan baxımından qarışıq görünən tamaşalarında da aktyorların tərəfmüqabilə münasibəti əsaslıdır, məntiqlidir, emosionaldır. A.Nemətov rejissor tamaşası qurur və həmin əsər bütün estetik göstəricilər ilə onun yaradıcılıq üslubunu aydın göstərir. O, əvvəlcədən tamaşanın qrafikasını çəkir, məşqdə onu cilalayır və aktyorları məhz həmin qrafik görümün daxilində davranmağa «məcbur» edir. Çünki, aktyor bu «məcburluqla» barışmasa, heç cür ümumi poetikaya daxil ola bilmir və rejissor fikrindən kənarda qalır.

O, pilləli, dolayı, çoxqatlı paralel mizanlarla işləyir. R.İbrahimbəyovun «Biganələr oteli», Elçinin «Mənim sevimli dəlim» tamaşalarında, rejissor səhnə hündürlüyünün üç qatında eyni anda hərəkət mizanları qurur, səhnə dərinliyində isə baş paralel mizan həll edir. Bu paralel mizanlar vəziyyətdən asılı olaraq çarpazlaşır, qarışır, hətta bəzən labirint şəkli alır ki, bu labirintdən çıxmaq çox çətin olur.

Sənətşünaslıq doktoru, professor İlham Rəhimli yazır: *«Azər Paşa Nemətovun yaradıcılığında müzkl janrı karnaval estetikası ilə meydan teatrının oyun prinsiplərinə əsaslanır. Rejissor bu janrda hazırladığı tamaşalarında kompozisiya bütövlüyünə, əsasən, improvizə ilə nail olur. Şüxluq, əlvanlıq, musiqi ilə sözün harmoniyası, əyləncə elementləri həmin tamaşaların əsasında durur. Bu baxımdan «Bumbaraş», «Necəsən, cavan oğlan?» «Yelkənlər üzərində nəğməli küləklər» tamaşalarını misal çəkmək olar ki, bu tamaşalar italyanların komediya del arte xalq tamaşaları estetikasından götürülüb»* (4. Səh.281).

Bu onu göstərir ki, görkəmli rejissor Avropa teatr rejissurasını mükəmməl bilir və yeri düşdükcə bundan sintezlə istifadə edir. Bu tamaşaların janrından asılı olaraq, öz

məxsusi ritm ahəngi var. İctimai siyasi problemli pyeslərin tamaşasında ləngərli ahəng, tapılan ritmin əsas tənzimləyicisidir. Onun tamaşalarında fəlsəfi fikir söz, hərəkət, musiqi və səhnə tərtibatının bədii həlli arasında ahəngdar tərzdə paylanır. Onun quruluşunda müasir dünya modern teatr estetikasının milli teatr düşüncəsi ilə sintezi aydın görünür.

Onun bir çox tamaşalarına çox vaxt, Avropalı tamaşaçılar üçün hazırladığı tamaşalar deyirlər. Bu bəlkə də belədir. Çünki o, öz tamaşalarında bütün komponentləri, kiçikli-böyüklü bütün ifadə vasitələrini bəstəkar dəqiqliyi ilə düzür və bununla da rejissor partiturası yaradır. Bu baxımdan bəlkə də, Azər Paşa Nemətov bəstəkar-rejissordur. Lakin, onun yaradıcılığına nəzər salarkən, hazırladığı irili-xırdalı tamaşalarını təhlil edərkən görünür ki, Azər Paşa Nemətov hazırladığı tamaşaların müəllifidir.

Rejissorluğun müstəqil sənət növü kimi konseptuallaşması prosesi, rejissor şəxsiyyətini teatr sənətinin əsas simasına çevirdiyi XX əsr Azərbaycan teatrında çalışan rejissorları daha geniş düşünməyə sövq etdi. Onlar ənənəvi Azərbaycan teatrına, Avropa teatrlarında geniş yayılmış eksperimental tamaşalar hazırlamaq ixtiyarını verdi. Bu rejissorlardan Hüseynağa Atakişiyev və Vaqif İbrahimoğlunun yaradıcılığı üzərində dayanmaq daha məqsədyönlüdür. Hər ikisi eyni yaşda olan bu rejissorlar eyni vaxt Bakıda iki yeni teatrın təməlini qoydular: Hüseynağa Atakişiyev «Azərbaycan Dövlət Gənclər teatrı»nın, Vaqif İbrahimoğlu isə «Azərbaycan Dövlət Yuğ teatrı»nın.

H.Atakişiyevin vaxtsız ölümü ilə Dövlət Gənclər Teatrı bir müddətdən sonra bağlansa da, bu teatrın iş prinsipini, repertuar siyasətini təhlil etmək maraqlıdır. Çünki, teatr 15 il fəaliyyət göstərib.

Hüseynağa Atakişiyev nəzəriyyəni sevmirdi. Aktyorla işində, nadir halda nəzəri biliklərini nümayiş etdirirdi, hər bir pyesə uyğun təyin etdiyi janr və üslubu yaxşı hiss edirdi. Təklif etdiyi sadə rejissor tapşırıqları ilə bunu həll edirdi. *«Konkret tapşırıqlar heç vaxt nəzəriyyə ilə məşğul olmağa şərait yaratmır. Məşqlərdə rejissorlar çalışırlar ki, təcrübəni nəzəriyyəyə qarışdırmasınlar»* (2. Səh.119)

O da, məhz bu cür işləyirdi və əbəs deyil ki, 15 illik yaradıcılıq fəaliyyətində 99 yeni tamaşaya quruluş vermişdi. Düzdür, bu tamaşalar o qədər də uzun ömürlü olmurdu. Amma Hüseynağa Atakişiyev yaratdığı bu kiçik Avropasayağı teatrı hər cəhdlə qoruyur, gənc aktyorlara geniş imkanlar yaradırdı. Həmin gənc aktyorların bir çoxu, hazırda sayılıb-seçilən aktyorlar, əməkdar artistlər, xalq artistləridirlər.

Başqa bir teatr yaradıcısı Vaqif İbrahimoğlu rejissurası haqqında yəqin ki, teatr tənqidi həmişə müxtəlif, mübahisəli fikirlər yürüdəcək.

1983-cü ildə Musiqili komediya teatrına baş rejissor təyin olunan V.İbrahimoğlu, bir neçə ildən sonra teatrı tərk etmək məcburiyyətində qaldı. Çünki, ənənəvi teatr onun eksperimentlərini qəbul etmədi. Nəhayət, Azərbaycan Dövlət Akademik Milli Dram teatrının nəzdində əvvəl teatr-studiya, sonra «Yuğ» Dövlət teatrı yarandı. Təbii ki, baş rejissor da Vaqif İbrahimoğlu oldu.

20 ilə yaxın bir dövr ərzində «Yuğ» teatrında onlarla tamaşalar hazırlandı. Bir neçə aktyor nəsli dəyişdi. Amma teatrın yaradıcısı olan Vaqif İbrahimoğlu dəyişməz olaraq qaldı. O, teatr üçün aktyor nəsli yetişdirərək özü də bərkidi, nəzəri şübhələrə son qoyaraq, bütöv bir forma tapmağa nail oldu. Bu forma nədən ibarət idi?

Sənətşünaslıq doktoru, professor Məryəm Əlizadə yazır: *«Vaqif İbrahimoğlu əlinə imkan düşən kimi «tamaşa»da ən namünasib yer seçməyə meyl göstərir, əsrlərlə formalaşmış aktyor-tamaşaçı münasibətlərini var gücü ilə pozmağa çalışır, dramaturji əsərdən (pyesdən) daha çox qeyri-adi mətnlərə üstünlük verir».* (1. Səh.485)

Rejissor daha çox obraz yox, insan ruhunun açılmasına üstünlük verirdi. Onun fikrincə, ənənəvi pyesdə və üslubda bu mümkün deyil. Ümumiyyətlə, bir rejissor kimi ənənəvi teatrı sevmirdi və bacardıqca belə teatrı dağıtmaq istəyirdi. Bu mənada, məşhur polşa rejissoru Yeji Qrotovski ilə onun yaradıcılıq amalı üst-üstə düşürdü. Qrotovski öz teatr laboratoriyasını dəyirmanda məskunlaşdırmışdı, Vaqif İbrahimoğlu isə Milli Dram teatrının dülgər sexində. Düzdür, bu məkanlar təmir olunsa da ənənəvi teatr yox, teatrın bir küncünü xatırladırdı. Onların hər ikisi, əvvəl öz teatrlarını «mistik» adlandıraraq, dini əsatirlər hazırladılar, sonra müxtəlif şairlərin bu janrda yazılmış poemalarını hazırladılar, nəsr əsərlərinə üstünlük verdilər. Sonra isə teatrlarını teatr-laboratoriya adlandırdılar.

Bu studiya-laboratoriyada, sözün əsl mənasında, o, təcrübələr aparırdı və bu təcrübələrdən əldə olunmuş nəticələri hazırladığı tamaşa-misteriyalarda tətbiq edirdi. Nə qədər demokratik teatr qursa da, Vaqif İbrahimoğlu kifayət qədər konservator, mühafizəkar rejissor olub. O, bir tamaşada əldə etdiyi müsbət tapıntı-kəşfi növbəti tamaşada istifadə etmir, təkrarlamırdı. Onun təcrübə zamanı əldə etdiyi maraqlı kəşflərdən peyda olan aktyorlar, sonradan bu teatr-laboratoriyada müxtəlif tapşırıqları yerinə yetirir, ona köməkçi olurdular. O, isə artıq başqa, yeni üslublar, yeni tədqiqatlar barədə düşünürdü. Bu növbəti kəşfi etmək üçün, növbəti bir komanda yığmaq lazım idi. Lakin, həyatın öz qanunları var... Yeji Qrotovski Tibetdə, Vaqif İbrahimoğlu isə Bakıda həyatla vidalaşır, hər ikisi son olaraq teatr aləminə teatr yox, teatr-laboratoriya qoyub getdilər.

Bəhram Osmanov peşəkar rejissorluq sənətinə XX əsrin 80-ci illərində gəlişi ilə, hazırladığı ilk tamaşalardan uğur qazanıb. Onun, Tennesi Uilyams, Sofokl, Konstantin Simonov, Qriqori Qorin, Vasili Şukşin, Aleksey Arbuzov, Yucin O'Nil, Anton Tammsaare, Lars Nuren və b. pyesləri əsasında hazırladığı tamaşalar, Azərbaycan teatr səhnəsində, özünəməxsus yer tutmuş, rejissorun yeni forma axtarışlarında bədii matreal kimi müstəsna rol oynamışdır.

İlk teatr təhsilini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunda alan Bəhram Osmanov, Rusiya Teatr Xadimləri İttifaqının 1990-cı ildə təşkil etdiyi Beynəlxalq rejissor laboratoriyasının üzvü seçilmiş və elə həmin ildə də, görkəmli Danimarka rejissoru İnqmar Berqmanın laboratoriyasının iştirakçısı olmuşdur. Sonralar Rusiyanın xalq artistləri, professorlar Lev Dodinin, Leonid Heyfetsin, Rifkat İsrafilovun laboratoriyalarında təhsilini davam etdirərək, 2011-ci ildə Rusiya Teatr Xadimləri İttifaqının «Beynəlxalq rejissor sertifikatı»na layiq görülmüşdür.

Bəhram Osmanovun yaradıcılığında Azərbaycan müasir dramaturgiyası, Qərb dramaturgiyası ilə demək olar ki, rəqabətdədir. Əli  Əmirli və Elçin, İlqar Fəhmi və Hüseynbala Mirələm elə bil, Y.O'Nil və İbsenlə, Lars Nuren və T.Uilyamsla rəqabətə girir. Doğrudan da, bu müəlliflərin pyesləri, əsasən, B.Osmanovun tamaşalarına baxanda istər aktyor oyunu, istər musiqi və tamaşaya lazım olan başqa texniki elementlər sanki, başqa cür qəbul olunur. Bəlkə də, rejissorun meydan teatrının ənənəsini, təkcə Azərbaycan teatrına yox, bütün Qərb teatrında olmasında da görür. Buna görə, onun hazırladığı müasir Azərbaycan pyesləri əsasındakı tamaşalar, hərdən Şekspir, hərdən Molyer, hərdən Şiller, hərdən də T.Uilyams pyesləri əsasında hazırlanan tamaşalara bənzəyir. Lakin, bu belə deyil. Sadəcə olaraq, rejissor, müəlliflərdən milli mövzunu məhz yuxarıda adlarını çəkdiyimiz şəxslər kimi işləməyi tələb edir. Hərdən bu istək baş tutur. Məsələn, Əli Əmirlinin «Sevən qadın», «Ünvansız qatar», «Mesenat» və ya Elçinin «Şekspir» pyesi kimi. Bu zaman B.Osmanovun hazırladığı tamaşalar hədəfə dəyir ki, bu səhnə əsərlərinin taleyi uğurlu olur, illərlə teatrın repertuarında oynanılır. Necə ki, Ə.Əmirlinin «Ha-

sarın o üzü», L.Nurenin «Müharibə» pyeslərini səhnələşdirən Osmanovun quruluş verdiyi tamaşalar, Gənc Tamaşaçılar teatrının repertuarında hələ də oynanılır.

*«Teatr bir sənət növü kimi onsuz da şərtidir. Artıq tamaşaçı da bu şərtiliyə öyrəşib. Lakin, şərtiliyin içində "canlı aktyor oyunu" adlandırılan bir təbiilik var. Rejissordan tələb odur ki, aktyora səhnədə aktyorluq etmək yox, fərdi keyfiyyətlərini üzə çıxarıb canlı insan olmağı öyrətsin.»* (3. Səh.4)

*«Rejissor aktyorda ölməlidir!»* - bu kəlam K.S.Stanislavskinin kəlamı olsa da, sonralar C.Streller, P.Bruk, D.Donnelan və b. bu kəlamı həmişə təqdir etmiş, səhnə əsərlərində sübuta yetirmişlər. B.Osmanovun tamaşalarında da məhz aktyor oyunu əsasında tamaşanın üslubu, ali məqsədi üzə çıxır. Aktyor onun tamaşalarında bir qrup şəxs olaraq qalır. Azərbaycanın xalq artistləri S.Aslan, K.Xudaverdiyev, N.Mehdixanlı, əməkdar artistlər S.İskəndərova, T.İsmayılov, K.Hüseynov, V.Rzayeva və başqaları son illərdə ifa etdikləri ən maraqlı obrazları məhz onun tamaşalarında oynayıblar.

Bu gün B.Osmanov yeni-yeni metodları öyrənməkdə davam edir, teatr sənətinin tədrisi ilə məşğul olur. Bir sözlə həm öyrənir, həm də öyrədir.

## ƏDƏBİYYAT

1. Əlizadə M. «Rejissor haqqında paradoks». Bakı: 2013
2. Kazımov T. «Ədəbiyyat və İncəsənət». Bakı: 1953
3. Osmanov B. «Sənət. Ustad. Teatr». // "525-ci qəzet" No29, 2014
4. Rəhimli İ. «Kəsişən Paralellər». Bakı: 2004

## AZƏRBAYCANDA MÜSTƏQİLLİK DÖVR TEATR REJİSSORLUĞU

***Məlikov Elmar***

## XÜLASƏ

Azərbaycanda müstəqillik dövr teatr rejissorluğu» adlı məqalədə, A.Nemətov, H.Atakişiyev, V.İbrahimoğlu, B.Osmanov kimi müasir Azərbaycan teatr rejissorlarının avanqard yaradıcılıq meyilləri qeyd olunur. Həmçinin, bu rejissorların müraciət etdiyi müəllif və dramaturji matreal, özünəməxsus quruluş forması, rejissor üslubu, aktyorla iş prosesindən bəhs edilir. Adları sadalanan rejissorlar haqqında sənətşünaslar, teatrşünaslar da mühüm maraqlı fikirlər irəli sürmüşlər.

## ТЕАТРАЛЬНАЯ РЕЖИССУРА В ПЕРИОД НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА

***Эльмар Маликов***

## АННОТАЦИЯ

В статье «Театральная режиссура в период независимости в Азербайджане» упоминаются авангардные творческие тенденции современных азербайджанских театральных режиссёров, таких как А. Неметов, Г. Атакишиев, В. Ибрагимоглу, Б. Османов. Также обсуждаются авторский и драматургический материал, примененный этими режиссерами, уникальная форма построения, режиссерский стиль, процесс работы с актером. Искусствоведы и театральные критики выдвинули важные и интересные мысли о перечисленных режиссерах.

# THEATER DIRECTION DURING THE PERIOD OF INDEPENDENCE IN AZERBAIJAN

***Elmar Malikov***

## SUMMARY

In the article entitled "Theatre directing in the period of independence in Azerbaijan", the avant-garde creative tendencies of modern Azerbaijani theater directors such as A. Nemetov, H. Atakishiyev, V. Ibrahimoglu, B. Osmanov are noted. Also, the author and dramaturgical material applied by these directors, the unique form of structure, the director's style, and the process of working with the actor are discussed. Art critics and theater critics have put forward important and interesting ideas about the listed directors.

# URQA-MƏHƏBBƏT ƏRAZİSİ

***Məmmədov Səbuhi Rövşən oğlu***
***ADMİU, magistrantı, II kurs***

**Açar sözlər**: Rüstəm İbrahimbəyov, rejissor işi, ssenari, aktyor oyunu, qazanılmış mükafatlar.
***Key words***: Rustam Ibrahimbakov, directors work, screenplay, acting, awards.
***Ключевые слова***: Рустам Ибрагимбеков, режиссёрская работа, сценарий, актёрская игра, награды.

Dünya şöhrətli Rüstəm İbrahimbəyov Amerika ilə yanaşı həmçinin Avropanın da nüfuzlu kino festivallarının iştirakçısı və qalibi olmuşdur. Yəqin ki, bir çoxları Venesiya Film Festivalının "Qızıl Şir" mükafatına layiq görülmüş və ssenari müəllifi Rüstəm İbrahimbəyovun olduğu "Urqa - məhəbbət ərazisi" filmi haqqında çox az məlumatlıdır. Bəziləri isə yüksək sənət dəyərləri, bəzən incə yumor , bəzən də insanda çox qəribə lirik-romatik, həyat eşqi ilə zəngin hisslər oyadan bu filmi ümumiyyətlə görməyiblər.

1970-ci ildə Rüstəm İbrahimbəyovun ssenarisi əsasında Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsinin məzunu olan Nikita Mixalkov "Müharibənin sonunda sakit bir gün" adlı diplom filmini çəkir. Bundan sonra onların arasında sıx əməkdaşlıq başlayır və sonrakı illərdə kinematoqrafçılar birlikdə uğurlu filmlərin ərsəyə gəlməsinə nail olurlar. Həmin filmlərdən biri də "Urqa – məhəbbət ərazisi" idi.

Monqolustan ərazisində cərəyan edən hadisələrdən bəhs edən film Sovet-Fransa kinematoqrafçıları tərəfindən 1991-ci ildə istehsal olunmuşdur. Bu filmi bəzən Sovet dövrünün sonuncu filmi də adlandırırlar. Çox maraqlı sujet xətti olan "Urqa - məhəbbət ərazisi" filmi hardasa, Monqolustan çöllərində bir yerdə yaşayan gənc monqol çoban cütlüyündən, onların adət-ənənələrindən və yaşadıqları hadisələrdən bəhs edir. Onların yaşadığı ərazi Çinin nəzarətindədir və çinlilərin doğum nisbətini məhdudlaşdıran hökumət, etnik monqollara üçdən çox olmayaraq uşaq sahibiliyinə icazə verib. Qombo (Bayartou) və Paqmanın (Badem) artıq kiçik bir qızı və oğlu var və bu yaxınlarda bir körpələri də dünyaya gəlib.

Onların geniş yurdlarında o qədər də sivilizasiya dəyərləri yoxdur, lakin bu onların, uşaqlarının və onlarla birlikdə yaşayan nənələrinin hər gün xoşbəxt və sevincli olmalarına mane olmur. Onlar səhərdən axşama kimi işləyirlər: kişilər öküzlərə, qoyunlara, atlara baxır, qadınlar evdəki təsərüffatla məşğul olurlar.

Rusiyadan Çinə işləməyə gələn yük maşını sürücüsü Sergey (Vladimir Qostyuxin) bir gün öz yük maşını ilə bu ərazidən keçir. O, sükan arxasında yuxuya gedərək maşını gölə sürür. Xoşbəxtlikdən Qombo vaxtında köməyə gəlir və sürücünü kabinədən çıxarır. Monqollar yad adamın nə dediyini anlamasalar da, onu sevinclə qəbul edirlər. Şərq qonaqpərvərlik adətinə görə qonağa süfrə açılır, təzə quzu əti verilir. Səhər Sergey yola düşür. Onunla birlikdə Paqma da ərini şəhərə göndərir. Ona vacib bir tapşırıq verilir: arzuolunmaz hamiləlikdən qorunmaq üçün qoruyucu almaq. Şəhərə çatan Sergey çox narahat bir yataqxanaya yerləşir, Qomba isə alış-verişə gedir, qoruyucu əvəzinə televizor, papaq və velosiped alır.

Müəllif lətifəyə bənzəyən bu sujet xəttindən ən yüksək standartlara malik, xeyirxahlıq, insanlıq və mərhəmətlə doymuş incəsənət əsərini yaratmağa müvəffəq oldu. Film tolerantlıq anlayışı təbliğ etməklə yanaşı milli xarakter, genetik yaddaş, bütün sınaqlarda dəyişməz olan insani dəyərlərdən bəhs edir.

Yüksək peşəkarlıq və müşahidənin təsiri, heyrətamiz duyma və görmə qabiliyyəti, rejissor və ssenaristin bir-birini tam anlaması filmin uğurunu təmin etmişdir. Bu uğurun qazanılmasında aktyorların peşəkar oyunu da həlledici olmuşdur.

"Urqa - məhəbbət ərazisi" filmi haqqında bir çox maraqlı faktlar mövcuddur. Filmdə Monqol adət ənənələri də özünəməxsus yer almışdır. Məsələn, köçəri monqolların ənənəvi sevgi ritualı. Gələcək ata-ananın bir-birinə yaxınlaşması bütün qohumların bir yerdə yaşadığı yurtun içində, alaçıqda deyil, çöldə, açıq havada baş verir. Qadın çölboyu qaçır, kişi də dalınca qaçıb ona çatır və sevgilisi yaxınlığa razılıq verirsə, "urqanı" - kəməndli dirəyi həmin yerdə torpağa batırır. Adətən, çobanlar urqadan otlaqda olan heyvanları tutmaq üçün istifadə edirlər. Əgər urqa yerə batırılıbsa, bu, yoldan keçənlər üçün xüsusi işarədir, yəni urqa sahiblərini narahat etmək olmaz. Dirək götürülməyincə, kənar şəxsin məhəbbət ərazisinə daxil olması qadağandır.

Filmin Monqolustanda çəkilməsini İtaliya telekanallarından biri sifariş etsə də, layihənin gerçəkləşdirilməsini fransız kino şirkəti və prodüser Mişel Seydu təmin etdi. Fransızlar filmin səsinin redaktə edilməsinə və yenidən yazılmasına da cavabdeh idilər.

Ssenarinin ilkin variantı cəmi 12 səhifədən ibarət idi. R.İbrahimbəyov əvvəlcədən yalnız süjet konturunu qeyd etmişdi: qoruyucu ilə olan xətt, natura çəkilişləri və Çingiz xanın yuxusu. Ətraflı ssenari isə iş prosesində, çəkiliş meydanında tədricən yaranmışdı.

Çəkiliş ekspedisiyası Çinin ərazisində Daxili Monqolustanda yerləşən Hulun Buir Aimaq ərazisində üç ay davam etdi.

Film eyni vaxtda paralel olaraq üç dildə çəkilirdi: monqol, rus və Çinin mandarin dialektində. Pərdə arxasında rus dilində olmayan bütün replikaları filmin rejissoru Nikita Mixalkov səsləndirib. Qomba və onun arvadı Paqma rolunu oynayan aktyorlar peşəkar deyildilər, onlar həvəskar aktyorlar idi. Çəkiliş meydançasında yeganə peşəkar aktyor daha əvvəllər İbrahimbəyovla Mixalkovun birgə filmi olan "Avtostop"da baş rolda oynayan Vladimir Qostyuxin idi. "Urqa - məhəbbət ərazisi" filmini çəkən ukraynalı operator Vilen Kalyuta 85 min metr uzunluğunda 35 mm-lik plyonkadan istifadə edib.

Əvvəlcə film əfsanəvi valsın şərəfinə "Mançuriya təpələrində" adlanırdı. "Urqa" adını İtaliya tərəfi təklif etmişdi. "Urqa - məhəbbət ərazisi" filminin dünya premyerası 25 sentyabr 1991-ci ildə Parisdə baş tutub.

"Urqa: Məhəbbət ərazisi" filmi Rusiyadan "Oskar" mükafatına ilk namizədlərdən biri olmuşdur. Film Venesiya Film Festivalının "Qızıl Şir", "Nika" və Avropa Kino Akademiyasının mükafatlarını alıb. Film Rusiyanın Dövlət Mükafatına da layiq görülüb.

## ƏDƏBİYYAT

1.Kinopoisk.ru saytı
2. "Urqa məhəbbət ərazisi" filmi

## URQA-MƏHƏBBƏT ƏRAZİSİ

*Məmmədov Səbuhi*

## XÜLASƏ

Məqalə məhşur kinorejissor, kinodramaturq Rüstəm İbrahimbəyovun ssenarisi əsasında çəkilmiş "Urqa - məhəbbət ərazisi" filmindən bəhs edir. Filmin ərsəyə gəlməsi , Rüstəm İbrahimbəyovla Nikita Mixalkovun müştərək fəaliyyəti , filmin məzmunu , film haqqında maraqlı faktlar məqalədə yer almışdır. Bundan əlavə filmin mövzusuna yaradıcı heyətin müasir yanaşmasının nə dərəcədə uğurlu olması da analiz edilir.

## URGA - THE TERRITORY OF LOVE

***Mammadov Sabuhi***

## SUMMARY

The article about the film “Urga love territory”, which was written by the famous dramaturg and film director Rustam Ibrahimbakov. The creation of the film, Rustam İbrahimbeyov and Nikita Mikhalkovs joint activity , the content of the film, and other intersting facts about the film are icluded in this article. İn addition the article analyzes the creative teams approach to the films theme.

## УРГА - ТЕРРИТОРИЯ ЛЮБВИ

***Мамедов Сабухи***

## АННОТАЦИЯ

Аналитическая статья посвящена фильму "Урга - территория любви", сценарий которую написал известный драматург и кинорежиссер Рустам Ибрагимбеков. Создание фильма, совместная деятельность Рустама Ибрагимбекова и Никиты Михалкова. Идея создании фильма, оригинальный сюжет и повествование и другие интересные факты о фильме отражены в этой статье. Кроме того, в статье анализируется подход творческих команд к теме фильмов.

# MÜNDƏRİCAT

## FƏLSƏFƏ

***Aldostov Güloğlan.*** Birinci elmi inqilab və klassik təbiətşunaslığın yaranması ........... 3
***Əliyeva Fidan.*** Rasionallıq və qeyri-rasionallıq ............................................................ 6
***Suvarova Səmra.*** Ziya Gökalpın din anlayışı ................................................................ 11

## SOSİOLOGİYA

***Məmmədov Abdulla.*** Keyfiyyət tədqiqatlarinda müsahibə metodu ............................. 16
***Heydərli Heydər.*** Multikulturalizmin yüksəlişi və tənəzzülü ....................................... 22
***Şirinli Xədicə.*** "Asudə vaxtini kitab oxuyaraq dəyərləndirən gənclərin üstünlük verdiyi kateqoriyalar" tədqiqat mövzusunda pilot araşdırma........................................ 27
***Hüseynzadə Aysun.*** Gender bərabərliyi və sahibkarlıq ................................................ 32
***Qurbanova Fidan.*** Qələbəyə aparan yolda Azərbaycanın genişmiqyaslı Qarabağ siyasəti ........................................................................................................................ 38

## SOSİAL İŞ

***Salmanova Səlmi.*** Evsiz və baxımsız uşaq və yeniyetmələrlə sosial işdə ABŞ təcrübəsi ..................................................................................................................... 42
***İsgəndərli Aytac.*** Sosial təhlükəsizliyin konseptual və praktik əsasları ........................ 48
***Rəhimli Nigar.*** Ahıllıq və onun sosial-psixoloji problemləri ....................................... 54
***Bəndalıyev Bəndalı.*** "Əlillik" anlayışına nəzəri yanaşmalar........................................ 60
***Alışanlı Cəmilə.*** Dünyada və Azərbaycanda QİÇS ...................................................... 65
***Kərimova Gülcənnət.*** Məişət zorakılığı probleminin həllində sosial işçinin rolu ......... 69
***Qasımova Zeynəb.*** Narkotik maddə asılılğının qarşısını almaq üçün model və proqramların beynəlxalq təcrübəsi ................................................................................ 75
***Qəhrəmanova Əsli.*** Pandemiyanın ailəyə təsiri.......................................................... 83

## PSİXOLOGİYA

***Məmmədova Nahidə.*** Yeniyetmələrin peşə seçimini təyin etməsinə psixoloji və pedaqoji dəstək metodlarinin və diaqnostikasinin təhlili ............................................... 88
***Gözəlova Səma.*** Xərçəng xəstələrinin psixoloji xüsusiyyətlərinin xəstəliyin növündən və inkişaf mərhələsindən asılı olaraq dəyişməsi............................................ 93
***Məhili Əli.*** "Çətin" yeniyetmələrin psixoloji və pedaqoji xüsusiyyətləri ...................... 99
***Байрамова Нармина.*** Влияние статусного положения младших школьников в группе сверстников на формирование их самооценки ......................................... 104
***Babaşzadə Könül.*** Yeniyetmələrdə davranış pozuntusu................................................ 107
***Эюбова Мехрибан, Гусейнзаде Шовкет.*** Роль личности педагога в учебной деятельности учащихся.............................................................................................. 112
***Пашаева Сафура.*** Методы психокоррекции осужденных ........................................ 115
***Эюбова Мехрибан, Агабалаева Гамида.*** Влияние внутрисемейных отношений на формирование личности дошкольника ......................................................... 121
***Əhmədova Eminə.*** Məktəbdə pozitiv mühitin yaradılması və inkişafında rəhbərlərin rolu ........................................................................................................ 124
***Aydoğan Orhan Oğulcan.*** Obsessiv kompulsiv pozuntunun genetikası....................... 128

***Rəsulova Aysun.*** Deviant davranışlı yeniyetmələrin məktəb mühitində ünsiyyət və münasibətlərinin psixoloji təhlili ........ 135

## POLİTOLOGİYA, İQTİSADİYYAT VƏ İDARƏETMƏ

***Həsənova Pəri, Quliyeva Nurlana.*** Investisiya layihələrinin qiymətləndirilməsinin müasir metodoloji alətləri ........ 140
***Mürsəlzadə Mürsəl.*** Kiberhücumların aşkarlanması üsullarının öyrənilməsi ........ 145
***Ələkbərov Tural.*** Demoqrafik siyasət siyasi təhlilin başlıca tədqiqat obyekti kimi ........ 149
***Şərifova Aytən.*** Azərbaycanın xarici iqtisadi fəaliyyətində valyuta nəzarətinin inkişaf perspektivləri ........ 156
***Əliyev Əli.*** Türkiyənin xarici siyasətinin formalaşmasında atatürkçülük ideologiyasının rolu ........ 162
***Quliyeva Dilarə.*** Kiber riskləri minimuma endirmək və bu vasitələrin təkmilləşdirilməsi ........ 168
***Aslanov Habil, Rüstəmova Ülviyyə.*** Xarici iqtisadi əlaqələrdə gömrük tənzimlənməsi ........ 172
***Ziyalı Leyla.*** Azərbaycan Respublikasının təhlükəsizlik strategiyasi ........ 177
***Həsənova Pəri, Mirzəyev Məhəmməd.*** Xarici ticarət əlaqələrinin tənzimlənməsi üzrə dünya təcrübəsi ........ 181
***Zeynallı Ayan.*** Gender məsələsinə elmi-nəzəri yanaşmalar ........ 187
***Şükürov Ataxan.*** Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyi və iqtisadi mənafeyinin qorunmasında gömrük-tarif siyasətinin rolu ........ 193
***Ələddinov Zahir.*** Siyasi modernləşmənin formaları və inkişafı ........ 198

## FİLOLOGİYA VƏ İNCƏSƏNƏT

***Məmmədov Məcnun.*** Qəhrəmanın və onun konfliktlərinin ssenaridə rolu ........ 202
***Tamurazov Emil.*** "Ivanın uşaqlığı" filmində mövzu problematikası ........ 205
***Məlikov Elmar.*** Azərbaycanda müstəqillik dövr teatr rejissorluğu ........ 208
***Məmmədov Səbuhi.*** Urqa-məhəbbət ərazisi ........ 213

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 32

**(II hissə)**

Təsisçi: fəlsəfə elmləri doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı – **Vüsalə Kərəm qızı Musayeva**

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Həmidə Bağırova

---

Yığılmağa verilmişdir: 05.04.2023
Çapa imzalanmışdır: 28.04.2023
Format: 60 ×84 1/8
Şərti çap vərəqi – 27,25
Sifariş № 78
Tiraj – 100 nüsxə

"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850 98 69

